

Abuzər Xələfov

# KİTABXANA VƏ CƏMİYYƏT

Bakı – 2011

**Elmi redaktor:** **Lətifə Məmmədova**
**Redaktor:** **Knyaz Aslan**

**Rəyçilər:** **E.Y.Əhmədov**
**M.Ə.Məmmədov**

Xələfov Abuzər Alı oğlu.
X.49 Kitabxana və cəmiyyət. Monoqrafiya. Bakı: "Azərnəşr", 2011, 348 s.

*Ömrünü Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı və formalaşmasına həsr etmiş Əməkdar elm xadimi, professor A.Xələfovun bu monoqrafiyası çox böyük aktuallıq kəsb edir. Kitabda cəmiyyət və kitabxana, cəmiyyət və mədəniyyət, kitab və mədəniyyət, dünya kitabxanalarının Şumerdən zəmanəmizə qədər keçdiyi inkişaf yolu, kitabxana və kommunikasiya, kitabxana və şəxsiyyət, kitabxana və uşaq dünyası, informasiya cəmiyyəti və kitabxana və s. bu kimi məsələlər geniş şərh olunmuşdur.*

*Kitabda müasir dövrdə mühüm əhəmiyyətə malik olan kitabxana-informasiya xidməti prosesində İnternetin kitabxana işinə tətbiqi məsələsinə də geniş yer verilmişdir.*

*Monoqrafiya mədəniyyət və kitabxana mütəxəssisləri, müəllimlər, magistrlər, tələbələr, ümumiyyətlə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**0503020907**
**M-651(07) 2011**

**© "Azərnəşr" 2011**

***Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də, kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.***

**Heydər Əliyev**

***Monoqrafiya***
***Azərbaycan Respublikasının***
***20 illik***
***yubileyinə***
***həsr olunmuşdur.***



# ÖN SÖZ

Görkəmli Azərbaycan alimi, yarım əsrdən artıq Azərbaycan kitabxanaşünaslığının beşiyi başında durmuş, milli kitabxanaşünaslığın elmi əsasını qoymuş, ali kitabxanaçılıq təhsilinin formalaşmasında və inkişafında böyük xidmətləri olmuş, ilk müstəqil kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun "Kitabxana və cəmiyyət" adlı əsəri respublikamızda kitabxanaşünaslıq elminə dəyərli töhfədir Bu qiymətli elmi-tədqiqat əsərində müasir informasiya cəmiyyəti şəraitində cəmiyyətin inkişafının əsas elmi mərkəzlərindən biri kimi kitabxanaların əhaliyə nümunəvi kitabxana-informasiya xidmətinin məqsəd və vəzifələri elmi cəhətdən əsaslandırılmış, kitabxana işinin əsas inkişaf istiqamətləri təhlil edilmişdir.

Prof. A.Xələfov yüksək səviyyəli alim, səriştəli pedaqoq-müəllim, təcrübəli rəhbər işçi, fəal ictimai xadimdir Onun səmərəli elmi-tədqiqat fəaliyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə geniş şöhrət qazanmışdır. Ölkəmizdə mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər prof. Abuzər Xələfovun elmi araşdırmalarının özəyini təşkil edir. Alimin bütövlükdə milli mədəniyyətşünaslıq və kitabxanaşünaslıq elmi, eləcə də kitabxanaçılıq təcrübəsi üçün mühüm əhəmiyyət kəsb edən sanballı əsərləri məhz həmin uğurlu elmi tədqiqatların parlaq nəticələridir.

Tədris prosesinin mahir bilicisi kimi tanınan prof. A.Xələfov Azərbaycan Respublikasında ali təhsil sisteminin yenidən qurulması və optimallaşdırılması ilə bağlı mühüm məsələlərin həllində yaxından iştirak edir və bu sahəyə öz sanballı töhfəsini verir. Alim "Kitabxanaçılıq informatikası", "Kitabxanaçılıq pedaqogikası", "Kitabxanaçılıq

psixologiyası", "Kitabxana iqtisadiyyatı", "Kitabxanaçı peşəsi" kimi kitabxanaşünaslıq sahələrinin formalaşmasına, kitabxanaşünas-informasioloq kadrların hazırlığının ixtisaslaşdırılmasına, geniş profilli kitabxana işçilərinin hazırlanmasına dair perspektivli ideya və təkliflər vermişdir. O, Bakı Dövlət Universitetində kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və informatika üzrə bakalavr və magistr təhsilinin təşkilatçısı, bu istiqamətlərdə ixtisas fənlərinə dair tədris plan və proqramlarının əsas müəllifidir.

Prof. A.Xələfovun fundamental tədqiqatlarında müstəqil Azərbaycanda kitabxana-informasiya fəaliyyətinin strateji istiqamətləri, kitabxana işinin informasiya cəmiyyətinin vəzifələrinə uyğun şəkildə yeniləşməsi, kitabxanaşünas-biblioqraf peşəsinin yeni keyfiyyətləri və s. kimi aktual məsələlər ətraflı şərh edilmişdir.

Prof. A.Xələfovun "Kitabxana və cəmiyyət" kitabında müasir Azərbaycan cəmiyyətində gedən sosial-mədəni proseslərlə kitabxana işinin əlaqələndirilməsinə, kitabxana işinin nəzəri əsaslarının ümumiləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Müəllif zəngin elmi müddəalara söykənərək cəmiyyətdə özünü bariz şəkildə göstərən dərin mədəni inkişaf proseslərinin araşdırılması kontekstində kitabxanaların bu mühüm prosesdəki yerini, vəzifələrini və iştirakını qiymətli elmi dəlillərlə əsaslandırmışdır.

Geniş dünyabaxışına malik olan prof. A.Xələfovun elmi yaradıcılığı, onun irəli sürdüyü elmi konsepsiyalar və problemlər olduqca dərin və əhatəlidir. Bilavasitə maddiləşdirilmiş biliyə əsaslanan, əlifba ilə kitab, əlyazması ilə çap kitabı arasında hərtərəfli əlaqələrin olduğunu, kitabın bilik mənbəyi kimi qorunub saxlanmasında kitabxananın zəruri bir müəssisə kimi böyük əhəmiyyət kəsb etdiyini mühüm amil hesab edən müəllif kitabxanaların yaradılması və inkişafını cəmiyyətin əsas atributlarından biri kimi qiymətləndirir və dövrün misilsiz hadisəsi hesab edir.

Prof. A.Xələfov böyük uzaqgörənliklə insanın şəxsiyyət kimi formalaşmasında kitabın böyük mədəni və tərbiyəvi əhəmiyyət kəsb etdiyini, əlyazma və çap kitablarının qorunub saxlanılmasında, nəsildən-nəslə ötürülməsində, kitabların ömrünün uzadılmasında, insanların intellektual səviyyəsinin yüksəldilməsində kitabxananın böyük əhəmiyyətini qeyd edir.

Müəllif beş min illik yaşı olan kitabxanaların tarixi təcrübəsinə, ciddi elmi dəlillərə, dünyanın görkəmli alimlərinin tarixi araşdırmaları əsasında yaradılmış konsepsiyalara əsaslanaraq kitabxanaların cəmiyyətin tələbatı əsasında yaranan bir təsisat, sosial institut olduğunu və tarixi inkişafın bütün mərhələlərində cəmiyyətə xidmət etdiyini konkret faktlarla əsaslandırmış, məşhur "Cəmiyyət kitabxanaların hamisidir" *(C.X.Şira)* fikrini bir daha təsdiq etmişdir.

Prof. A.Xələfov cəmiyyətin inkişafında bilik mənbəyi olan kitabın böyük kommunikativ əhəmiyyətini, müasir dünyada onun böyük əlaqələndirici rolunu, şəxsiyyətin formalaşmasında, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəldilməsində əhəmiyyətini, bilik kapitalının insan kapitalına çevrilməsindəki xidmətlərini yüksək qiymətləndirərək, kitabın hələ bundan sonra da neçə-neçə gələcək nəsillərə öz bilik karvanını daşıyacağını qeyd etmiş və bu karvanın yolçusu olan hər bir şərəfli insana uğurlu yol arzulamışdır.

Bütün ömrünü, şüurlu həyatını kitabxana işinə, onun tərəqqi və inkişafına həsr edən bu böyük kitabxanaşünas alim kitabxanaların cəmiyyətin normal inkişafını təmin edən mexanizmin ayrılmaz tərkib hissəsi olduğunu öz tədqiqatlarında əsaslandırmış, bu mexanizmin hərəkətə gətirilməsində dünyanın ən qədim və şərəfli peşələrindən biri olan kitabxanaçı peşəsinin, peşəkar kitabxanaçıların xidmətini ön plana çəkmişdir.

Prof. A.Xələfovun elmi-tədqiqat fəaliyyətində humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının inkişafının araşdırılması, cəmiyyətin intellektual inkişafı prosesində, insanların mədəni-mənəvi tərbiyəsində, təhsil prosesində kitabxanaların rolunun öyrənilməsi çox böyük yer tutur. Alimin öz fundamental tədqiqatlarında kitabxanaşünaslığın humanitar elm kimi elmi-nəzəri

əsaslarının hazırlanmasına geniş yer verməsi, kitabxanaşünaslıq fəlsəfəsi elmi konsepsiyasının yaradılmasına təşəbbüs göstərməsi də böyük maraq doğurur.

Prof. A.Xələfov müstəqillik illərində özünün çoxsahəli elmi və pedaqoji fəaliyyətini Azərbaycanda hüquqi, demokratik cəmiyyət quruculuğu şəraitində siyasi plüralizmin, informasiya azadlığının, milli və ümumbəşəri dəyərlərin nəzərə alınması əsasında kitabxana xidmətinin təşkilinin metodik problemləri ilə, şəxsiyyətin və bütövlükdə cəmiyyətin intellektual və mənəvi inkişafında kitabxanaların rolu ilə sıx şəkildə bağlamışdır.

Alimin konseptual araşdırmalarında cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərin elmi şəkildə dərk edilməsi əsasında Azərbaycanda kitabxana işinin nəzəriyyə və təcrübəsinin inkişaf konsepsiyası hazırlanmışdır ki, bu da yeni cəmiyyətin reallıqlarını özündə hərtərəfli əks etdirir.

Prof. A.Xələfov müasir informasiya cəmiyyətində kitabxanaların informasiyalaşdırılmasını dövrün, zamanın hadisəsi kimi qiymətləndirməklə, kitabxanaşünaslıq və informatika elmləri arasında dərin elmi-praktiki əlaqələrin olduğunu qeyd etmiş və bu əlaqələrin dərinləşməsini, hərtərəfli inteqrasiya proseslərinin aparılmasını zəruri hesab etmişdir. Alim bu proseslərin özəyində kitabxanaların kompüterləşdirilməsinin, bütövlükdə kitabxanaların informasiyalaşdırılmasının durduğunu ön plana çəkmiş və bu prosesi haqlı olaraq kitabxana işinin gələcəyi kimi qiymətləndirmişdir.

Böyük əminliklə vurğulamaq istəyirik ki, mədəniyyət və kitabxana tarixinin araşdırılması, milli kitabxanaşünaslıq elminin inkişafı istiqamətdə mühüm elmi nəticələrə nail olmuş prof. A.Xələfovun mütəxəssislərə və geniş oxucu auditoriyasına təqdim olunan "Kitabxana və cəmiyyət" adlı növbəti sanballı əsəri Azərbaycan elmini daha da zənginləşdirəcəkdir.

**Knyaz ASLAN**





# I FƏSİL

# CƏMİYYƏT KİTABXANALARIN HAMISIDIR

## 1.1. Cəmiyyət anlayışı

Mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana və cəmiyyət problemi lap qədim dövrlərdən başlamış zəmanəmizə qədər həmişə sosial həyatın mühüm tərkib hissəsi kimi cəmiyyətin mənəvi intellektual həyatına təsir göstərən bir vasitə kimi daimi diqqət mərkəzində olmuşdur. İlk Şumer kitabxanalarından müasir milli kitabxanalara qədər kitabxanaların keçdiyi yola ötəri də olsa nəzər saldıqda, belə bir həqiqət ortaya çıxır ki, kitabxanalar cəmiyyətin yaratmış olduğu ilk təsisatlardan biri kimi həmişə bəşəriyyətin ruhi-mənəvi inkişafına kömək edən cəmiyyət qanunauyğunluqlarının formalaşmasında yaxından iştirak edən mədəniyyətin bəşər yaddaşını qoruyub saxlayan zaman keçdikcə cəmiyyətin özünün hərtərəfli inkişafına yardımçı olan bir insitut səviyyəsinə yüksəlmişdir. Göstərdiyimiz məsələlərin dərk edilməsi mədəniyyət və cəmiyyət və Kitabxana və cəmiyyət problemlərinin geniş şərh edilməsi zərurətini meydana çıxarır. Dünyanın görkəmli filosofları, sosioloqları və kulturoloqları özlərinin çoxsaylı tədqiqatlarında və araşdırmalarında bu problemləri olduqca dərindən öyrənmiş, qiymətli fikirlər irəli sürmüşlər.

Cəmiyyət, hər şeydən əvvəl, ayrı-ayrı insanların cəmidir. Konkret insan, fərd olmazsa, Cəmiyyətdə ola bilməz. Cəmiyyət – bir-birilə əlaqə quran yaşamaq üçün bir-birinə kömək edən insanlardır. Cəmiyyət ümumi məqsədi olan və bu məqsədə nail olmaq üçün biri digəri ilə əlaqə yaradan insan qruplarıdır. Cəmiyyəti təşkil edən insanlar xarakterik xüsusiyyətlərinə, baxışlarına, peşələrinə, psixoloji durumlarına və digər əlamətlərinə görə fərqli olsalarda onlar birgə yaşamağa və fəaliyyət göstərməyə məhkumdurlar. İnsan fəaliyyətinin nəticəsi kimi meydana çıxan cəmiyyət öz mövcudluğu üçün bu fəaliyyətə borcludur.

Yaşayış uğrunda mübarizə aparan insanın tələbatları müxtəlif olduğu kimi insan fəaliyyətinin motivləridə müxtəlifdir. İnsan bu tələbatları öz idealına çevirmək üçün şüurlu fəaliyyət göstərməyə çalışır. Özü özlüyündə fərd olan insanın fəaliyyəti müxtəlif sosial qrupların fəaliyyəti ilə qovuşduğundan mürəkkəb sistem yaranır. Sosioloqlar insanların bu cür birgə yaşayış və birgə fəaliyyət formasını ifadə etmək üçün cəmiyyət anlayışından istifadə etməyə başlamışlar. Cəmiyyət, hər şeydən əvvəl, müəyyən işi yerinə yetirən insanların cəmidir. Ancaq cəmiyyət insanların sadəcə, mexaniki olaraq birləşmiş cəmi deyil. Bu, olduqca mürəkkəb və müxtəlif əlaqələr sistemidir. Cəmiyyəti ayrı-ayrı fərdlərin mexaniki birləşməsi kimi başa düşmək, onlar arasında qarşılıqlı münasibətləri, formalaşmış mürəkkəb sistemləri görməmək cəmiyyətin mahiyyətini təhrif etməyə gətirib çıxarda bilir. Sosiologiyanın banisi O.Kont birinci olaraq cəmiyyətin tədqiqinə sistemli yanaşılmasını təklif etmiş, onun bütövlüyünü, xarakterini, tərkib hissələrinin qarşılıqlı əlaqələrini və qarşılıqlı təsirini qeyd etmişdir.[1] Cəmiyyəti formalaşdıran nisanların mürəkkəb və müxtəlif əlaqə və münasibətlər onu mürəkkəb bir sistemə çevirir. Bu sistemi təşkil edən ünsürlər bir-biri ilə əlaqəyə girməklə yeni sosial birliklər: ailə, etnos, xalq, millət, sinif və s. birliklər yaradırlar. Bu birliklərin hər birinində özünə məxsus cəhətləri, keyfiyyətləri olur. Yəni sistemdə olan keyfiyyətlər ayrı-ayrı fərdlərdə ola bilməz. Deməli, cəmiyyəti yalnız hansı ünsürlərdən təşkil edilməsi ilə səciyyələndirmək düzgün olmazdı. Cünki cəmiyyəti həmin ünsürlərin biri-biri ilə necə əlaqədə olması da xarakterizə edir. Ayrı-ayrı insanlar ümumi və fərdi mənafe və baxışlara, dostluq və ya rəqiblik münasibətlərinə, məqsəd birliyi və ayrılığına və s. malik ola bilərlər. Bu əlamətlər onlara müəyyən sosial birliklərə daxil olmaq milləti, sinfi, kollektivi təmsil etmək imkanı verir. Cəmiyyət həm də müxtəlif insan birliklərinin – siniflərin, millətlərin, xalqların, kollektivlərin və s. məcmusu kimi meydana çıxır.

[1] Qolenkova Z.T. və b. Ümumi sosiologiya. B., 2007, s.230





Cəmiyyətin üzvlərindən biri də ictimai əlaqə və münasibətlər sistemidir. Bu münasibətləri maddi və mənəvi münasibətlərə ayırmaq olar. Maddi münasibətlər bilavasitə istehsalla bağlı olduqlarından ictimai münasibətlər sistemində həlledici rol oynayır. Beləliklə, cəmiyyət həm də ictimai münasibətlər sistemidir.

Cəmiyyətin mövcudluğu üçün ən zəruri ünsür maddi ünsürdür. Belə ki, cəmiyyət ancaq fərdlərdən ibarət deyildir. Onun maddi ünsürləridə vardır. Məşur fransız sosioloqu E.Dürkheym deyir: "Maddi ünsürlərsiz insanın mövcudluğu mümkün olmadığı kimi, cəmiyyətin də mövcudluğu mümkün ola bilməz. Cəmiyyət dedikdə, biz eyni zamanda insanların yaşayışını və həyatını təmin edən yolları, evləri, fabrik və zavodları, dərgahları və s.-ni nəzərdə tuturuq".[1]

Söylədiklərimizi ümumiləşdirərək cəmiyyətə belə bir tərif vermək olar: "Cəmiyyət – tələbatlarını ödəmək məqsədi ilə özlərinin qarşılıqlı əlaqə və qarşılıqlı təsirlərinin tarixən təşəkkül tapmış formaları ilə birləşmiş insanların məcmusudur".[2] Dar mənada, cəmiyyət insanların tarixən müəyyən olunmuş ünsiyyət və birlik formasıdır. Məsələn dilimizdə işlədilən qədim cəmiyyət, feodal cəmiyyəti, müasir cəmiyyət, informasiya cəmiyyəti, Amerika cəmiyyəti, Azərbaycan cəmiyyəti.

Cəmiyyət tarixinin öyrənilməsi bir daha təsdiq edir ki, cəmiyyətin inkişafı təsadüfi hadisələr yığını deyil qanuna uyğun bir prosesdir. Cəmiyyətdə baş verən hadisə, proses və qanunauyğunluqlar bilavasitə insan birliklərinin fəaliyyəti onların qarşılıqlı əlaqələri və ünsiyyətləri ilə bağlıdır. Tarixi proseslər, qanunauyğunluqlar insan fəaliyyətinin nəticəsi olmaqla yanaşı insanın özü vasitəsilə təsir göstərir. Çünki, bu proseslər və qanunauyğunluqlar insanın özü vasitəsi ilə təsir göstərir insanın özünü dəyişdirir onun əxlaqına, dünya görüşünə nüfuz edir. İnsanlar öz tarixini istədikləri kimi deyil, yaşayışlarının maddi şəraitinə uyğun, ona müvafiq yaradırlar. Bu da belə bir nəticəyə

[1] İnsan və cəmiyyət. B., 1994, s. 5
[2] Osipov T. və b. Sosiologiya. M, 1995, s. 145.

gəlməyə imkan verir ki, ictimai inkişaf insanların iradəsindən asılı olmayan obyektiv qanunauyğun bir prosesdir. Zahirən bir-birinə oxşayan hadisələrin təzahürü kimi meydana çıxan bəşər tarixi daxilən bir-birindən fərqlənən istiqamətlərə, meyllərə, cəhətlərə malikdir. Bütün bunların əsasında mənafelərin toqquşması, uyğunluğu durur. Sivilizasiyaların yaranmasında, inkişafında, çiçəklənməsində və süqutunda mühüm rolu olan müharibələr, üsyanlar, inqilablar və digər proseslər cəmiyyətin maddi və mənəvi həyatında yaranan şəraitdən, cəmiyyət üzvlərinin məqsəd və mənafe ziddiyətlərindən doğur. Məsələn, qədim dünyada baş verən Spartak üsyanı, orta əsrlərin kəndli üsyanları XVIII-XX əsr Avropa inqilabları, Rusiyada baş verən üsyanlar və inqilablar, dediklərimizə sübutdur. Bu üsyanlar, inqilablar, formaca müxtəlif olsalarda, məzmun və mahiyyətinə görə bir-birinə oxşayır. Bu müxtəlifliklər və oxşarlıqlar onlardakı qanunauyğunluğun əsasını təşkil edir.

Dünya tarix elminin müxtəlif xalqlarının tarixinin araşdırılması sahəsində apardığı ümumiləşdirmələrə əsasən demək olar ki, müxtəlif xalqların tarixinin ayrı-ayrı dövrlərində mahiyyətcə bir-birinə olduqca yaxın olan eyni inkişaf pillələrini keçən ictimai tərəqqinin başlıca meyl və istiqamətinin ümumiliyində baş verən hallar tarixən obyektiv bir prosesdir.

Beləliklə, cəmiyyətin inkişaf qanunauyğunluqları daxilən ona xasdır və cəmiyyətlə birlikdə meydana gəlmişdir. Cəmiyyətin həyatı mütəmadi olaraq sürətlə dəyişdiyindən həmin cəmiyyətə xas olan qanunauyğunluqlarda sürətlə dəyişməyə məruz qalır. Çünki ictimai inkişaf qanunauyğunluqları müəyyən ictimai-iqtisadi sistemdə fəaliyyət göstərirlər. Həmçinin cəmiyyətin inkişafının bütün mərhələlərində özünü büruzə verən qanunauyğunluqlarda vardır ki, onlar da cəmiyyətin tərəqqisinin əsas istiqamətini müəyyənləşdirirlər. Belə qanunauyğunluqlara misal olaraq maddi istehsalın ictimai tərəqqinin amili olmasını və istehsal münasibətlərinin məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılılığım və s.-ni göstərə bilərik.





Cəmiyyətin inkişafına onun daha da təkmilləşməsinə təsir edən amillərdən biri də insanların birgə yaşayış tərzini zaman keçdikcə təkmilləşdirilməsi olmuşdur.

İnsanlar öz həyat tərzini yaxşılaşdırmaq, gündəlik üzləşdikləri təbiət qüvvələrinə qarşı mübarizə aparmaq, öz təhlükəsizliyini təmin etmək, vəhşi heyvanların hücumundan qorunmaq üçün birləşməyə məcbur olurlar. Belə birləşmələr nəticəsində ailələr, qəbilələr, tayfalar meydana çıxırdı. İnsanların əmək fəaliyyətiilə məşğul olması əməyin daha da təkmilləşməsinə ehtiyacın artması onların birləşməsi birgə əmək fəaliyyəti göstərilməsini zəruri edirdi. Böyük mütəfəkkir İbn Sina bu məsələdən danışarkən deyirdi: “Tənha insan lazım olan şeyləri təklikdə özü əldə edə bilməz. Onları yalnız cəmiyyət vasitəsilə əldə edə bilər”.

Zaman keçdikcə əmək prosesi daha da mürəkkəbləşir, tədricən əmək bölgüsü yaranırdı. Bu prosesin geniş vüsət alması insanların birgə əmək fəaliyyətinin daha da genişlənməsini tələb etdiyindən insanların bir-birilə daha sıx tellərlə bağlıdı. Beləliklə cəmiyyət getdikcə birlikdə fəaliyyət göstərən tam bir canlı orqanizmə çevrilidi.

İnsanları birgə yaşamağa sövq edən amillərdən biri də ünsiyyətdir. Ünsiyyətdə olmaq, biri-birilə danışmaq, öz fikir və düşüncələrini başqasına çatdırmaq insan psixilogiyasının ən mühüm vasitələrindən biridir. Ünsiyyət ehtiyacı insanları birləşməyə, kollektivçiliyə meyl göstərməyə vadar edir. Ünsiyyət, xüsusilə istehsal münasibətləri zamanı daha böyük əhəmiyyət kəsb edir. İnsanların ünsiyyətdə olan böyük mənəvi və ruhi tələbatı əlaqə vasitələrinə kommunikasiya sistemlərinin yaranmasına və təkmilləşməsinə böyük təkan verir. Cəmiyyətdə gedən inteqrasiya prosesini möhkəmləndirir. Müasir şəraitdə nəinki ayrı-ayrı fərdlər həmçinin bütöv xalqlar kommunikasiv keçinə bilməz. Beləliklə, insanlar arasında ünsiyyət olmasa mükəmməl cəmiyyətin formalaşmasından danışmağa dəyməz.

Cəmiyyət probleminin hərtərəfli öyrənilməsində cəmiyyətin mahiyyətinin daha ardıcıl açılmasına kömək edən amillərdən biri

də ictimai münasibətlər və "İctimai mühit" məsələsidir. Yuxarda söylədiklərimizdən aydın olur ki, bəşəriyyətin meydana gəlməsinin əsas şərtlərindən biri insanların birgə yaşayış və birgə fəaliyyət qaydalarının formalaşması olmuşdur. Deməli cəmiyyət meydana gəldiyi zamandan insanlar bir-birindən asılı olmuş, onlar arasında həmişə qarşılıqlı əlaqə, qarşılıqlı fəaliyyət və qarşılıqlı asılılıq formalaşmışdır. Məhz buna görə də bu asılılıq insanlar arasında əlaqə və münasibətlərin ictimai xarakter daşımasına səbəb olmuşdur. Məsələn, kəndli öz təsərrüfatında yetişdirdiyi məhsulu bazarda satır. Bu əhəmiyyət zahirən şəxsi, yəni iki tərəfli münasibətlərə bənzəyir. Əslində isə həmin münasibətlər cəmiyyətdə olan müxtəlif əlamətlər sisteminə daxil olduğundan ictimai xarakter daşıyır. Belə ki, istehsalçı kimi əmək alətlərindən istifadə edir. Bu alətlər isə başqa insanlar tərəfindən hazırlanır. Bu misalı insan fəaliyyətinin digər sahələrinə də aid etsək məsələ daha da aydınlaşar. Məsələn, zehin əmək sahəsində çalışan alimin yeni kəşfi ondan əvvəl tədqiqatlar aparan insanların əldə etdiyi bilikləri mənimsəmək sahəsində mümkün olur. Eyni zamanda bu yeni kəşf cəmiyyəti yeni biliklərlə zənginləşdirir, gələcək nəsillərin fəaliyyətində maddiləşərək ictimailəşir, ictimai xarakter daşımağa başlayır. Beləliklə, ictimai münasibətlər insanların həyat və fəaliyyəti prosesində baş verən mürəkkəb əlaqələr sistemidir. Ictimai münasibətlərin insanlar arasında yaranan əlaqələr sistemi olmasına baxmayaraq öz təbiətinə görə obyektiv hadisədir. Belə ki, insanlar ictimai əlaqələr sistemi onların fərdi arzusuna, istəyinə müvafiq yaranmır, cəmiyyətin mövcudluq şəraitindən irəli gəlir. İnsanlar öz yaşayışlarını təmin etmək üçün istehsal etməli olduqları kimi, istehsal etmək üçün bir-birilər ilə müxtəlif əlaqələrə girməyə məcburdurlar. Cəmiyyətdə yaşayan hər bir fərdin öz istəyi, arzusu və məqsəd vardır. Hər bir fərdlə öz məqsədinə nail olmaq üçün çalışır iş görür, müxtəlif vasitələrdən istifadə edir. Lakin insanların fərdi səyləri cəmiyyətdə formalaşan ictimai prosesə uyğyn gəlmir. Müxtəlif səyləri, istəkləri, arzuları birləşdirən ortaqlaşmış bir nəticə olmurki,





bu da tarixi prosesdir. Tarixi prosesin özəyini ictimai münasibətlər təşkil edir. Ictimai münasibətlər olduqca mürəkkəb quruluşa malikdir. Ictimai münasibətlərin əsasını istehsal münasibətləri təşkil edir. Inkişaf prosesində cəmiyyətdə müxtəlif ictimai münasibətlər, sosial münasibətlər, siyasi münasibətlər, hüquqi münasibətlər, əxlaqi münasibətlər, dini münasibətlər, mədəni münasibətlər və s. formalaşır. Bütün müxtəlif münasibətlərin formalaşması bilavasitə istehsal münasibətlərindən asılıdır.

Sosial münasibətlər insanların sosial birlikləri arasında və yaxud ayrı-ayrı qruplar arasında baş verən əlaqələr sistemidir. Siyasi münasibətlər hakimiyyəti ələ almaq və idarə etmək üçün insanlar və sosial qruplar arasında formalaşan münasibətlərdir.

Siyasi münaisbətlər hüquqi münasibətsiz mümkün deyildir. Hüquqi münasibətlər isə tarixi inkişaf prosesində insanların hüquq və vəzifələrinin reallaşması prosesində formalaşan hüquqi praktikanın mühüm tərkib hissəsidir.

Mədəni cəmiyyətin bütün üzvləri tərəfindən yaradılmış, icmanın və yaxud tayfanın həyat tərzi kimi formalaşmış mədəniyyət cəmiyyət üzvləri arasında mədəni münasibətlərin formalaşmasının əsas amilinə çevrilir. Mədəni münasibətlər insanın mənəvi həyatının formalaşmasına, insanın qabiliyyət və bacarığının inkişaf etdirilməsinə kömək etməklə, insan intellektinin yüksəlməsinə həlledici təsir göstərir.

Beləliklə, cəmiyyətdə baş verən münasibətləri iki yerə maddi və mənəvi münasibətlərə ayırmaq olar. 1 maddi münasibətlər. Maddi münasibətlər istehsal, bölgü, mübadilə və istehlakla bağlıdır. 2 mənəvi münasibətlər. Onlar cəmiyyətin mənəvi həyat sahələrində formalaşan münasibətlərdir.

Nəhayət, belə bir cəhəti də qeyd etmək lazımdır ki, insan fəaliyyətinin nəticəsi olan ictimai münasibətlər insana onun həyat tərzinə ciddi təsir göstərir və insanın formalaşdığı ictimai mühitin tərkib hissəsinin əsas amillərindən birinə çevrilir.

Cəmiyyətin formalaşmasında mühüm amil olan "ictimai mühit", yaxud "sosial mühit" anlayışı elmə XVIII əsrdə fransız maarifçiləri tərəfindən gətirilmişdir. İnsanın ictimai mühitin məhsulu olması ideyasınıda onlar irəli sürmüşlər. Yuxarda dediklərimizdən məlum olur ki, insanlar cəmiyyətdən kənarda mövcud ola bilməz. Hər bir konkret fərd müxtəlif adamların əhatəsində yaşayır. Bunlar ailə üzvləri, qonşular, dost-tanışlar, məktəb və iş yoldaşları və s. ola bilər.

Bundan əlavə, insanlar qeyri adi və təsadüfi haidsələrlədə əhatə olunmuşlar. Bütün bunlar cəm halında insanlara təsir edir. Məhz bu təsir dairəsi və sosial amillər insanın ictimai mühitini təşkil edir. İctimai mühit cəmiyyət kimi qəbul edilir. İctimai mühit anlayışı insanların maddi və mənəvi həyat şəraitini özündə birləşdirdiyindən mürəkkəb sosial hadisədir. Cəmiyyətə məxsus maddi və mənəvi münasibətlər, siaysi, hüquqi, ictimai-iqtisadi, mədəni təsissatlar, sosial birliklər, qruplar, birgə yaşayış formaları və prinsipləri təhsil və tərbiyə sistemi, əmək kollektivləri onun tərkib hissələridir.

Beləliklə, ictimai mühit insanların ətrafında baş verən sosial proseslərin və insana təsir göstərən xarici amillərin toplusudur. İnsanların bioloji varlığının əsasını ictimai mühit təşkil edir. İctimai mühitində əhatə dairəsinə görə iki: makro və mikro səviyyələri mövcuddur. Makroictimai mühit daha əhatəlidir. Buraya bütün ictimai-iqtisadi sistem, ictimai münasibətlər və təsisatlar, ictimai şüur və mədəniyyət daxildir.

Mikromühit isə makromühitə daxil olan bütün məsələləri deyil, daha kiçik sosial münasibətləri və mənəvi-psixoloji münasibətləri əhatə edir. İnsan ömrü boyu müxtəlif mikromühitlərin təsirinə məruz qaldığından insanın taleində mikromühüt mühüm əhəmiyyət kəsb edir. Çünki mikromühitin formalaşmasında sosial iqtisadi amillərlə yanaşı psixoloji amillərdə iştirak edir. İctimai mühitin formalaşmasında insan amilinin böyük rolu vardır. Yüksək mədəniyyətə malik olan şəxsiyyətlər ictimai mühütün formalaşmasına insanların yaşayış tərzinin əhəmiyyətli dərəcədə dəyişməsinə və yaxşılaşmasına müsbət təsir göstərə bilər.





Cəmiyyətin formalaşmasında əsas ünsürlərdən biri də cəmiyyətin strukturudur. Cəmiyyət biri-biri ilə qarşılıqlı əlaqəsi olan ünsürlər məcmusudur. Cəmiyyətin strukturunun əsasını istehsal və istehlak təşkil edir. Yaşayış uğrunda mübarizə aparan insan maddi nemətlər istehsal etmədən yaşaya bilməz. Olduqca mürəkkəb proses olan istehsal prosesi 2 hissədən ibarətdir. Birinci hissə istehsalın təşkili zamanı insanların təbiətə olan münasibətidir. Məhsuldar qüvvələr adlanır. İkinci isə insanların istehsalzamanı öz aralarında yaranan münasibətlərdir ki, bu da istehsal münasibətləri adlanır. İnsanlar yaşamaq üçün təkcə istehsalla kifayətlənə bilməzlər. Buradan da cəmiyyətin strukturunun yeni bir ünsürü istehlak meydana çıxır. Deməli, cəmiyyət istehlaksız keçinə bilməz. Beləki, istehlak olmasa, istehsal mövcud ola bilməz. İstehsalın həcmi və intensivliyi insanların tələbatından olduqca çox asılıdır.

Sosioloqlar cəmiyyətin strukturunu xarakterizə etmək üçün cəmiyyətin inkişafında olduqca mühüm əhəmiyyət kəsb edən bazis və üstqurum anlayışından istifadə edirlər.

Bazis cəmiyyətin iqtisadi quruluşudur. Bazisin əsasında isə iqtisadiyyatı yaradan və tənzimləyən istehsal münasibətləri dayanır. İnsanlar istehsalı təşkil etmək üçün zərurət qarşısında bir-birləri ilə müəyyən münasibətlərə girməli olurlar. Həmin münasibətlər istehsal münasibətləri adlanır. İstehsal münasibətləri insanlar arasında iqtisadi əlaqələrin və qarşılıqlı əməkdaşlığın bütün formalarını əhatə edir. Beləliklə, istehsal münasibətləri insanlar arasında maddi nemətlərin istehsal mübadiləsi – bölgüsü istehlak prosesində meydana çıxan münasibətlərin cəmidir. Məhz bu da cəmiyyətin iqtisadi quruluşunu, yəni bazisini təşkil edir. Cəmiyyətin strukturunda baş verən iqtisadi münasibətlər, insanlar arasında yeni əlaqə və münasibətlərin meydana gəlməsinə şərait yaradır. Əvvəldə dediyimiz kimi, meydana gələn yeni münasibətlər üstqurum adlanır. Cəmiyyətin üstqurumuna siyasi-ideoloji və mənfi əxlaqi münasibətlər daxildir. Beləliklə üstqurum cəmiyyətin siyasi, sosial və mənəvi həyatını, insanlar ara-

sında mənəviyyat sahəsində meydana gələn qarşılıqlı münasibətləri səciyyələndirir. Cəmiyyətin strukturunda özünə möhkəm yer tutan bu iki tərəfinin qarşılıqlı təsiri insanların həyatının maddi və mənəvi amillərinin inkişafında özünün hərtərəfli əksini tapır.

Cəmiyyətin maddi həyatı, hər şeydən əvvəl, maddi nemətlərin istehsalı ilə bağlıdır. Buraya həm istehsal alətləri həm də istehsal zamanı əldə edilən məhsullar daxildir. Cəmiyyətin maddi həyatına zavodlar, fabriklər, cihazlar, avadanlıqlar, yollar, binalar, muzeylər, nəqliyyat vasitələri və s. daxildir. Başqa sözlə, bizi əhatə edən, insanlar tərəfindən istehsal olunan bütün əşyalar cəmiyyətin maddi həyatının ünsürləridir. İnsanların praktik fəaliyyəti zamanı əldə edilmiş maddiləşmiş bütün əşyalar da maddi həyatın ünsürlərinə daxildir.

İnsanların mənəvi həyatını ideyalar, baxışlar, ağıl, şüur, səviyyə, iradə, hissiyyat, arzu və istəklər, maddi olmayan dəyərlər və s. təşkil edir. Mənəviyyat insanın əxlaqını formalaşdıran ruhu keyfiyyətlərdir.

Beləliklə, cəmiyyətin mənəvi həyatını cəmiyyətin strukturundan ayrılıqda düşünmək olmaz. Vahid sistem təşkil edən cəmiyyətin maddi və mənəvi həyatı biri-birilə bağlıdır, biri-birindən asılıdır. Bir qayda olaraq mənəvi amillər maddi amillərdən asılı olmaqla onların güclü təsirinə məruz qalırlar. Cəmiyyətin maddi həyatında baş verən inkişaf və tərəqqi mənəvi amillərin inkişafına səbəb olur. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə mənəvi aləm də sürətlə inkişaf edir. Müasir şəraitdə ABŞ-ın və Avropanın qabaqcıl ölkələrini buna misal göstərmək olar. Mənəvi həyatın maddiləşməsi gücləndikdə cəmiyyət həyatının bu iki ünsürü arasında əlaqələr daha da dərinləşir və qarşılıqlı asılılıq artır. Mənəvi amillərin inkişafında maddi amillər daha yaxından iştirak edir. Məsələn, elm – laboratoriya və institutlarda, təhsil – ali və orta təhsil müəssisələrində, incəsənət – tablolarda, kino –lentlərdə, müxtəlif sahələrə dair informasiyalar maqnit lentlərdə və digər informasiya texnologiyasında öz maddi əksini tapır. Beləliklə, cəmiyyətin maddi strukturunda əsaslı yer tutan maddi və mənəvi





mədəniyyətlər arasında sıx olan qarşılıqlı əlaqələr onların inkişaf qanunauyğunluqlarının formalaşmasında xüsusi əhəmiyyət kəsb edirlər. Maddi və mənəvi amillərin daxili vəhdəti cəmiyyətin bütövlüyünü, bitginliyini təmin edir. Yuxarda söylədiklərimizdən aydın oldu ki, cəmiyyətin strukturunda mühüm və həll edici amil olan maddi və mənəvi amillərin qarşılıqlı əlaqələri nəticəsində, onlar bir-birlərinin inkişafını təmin edir. Maddi amillər mənəvi amillərin inkişafına, daha da təkmilləşməsinə olduqca mühüm və həll edici təsir göstərir.

Bu təsir mənəvi amillər-mənəviyyat vasitəsilə həyata keçirilir. Mənəviyyat – cəmiyyətin, ailənin, məktəbin, elmin, kütləvi informasiya və mədəni – maarif müəssisələrinin təsiri altında hər bir insanda formalaşmış ağıl, şüur, səviyyə, iradə, arzu və istəklər, baxış və ideyalar kompleksidir.

Beləliklə, cəmiyyətin formalaşması prosesi və strukturuna diqqət yetirdikdə məlum olur ki, cəmiyyət onu təşkil edən fərdlərin, ailələrin, qəbilələrin, millətlərin, biri-bir ilə əlaqəsi və birinin digərinə köməyi nəticəsində mümükündür. Deməli, cəmiyyətin yaşaması üçün əlaqələndirici bir qüvvənin olması zəruridir. Belə bir qüvvə olmasa cəmiyyət dağıla bilər. Belə bir qüvvə vardır. Antropoloqlar məhz bu qüvvəni mədəniyyət adlandırırlar.

Mədəniyyət maddi və mənəvi amillərin vəhdəti kimi cəmiyyətin tamlığım və bitginliyini təmin edir. Bəşəriyyətin inkişafının sivilizasiya dövrünə təsadüf edən mədəniyyət cəmiyyətin təşəkkül tapması və təkamülü ilə sıx bağlıdır.

### 1.2. Cəmiyyət və mədəniyyət

Özündə ümumbəşəri sərvətləri cəmləşdirən mədəniyyət bəşər tarixinin çox erkən dövrlərində meydana gəlmişdir. Meydana gəlib formalaşdığı ilk gündən mədəniyyət sosial hadisə kimi insanların həyat və fəaliyyəti ilə sıx bağlı olmuş, insanın əli və əqli ilə yaratdığı bütün nailiyyətləri ümumiləşdirmiş, qoruyub saxlamış, nəsildən-

nəslə ötürülməsində yaxından iştirak etmişdir. Bəşəriyyət tarixində mədəniyyət haqqında olduqca çoxlu sayda müxtəlif nöqteyi nəzərlər, fikirlər və anlayışlar vardır. Dünyanın böyük mütəfəkkirlərinin, filosoflarının, alimlərinin elm və incəsənət xadimlərinin fikirləri müxtəlif olsa da bəşər mədəniyyətinə xas olan xüsusiyyətlər ümumiləşdirilərkən fikir yaxınlığı və ümumi elmi anlayış meyli meydana çıxır, fikir birliyi, vahid ideya istiqaməti formalaşır.

"Kültür" – "Mədəniyyət" anlayışı qədim Romada yaranmışdır. Bu söz-termin etimoloji cəhətdən "becərmək", torpağı əkib becərmək mənasını verirdi. Zaman keçdikcə "Kültür" daha yeni mənalar kəsb etməyə, insanların yaratdığı məhsul kimi başa düşməyə başladı. İllər keçdikcə bu istilah uzun və mürəkkəb bir yol keçərək müxtəlif çalarlar kəsb etmiş, daha da zənginləşmiş, yeni-yeni mənalarda işlənmişdir. İslam şərqində sürətlə inkişaf edib, yüksələn mədəniyyət Avropa mədəniyyətinə əhəmiyyətli təsir göstərmişdir. Şərq ölkələrində ərəb dilində işlədilən "Mədəniyyət" istilahı "kulture" istilahına nisbətən geniş məzmuna malik, çox mənalı funkisiyaların yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. İslam şərqində elmi dövrüyəyə daxil olan "Mədəniyyət" istilahı insanın bütün fiziki və əqli fəaliyyətinin bütün sahələrini əhatə edirdi. Qədim Şərqdə, həmçinin orta əsrlərdə yaranan mənəvi mədəniyyətə-elmə, bədii ədəbiyyata, incəsənətə dair əsərlərdə "Mədəniyyət" sözü insan fəaliyyətinə xas olan, onların əxlaq və savad dərəcələrini, mədəni səviyyəsini, davranışını ifadə etməklə yanaşı, onların maddi nemətlər yaratmaq, şəhər və kənd salmaq, onları idarə etmək, ticarətlə məşğul olmaq, başqa insanlarla və xalqlarla əlaqələr yaratmaq qaydalarınıda ifadə edirdi. Ən mühüm məsələ isə yaradılmış, əldə edilmiş mədəni nəaliyyətləri qoruyub saxlamaq, onları gələcək nəsillərə ötürmək kimi vəzifələr ön plana çəkilirdi. Orta əsrlərdə şərq mütəfəkkirlərinin əsərlərində insan amilinə, onun intellektual səviyyəsinə, hər şeyi bilmək, dünya hadisələrindən baş çıxarmaq məharətinə xüsusi diqqət yetirilir, bu





anlayış eyni zamanda həm maddi, həm də mənəvi sahələrə şamil edilirdi. XVIII əsr fransız maarifçilərində cəmiyyətin inkişafında insanların xoşbəxt həyatını təmin edən, onların zəkasına xüsusi diqqət yetirən amilləri ön plana çəkirdilər. Onlara görə insan zəkasının qarşısında duran əsas vəzifə onların xoşbəxt həyatını təmin edən ədalətli quruluş yaratmaqdır.

Bəşəriyyətin tarixi inkişaf prosesində yaratmış olduğu mədəniyyət istilahı həmçinin xalqların, dövlətlərin, dövrlərin, formasiyaların maddi-mənəvi tərəqqisini səciyyələndirmək üçün işlədilir. Məsələn, Avropa mədəniyyəti, antik mədəniyyət, Çin mədəniyyəti, şərq mədəniyyəti və s.

Mədəniyyət həmçinin insanların həyat və fəaliyyətinin ayrı-ayrı sahələrini ifadə etmək üçün işlədilir. Məsələn, əkinçilik mədəniyyəti, istehsalat mədəniyyəti, məişət mədəniyyəti, nitq mədəniyyəti və s.

Avropada "kultura" terminini ilk dəfə Şotlandiya filosofu Ferkuson cəmiyyətin inkişafının vəhşilikdən və barbarlıqdan sonrakı dövrünü bildirmək üçün işlətmişdir. Məlumdur ki, bu dövr mədəniyyət tarixində sivilizasiya dövrü kimi qəbul edilmişdir. Bəzən "mədəniyyət" və "svilizasiya" anlayışları sinonim kimi xarakterizə olunur. Bəs, sivilizasiya ilə mədəniyyətin fərqi nədədir? Sivilizasiya ümumilikdə götürüldükdə insan cəmiyyətinin mədəni inkişaf mərhələsini göstərirsə, mədəniyyət onun daha da inkişaf etmiş dövrünü ifadə edir. Beləliklə, mədəniyyət sivilizasiyanın daha da inkişafı və təkmilləşməsidir, onun nailiyyəti və yüksəlişidir. Əvvala, mədəniyyət böyük anlayış olub sivilizasiyanı da özündə birləşdirir. Həmçinin sivilizasiya məhfumu cəmiyyətin müəyyən bir tarixi inkişaf mərhələsini göstərir. Sivilizasiya daha tez parlayıb söndüyü halda mədəniyyət uzun ömürlü olur. Mədəniyyət sivilizasiyaya nisbətən daha geniş məhfumdur, bir neçə qolu, növü, şaxəsi olur. Məsələn siaysi mədəniyyət, məişət mədəniyyəti, nitq mədəniyyəti, davranış mədəniyyəti, kitab və kitabxana mədəniyyəti, əkinçilik mədəniyyəti və s. halbuki, nitq sivilizasiyası, davranış sivilizasiyası, və s. siviliza-

siyanı işlətmək mümkün deyildir. Bütün yuxarıda göstərdiklərimizə baxmayaraq sivilizasiya ilə mədəniyyət arasında dərin əlaqə və oxşarlıqlar və hətta eyniyyət təşkil edən tərəflərdə mövcuddur. Məhz onların bu oxşar cəhətləri və xüsiyyətləri onların birlikdə öyrənilməsini tələb edir.

Cəmiyyətin inkaşafında, onun təkmilləşməsində mühüm rol oynayan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük möcüzədir. Bəşəriyyətin zəkası, biliyi və tarixən yaradılmış təcrübəsi öz ifadəsini mədəniyyətdə tapır. Böyük Alman filosofu Hegelin dediyi kimi xalqların müdrikliyini öyrənməyin yeganə acarı mədəniyyətin əlindədir. Böyük filosofun bu qiymətli kəlamı mədəniyyətin bəşəriyyətin əsası olduğunu təsdiq edir.

İnsan cəmiyyətinin lap qədim dövrlərindən, dünyanın ən qədim xalqı olan Şumerlərdən başlamış bu günə kimi dünyanın bütün xalqları mədəniyyətin nəhəng binasını tikməyə başlamışdır. Bu nəhəng binanın hər mərtəbəsi böyük bir dövrün yadigarı kimi əsrdən-əsrə, nəsildən-nəslə ötürülmüş bəşər mədəniyyətini zənginləşdirmişdir.

Mədəniyyətin yaranması və inkişafı bəşər cəmiyyətinin təşəkkülü ilə sıx bağlı olmuş, cəmiyyətin inkişafının təməl daşıdır.

Mədəniyyət tarixinə nəzər saldıqda aydın olur ki, tarixdən əvvəl yaranıb təşəkkül tapan Qədim Şumer dövlətindən başlanan mədəni yüksəliş bütün əsrlər boyu davam etmiş, zənginləşmiş, dünyanın inkişaf etmiş xalqlarının yaratdığı mədəni yadigarlar geniş inteqrasiya prosesində vahid, bütöv bəşəri mədəniyyətə çevrilmmişdir. Bəşər mədəniyyətinin beşiyi olan şumer mədəniyyəti öz qədimliliyi, orijinallığı, rəngarəngliyi ilə fərqlənməklə dünya xalqlarının mədəniyyətinin tərəqqisi üçün bir örnək olmuşdur. Hazırda Şumer mədəniyyəti, onun xarakterik xüsusiyyətləri öz aktuallığı etibarilə dünya alimlərinin diqqətini daha çox cəlb edir. Heç də təsadüfi deyildir ki, artıq keçən əsrlərdən dünya tarixində yeni bir elm sahəsi şumerşünaslıq yaranmışdır. Dünya şumerşünasları belə hesab edirlər ki, yer üzündə tarix elminə məlum olan ən qədim xalq Şumerlərdir. İlk bəşər mədəniyyətinin yaradıcılarıdır. Onlar 10-12 min il əvvəl gil lövhəciklərdə bəşərin ilk əlofbası olan mixi əlifba ilə öz kitablarını yazıblar.

Məhşur amerikalı şumerşünas S.N.Kramer "Tarix Şumerlərdən başlanır" kitabında yazır: "İlk məktəblər", "İlk iki palatalı parlament", "İlk tarixçi", "İlk əxlaq ideyaları", "İlk atalar sözləri və məsəlləri", "Heyvanlar haqqında ilk təmsilləri", "İlk ədəbi mübahisələr", "İlk matəm nəğmələri", "İlk ədəbi əxz etmə", "Bəşəriyyətin ilk qəhramanlıq əsəri", "İlk məhəbbət nəğməsi", "İlk kitabxana kataloqu", bir sözlə, hər şeyin ilki, yeni tarixin yaranışı Şumerlərdən başlanır.

S.H.Kramerin əsərindən gətirdiyimiz bu parçadan göründüyü kimi, Şumerlərdə dünya mədəniyyətinin inkişafı çox yüksək pilləyə qalxmış, məktəblər açılmış, müəllimlər, tarixçilər yetişmiş, elmin və ədəbiyyatın müxtəlif sahələrinə dair qiymətli kitablar meydana gəlmişdir.

Şumerlərin yaratmış olduğu "Bilqamıs" dastanı məhz belə bir güclü mədəniyyətin inkişaf etdiyi elmi və bədii zəmin üzərində yaranmışdır.

Bir sözlə bəşəriyyətin ümumi mədəni inkişafında, bəşər mədəniyyətinin təşəkkül tapıb formalaşmasında Şumer xalqının özünə məxsus böyük yeri vardır. Onların yaratdığı ilkin mədəniyyət bəşər mədəniyyətinin sonrakı inkişafına o, cümlədən elmin, fəlsəfənin, ədəbiyyat və incəsənətin bir sözlə, maddi və mənəvi mədəniyyətin bütün sahələrinin inkişafına olduqca böyük təsiri olmuşdur.

Qədim Şumer mədəniyyəti ilə qədim Azərbaycan mədəniyyəti arasındakı əlaqə və yaxınlıqlar, Qədim Şumer və Azərbaycan miflərinin bir-birinə oxşaması, bu oxşarlığın Azərbaycan dinində və fəlsəfəsində özünü göstərməsi Qədim Şumer xalqını bizimlə doğmalaşdırır.

Qədim Şumer mədəniyyəti ilə yanaşı qədim Hindistanda, Çində, Avropada və Qədim Şərqdə də mədəniyyət inkişaf yolu keçmişdir.

Orta əsrlərdə və XIX-XX əsrlərdə dünyanın ayrı-ayrı xalqlarının mədəniyyətinin inkişafı və bu mədəniyyətlərin inteqrasiyası bəşər mədəniyyətinin yaranıb formalaşmasına şərait yaratmışdı.

Beləliklə, mədəniyyət-bəşəriyyətin ictimai tarixi inkişaf prosesində yaratmış olduğu maddi və mənəvi sərvətlərin məcmusudur. Mədəniyyət, həmçinin bu sərvətlərin yaradılmasında, onlardan istifadə edilməsində, qorunub saxlanmasında və gələcək nəsillərə çatdırılmasında yaxından iştirak edir. Mürəkkəb ictimai hadisə olan mədəniyyətin iki növü vardır: Maddi mədəniyyət, mənəvi mədəniyyət.

Maddi mədəniyyət cəmiyyətin maddi istehsalından texnikadan, maddi nemətlər istehsalına xidmət edən bütün vasitələrdən, tarixi abidələrdən, muzeylərdən və s. ibarətdir. Yaşayış vasitələri-binalar, paltar, memarlıq nümunələri, körpülər, kanallar, meşə zonaları, bitgi və heyvan növləridə maddi mədəniyyətə daxildir.

Mənəvi mədəniyyət isə cəmiyyətin müəyyən inkişaf pilləsində, tarixi şəraitdə meydana gəlib inkişaf edən xalq maarifindən, elmi işlərdən, fəlsəfədən, əxlaqdan, ədəbiyyat və incəsənətdən, elmi-tədqiqat institutlarından, elmi mərkəzlərdən, məktəblərdən, teatrlardan, kitabxanalardan və digər mədəni-maarif müəssisələrindən ibarətdir. Mədəniyyət insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə etdiyi, topladığı bilikləri, təcrübəni, vərdişləri habelə mənəvi sərvətləri gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. Təhsil, tərbiyə xalq maarifinin inkişafı mədəni quruculuq sahəsində görülən işlər, cəmiyyətin mədəni səviyyəsinin mühüm göstəricisidir. Mədəniyyətin yaradıcısı olan insan həmdə onun məhsulu kimi meydana çıxır. Mənəvi mədəniyyət ictimai-iqtisadi formasiyanın səciyyəvi cəhətlərini özündə ehtiva edir. Mədəniyyət problemi həmişə, bütün dövrlərdə dünyanın görkəmli alimlərinin, mütəfəkkirlərinin, filosoflarının, tarixçilərinin, ədəbiyyat və incəsənət xadimlərinin diqqət mərkəzində olmuş, geniş və hərtərəfli tədqiqat aparılmış, təxmini hesablamalara görə ona 400 artıq tərif verilmişdir. Bu təriflərə müvafiq olaraq, onların ümumiləşdirilməsi əsasında mədəniyyətə təxminidə olsa aşağıdakı kimi tərif verməк olar.





Mədəniyyət cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək, qoruyub saxlamaq və onları nəsildən-nəslə ötürmək bacarığıdır.

Mədəniyyət insanın sirli-sehirli dünyasıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur.[1]

Cəmiyyətin və insanın həyatında mühüm yer tutan mədəniyyət çox şaxəli olduqca mürəkkəb bir fenomen olduğundan sistem kimi özünü göstərir və bir çox xüsusiyyətlərə və funksiyalara malikdir. Qısa da olsa, bu funksiyalardan birini şərh edək.

1. Mədəniyyət-formaca milli, məzmunca beynəlmiləl, ümumbəşəri xarakter daşıyır. Dünyanın xalqlarının ayrı-ayrılıqda yaratdığı mədəniyyət eyni zamanda dünya mədəniyyətini zənginləşdirir. Odur ki, ümumdünya mədəniyyətini heç də bir xalqın sərvəti hesab etmək olmaz. Bu mədəniyyət ümumdünya xarakteri daşıyan bəşəriyyətə məxsusdur.

2. Mədəniyyətin insan amilinin formalaşmasında iştirakı funksiyası. Mədəniyyət cəmiyyətin tələbinə müvafiq olaraq insanların davranışını tənzimləyən mexanizmlər yaradaraq, insanın formalaşmasında yaxından iştirak edir. Mədəniyyətin mənimsənilməsi prosesində fərd şəxsiyyətə çevrilir.

3. Mədəniyyətin ən fərqləndirici və yerdə qalan bütün funksiyalara təsir göstərən funksiyası humanistlikdir. İnsan mədəniyyət və onun problemlərinin mərkəzində dayandığından yaradıcı insanı və yaxud humanist funksiyasını mədəniyyətin əsas funksiyası kimi səciyyələndirmək zəruridir.

4. Mədəniyyətin normativ (nizamlayıcı) funksiyası. İnsanların ictimai və şəxsi fəaliyyətinin müxtəlifliyinin nizamlanması ilə əlaqədar əxlaqı və hüquqi sistemlərə söykənərək qaydalar yaradır.

---

[1] *Ağayar Şükürov. Kulturologiya. B., 1998, s. 18*

5. Mədəniyyətin varislik funksiyası cəmiyyətin inkişaf prosesində özündən əvvəl yaranmış mədəniyyətin ən yaxşı cəhətlərindən bəhrələnərək, onu qoruyub saxlaması və gələcək nəsillərə çatdırılması ilə səciyyələnir.

6. Mədəniyyətin funksiyalarından biri də onun sinkretizmi yəni bölünməzliyidir. Mədəniyyətin inkişafının ilk mərhələlərində baş verən bu proses sonrakı mərhələlərdə də davam edir, biri-birini zənginləşdirirlər.

7. Mədəniyyətin semiotik (işarələr) funksiyası mədəniyyətin umumbəşəri inkişafına geniş təsir göstərən amillərdən biridir. Müasir şəraitdə işarə sistemini mənimsəmədən mədəniyyətin nailiyyətlərinə yiyələnmək qeyri mümkündür. Ədəbi milli mədəniyyətə qovuşmağın mühüm şərtidir. Təbiət elmlərinin də özünün xüsusi işarələr sisteminin olması işarələr sisteminin öyrənilməsini zəruri edir.

Mədəniyyətin göstərilən funksiyalarının hərtərəfli tədqiq edilib öyrənilməsi onun ümumdünya mədəniyyətinin zənginləşməsində əhəmiyyətini aşkara çıxarır. Bəşəriyyətin əldə etmiş olduğu maddi və mənəvi sərvətlərin məcmusu olan mədəniyyətin bir çox sahələri, növləri və formaları və tərkib hissələri mövcuddur. Mədəniyyət öz əməli fəaliyyətini bu çox mühüm və ayrılmaz tərkib hissələri vasitəsi ilə həyata keçirir.

Mədəniyyətin ayrılmaz tərkib hissələrindən biri də kitab və kitabxanalardır. Cəmiyyətin inkişafının çox qədim dövrlərindən yaranmış kitabxanalar bəşər mədəniyyətinin inkişafına, zənginləşməsinə çox böyük töhfələr vermiş, mədəni sərvətlərin qorunub saxlanmasında və nəsildən nəslə ötürülməsində mədəniyyətin varislik funksiyasının təmin edilməsində dünya mədəniyyəti tarixində kitabxanaların xüsusi yeri və mövqeyi vardır. Ona görə də kitab, kitabxana və cəmiyyət problemlərinin öyrənilməsi xüsusi zərurət kəsb edir.





## 1.3. Kitab və mədəniyyət

*Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq ona görə də kitaba borcluyuq.*

**Heydər Əliyev**

Dünyanın böyük mütəfəkkirləri, elm və mədəniyyət xadimləri bəşər mədəniyyətinin inkişafında kitabın əhəmiyyətini olduqca yüksək qiymətləndirmiş, kitabın şəninə bilik mənbəyi, cəmiyyətin inkişafının tərəqqisinin əsas vasitəsi kimi fikirlər söyləmişlər.

Bəşər mədəniyyətinin inkişafının əsas vasitəsi olan kitab, cəmiyyətin yaranmasının erkən dövrlərində meydana gəlmiş, zəmanəmizə qədər cəmiyyətlə birgə addımlamış, formalaşmış, bəçəriyyətin yaddaşına çevrilmişdir. Məhz cəmiyyət maddiləşmiş bu yaddaş (kitab) vasitəsi ilə bəşəriyyətin yaratmış olduğu bilikləri nəsildən-nəsilə ötürməyə nail olmuşdur. Bu da kitabın müxtəlif informasiyaları, biliyi, elmi dünya görüşünü, ictimai-siyasi və tarixi problemləri və s. özündə ehtiva etməsi ilə əlaqədardır. Kitab cəmiyyətin maddi və mənəvi həyatını əks etdirməklə, sosial həqiqətin, obyektiv və subyektiv hadisəsi kimi cəmiyyət elminə, iqtisadiyyata, siyasətə, mədəniyyətə, əxlaqa, tərbiyə və təhsil sisteminə ciddi təsir göstərmiş, bəşər mədəniyyətinin təşəkkül və formalaşmasında yaxından iştirak etmişdir.

Məhz buna görədir ki, böyük filosof F.Bekon "kitabı zamanın dalğaları arasında ucub səyahət edən, öz qiymətli yükünü nəsillərdən-nəsillərə çatdıran fikir gəmisi"[1] adlandırmışdır. Filosofun qiymətli yük hesab etdiyi, biliklə yüklənmiş kitablardır.

---

[1] *Əli Polad. Üç min ilin hikməti. B., 2007, s. 334.*

Bəşər övladı yarandığı gündəm biliyə can atır, bilik insanın yaşamaq, yaratmaq, inkişaf etmək uğrunda apardığı mübarizənin əsas vasitəsidir. Biliksiz insan təbiət və cəmiyyət hadisələrinə mübarizədə gücsüzdür. İnsan yaranır bilmədiyi şeylərdən qorxur, bilik isə hər cür qorxuya qalib gəlməkdə insana kömək edir. Cəmiyyətdə yaşamaq, cəmiyyətin üzvü olmaq, onun inkişafına öz töhvəsini vermək, mənəvi həyatını zənginləşdirmək, tərbiyə və təhsil prosesində yaxından iştirak etmək, elmə yiyələnmək insandan daim yeniləşən, təkmilləşən, daim dinamik inkişafda olan, əsaslı elmi bilik tələb edir. Çünki biliksiz insan təbiət və cəmiyyət qüvvələrinə qarşı mübarizədə olduqca gücsüzdür. Başqa sözlə, biliksiz insanı müharibə meydanındakı silahsız əsgərə bənzətmək olar. Kitab insana bilik verməklə yanaşı onu tarixi keçmişə aparır, bəşəriyyətin tarixi, keçdiyi yol haqqında, əcdadları haqqında, dünyanın görkəmli alimləri, yazıçıları, incəsənət və elm xadimləri haqqında ətraflı məlumat verir. Görmədiyi, eşitmədiyi şəxsiyyətlər, onların fəaliyyəti, əsərləri və tərcümeyi-halları ilə tanış edir. Dünyanı təlatümə salan təbiət hadisələri, müharibələr, dövlət başçılar, görkəmli sərkərdələrin fəaliyyətini göz önündə canlandırır. Beləliklə, kitab bəşəriyyətə keçmişi xatırlatmaqla bu günü, müasirliyi öyrənməkdə, gələcəyi proqnozlaşdırmaqda kömək edir. Bir latın məsəlində deyildiyi kimi, kitablarında müqəddaratı vardır. Kitabların müqəddaratı çox zaman insanların müqəddaratından daha heyrətamiz olur. Xalqların və dövlətlərin müqəddaratı kitabların müqəddaratında əks etdirilimişdir. Kitablar nəinki nağıl edib öyrədir, həm də müharibələrdə, inqilablarda, dini və elmi mübahisələrdə, toqquşmalarda, müxtəlif ideya və fikirlərin meydana gəlməsində iştirak etmişlər. Kitablar kralları yıxmağa kömək etmiş, həm məzlumların həm də zalımların tərəfində müharibə etmişlər. Kitab bütün dini təlimlərin yaranmasında və təbliğində iştirak etmiş, bütün müqəddəs dinlər kitablar şəklində insanlara təqdim edilmişdir. Yahudi, xristian, müsəlman dinlərində "Tövrat", "Bibliya" və "Qurani-Kərim"-də kitablar vasitəsilə insanlara çatdırılmışdır.





Kitab bəşəriyyətin yaratmış olduğu fikir və ideyaların, nəzəriyyələrin, konsepsiyaların və elmi kəşflərin uzun bir müddət üçün insanlara çatdırmağın əsas vasitəsidir. Deməli, kitab ancaq coğrafi mənanı yox, həm də zamanı birləşdirir.

Beləliklə mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitab və onları toplayıb, qoruyub saxlayan kitabxana olmadan mədəniyyət yaşayıb inkişaf edə bilmədiyi kimi, cəmiyyət də mədəniyyətsiz yaşaya bilməz, dağılmaq təhlükəsi qarşısında qalar. Bütün bunlar cəmiyyət və mədəniyyət, kitab, kitabxana və cəmiyyət problemlərinin müasir dövrün əsas, aktual problemlərindən biri kimi dərindən təhlil edib öyrənməyi ön plana çəkir.

### 1.3.1 Kitab və kitabxana mədəniyyətin qoşa qanadıdır

Milli mədəniyyətimizin qoşa qanadı olan kitab və kitabxana bir-birindən ayrılmazdır. Kitabxananı kitabsız təsəvvür etmək mümkün olmadığı kimi, bilik və informasiya mənbəyi olan kitabın yığılması, toplanıb saxlanmasını, yeni-yeni nəsillərə çatdırılmasıda kitabxanasız mümkün deyildir. Kitab və kitabxana arasında olan qarşılıqlı əlaqə qırılmazdı, əvəz edilməzdi. əsrlərdən bəri davam edən bu əlaqə zaman keçdikcə daha da təkmilləşib inkişaf etməklə bütövləşmiş və əbədiləşmişdir.

Kitabın və kitabxananın meydana gəlib formalaşması və inkişafı tarixidə dediklərimizi bir daha təsdiq edir.

Kitab tarixi cəmiyyət tarixinin xüsusilə mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir. Kitabın tarixi onu yaradan, inkişaf etdirən cəmiyyətin tarixi ilə əlaqədar öyrənilməli, kitabın inkişaf tarixinin qanunauyğunluqları cəmiyyətin tarixinin qanunauyğunluqlarına əsaslanmalıdır. İlk kitabın nə vaxt hansı ölkədə yaranmasını müəyyənləşdirmək mümkün olmasada dünya kitabşünas alimləri kitabın yaranması və onun kecdiyi keşmə-keşli, daşlı-kəsəkli inkişaf yolu haqqında, dünyanın ümumi kitab tarixi haqqında qiymətli əsərlər

yaratmağa, dünya kitabının kecdiyi yola işıq salmağa müvəffəq olmuşdur.[1]

Kitab tarixi bəşəriyyətin ən böyük kəşfi olan yazının və əlifbanın meydana gəlməsi ilə sıx əlaqədardır. Məlum həqiqətdir ki, yazı kəşf edilməsə kitabın yaranmasından söz gedə bilməzdi.

Bəşəriyyətin yaratdığı abidələr icərisində yazı və əlifbanın kəşfi olduqca böyük tarixi əhəmiyyətə malikdir. Cəmiyyətin inkişaf etməsi, cəmiyyət üzvlərinin işıqlı gələcəyə, dərin biliyə can atması, dövlət səviyyəsində sənədələrin tərtib edilməsi xalqların şıfahi yaradıcılığının qorunub saxlanması, yazının və əlifbanın kəşfini olduqca mühüm bir vəzifə kimi qarşıya qoyurdu. Bu mühüm vəzfənin yerinə yetirilməsində demək olarki, dünyanın bütün qədim xalqları və dövlətləri iştirak etmişdir. Dünyanın sivil xalqlarının yaratdığı müxtəlif yazılar və əlifbalar zaman keçdikcə ölkələr arasında baş verən inteqrasiya prosessində daha da təkmilləşdirmiş, biri digərindən bəhrələnərək cilalanmış, daha da mükəmməl və anlaşıqlı, yazıya və əlifbaya çevrilmişdir. Yazının əlifbaya çevrilməsi prossesi daha uzun çəkmiş, min illərlə yol qət etmiş, nəhayət insanların başa düşdüyü, bəhrələndiyi yazıya çevrilmişdir. Beləliklə də dünya xalqlarının başa düşdüyü umum bəşəri yazı növləri və formaları meydana gəlmişdir. İnsanlar qədim dövrlərdə məlumatı uzaq məsafəyə vermək üçün qrafik işarələr sistemi yaratmağa müvəffəq oldular ki, bu da yazı adlanmağa başlandı. Cəmiyyətdə hərfi yazının ixtirası insanların şifahi yaradıcılığını yazıya köçürmək imkanı verdi ki, bu da mədəniyyətə keçid üçün şərait yaratdı.

Mədəniyyətə keçid üçün şəraitin yaranması cəmiyyətin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Yazmağı, oxumağı bacaran insan təbiət və cəmiyyət hadisələrinə qarşı mübarizədə, özünü daha güclü hesab etməklə yanaşı daha geniş miqyasda birləşmək imkanları, yeri gəldikcə başqa qonşu xalqların təcrübəsindən istifadə etmək

[1] *Владимиров Л.И.. Всеобщая история книги. М, 1988, 311 с.*





bacarığı əldə edirlər. Min illərlə davam edən bu prosses cəmiyyətin daha da təkmilləşməsinə kömək etməklə yeni-yeni daha təkmil oxunub yazılması asan olan yazı tipləri və formaları meydana çıxdı.[1]

Bəşəriyyətin inkişafının lap erkən dövrlərində yaranmış Şumer yazısı, Misir yazısı, Çin yazısı, Hind yazısı, ən mükəmməl səs yazısı sistemləri hesab edilirlər. Bu və ya digər yazı tipinə mənsub olan, dünya xalqlarının yaratmış olduğu yazıların bir çoxu hələ oxunmamışdır. Erkən qədim dünya mədəniyyətinə dair son elmi tədqiqatlar təsdiq etmişdir ki, dünyada ilk yazının və ilk kitabın yaradıcısı Şumerlər olmuşdur. İlk bəşər mədəniyyətinin yaradıcısı olan Şumerlər hələ 10-12 min il bundan əvvəl gil lövhəciklərdə bəşərin ilk yazısı olan mixi yazı ilə öz kitablarını yazıblar. Şəkili yazının əsas əlamətlərini özündə daşıyan mixi yazı uzun bir tarixi yol keçmiş, təxminən 3 min il əvvəl mixi yazı sisteminə çevrilmişdir. Mixi yazının 600-dən çox işarəyə malik olması haqqında məlumatlar var.

Qədim Şumerlərdə sivilizasiyanın inkişafı, insanların biliyə can atmasını xeyli canlandırmışdı.

Tarixi qaynaqlara görə Azərbaycan ərazisində ilk dövlət Cənubi Azərbaycanda b.e.ə. III min illiyin birinci yarısında Aratta olmuşdur. Onun ərazisi Urmiya gölünün Cənub və Cənub-Şərq hissəsini əhatə edirdi. Aratta Şumer şəhər dövlətləri ilə qonşu idi. Tədqiqatçılar qeyd edir ki, erkən İkicayarası (Şumer) mədəniyyəti dairəsinə daxil edilən Arattanın Şumerlərlə geniş mədəni əlaqələri olmuş, onlar biri-birinin mədəni nəaliyyətlərindən bəhrələnmişlər. Şumerdə olduğu kimi Arattada mixi yazı məlum olmuş bu yazıdan yazıb oxumaq və diplomatik məktubların göndərilməsi işində istifadə edilmişdi. Əlbəttə yazı materialı kimi gil lövhələrdən istifadə edilirdi.[2]

[1] *Allahverdiyev B.. Ümumi kitab tarixi. B., 2003, 283 s.*
[2] *Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). I cild. B., 1994. s. 64.*

Qədim dünya xalqlarının yaratmış olduğu yazıların dörd əsas tipi vardır: piktoqrafik yazı, ideoqrafik yazı, heca yazısı, səs yazısı.

Piktoqrafik (şəkili) yazıda bu və ya digər məlumat şəkillər vasitəsi ilə verilir. Yazının bu növü çox qədim zamanlarda meydana gəlmişdir. Biri-birilə əlaqə saxlamağa can atan insan piktoqrammalardan istifadə yolu ilə öz ehtiyaclarını (tələblərini ) ödəməyə çalışırdılar. Onlar bir-birlərinə əşay göndərmək əvəzinə onun şəklini çəkib göndərirdilər.

Qədim insanlardan yadigar qalan piktoqramlar, daş, ağac, buynuz üzərinə, sonralardan isə məbədlərin, mağazaların divarlarına qaya divarlarına həkk edilmişdir. Məsələn Qobustan qaya təsvirlərinin bir çoxu piktoqrafik yazı nümunəsidir. Belə yazılar əksər hallarda daş lövhələr üzərinə həkk edilirdi. Azərbaycan alimləri qədimdən belə lövhələri kitabələr adlandırmışlar. Kitabələrə demək olar ki, ölkəmizin bütün regionlarında rast gəlmək olar. Azərbaycan ərazisində mövcud olan Qobustan qoruğunda daş kitabələrin çox qiymətli nümunələri saxlanmaqdadır. Təqribən b.e.ə. VIII əsrə aid olan bu nümunələr öz tarixi qədimiliyinə və piktoqrammaların müxtəlifliyinə görə dünyada mövcud olan bu tipli abidələrdən ən zənginidir. Bu qoruğu Azərbaycan tarixinin daş yaddaşı, daş kitabxanası adlandırmaq yerinə düşərdi. Bakı şəhərinin 55 km-də yerləşən bu qoruğun ərazisində 750 qaya üzərində 4 minə qədər insan, heyvan təsvirləri, müxtəlif işarə, damğa və s. aşkar edilmişdir. Buradakı rəsmlər içərisində ov səhnəsinin, kollektiv əmək prossesinin, fərdi və kollektiv rəqs səhnələrinin təsviri böyük maraq doğurur və belə səhnələrin mürəkkəb komporisiyaya malik olmasını düşünən, yaradıcı insan zəkasının, insan fikirlərinin toplusu olduğunu aşkara çıxarır.

Qobustan abidələrini sitemli şəkildə, ardıcıllıqla seyr etdikdə məlum olur ki, burada olan rəsmlər, təsvirlər sadədən mürəkkəbə doğru, zamanın, dövrün tələbatına və mədəni səviyyəsinə müvafiq inkişaf etmişdir. Zaman keçdikcə daha mükəmməl, insanı düşündürməyə vadar edən rəsmlər meydana gəlmiş,





təkmilləşmişdir. Getdikcə qaya üstü yazılarda piktoqrafik (şəkli) yazıların əvəzedilmə prossesidir.[1]

Qobustan daş kitabələri bir daha təsdiq edir ki, Azərbaycan kitabına gedən yol Qobustandan keçir.

Zaman keçdikcə qədim insanların istifadə etdiyi piktoqrafik yazı yeni yazı tipi ilə ideoqrafik (fikri) yazı ilə əvəz edildi. Əgər piktoqrafik yazıda bir şeyi təsvir etmək üçün onun şəkili verilirdisə, ideoqrafik yazıda onun haqqında fikiri ifadə edən bir işarə verilirdi. Məsələn, piktoqrafik yazıda "öküz" haqqında məlumat vermək istəyəndə özünün şəkli çəkilirdisə ideoqrafik yazıda özünün şəkli yox, onun başının yaxudda buynuzuna oxşayan işarələrdən istifadə edilirdi. Beləliklə ideoqrafik yazı piktoqrafik yazıdan heca yazısına kecid mərhələsini təşkil edirdi.

Heca yazısına misal olaraq əvvəlcə haqqında danışdığımız Şumer yazılarını göstərmək olar. Heca yazısı dildə olanhecaları əks etdirməli idi. Dildə hecaların çoxluğu nəzərə alınsa, hecaları bildirən işarələr sisteminin yaranması labüdlüyü ortaya çıxır. Alimlər Şumer yazısında 600 çox işarənin olmasını təsdiq edən fikirlər irəli sürürlər.[2] Şumer yazıları zahiri əlamətlərinə görə başqa yazılardan fərqlənirdilər. İşarələrin mıxa bənzədiyinə görə farslar ona "mixi", ərəblər isə "mismari" yazı adlandırırdılar. Avropa alimlərinin Şumer yazı lövhəciklərinin oxunması qədim Şumerlərin dünya elminə, mədəniyyətinə və ədəbiyyatına verdiyi çox qiymətli dəyərləri aşkara çıxarmışdır. Bu dəyərlər dünya elminə və mədəniyyətinə ən böyük töhüfə olmaqla bəşər mədəniyyətinin gələcək inkişafı üçün böyük təkan olmuş və bu yazı tipindən dünyanın bir çox ölkələrində, Şərq ölkələrində, Hindistanda və s. istifadə edilimişdir.

Səs (fonoqrafik) yazı tipidə qədim dünyada geniş yayılan yazı tiplərindən biridir. Səs yazısı dilin səslərini qrafik işarələrlə əks etdirir. Səs yazısının meydana gəlməsində ideoqrafik yazı baza rolunun

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. B., 2004, s. 75-76.*
[2] *Allahverdiyev B. Ümumi kitab tarixi. B., 2003, s. 10.*

oynamış səs yazısı məhz bu baza əsasında formalaşmağa başlamışdır. İdeoqrafik yazının səs yazısına çevrilməsi bir çox yüzilliklər davam etmiş, ideoqrafik yazının işarələri tədricən bütöv sözü deyil, sözün səslərini bildirmiş bunun da nəticəsində hərifli yazı formalaşmışdır. Alimlər səs yazısını çox vaxt əlifba da adlandırırdılar.

Qədim dünya dövlətlərinin bir çoxunda səs yazısı müstəqil surətdə meydana gəlmişdi. Səs yazıları içərisində ən mükəmməl səs yazısı sistemləri: Şumer yazısı, Misir yazısı, Krit yazısı və Cin yazısı hesab edilir. Bu günədək yaşamaqda davam edən yeganə səs yazısı Cin yazısıdır.

Dünyada səs yazısının əlifbanın yaradılmasında Misir heroqliflərinin böyük rol oynaması haqqında tarixin yaddaşında çox əsaslı fikirlər vardır. Qədim dünyanın bir çox ölkələrinə səyahət edən heroqriflərin əsas vətəni Misir olmuşdur. Əvvəllər şəkli (piktoqrafik) yazıdan istifadə edən Misirlilər dövlət idarə sisteminin inkişafı və təsərrüfat həyatının canlanması ilə əlaqədar yeni yazı sisteminə keçməyə böyük ehtiyac hiss etdiklərindən müxtəlif anlayışları və hadisələri ifadə etmək üçün işarələrdən istifadə etməyə başladılar. Bu dünya yazı sistemi tarixində mühüm addım idi. Misirlilər bu yazı işarələrini heroqrif adlandırdılar. Heroqrif yunanca "müqəddəs işarə" deməkdir. Bu yazı sistemi Misirdə e.ə. 3100-2800-ci illərdə tədbiq edilmişdir, Misirdə ən çox işlədilən heroqriflərin sayının 700-dən artıq olması haqqında tarixi mənbələrdə məlumatlar vardır.

Qədim Misir məbədlərinin və ehramlarının divarlarında olan sirli, anlaşılmaz şəkillərin mənasını başa düşmək üçün alimlər uzun illər çalışmışlar. Heroqrif adlanan bu anlaşılmaz işarələrdə Misirlilərin tarixi, onun adət və ənənələri əks etdirilmişdir. Bu sirli aləmə yol tapmadığı üçün tarixin böyük bir mərhələsi öyrənilməmiş qalmışdı. Nəhayət fransız alimi Şamplon və Qranfeld 1822-ci ildə bu heroqrifləri oxumağa müvəffəq oldular.[1] Bundan sonra 1916-cı ildə

[1] *Владимиров. Л.И. Всеобщая история книги. М, 1988, с 14.*





Praqa professoru Qroznı Mixi yazıları 16 ildən sonra isə heroqrifləri oxumaq qaydalarını hazırladı.

Beləliklə bu görkəmli alimlərin böyük kəşfi və xidməti sahəsində qədim dünyanın ən böyük sirləri müasir insanlar qarşısında açıldı. Bu böyük elmi kəşf əsrlərin külü altında qalmış bəşər mədəniyyətinin çox mühüm sahəsi haqqında tarixi məlumatları, bilikləri aşkara çıxardı.

Səs yazısının geniş yayılması və tədricən təkmilləşməsi və bu mühüm işdə qədim dünyanın bir çox xalqlarının inkişafı qədim dünyanın ən böyük kəşfi olan əlifbanın meydana gəlməsinə səbəb oldu.

Səs yazısının inkışafında, heroqriflərin təkmilləşib səs yazısına çevrilməsində qədim zamanların böyük uğurları olmasına baxmayaraq ilk əlifbanı kəşf etmək nəsib olmadı. İlk əlifbanın yaradilması e.ə. ikinci minilliyin ikinci yarısında dünyanın qədim xalqlarından olan finikiyalılara nəsib oldu.[1] Bu əlifbada 22 hərfin olması elmə məlumdu. Qədim dünyada ilk əlifbanın yaradılması vəziyyətin böyuk nailiyyəti olmaqla dünya mədəniyyətinin, elminin inkişafına böyük təkan verdi. Tezliklə bu böyük fenomen hadisə sürətlə bütün dünyaya yayıldı. Demək olar ki, dünya səsli əlifbaların hamısı bu finikiya əlifbasından törəmişdir.

Finikiya əlifbası tezliklə bütün dünyaya yayılmağa başladı. İlk əlifbanın yayılmasında o dövrdə dünyanın bütün ölkələri ilə ticarət edən finikiya tacirləridə mühüm rol oynamışlar. Onlar ticarət etdiyi ölkələrdə finikiya əlifbasında yaymağa xüsusi əhəmiyyət verirdilər.

Bizim eranın əvvəllərindən başlayaraq xristian Zaqafqaziyada yayılması ilə əlaqədar arami və yunan yazılarından istifadə yolu ilə erməni, gürcü və Alban (Qafqaz) əlifbası yaranmışdır. Qafqaz Albanlarının əlifbası 5-ci əsrin birinci rübündə indiki Azərbaycan ərazisində yaranmışdır. 52 hərfdən (10 sait və 42 samit) ibarət olan bu əlifbanın gürcü və erməni əlifbaları ilə oxşarlıqları vardır. V-VIII əsrlərdə Alban əlifbası geniş yayılmış, bu əlifba ilə kitablar tərtib edilmiş, bədii əsrlər

[1] *Azərbaycan Sovet Ensıklopediyası. 10 cilddə. IV cild. B.,1980,s.183.*

yazılmışdır. VII əsrdən başlayaraq Azərbaycanda ərəb hakimiyyətinin güclənməsi, ərəb dili və əlifbasının yayılması nəticəsində Alban əlifbası sıradan çıxmışdır.

Bu əlifba haqqında geniş elmi ictimaiyyətə geniş məlumat ilk dəfə 1937-ci ildə gürcü alimi İ.Abulzade tərəfindən verilmişdir. 1945-50-ci illərdə Mingəcevir Elektrik Stansiyası tikilərkən qazıntı zamanı icində Alban əlifbası olan daş kitabələr İ. Abuladrenin fikrini bir daha təsdiq etmişdir.[1]

Bizim eranın əvvəllərindən başlayaraq Xristianlığın Zaqafqaziyada yayılması ilə əlaqədar Arami və yunan yazılarından istifadə yolu ilə erməni, gürcü, alban (Qafqaz) əlifbası yaranmışdı.

Şərqdə finikiya yazısı əsasında Arami yazısı yarandı. Bu yazı əsasında isə Suriya, İran (Pəhləvi) Ərəb, qədim türk (uyğur), Monqol əlifbaları təşəkkül tapdı. Arami mənşəli ilk qədim yazılardan biri Ərəb yazısı olmuşdur. Ərəb istilaları zamanı bu yazı şərqin bütün müsəlman ölkələrində geniş yayılmış VII yüzillikdən başlayaraq Azərbaycanda da istifadə edilməyə başlamışdır.

Daim səyahətdə olan finikiya hərifləri dəniz yolu ilə yunanıstana keçərək orada yunan əlifbasının təməlini qoydu. Yunanıstandan sonra bu hariflər bir çox yüzilliklərdən sonra qərbə-İtaliyaya, şimala-Rusiyaya gəlib çıxdı. Yunan hərifləri İtaliyada tədricən latın hariflərinə çevrildi. Şimalda isə Slavyan əlifbasının əsasını qoydu. Uzun illər boyu avropa xalqlarına xidmət etmiş bütün avropa əlifbaları, o cümlədən dünyanın bir çox ölkələrində geniş intizar tapmış qərb əlifbaları arami və yunan yazılarından istifadə edilərək tərtib edilmişdir. E.ə 6-cı əsrdən təşəkkül tapan latın əlifbası hazırda ingilis, fransız, alman, ispan, italyan, türk, azərbaycan və s. ölkələrin əlifbasının əsasını təşkil edir. Azərbaycanda latın əlifbasından 1929-cu ildən 1939-cu ilə qədər istifadə edilmiş və Azərbaycan müstəqillik qazandıqdan sonra yenidən latın əlifbasına keçilmişdir.

[1] *Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, I cild, B., 1976, 214 s.*





Dünya yazı sistemində çox yayılan yazı sistemlərindən biri də Kiril əlifbasıdır. Bizans-yunan yazısı əsasında tərtib edilən Kiril əlifbasından Slavyanlar eləcə də XIX əsrədək Rumunlar istifadə ermişlər. rusiyada isə bu əlifbanın xristianlığın qəbulundan sonra X-XI əsrlərdən istifadə edilməyə başlanmışdır.

Kirill əlifbası IX əsrdə Bizans missionerləri – Konstantin Krill (827-869) və Mefodi (815-885) qardaşları tərəfindən yaradılmışdır. Onlar bu hərflərin coxunu yunan əlifbasından bəzilərini isə Avropa əlifbasından götürmüşdülər. qədim slavyan yazılı abidələri Kirill əlifbası əsasında yazıya alınmışdır.[1]

Bəşəriyyətin yazı və əlifbanın yaradılması uğrunda uzun illəri əhatə edən tarixi axtarışları bir daha sübut edir ki, kitab cəmiyyətin gələcəyinə xidmət edən, insan ağlının və zəkasının daha da zənginləşməsi, böyük sərvət olan biliklərə yiyələnməsi, istehsalın təşkili və elm, təhsil və mədəniyyətin təşəkkül və inkişafında əsas vasitə olmuşdur. Yazı əlifba mədəniyyəti cəmiyyətin özü tərəfindən yaranmış bir təsissat olduğundan cəmiyyətin tərkib hissəsinə çevrilmiş və onun gələcək inkişafına kömək etməyə başlamışdır.

Yazının və əlifbanın kəşfi və onun geniş yayılması ilə əlaqədar bəşəriyyətin tarixində yeni dövr başlandı. Bu dövr yazılı mədəniyyətin geniş intişar tapması, məktəblərin açılması, kitabın təhsil prossesinə daxil olması, şifahi abidələrin yazıya köçürülməsi, dünya bədii ədəbiyyatının ilki olan abidələrin meydana gəlməsi ilə nəticələndi. Yazı və əlifba dünyanın bir çox inkişaf etmiş ölkələrində elmin inkişafı, onun ilk rüşeymlərinin təşəkkül tapması üçün şərait yaratdı. Başqa sözlə əlifbanın kəşfi ilə qədim dünyanın ən böyük möcüzələrindən biri olan məlumat və kommunikasiya mənbəyi olan kitab meydana gəlib formalaşmağa öz qiymətli yükünü ölkədən-ölkəyə, nəsillərdən-nəsillərə keçirməyə, insan zəkasını-biliyini, elmini intişar etdirməyə başladı.

[1] *Владимиров Л.И. Всеобщая история книги. М, 1988, с 49.*

Qədim dünyanın insanları əyani suratdə dərk etməyə başladılar ki, kitabsız nə təhsil, nə məktəb nə də elm yoxdur. Kitab həmçinin dünyada yaranmış olan bütün dinlərin formalaşmasında, yayılmasında, təbliğində böyük rol oynadı. Dünya dinlərinin ilk müqəddəs kəlamları kitab vasitəsi ilə yayılmağa başladı. Dünyanın ən böyük mədəniyyətlərindən biri olan Şumer – Akkad mədəniyyətinin yaranmasına böyük təsir göstərdi. B.e.ə III əsrdən əvvəl yarandı və b.e 100-cü ilinə qədər biri-birini əvəz edən dövlətlər (Şumer, Akkad, Babil, Assuriya və b.) zəngin mədəniyyət yaratmağa müvəffəq olmuşdular. Məhz bu müvəffəqiyyətlərinə görə məhşur şumerşunas Amerika alimi S.Kramer belə bir nəticəyə gəlmişdir ki, "tarix Şumerdən başlanır". Dünyanın ilk yazılarından olan Mixi yazısının yaradıcısı Şumerlər bu yazı əsasında tərtib edilmiş ilk gil kitabələrində (lövhəciklər) müəllifidir. İlk yazılı abidə qədim Şumer şəhəri Uruxun xarabalıqlarından tapılmışdı. S.Kramer yazır ki, Mixi yazının meydana gəlməsi Şumerdə məktəblərin yaranmasına səbəb oldu.[1] Alman astroloqu Şneyder sübut etmişdir ki, gil lövhəciklərin (kitabların) yaranmasında o dövrdə peşəkarlar kimi formalaş mirzələrin böyük rolu olmuşdur. Şumerdə ilk məktəblər (eddubalar) mirzələrin evlərində, sonra isə məbəd və saraylarda yaranmışdır. Şumerdə məktəb (edduba) "kitabələr evi" adlanırdı.[2] Deməli Şumerdə təhsilin yaranması kitab və kitabxanalarla bağlı olmuşdur. Kitabxanalar ilk məktəblərin əcdadıdır. Şumerşunaslar qeyd edirlər ki, Şumer məktəbləri özlərinə məxsus ədəbi mərkəzlər kimi fəaliyyət göstərir. Keçmiş ədəbi abidələr öyrənilir, üzü köçürülür, hətta yeni kitablar da yaradılırdı.

Qədim Babil çarlığının çiçəkləndiyi dövrlərdə də (b.e.ə ikinci min illiyin 2-ci yarısı) təhsil işində saray və məbəd eddubaları aparıcı rol oynayırdılar. Bu dövrdə "Kitabələr evi" nin əhəmiyyəti və vəzifələri xeyli artmış, onlar mədəni-maarif mərkəzlərinə çevrilmə

---

[1] *Kramer S. Tarix Şumerdən başlanır. B., 2009, s. 14.*
[2] *Rustəmov F. Şərqdə pedaqogika tarixi. B., 2002, s. 12.*





prosesinə məruz qalmışdılar. Bilik evi adlanmağa başlamış bu müəssisələrin yanında kitabələr saxlanılan yer, ayrıca kitabxanalarda fəaliyyət göstərirdi.

Yuxarıda göstərdiklərimizə əsasən belə nəticəyə gəlmək olar ki, kitab və kitabxanalar təhsilin əjdadı olmuş, təhsilin bünövrəsi kitabxanalarda qoyulmuşdur.

Yazı və əlifbanın meydana gəlməsi təhsilin bünövrəsini qoymaqla, biliyə can atan insanın təfəkkür tərzinə, ağlına və zəkasına, yaddaşına güclü təsir edən yazılı ədəbiyyatın, ədəbi əsərlərin, elmi əsərlərin yaranmasına səbəb oldu. Beləliklə də, yazı və əlifba mədəniyyəti mənəvi mədəniyyətin ümumxalq mədəniyyətinə, cəmiyyətin yaratmış olduğu əsas təsisat kimi fəaliyyətini genişləndirdi.

Təhsilin, məktəbin əsası qədim Şumerdə qoyulduğu kimi ilk yazılı ədəbiyyatın – kitabın bünövrəsi də Şumerdə qoyulmuşdur. İlk Şumer kitabları məktəb həyatı ilə bağlı kitablar, insanın mənəvi aləminə aid kitablar və şifahi dastanların yazıya köçürülməsi haqqında kitablar. Pedaqoqlar məktəb həyatı ilə bağlı kitabları üç tipə ayırırlar: məktəb həyatından bəhs edən kitablar, didaktik, nəsihət xarakterli kitablar və şifahi xalq yaradıcılığına, atalar sözlərinə, zərb məsəllərə və s. həsr edilmiş kitablar. Belə kitablara misal olaraq zamanəmizə gil lövhəciklər üzərində gəlib çatmış "Məktəbli günü" və "Bilqamıs" dastanını və s. göstərmək olar.[1]

Şərq xalqalrının ictimai-siyasi və fəlsəfi-ədəbi fikrinin inkişafında dünya ədəbiyyatının ilk şah əsəri olan b.e.ə. III min illikdə Şumer dilində yaranmış "Bilqamis" dastanı mühüm əhəmiyyət kəsb edir. Qədim dünyanın ən məşhur dastanı olan "Iliada"dan iki min il əvvəl yaranmış "Bilqamis" dastanı b.e.ə II min illikdə akkad dilində gil lövhəciklərə köçürülmüşdür.

Dastan insan, onun taleyi, istək və arzuları, fəlsəfi ideyaları, dünya görüşü, mənəvi dünyası haqqında qəhrəmanlıq səlnaməsidir.

---

[1] *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B., 1998, s. 72.*

Bu dastanın dünya yazılı ədəbiyyatına, insanın ədəbi-bədii yaradıcılıq prosesinə böyük təsiri olmuş, yazılı ədəbiyyatın məhəng daşına çevrilmişdir.

Tarixi qaynaqlardan məlum olur ki, qədim şərq ölkələri Şumer mədəniyyətinin nailiyyətlərindən bəhrələnmişdir. Qədim Şərq ölkələrindən - Misir, Hindistan, Cin, Türk və s. ölkələrin yazı, əlifba, təhsil, yazılı abidələri, kitab və kitab tarixi və bütövlükdə mədəniyyəti ilə ötəri tanışlıq belə qədim Şərq ölkələrində Şumer mədəni ənənələrindən geniş istifadə və onun izləri diqqəti cəlb edir.

Həmçinin yazının - əlifbanın kəşfi, kitabın meydana gəlməsi dünyanın müxtəlif xalqları arasında əlaqələrin yaranmasına, dövlətlərarasında beynəlxalq münasibətlərin təşkilinə, diplomatiyanın, dövlətlər arası yazışmanın genişlənmələrinə səbəb olmuş, dövlətlər bir-birinin təcrübəsindən istifadə etməyə, mədəni və iqtisadi əlaqələrin inteqrasiyasına səbəb olmuşdur. Bunu da bəşər mədəniyyətinin inkişaf edib formalaşmasında kitabın böyük xidməti kimi qiymətləndirmək olar.

Yuxarda yazının meydana gəlməsi dünya yazı mədəniyyəti tarixində, ümumiyyətlə bəşəri mədəniyyətin formalaşmasında böyük və həlledici rolu danılmazdır. Şumerlərin təxminən 5-6 min il bundan əvvəl kəşf etdiyi yazı, onun cəmiyyətin inkişafında oynadığı böyük rol, bu kəşfin fövqəladə kəşf olduğdunu aşkara çıxarmaqla dünya yazı mədəniyyəti tarixində onun ilk informasiya inqilabi olmasını əsaslandırdı. Yazı nəticəsində bilik və məlumatların maddi daşıyıcılar üzərində həkk edilməsi, informasiyanı ilkin şifahi mənbədən ayrılaraq gələcək nəsillərə ötürülməsinə yol açdı. Məhz ilk informasiya inqilabının mahiyyəti də burada ortaya çıxır.

Bəşəriyyət və əlifbanın kəşfinə və kitabın yaranmasına bir neçə yüzillik vaxt sərf etdiyi kimi, kitabın yaranmasında ikinci mühüm amil olan yazı materialının yaradılmasınada uzun illər sərf etməli olmuşdur.

Yazılar və hərflər ölkələri və xalqları gəzib dolaşarkən eyni zamanda başqa səayhətlədə əmşqul olmuşlar.





Onlar daşın üzərindən, gil lövhələrin üzərinə gil lövhələrin üzərindən papirusun üzərinə, papirusun üzərindən mum lövhələrin üzərinə, mum lövhələrin üzərindən perqamentin üzərinə, perqamentin üzərindən isə kağızın üzərinə keçmişlər. Qədim insanlar yazını kəşf etdikdən, yazmaq texnikasına yiyələndikdən sonra, nəyin üzərində və necə yazmaq haqqında da düşünməyə başlamış, əsrlər keçdikcə yeni-yeni yazı materiallarını kəşf etmiş, tarixi təkmilləşmə prossesində bu mühüm işi tədricən inkişaf etdirməyə müvəffəq olmuşlar. Qədim insanlar yazı materialı kimi daşdan, ağacdan, gil lövhələrdən, heyvan sümüklərindən, tuncdan, papirusdan, perqamentdən, ipək parçalardan və s. və nəhayət kağızdan istifadə etmişlər. Göründüyü kimi yazının meydana gəlməsindən kağızın kəşfinə qədər uzun və keçməkeşli yol keçən kitab öz forma və məzmununu dəyişərək bəşəriyyətin tərəqqi və inkişafına əvəzsiz xidmətlər göstərmiş, insan biliyinin elm və mədəniyyətin əsrdən-əsrə, nəsildən-nəslə keçməsinə kömək etməklə bəşər sivilizasiyasının inkişafının əsas amillərindən biri olmuşdur.

Bizim indi istifadə etdiyimiz kağız üzərində çap edilmiş kitaba qədər kitab müxtəlif yazı materialları üzərində yazılmışdır. Qədim insanların istifadə etdiyi ilk yazı materialı daş olmuşdur. Kitabşünaslar daş üzərində yazılan kitabları kitabələr adlandırırdılar. Dünyanın bütün xalqlarında qəbirüstü daşlar üzərinə yazılan kitabələrə daha çox rast gəlmək olar. Daş üzərində həkk edilən ilk yazı və kitabələrin təxminən 5-6 min yaşı vardır. Dünyanın bütün ölkələrində olduğu kimi, Şərq ölkələrində də daşdan yazı materialı kimi istifadə etməyin tarixi olduqca qədimdir. Qədim Şərq ölkələrində kiçik ölçülü daşlarla yanaşı olaraq sal qayalar üzərində yazılmış kitabələrə də rast gəlinir. Məsələn, ELRONDA - Bisitun dağı üzərindəki 115 metr hündürlüyündəki qayada fars hökmdarlarından I-ci Dara (b.e.ə. 521-486) və b. haqqında 1000 səhifədən artıq yazı həkk edilmişdir.[1]

---

[1] *Allahverdiyev B. Ümumi kitab tarixi. B., 2003, s. 14.*

Şərq mədəniyyətinin xüsusi yeri olan qədim Azərbaycanda da yazının olması, qədim dünyanın əlifbalarından Azərbaycanda istifadə edilməsi haqqında qaynaqlarda çoxlu materiallar vardır. Erkən Azərbaycan dövlətlərində də antik dövlətlərdə olduğu kimi, qədim yazı materiallarından daşdan, gil lövhələrdən, papirusdan, perqamentdən, kağızdan müvəffəqiyyətlə istifadə edilmişdir. Həm cənubi, həm də şimali Azərbaycanda xalqımızın daşdan yazı materialı kimi istifadə etməsi haqqında çoxlu mədəniyyət abidələri vardır. Belə abidələrdən bir çoxu arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış, bir çoxu tarixi abidələrdə saxlanmış, bir çoxu məzar daşlarına həkk edilmiş və qayalar, böyük həcmli daş lövhələr üzərinə yazılmışdır.

Azərbaycan alimləri ta qədimdən belə lövhələri kitabələr adlandırmışlar. Şimalı Azərbaycan ərazisində mövcud olan Qobustan qoruğunda daş kitabələrin çox qiymətli nümunələri qorunmaqdadır. Təqribən yeni eradan VIII əsrə aid olan bu nümunələr öz qədimliyinə və rəsmlərin müxtəlifliyinə görə dünyada bu tipli abidələrdən ən zənginidir. Bu qoruğu Azərbaycan tarixinin daş yaddaşı, daş kitabxanası adlandırmaq olar. Bakı şəhərinin 55 km-də yerləşən bu qoruğun ərazisində 750 qaya üzərində 4 minə qədər insan, heyvan təsviri, müxtəlif işarə və damğa və s. aşkar edilmişdir. Qobustandakı qayaüstü təsvirlərdə qadın və kişi rəsmlərinə, vəhşi öküz, keçi, maral, ceyran, quş və şir şəkillərinə daha tez-tez rast gəlmək olur. Buradakı rəsmlər içərisində öz sahəsinin, kollektiv əmək prosesinin, fərdi və kollektiv rəqs səhnələrinin mürəkkəb kompozisiyaya malik olması, düşünən, yaradıcı insan zəkasının, insan fikirlərinin toplusu olduğunu aşkara çıxarır. Qobustan daş kitabələribir daha təsdiq edir ki, Azərbaycan kitabına gedən yol Qobustandan başlayır. Bu yol yazının meydana gəlməsindən, yazı mədəniyyətindən kitab mədəniyyətinə əcdadlarımızın keçdiyi yol çox əzablı yoldur. Bu yol çox çətin və əzablı olsa da, çox şərəfli mədəniyyətə doğru gedən yoldur.

Qobustandakı Böyük daş dağının ətəyində olan qaya üstü yazı fikrimizi bir daha təsdiq edir. Latın dilində olan bu kitabə eramızın





90-cı illərinə aiddir. Bu kitabədə Roma imperatoru Domitsian və "İldırım sürətli legionun" adı çəkilir.[1]

Daş kitabələrdən sonra bəşəriyyətin ən çox kütləvi halda istifadə etdiyi yazı materialı gil lövhələr olmuşdur. Vaxtı ilə Dəclə və Fərat çaylarının sahillərində yaşayan b.e.ə. III min illikdən əvvəl yaranan və b.e. 100-cü ilinə qədər bir-birini əvəz edən dövlətlərdə (Şumer, Akkad, Babil, Assuriya və b.) gil lövhəciklər üzərində yazmaq, gildən hazırlanmış lövhəciklərdən yazı materialı kimi istifadə etmək geniş yayılmışdı.

Gildən lövhəçiklər hazırlanır, onlar hələ qurumamış, mirzələr iti uclu kiçik cubuqla mixi yazılarla mətni lövhəciyin üzərinə həkk edirdilər. sonra isə gil lövhəcikləri gün altında qurudur, onun möhkəmliyini təmin etmək üçün kürələrdə bişirirdilər. Beləliklə uzun müddət istifadəyə yararlı olan, qırılmaqdan və suda xarab olmaq qorxusu olmayan kitablar meydana gəldi. Məhz qədim Şumerlərin kəşf etdiyi bu yazı materialı uzun illər bəşəriyyətə xidmət etməklə, təhsilin, elmin, mədəniyyətin inkişafına xidmət etmişdir. Şumerşünas S.Kramer yazır ki, Şumer məktəbi mixi yazının meydana gəlməsi nəticəsində təzahür etdi. İlk yazılı abidələr qədim Şumer şəhəri Urukun xarabalıqları arasında aşkar edilmişdi. Orada üzləri şəkli yazı ilə örtülmüş, mindən çox gil lövhəçiklər tapıldı.[2] Bu lövhəçiklərin oxunması əsirlərin külü altında qalmış Şumer mədəniyyətini bəşəriyyətə töhfə etdi.

Şumerlərdən sonra qədim Assuriyada gil lövhəciklər hazırlamaq və ondan yazı materialı kimi istifadə etmək geniş yayılmışdı. Bu sahədə qədim dünyanın gil lövhəçiklərin ibarət böyük və zəngin kitabxana yaradan Assuriya çarı Aşurbanipalın böyük xidməti olmuşdur. Aşurbanipalın göstərişi ilə ölkədə gil lövhələr hazırlayan istehsal texnologiyası xeyli təkmilləşmiş, kütləvi sürətdə gil lövhələri hazır-

---

[1] *Azərbaycan kitabı (biblioqrafiya). Üç cilddə I cild, B. 1963*
[2] *Kramer S. Tarix Şumerdən başlanır. B., 2009, s. 14.*

lamağa başlamışdı. Gil lövhələr 32x22 sm, qalınlığı 2,5 sm ölçüdə hazırlanırdı. Yazılan hər bir kitab çoxlu səhifələrdən ibarət olurdu. Hər bir lövhə çoxsəhifəli kitabın bir səhifəsi idi. Bu lövhələri indiki kitabların vərəqləri kimi bir-birinə tikmək mümkün olmadığından lövhələri nömrələmək və onların hər birinə ad qoymaq lazım gəlirdi. Məsələn, "Dünyanın yaranması haqqında kitab" "başımızın üstündəki əvvəl səma adlanırdı" sözləri ilə başlayırdı.

Buna görə də bu kitabın hər lövhəsində "Başımızın üstündəki əvvəllər № 1", "Başımızın üstündəki əvvəllər № 2" və s. yazılırdı. Aşurbanipal bu gil lövhələrdən ibarət böyük bir kitabxana düzəltmişdi. Kitabxanada 20 min lövhənin olması haqqında məlumat var. Həmçinin bir çox tarixçilər qədim dünyanın möcüzələrindən biri olanbu kitabxananın fondunda 200 min lövhənin olmasını təsdiq edirlər.[1] Bu kitabxana Aşurbanipalın "Nəsihət və məsləhət evi" adlanan sarayında yerləşirdi.

Təqribən b.e.ə. 669-cu ildə yaranmış bu kitabxana b.e.ə. 609-cu ildə Midiyalılar tərəfindən dağıdılmışdır.

Qədim dünya yazı materialı kimi daş kitabələrdən istifadə etdikdən sonra daha münasib yazı materialı icad etməyə müvəffəq oldular. Bir necə əsrlər boyu bütün dünyada yazı materialı kimi istifadə edilən "Papirusun" yaranması böyük mədəni hadisə idi. Papirus b.e.ə. dördüncü əsrdə qədim misirlilər tərəfindən yaradılmış, 4 min il bəşəriyyətə xidmət etmişdir.[2] Papirus və papirus üzərində yazılan kitablar bütün dünyanı gəzmiş, qiymətli xəzinə, milli sərvət olan biliyin elmin, mədəniyyətin yayılmasında bəşəriyyətə əvəzsiz xidmət etmişdir. Papirus dünya kitabçılığı tarixində bəşəriyyətə uzun illər boyu – kağızın kəşfinə qədərxidmət edən yazı materialı olmuşdur. Dünyada ən böyük kitabxanaların Misir, Yunanıstan, Roma kitabxanalarının yaranmasında papirusun böyük rolu danılmazdır.

---

1 *Горбочевский Б. Люди, книги, библиотеки. М., 1963, с. 13-14.*
2 *Azərbaycan kitabı (Biblioqrafiya). 3 cilddə, I cild, B., 1963, s. XIV.*





Qədim Misirlilər Nil çayının ətraflarında bitən papirus bitgisinin gövdəsini kəsici alət və mümkün qədər enli zolaqlara ayırırdılar. Sonra bu zolaqları Nil çayının lili ilə bir-birinə yapışdırıb bütöv bir səhifə düzəldirdilər. Bu cür səhifələr sərt olduqlarından kağız kimi bükmək mümükün deyildi. Onu xüsusi hazırlanmış oxlara oxşar ağacların üzərinə bükürdülər. Belə bükmələrin uzunluğu 100 metrə çatırdı. Məhz buna görədir ki, qədim misirlilər papirusdan hazırlanmış kitablara "lent-kitab" da deyirdilər. Bizə gəlib çatan ən böyük papirus bükməsinin uzunluğu 46 metr, eni 40 sm-dir. Misir çarı II Ramzes dövrünün salnamə toplusu olan bu qiymətli kitab London, Britaniya müzeyində saxlanılır. VII əsrdə Yunanıstana gətirilmiş papirus burada da böyük inkişaf yolu keçmiş, Yunanıstanda kitabçılıq işinin inkişafına və intişarına böyük təkan vermişdir. Papirus təxminən VIII əsrə qədər, yeni kağızın ixtirasına qədər bütün ölkələrdə istifadə də olmuşdur.

Misir papirus ustaları papirusu yalnız ölkə daxilində istifadə üçün yox həm də xarici ölkələrə ixrac etmək üçün hazırlayırdılar. Papirus istehsal etmək üçün Misirdə böyük fabriklər fəaliyyət göstərirdi. Ən böyük papirus fabrikləri Misirin İsgəndəriyyə şəhərində idi. Buradan Romaya, Yunanıstana və şərq ölkələrinə İsgəndəriyyə papirusu göndərirdilər.

Qədim dünyanın 7 möcüzəsindən biri olan "İsgəndəriyə" kitabxanasının yaranması və inkişafı bilavasitə papirus kitabların hazırlanması ilə əlaqədar olmuşdur. Bu kitabxananın əsası b.e.ə. III əsrdə qoyulmuşdur. Kitabxana iki hissədən ibarət idi. Birinci hissə müzeydə saxlanılırdı ki, burada 500 min nüsxə kitab var idi. İkinci hissə ziyarətgahda saxlanılırdı ki, burada da 150 min nüsxə kitab toplanmışdı.

Tarixi faktlardan məlum olduğuna görə, yunan hökmüdarları qədim dünyanın fəxri olan bu kitabxananın yeni ədəbiyyatla təmin edilməsinə böyük diqqət yetirirdilər. Kitabxana üçün kitablar təkcə Yunanıstandan deyil qədim dünyanın hər yerindən toplanırdı. Yunana hökmdarları kitabxanaya kitab almaq, kitabların üzünü köçürüb

çoxaltmaq üçün vəsait və mirzələr ayırırdılar. Milyona yaxın nadir və zəngin kitab fondu olan İsgəndəriyyə kitabxanası təxminən 10 əsr müddətində yeni eradan əvvəl III əsrdən bizim eranın yeddinci əsrinə qədər bəşəriyyətə xidmət göstərmiş, dünya mədəniyyətinin və elminin inkişafına böyük tövhələr bəxş etmişdir.

İsgəndəriyyə kitabxanasında saxlanılan kitabların əksəriyyəti papirus kitablar idi. Papirus kitabların şöhrət qazandığı bir dövrdə onun qüdrətli bir rəqibi meydana gəldi. Bu rəqib perqament oldu.

Perqament Kiçik Asiyanın Şimal qərbində qədim quldarlıq dövlətinin (b.e.ə. 133-283) mərkəzi şəhəri olan Perqam şəhərində b.e.ə II minillikdə yaranmışdır. Perqament qədim perqamlar tərəfindən heyvan dərisindən (inək, dana, qoyun, keçi və s.) hazırlanan yazı materialı idi.

Perqament papirusdan sonra qədim dünyada kağızın yaranmasına qədər ən çox işlədilən yazı materialı kimi məşhur olmuşdur.

Perqamın yaranması haqqında belə tarixi fakta isnad edirlər ki, perqamın o zamankı, hakimi II Evmen böyük bir kitabxana yaratmaq qərarına gəlir. Bu məqsədlə o qədim dünyanın bütün ölkələrində kitablar toplamaq, onların üzünü köçürtmək və öz kitabxanasını zənginləşdirmək istəyirdi. Kitabların üzünü köçürtdürüb çoxaltmaq üçün isə yazı materialı tələb olunurdu. Yazı materialı almaq üçün o Misir hökümətinə müraciət edir. Lakin Misir carı III Ptolomey Perqamada böyük bir kitabxananın meydana gələcəyindən və bununda İsgəndəriyyə kitabxanasının şöhrətini azaldacağından ehtiyat edərək Perqamaya papirus satmaqdan imtina edir. Məhz buna görə də Perqamlar papirusu əvəz edəcək yeni yazı materialı axtarışına başlayırlar.

Bu axtarış nəticəsiz qalmır. Perqament kəşf edilir.[1]

Perqament papirus bükmələrinə nisbətən daha böyük üstünlüklərə malik idi. Onu indiki kitabın səhifələri kimi qatlamaq, səhifələrin hər iki üzünə yazmaq, dəri səhifələri cilidləyib kitab halına

[1] *Горбочевский Б. Люди, книги, библиотеки. М., 1963, с. 24-25*





salmaq mümkün idi. Ona görə də, perqament yaxın müddət içərisində Yunanıstanda, qərb ölkələrində və dünyanın bir çox başqa ölkələrində geniş yayılmışdı.

Perqamentin kəşfi dünya kitab mədəniyyəti tarixində böyük hadisə hesab edilirdi. Ancaq perqament kitabların yeganə nöqsanı onun baha başa gəlməsi idi. Bir kitab hazırlamaq üçün çoxlu heyvan kəsmək lazım gəlirdi. Perqamentlə yazılıan kitabların olduqca baha başa gəlməsinə və yazı materialları almaq üçün ciddi maneələrin olmasına baxmayaraq Perqam çarı II Evmen dünyada məhşur olan zəngin bir kitabxana yaratmağa və bu kitabxana üçün xüsusi kitabxana binası tikməyə, onu dövrün tələblərinə uyğun təchiz etməyə müvəffəq olmuşdur. 200 mindən artıq kitabı olan Perqam kitabxanası qədim dünyanın ən böyük və zəngin kitabxanası kimi tarixə düşdü.

Perqamentdən yazı materilaı kimi təkcə Perqamda deyil, qədim şərq ölkələrində və avropa ölkələrində istifadə edilməyə başlandı. Elə ölkələr var idiki, orada papirus və perqamentdən paralel sürətdə istifadə edirdilər. Bir sıra şərq ölkələrində perqamentə daha çox üstünlük verilirdi. Beləliklə bütün dünyada papirusa nisbətən daha az yayılmasına və yazı materialı kimi daha az müddət işlənməsinə baxmayaraq perqament dünya kitab mədəniyyəti tarixində xüsusi rol oynamış, bəşəriyyətin mədəni tərəqqisinə əvəzsiz xidmət göstərmişdir.

Perqamentdən, qədim şərq ölkələrində olduğu kimi, Azərbaycanda da yazı materialı kimi uzun müddət istifadə edilmişdir.

B.e.ə. VI əsrin sonundan etibarən qədim Azərbaycan ərazisində geniş yayılmış "Zərdüşt" dininin müqəddəs kitabı 21 cilddən, 815 fəsildən ibarət olan "Avesta"nın 12 min inək dərisi üzərində yazılması haqqında tarixi qaynaqlarda məlumat var. Bu rəqəm nə qədər mübaliğəli olsa da, hər halda "Avesta" nın çox qədim, həcm etibarı ilə çox böyük abidə olduğunun və qədim Midyada da yazı materialı kimi perqamentdən geniş istifadə edildiyinə parlaq sübutdur.

Görkəmli kitabşünas alim C.Qəhrəmanov müəyyənləşdirmişdir ki, Azərbaycanda perqament üzərində əlyazma kitabının tarixi 1400 ildən artıqdır.[1] Azərbaycanda perqament üzərində yazılmış kitablara misal olaraq "Avesta" və "Kitabi Dədə-Qorqud" abidələrini göstərə bilərik.

Perqament bir yazı materialı olaraq papirusu məğlub etdiyi kimi hamımızın tanıdığı kağız da perqamentə qalib gəldi. Bəşəriyyət insan yaddaşı olan kitabı istehsal edib yaymaq üçün daha küyfiyyətli yazı materialı kimi daha əhəmiyyətli, kitabı yazmaq, yaymaq üçün böyük üstünlüklərə malik olan kağızı yaratmağa müvəffəq oldu.

İlk kağızı cinlilər ixtira etmişlər. İki min il bundan əvvəl Avropada yunanlar, romanlar, fransızlar və b. Misir papirusundan istifadə etdikləri zaman cinlilər kağızdan istifadə edirdilər.

Kağız ilk dəfə II əsrdə 103-cü ildə Cində Tsay Lun tərəfindən bitgi liflərindən hazırlanmışdır.[2] Çinlilər kağız düzəltməyin sirrini uzun müddət gizli saxlamışlar. II əsrdə ixtira olunan kağız ancaq VI əsrdə Yaponiyaya, VI-VIII-ci əsrlərdə Asiyanın digər ölkələrinə keçmişdir. Kağızın Asiyadan Avropaya keçməsində ərəblər mühüm rol oynamışlar. 704-cü ildə ərəblər orta Asiyanın Səmərqənd şəhərini işğal etdikdən sonra, burada kağız istehsalının sirrini öyrənib öz ölkələrində və sonralar işğal etdikləri ölkələrdə - Siciliyada, İspaniyada, Suriyada və s-də yaymağa başladılar. Ərəb tacirləri avropada digər şərq malları ilə yanaşı kağızda satırdılar. X-XIII əsrlərdən başlayaraq Avropanın bir çox ölkələrində: İtalyada, Fransada, İspaniyada, Almaniyada kağız istehsal edən kağız dəyirmanları fəaliyyətə başladı. Təxminən 10-cu əsrdən kağız istehsalı Rusiyada da məlum idi.

Beləliklə, kağız kağızın kəşfinə qədər mövcud olan bütün yazı materiallarını sıxışdırıb aradan çıxardı. Artıq orta əsrlərdə dünyanın

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik, I hissə. B., 2004, s. 48*

[2] *Azərbaycan Sovet ensiklopediyası. 10 cilddə, V cild, B., 1981, s. 203.*





bütün ölkələrində, o cümlədən Azərbaycanda da kağızdan əsas yazı materialı kimi geniş istifadə edilirdi.

Kağız kəşfi onun mövcud yazı materiallarını sıxışdırıb aradan şıxarması, həmçinin kağız üzərində yazılan kitabların ucuz başa gəlməsi mütaliə etməyin bir yerdən başqa yerə aparılmasının əlverişli olması onun cəmiyyətdə mövqeyini daha da möhkəmləndirdi. Kağızın kitabların hazırlanmasında rol və əhəmiyyətinin artması, dünyada vahid yazı materialı kimi geniş istifadə edilirdi.

Kağızın kəşfi onun mövcud yazı materiallarını sıxışdırıb aradan çıxarması, həmçinin kağız üzərində yazılan kitabların ucuz başa gəlməsi, mütaliə etməyin bir yerdən başqa yerə aparılmasının əlverişli olması onun cəmiyyətdə mövqeyini daha da möhkəmləndirdi. Kağızın kitabların hazırlanmasında rol və əhəmiyyətinin artması, dünyada vahid yazı materialı kimi qələbəsi kitabın mədəniyyətin inkişafının əsas və əvəzedilməz vasitəsinə çevrilməsi, onun ümumdünya və ümumbəşəri mövqelərini daha da möhkəmləndirdi.

Həmçinin dünyada gedən inkişaf prosesi yeni istehsal müəssisələrinin, zavodların, fabriklərin meydana gəlməsi, ləngdə olsa, texniki tərəqqinin baş verməsi, ölkələr arasında ticarət əlaqələrinin, ticarət gəmiləri vasitəsilə bir ölkədən digər ölkələrə mal daşınmasının genişlənməsi - bütün bunlar beynəlxalq əlaqələrdə və ticarət münasibətlərində sənədləşmə sisteminin formalaşmasına, və beləliklə də savadlı yazı-pozu ilə məşğul olan insanlara-mirzələrə böyük tələb əmələ gətirmişdi. Orta əsrlərdə mədəniyyət sahəsində baş verən qlobal dəyişikliklər, məktəblərin, universitetlərin meydana gəlməsi, tələbə kontingentlərinin çoxalması ilə kitaba tələbat da çoxalmışdı. Həmçinin dini müəssisələrdə: kilsələrdə, monastrlarda, məscidlərdə, dini məktəblərdə dini məktəblərdə dini təbliğ etmək, dini dərsləri keçmək, savadlı dindarlar hazırlamağa da böyük tələbat yaranmışdı. Cəmiyyət bu tələbləri ödəmək qarşısında dayanmışdı.

Ona görə də cəmiyyətin bilavasitə inkişafına xidmət edən dini və dünyəvi məktəblərdə, universitetlərdə, dini müəssisələrdə kitab

tərtib etmək onun özünü köçürüb çoxaltmaq üçün xüsusi peşə növü "mirzələr" meydana gəlmişdi. Mirzələrlə yanaşı kitabın üzünün çoxaldılmasında dünyəvi və dini məktəblərin tələbə və müəllimləri, monarxlar da yaxından iştirak edirdilər.

Əlbəttə bu, mühüm işlərin kitabçılıq problemini kitabın yazılıb, yayılmasına müsbət təsir göstərməsinə baxmayaraq cəmiyyətin kitaba olan tələbini ödəyə bilmirdi. Yəni daha ciddi tədbirlərin görülməsi vəzifələri ortaya çıxardı. Məhz buna görə də, orta əsrlərdə dünyanın bütün ölkələrində kitab üzü köçürən, onun tirajını artıran emalatxanalar meydana gəldi. Cəmiyyətin kitaba olan tələbatının ödənilməsində bu emalatxanalar böyük rol oynadı. Əlyazma kitabları təhsil sistemində, elmi araşdırmalarda, mədəniyyətin inkişafında mühüm vasitəyə çevrildi. Əlyazmaları toplayıb saxlayan böyük kitabxanalar meydana gəldi.

Dünyada kağız istehsalı, kağız fabriklərinin texniki avadanlığı təkmilləşdirdiyi kimi, kitablar da yeniləşdi, onun forma və məzmununda da böyük keyfiyyət dəyişikliyi baş verdi. Lakin əlyazma kitabları çoxdan idi ki, cəmiyyətin kitaba olan tələbatını ödəyə bilmirdi. Əlyazma kitablarının baha başa gəlməsi, tirajının olduqca azlığı cəmiyyətin kitaba olan tələbatını ödəməkdən çox-çox uzaq idi.

Artıq XIV əsrin ortalarından Qərbi Avropada baş verən İntibah cəmiyyətin bütün sahələrinə öz təsirini göstərməyə başlamışdı. Yeni təhsil ocaqları yaranır, universitetlər açılır, kitabxanalar təşkil edilirdi. Bütün təhsil və mədəniyyət müəssisələrinin və cəmiyyətdə miqdarı sürətlə artan ziyalıların kitaba böyük tələbatı formalaşmağa başlamışdı. XIV əsrin ortalarında İtalyanın şəhərlərində böyük İntibah dövrünün ilk şölələri görünməyə başladı.

XV əsrdə isə Qərbi Avropanın bütün şəhərlərində İntibahın təsiri daha geniş miqyasda özünü göstərməyə başladı. Şəhərlər sürətlə inkişaf edir, şəhər əhalisinin sayı sürətlə artırdı. Şəhərlərdə sənaye, ticarət, mədəniyyət inkişaf edir, təhsil müəssisələri yaranırdı.





Getdikcə məhvə gedən feodalizmin xarabalıqları üzərində kapitalist münasibətləri yaranıb, sürətlə inkişaf edirdi. Yeni meydana gələn burjua sinfi, feodal-kilsə ideologiyasına qarşı çıxırdı. Elmin, incəsənətin, ədəbiyyatın inkişafına kömək edən dünyəvi mədəniyyət tədricən inkişaf edib formalaşırdı. Bütün bunlar bizi əhatə edən mühit haqqında insan biliyinin zənginləşməsini ağıl və zəkanın güclənməsini yeni-yeni biliklər əldə olunmasını tələb edirdi.

Cəmiyyətdə baş verən İntibah mədəni tərəqqi, yeni elm və təhsil müəssisələrinin açılması, mədəniyyət orqanlarının çoxlaması, ziyalıların sayca artımı kitaba əmələ gələn tələbatı daha da artırmışdı. Əlyazma kitabları bu böyük tələbatı ödəyə bilmədiyindən cəmiyyət yeni daha münasib, ucuz başa gələn, kütləvi kitab istehsalını təmin edən kitab inqilabı ərəfəsində idi.

Bu böyük vəzifəni yerinə yetirmək, kitaba olan tələbatı ödəmək üçün ciddi elmi araşdırmalara başlamışdı. Bu araşdırmalar uzun müddət davam etsə də nəticə sevindirici olmuş, XV əsrin ikinci yarısında dünyada ilk dəfə olaraq çap maşını ixtira edildi.[1] Bu ixtiranın müəllifi almaniyalı İohan Qutenberq oldu. İ.Qutenberqə qədər XIV əsrin axırlarında ksiloqrafiya ilə kitab çap etdirmək geniş yayılmışdı. Ksiloqrafiya ilə bir çox kitablar, kitabcalar, kartlar çap edilmişdi. Amma ksiloqrafiya müasir dövrün tələbatını ödəməkdən çox-çox uzaq idi.

Məhz buna görə də ksiloqrafiyanın mənfi cəhətlərini yaxşı bilən İ.Qutenberq yeni çap maşını ixtira etməyə müvəffəq oldu. O, 1445-ci ildə özünün ixtira etdiyi maşınla "Dəhşətli məhkəmə" 1449-cu ildə isə "Donatı" kitablarını nəşr etdi. İ.Qutenberqin çap etdiyi kitablar içərisində 42 və 36 sətirlik "Tövrat" kitabı ən qiymətli nəşr hesab edilir. O bu kitabları 200 nüsxə tirajla çap etmişdi. Avropada ilk dəfə mətbəə şriftlərinin tökmə üsulunu hazırladı və o bu işi çox yaxın müddətdə daha da təkmilləşdirərək 1456-cı ildə məşhur nəşr hesab edilən 42 səhifəlik Bibliyanı çap etdi.

---

[1] *Немировский Е., Горвачевский Б. Рождение книги. М., 1957, с. 36-38.*

İ.Qutenberq bu böyük kəşfi, onun ixtira etdiyi çap maşınının texniki mükəmməlliyi onun bütün dünyada sürətlə yayışlmasına səbəb oldu. Artıq XV əsrin axırlarında Qərbi Avropanın şəhərlərində 250-dən artıq tipoqrafiyalar fəaliyyət göstərirdi.

Kitab çapının başlanması Qərbi Avropa ölkələrində olduğu kimi, tezliklə dünyanın digər ölkələrinədə yayılmağa başladı. Kitab çapı ilk dövrlərdə Qərbi Avropa ölkələrindən: Fransada, İtalyada, İspaniyada, İngiltərədə geniş yayılırdı başlandı. Avrpoanın arxasınca Amerika Birləşmiş Ştatlarında və şərq ölkələrində də kitab çapı böyük inkişaf tapdı.

Rusiyada da Qərbi Avropa ölkələrinə nisbətən gec də olsa kitab çapına xüsusi diqqət yetirməyə başlanmışdı.

Rusiyada kitab çapına 1563-cü ildə ilk rus çapçıları İvan Feyoderov və Pyotr Mistisevdir tərəfindən başlanmışdır. O dövrdə kitab çapına xüsusi xüsusi əhəmiyyət verən Moskva rus çarı İ.V.Qroznının göstərişi ilə Maskva şəhrində çap sarayı tikilmişdi. Məhz ilk rus çap kitabı "Apostol" 1 mart 1564-cü ildə bu sarayda çap edilmişdi.[1]

Öz dövrünün görkəmli maarifpərvər şəxsiyyətləri olan İ.fyodorov və P.Mistislavic Maskvadan sonra öz çapçılıq fəaliyyətlərini 1569-cu ildən Litvada (Zabludov şəhərində) 1574-cü ildə Ukraynada (Lvov şəhərində) davam etdirmişdir.

Rusiyada kitab çapının əsasını qoyan İvan Fyodorovun zəhməti hədər getmədi. XV-ci əsrin ikinci yarısından başlayaraq Rusiyada kitab çapı böyük vüsət aldı və dövlət əhəmiyyətli bir işə çevrildi. Dini kitablarla yanaşı olaraq dünyəvi kitabların, elmi əsərlərin bədii əsərlərin nəşrinə xüsusi diqqət yetirməyə başladı.

Qərb ölkələrinin arxasınca şərq ölkələrində də XVI-ci əsrdən başlayaraq kitab çapı böyük vüsət aldı. Yaponiyada, Cində, Ərəb ölkələrində, Türkiyədə, İranda böyük çap sarayları yaranmağa başlandı.

---

[1] *Немировский Е., Горбачевский Б. Рождение книги. М., 1957, с. 46.*





Şərq ölkələri icərisində Azərbaycaında kitabçılıq işi sahəsində özünə məxsus qədim və zəngin kitabçılıq tarixi vardır. Bütün dünyada böyük şöhrət qazanan, dünyanın böyük kitabxanalarının, kitab kolleksiyalarının bəzəyi olan, bəşəriyyətin kitab mədəniyyətinin inkişafına böyük tövhələr bəxş edən Azərbaycan kitabı, qərbin kitablarına nisbətən uzun bir dövr ərzində əlyazmaları şəklində inkişaf edib yayılmışdır. Azərbaycana çap maşını XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində gəlib çıxmışdır.

Ancaq Azərbaycan çap kitabının tarixi xeyli əvvəllərdən başlanır. Belə ki, Azərbaycan çap kitabları Azərbaycanda deyil xarici ölkələrdə nəşr edilmişdir. XVII əsrdə Rusiyanın beynəlxalq siyasətində şərq məsələsi mühüm yer tuturdu. Peterburqda 1722-ci ildə Ərəb hürüfatı ilə ilk mətbəə yaradıldı. Bu mətbəə öz qarşısında şərq dillərində təbliğat xarakteri ədəbiyyat nəşr etməyi məqsəd qoymuşdu.

1722-ci ildə I Pyotr Volqa cayı ilə cənuba yürüş edərək, dərbəndə qədər gəlib çatmışdı. Bu zaman xüsusi qayıqda "Üzən türk mətbəəsi" təşkil edilmişdi. Məhz bu mətbəənin çap etdiyi ilk kitab, azərbaycanlılara müraciətdən ibarət "Manifest" idi. Kitab tarixçilərimiz bu "Manifesti" Azərbaycan dilində ilk çap kitabı hesab edirlər.[1]

1780-cı ildə isə "Peterburqda cəmi Rusiya imperiyasında əyalətlərin nizam və tərtibi üçün icad və imzalanmış 204 sahifədən ibarət qanunu cedid" kitabı idi.[2]

XIX əsrin ikinci yarısından başlayaraq Şimali Azərbaycanla yanaşı Cənubi Azərbaycanda da kitab çapı sahəsində mühüm işlər görülməyə başlamışdı. Qərb ölkələrinə nisbətən o dövrdə şərq ölkələrində litoqrafiya (daş çapı) üsullarından istifadə edilirdi. 1812-ci ildə Təbrizdə ilk litoqrafiya dərgahı qurulmuş və dünyəvi kitabların

---

[1] *Azərbaycan kitabı (Biblioqrafiya) üç cilddə. I cild. B., 1963. s 26.*
[2] *Yenə orda s. 27*

nəşrinə başlanmışdı Daha sonra Təbrizdə 1817 və 1824-cü illərdə daha iki litoqrafiya dərgahı işə salınmışdı.[1]

Azərbaycana çap maşını XIX əsrin axırı - XX əsrin əvvəllərində gəlib çıxmış, kitab çap edə bilən mətbəələr yaranmışdır. Belə mətbəələr əsasən qəzetləri çap etmək üçün yaradılmasına baxmayaraq müxtəlif sənədlər, kitabcalar və böyük həcmli kitablarda çap edirdilər. Keçən əsrin axırlarına yaxın Bakı, Şamaxı, Şuşa, Gəncə və başqa şəhərlərdə ilk mətbəələr, litoqrafiyayalar təşkil edilməyə başlanmışdı. Ilk mətbəələrdən biri Şuşa şəhərində təşkil edilmişdi. Artıq 1889-cu ildə Bakıda baş mətbəə və bir litoqrafiya, 1900-cu ildə isə 16 mətbəə fəaliyyət göstərirdi.[2]

XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən mətbəələr içərisində "Qeyrət", "Kaspi", "Şirkət", "Məktəb" və s. mətbəələrin fəaliyyəti daha geniş olmuşdur. Bu mətbəələr XX əsrin əvvəllərində Azərbaycanda çap kitabının yaranıb formalaşmasında böyük rol oynamış, Azərbaycan elminə, maarifinə və mədəniyyətinə dair çox qiymətli kitablar nəşr etmişlər.

XX əsrin əvvəllərində Bakıda 1906-cı ildən fəaliyyətə başlayan Orucaov qardaşları nəşriyyatı Azərbaycanda ilk nəşriyyat kimi nəşriyyatçılıq fəaliyyətinin təkmilləşməsində yaxından iştirak etməklə nəşriyyat işinin gələcək inkişafına böyük təkan vermişdir. Orucaov qardaşları nəşriyyatı çap etdiyi kitabların tirajının 500-2000 nüsxə arasında olması o dövr üçün çox böyük rəqəm idi.bu nəşriyyat təkcə kitabları nəşr etməklə kifayətlənmirdi.

Onların yayılmasında ciddi fikir verir kitab ticarəti mağazaları açır, kitab ticarəti kataloqu buraxır, dövrü mətbuat səhifələrində yeni kitabların reklamlarını dərc etdirirdi.nəşriyyatın 1912-1914-ci illərdə nəşr etdirdiyi "Nəşriyyat və kitab ticarəti" kataloqundan məlum olur ki, bu nəşriyyat 300-ə qədər kitab, kitabca, jurnal və qəzet çap etdirmişdir ki, bu da o dövr üçün çox böyük rəqəm hesab edilirdi.[3]

---

1 *Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri. B. 1989, s. 32.*
2 *Azərbaycan kitabı (Biblioqrafiya) üç cilddə, I cild. B., 1963, s 39.*
3 *Горбочевский Б. Люди, книги, библиотеки. М., 1963, с. 54.*





Beləliklə, Azərbaycan kitabının keçdiyi bu şərəfli yol bir daha təsdiq edir ki, Azərbaycan kitabı xalqımızın tarixi inkişaf yolunun yolcusu olmuş, Azərbaycan mədəniyyətinin yolunu işıqlandırmış, təşəkkül tapıb formalaşmasında, maddi və mənəvi mədəniyyətimizin qorunub saxlanmasında, nəsildən-nəslə ötürülməsində yaxından iştirak etmişdir.

Biz yuxarda, qısa da olsa, bəşər mədəniyyətinin inkişafınında kitab çapının meydana gəlib, bütün dünya ölkələrində yayılmasının qısa xülasəsini verdik.

Dünyada kitab çapının meydana gəlib, tədricən bütün dünyanı əhatə etməsi böyük mədəni inqilab olmaqla yanaşı həm də böyük informasiya inqilabı idi. Məhz bu inqilab bəşəriyyəti xoşbəxt və işıqlı gələcəyə aparan böyük sosial bir hadisə idi.

Əgər yazı insan dəstələrini cəmiyyətə çevirdisə, kitab çapı informasiyanın güclü amili kimi insanlara azad cəmiyyət qurmağa, demokratiyaya doğru irəliləməyə, elmə, təhsilə, mədəniyyətə yiyələnməyə güçlü bir vasitə kimi şərait yaratdı.

Kitab çapını bəşəriyyətin sosial-siyasi və mədəni həyatında böyük hadisə kimi qiymətləndirən dünyanın görkəmli mütəfəkkirləri kitab çapının başlanmasını informasiyanın – biliyin kütləvi şəkildə yayılmasında böyük hadisə, bəşər mədəniyyətinin gələcək tərəqqisi üçün mühüm amil hesab etmişlər. Karl Marks kitab çapını burjuaziyanın inkişafının əsas şərtlərindən biri hesab edirdi.

A.Eynşteyn deyirdi: "Bir insanın fikirləri kitabın köməyi ilə milyonlarla insana çatdıra bilər."[1] Ş.Monteskiyo kitabı keçmişi öyrənməyin əsas amili kimi qiymətləndirək deyirdi. "Keçmiş həyatını heç vaxt geri qaytara bilməzsən, amma bir kitabın köməyi ilə dünyanın ən böyük alimlərinin ömür boyu əldə etdikləri təcrübəni qazana bilərsən".[2]

---

1 *Əli Polad. Üç min ilin hikməti. B. 2007, s 330.*
2 *Yenə orada s. 333.*

Görkəmli alim S.Smayls cəmiyyət tarixini öyrənmək üçün həmin cəmiyyətdə yaranan kitabların öyrənilməsini tövsiyə edərək yazırdı: "Bir cəmiyyətin mədəniyyətini, incəsənətini və fəlsəfəsini öyrənmək üçün o cəmiyyətin kitablarını oxuyub öyrənməliyik".[1] Böyük filosof Sokratın təbirincə "Kitab mütaliəsi bir cəmiyyətin gündəlik vərdişinə çevrilsə, həmin cəmiyyət xoşbəxt olar".[2]

Bəli, doğrudan da, kitab çapı kitabın tirajını çoxaltmaqla kitabı bütün cəmiyyət üzvlərinin malına çevirdi ki, bu da cəmiyyətin xoşbəxtliyi kimi xarakterizə oluna bilər.

Kitab çapının başlanması özünün bir sıra xüsusiyyətləri ilə nəzər-diqqəti cəlb etməklə, bəşər mədəniyyətinin gələcək inkişafına bir çox qiymətli töfhələr vermişdir.

- Kitab çapının başlanması kitabı ayrı-ayrı siyasi, ictimai, dini və s. qurumların və təşkilatların inhisarından çıxardaraq ümumxalq malına çevirdi.

- Kitabın mütaliə dairəsini daha da genişləndirməklə, onun tirajının istənilən qədər artırmağa şərait yaratdıki, bu da onun kütləviliyini artırdı.

- Əlyazma kitabları olduqca baha başa gəldiyindən onu əldə etmək cəmiyyətin kasıb təbəqəsinə müyəssər olmurdu. Kitab çapı bu böyük əksikliyi aradan qaldırdı.

- Kitab çapı təhsilin dini xarakter daşımasının qarşısını almaqla onun dünyəviliyinin geniş yayılmasına, demokratikləşdirilməsinə kömək etdi. Bilavasitə təhsilin təkmilləşməsinə xidmət edən dərsliklərin çapının artması, yeni-yeni dərsliklərin meydana gəlib formalaşması, təhsil sisteminin keyfiyyətcə yüksəlməsinə olduqca həlledici təsir göstərdi.

- Kitab çapının başlanması kitabı dinin (kilsənin) inhisarından çıxarmaqla onun dünyəviləşməsi üçün şərait yaratdı.

---

[1] *Yenə orda s. 334*
[2] *Yenə orda s. 335*





- Kitab çapı kitabı cəmiyyətin bütün üzvlərinin malına çevirməklə kitabın istifadə dairəsini xeyli genişləndirdi. Cəmiyyətdə kitab mütaliəsi sahəsində mövcud olan sosial ədalətsizliyin aradan qaldırılmasına böyük təsir göstərdi.

- Kitab çapının başlanması dünyada elmi biliyin yayılmasında, elmi tədqiqat materiallarının geniş tədqiqatçılar auditoriyasına çatdırılmasında, informasiyanın maddiləşməsində və daha geniş oxucu kütləsinin malına çevrilməsində mühüm rol oynadı.

- Kitab çapı iqtisadi inkişafı təmin edən, texniki tərəqqinin yayılmasında yeni texnologiyaya əsaslanan, yeni istehsalın təbliğində, yeni elmi coğrafi kəşflərin ümumiləşdirilməsinədə mühüm əhəmiyyət kəsb etdi.

- Kitab çapı nəşrlərin tipini, növünü daha da təkmilləşdirməklə, milli dillərdə ədəbiyyatın genişlənməsinə, orfoqrafiya qaydalarının təkmilləşməsinə, kitabın geniş kütlələrin məişətinə daxil olmasına şərait yaratdı.

- Çap kitabı ictimai şurun müxtəlif sahələrinin və dünya görüşünün formalaşmasına kömək etməklə sosial və idealoji mübarizənin əsas silahına çevrildi. Kitab çapı mənəvi mədəniyyətin formalaşmasında, cəmiyyətin əxlaq normalarının təkmilləşməsində yaxından iştirak etməklə elmi biliyə can atan insanların mühüm köməkçisinə çevrildi.

- Kitab çapı ayrı-ayrı ölkələr arasında elmi və mədəni əlaqələrin yaranmasına və inkişafına ciddi kömək etməklə elmi və mədəni inteqrasiya prosesini daha da gücləndirməklə bəşəri mədəniyyətin formalaşmasına kömək etdi.

- Çap kitabı ümum bəşəri mədəniyyətin formalaşmasına, dünya xalqlarının mədəniyyətlərinin inteqrasiyasına ümumbəşəri mədəni və mənəvi dəyərlər sisteminin yaradılamsına və yayılmasına olduqca həll edici təsir göstərə bildi ki, bu da kitabı dünya mədəniyyətinin güclü silahına çevirdi.

- Əgər bəşəriyyət yazını kəşf etməklə birinci informasiya inqilabını etmişdisə, kitab çapını ixtira etməklə də ikinci informasiya inqilabını etdi ki, bu inqilab informasiyanın maddiləşməsinə və qloballaşmasına mühüm təsir göstərdi.

Kitab çapı tarixində xüsusi mərhələ təşkil edən XV əsr, dünya kitab mədəniyyətinin inkişafına, kəmiyyətcə müsbət təsir göstərdiyi kimi kitabın keyfiyyətcə yeni zirvəyə qalxmasına, kitabın yeni tiplərinin formalarının meydana gəlməsinə kitabın məzmununda yeni elmi fikirlərin, tədqiqatların, kəşflərin geniş yer almasına səbəb oldu.

Bəşər mədəniyyətinin qiymətli yadigarı olan kitabın tirajının sürətlə artımı, təkcə XV əsrdə 12 min adda 12 milyon nüsxə tirajla kitabın çap edilməsi qarşıya yeni vəzifə: nəşr edilən bu qimətli məhsulun yayılması, toplanıb saxlanması, gələcək nəslə ötürülməsi vəzifəsini qoyurdu. İntibah dövrünü yaşayan avropa cəmiyyəti bu mühüm vəzifənin yerinə yetirilməsində hələ cəmiyyətdə az sayda olan kitabxanaları görürdü.

Kitabxanalar isə yeni şəraitə müvafiq öz işini yenidən qurmalı, bilavasitə cəmiyyətdə baş verən kitab axını prosesinə uyğunlaşmalı, yeni bilik mənbəyi, fikir gəlməsi, bir nəslin digər nəslə vəsiyyəti olan kitab abidələrini əldə edib qoruyub saxlamaq bacarıqları, vərdişləri əldə etməli yeni iş üsulları və metodları ilə zənginləşməli idilər.

İntibah dövrünün ab-havasını yaşayan kitabxanalar mədəniyyət və təhsil müəssisələrinin köməyindən istifadə edərək kitabxana işini zamanın axarına salmağa müvəffəq oldu. Mövcud kitabxanalar əhalinin geniş təbəqəsinə xidmət etmək üçün zəngin kitab fondları yaratdılar. Bütün Qərbi Avropa ölkələrində yeni kitabxanalar açmaq üçün hərakat başlandı.





# II FƏSİL
# DÜNYA KİTABXANALARININ ŞUMERDƏN ZƏMANƏMİZƏ QƏDƏR KEÇDİYİ İNKİŞAF YOLU *

## 2.1. Kitabxanaların meydana gəlməsi və təşəkkülü. Qədim Şərq ilk kitabxanaların vətənidir

Kitabxana və cəmiyyət probleminə tam aydınlıq gətirmək üçün kitabxanaların meydana gəlməsi və tədricən inkişaf edib formalaşması tarixinə nəzər salmaq, onların cəmiyyət quruculuğundakı tutduğu yeri, əlaqələrini, əhəmiyyət və vəzifələrini öyrənmək zərurəti meydana çıxır.

Tarixçilərin – mədəniyyət və kitabxana tarixçilərinin uzun müddətli araşdırmaları nəticəsində məlum olmuşdur ki, ilk kitabxanaların yaranması bəşəriyyətin inkişafının svilizasiya dövrünə təsadüf edir.

Dünyada ilk kitabxananın hansı dövrdə və hansı ölkədə meydana gəlməsi haqqında fikir söyləmək olduqca çətindir. Dünya tarixçilərinin tarixə qədərki qədim və antik dövrə dair apardıqları tədqiqatlara, irəli sürülən ümumiləşdirilmiş elmi fikirlərə əsaslanaraq demək olar ki, kitabxanaların tarixi də yazının və kitabın tarixi qədər qədimdir. Bəşəriyyətin yaddaşı olan kitabların meydana gəlib çoxalması, tədricən cəmiyyətin mənəvi həyatında mühüm mövqe tutmasından asılı olaraq kitabın tirajı tədricən çoxalmış, kitabxanaların ilk rüşeymi olan kitab kolleksiyaları yaranmışdır.

---

* *Prof. Abuzər Xələfovun Azərbaycanda kitabxana işinin tarixinə dair əsərləri 3 hissədə ("Azərbaycanda kitabxana işinin tarixi. Dərslik, I hissə, B., 2004, 365 s.; "Azərbaycanda kitabxana işinin tarixi. Dərslik, II hissə, B., 2007, 551 s"; "Azərbaycanda kitabxana işinin tarixi, Dərslik, III hissə, B., 2010, 431 s.) çap edildiyindən həmin materiallar bu fəsilə daxil edilməmişdir.*

Cəmiyyət inkişaf etdikcə belə kitab toplularına – kolleksiyalarına böyük tələbatın artması kitabxanaların meydana gəlməsinə səbəb olmuşdur. Kitabxanaların yaranması bəşəriyyətin ən böyük kəşfi olan yazının və kitabın yaranması ilə sıx əlaqədar olduğundan kitabxana tarixini ancaq yazının və kitabın tarixi ilə, kitabın yaranması üçün istifadə edilən yazı materiallarının tarixi ilə əlaqədar öyrənmək zəruridir. Bəşəriyyət kitabı yaratmaq üçün yazı materialı kimi daşdan, ağacdan, tunc və mum lövhələrdən, gildən, papirusdan, perqamentdən və nəhayət kağızdan istifadə etmişdir.

Beləliklə, tarixəqədərki dövrlərdən başlayaraq zəmanəmizə qədər daş, ağac, tunc və mum lövhələr, gil (kərpic), papirus, perqament və kağız üzərində yazılmış kitablar saxlayan kitabxanalar mövcud olmuşdur.

Tarixdə ən cox yayılmış kitabxanalar gil lövhələr, papirus, perqament və kağız üzərində yazılmış kitabları saxlayan kitabxanalardır.

Dünyada ticarətin genişlənməsi, beynəlxalq ticarətin meydana gəlməsi və inkişafı, sənədləşmə aparılmasına, uçot və hesabat işləri üçün sənəd toplularına böyük ehtiyacın yaranması kitaba və onun toplanmasına böyük tələbat əmələ gətirmişdi. Həmçinin cəmiyyət tərəfindən kitabın qiymətli maddiləşmiş bilik mənbəyi kimi qəbul edilməsi, kitab kolleksiyalarının, kitab saxlayıcıların yaranmasını mühüm bir məsələ kimi ortaya atmışdı. Bütün bunlar isə öz növbəsində kitabı toplayıb, saxlayan müəsissələrin-kitabxanaların yaranmasını zəruri etmişdi. Beləliklə, kitabxana insanların informasiyaya-biliyə, təbiət və cəmiyyət hadisələrini daha dərindən dərk etməyə can atdığı tarixi dövrdə meydana gəlmişdir. Tarixdə bu dövr Vavilon-xaldeo-Misis dövrü kimi məşhur olmuşdur. İlk kitabxanaların meydana gəlməsi, yazılı sənədlərin, kitabların toplanması, qorunması və insanların istifadəsinə verilməsi, bəşər cəmiyyətinin həyatında böyük dəyişikliklərə səbəb olmuş, informasiya daşıyıcılarının gələcək nəsillərə ötrülməsinə şərait yaratmışdır.





Kitabxanaların ilk funksiyası əlyazma materiallarını və çap əsərlərini və s. toplamaq, yəni fond yaratmaq funksiyası olmuşdur. İlk kitabxanalar yarandığı gündən onu yaradan şəxslərin, insan qruplarının, sosial təşkilatların üzünə açıq olmuş, toplanmış fonddan onu yaradan insan qrupları, daha geniş mənada, bütövlükdə cəmiyyət üzvləri geniş istifadə etmişlər. Məhz bu ümumi açıqlıq kitabxanaların yarandığı tarixi şəraitlə, mühitlə əlaqədar olmuş insanların informasiya tələbatı ilə bağlı olmuşdur. İlk kitabxanaların az və ya çox miqdarda oxucu qrupuna xidmət etməsi, onların daha böyük sosial əhəmiyyət kəsb edən ikinci funksiyası xidmət funksiyasının yaranmasını təmin etmişdir. Zaman keçdikcə, cəmiyyətin mədəni səviyyəsi yüksəldikcə, cəmiyyətin idarə edilməsində sənədə və kitaba tələbat artdıqca, sənədləri və kitabları toplamaq, qoruyub saxlamaq, onlardan istifadə işini təşkil etmək cəmiyyətin əsas tələbatına çevrilmişdi.

Məhz buna görədir ki, cəmiyyət öz sosial və mədəni tələbatını həyata keçirmək üçün kitabxanaların yaradılmasının təşəbbüskarı və hamisi olmağa başladı.

Erkən qədim dünya mədəniyyətinə dair son elmi tədqiqatlar təsdiq etmişdir ki, b.e.ə. III minillikdən əvvəl yaranan və b. e.ə. 100-cü ilinə qədər biri-birini əvəz edən dövlətlər (Şumer, Akkad, Babil, Assuriya və s.) yüksək və sabit mədəniyyətə malik olmaqla svilizasiyanın inkişafına qiymətli tövhələr vermişlər. Bu ölkələr içərisində Şumer mədəniyyəti xüsusi yer tutur.

### 2.2. Şumerlər ilk kitabxanaların beşiyidir

Dünyada ilk kitabxanaların vətəni Qədim Şərq olmuşdur. Erkən qədim dünya mədəniyyətinə dair son elmi-tədqiqatlar təsdiq etmişdir ki, ilk kitabxanalar b.e.ə. III minillikdə fars körfəzindən Şimalda Dəcələ və Fərat çaylarının arasında yerləşən (indiki İraqın ərazisində) dünya Svillizasiyasının beşiyi olan Şumerdə meydana gəlmişdir.[1]

---

[1] *Джесс Х. Шира. Введение в библиотековедение М., 1983, с.17.*

Təxminən üç min il bundan əvvəl Şumerin ərazisində Kış, Uruk, Uc, Laqaş və s. dövlətlər yaranmış, sinifli cəmiyyət meydana gəlmişdi.

B.e.ə III minilliyin əvvəllərində Şumer dili Mesopotamyanın qədim dövlətlərinin rəsmi dili olmuşdur.[1] Son zamanlar Şumer problemi öz aktuallığı etibarilə dünya alimlərinin diqqətini daha çox cəlb edir. Heç də təsadüfü deyil ki, artıq keçən əsrdə dünya tarixində yeni bir elm sahəsi Şumerşünaslıq yaranmışdır. Dünya şumerşünasları belə hesab edirlər ki, yer üzərində tarix elminə məlum olan ən qədim xalq Şumerlərdir. Şumerlər ilk bəşər mədəniyyətinin yaradıcısıdır.

Məşhur Amerika Şumerşunası S.N. Kramer Şumerşünaslığa aid ən çiddi tədqiqatlardan biri olan "Tarix Şumerdən başlanır" kitabında yazır: "İlk məktəblər", "ilk iki palatalı parlament", "İlk qanunlar toplusu", "İlk ədliyyə", "İlk təbabət", "İlk əmək alətləri", "İlk fəlsəfə", "İlk mənəvi ideyalar", "İlk atalar sözləri və zərb məsəlləri","İlk təmsillər", "İlk ədəbi mübahisələr", "İlk dəfn nəğmələri", "İlk dastanlar", "İlk biblioqrafiya", "İlk kitabxana kataloqu" hər şeyin ilki, yəni tarixin başlanğıcı Şumerdən başlanır.[2]

Şumerlər bəşəriyyətin tarixində birinci informasiya inqilabı hesab edilən yazının da müəllifi olmuşlar. B.e.ə. IV minilliyin ortalarında Şumerdə mixi yazı meydana gəldi, yazı materialı kimi gil lövhələrdən istifadə olundu. Gil lövhələrin üzərinə taxta ilə yazılarkən, lövhə üzərində əmələ gələn işarələr mıxa bənzədiyindən bunu mixi yazı adlandırmışlar.

Şumerdə mərkəzləşmiş dövlətin yaranması ölkənin iqtisadi, siyasi, elmi, mənəvi həyatına, təhsil işinin təşkilinə olduqca ciddi təsir göstərirdi.

Təhsil prosesinin təşkili Şumer cəmiyyətinin əsas atributlarından birinə çevrilmiş, ölkədə savadlı adamların, mirzələrin hazırlanmasının əsas amili hesab olunurdu. Şumerdə yazının meydana gəlməsi kitabın yaranmasına və onun yayılmasına şərait yaratdı. Mixi yazının kəşfi və onun təkmilləşməsi Şumerin bəşər tarixinə ən önəmli töhfəsi oldu.

1. *ASE B., 1987, s.10, s.576.*
2. *Kramer S.N. Tarix Şumerdən başlanır. B., 2009, 280 s.*





Kitabın yaranması və onun nüsxələrinin çoxalması ölkənin ictimai-siyasi və mədəni həyatında yeni mərhələnin başlanğıcı oldu. Kitab yazmağa, oxumağa, gil lövhəciklərdən ibarət kitabları toplamağa daha çox insanın cəlb edilməsi bu işin ölkə daxilində daha geniş miqyas almasına və dünyada ilk məktəblərin yaranmasına şərait yaratdı. Dünyada ilk məktəbin yaranması haqqında məlumat verən görkəmli Şumerşünas alim S. Kramer yazır: "Şumer məktəbi yazının kəşfi və təkmilləşdirilməsi" nəticəsində yaranmışdır.[1]

Şumerdə b.e.ə III minilliyin ortalarında oxu və yazı işini öyrədən sistemli məktəb şəbəkəsi mövcud idi.

Yazı meydana gəlib yayıldıqdan sonra mixi yazısı ilə yazıb oxumağı bacaran, müxtəlif sənədləri tərtib edən mirzələr meydana gəlmişdi.

İlk məktəblər (edubbalar) mirzələrin ailələrində sonra isə məbəd və saraylarda yaranmışdı. Məktəb (edubba) kitabələr evi adlanırdı. Məktəbə "Kitabələr evi"nin atası müəllim başçılıq edirdi. Şagirdlər kitabələr evinin övladları hesab edilirdi. Müəllim köməkçisi "böyük qardaş" adlanırdı. "Kitabələr evi"nin atası faktiki olaraq məktəbin direktoru vəzifəsini icra edirdi.[2] Müəllimlərin sırasında rəsm və Şumer dili müəllimi, davamiyyətə nəzarət edən "dəyənək çəkən" (məktəbdə intizama cavabdeh nəzarətçi) çalışırdı. Şumer məktəbi ilk zamanlar məbədin əlavəsi kimi meyadana gəlmiş, vaxt ötdükcə ondan ayrılmış və onun proqramı təmiz aristokrat xarakteri almışdır.[3]

1. *Kramer S.N. Tarix Şumerdən başlanır. B., 2009, s. 14.*
2. *Rüstəmov F.Şərqdə pedaqogika tarixi B., 2002, s. 12.*
3. *Kramer S.N. Tarix Şumerdən başlanır. B., 2009, s. 16.*

Şumerdə kitabələr evi adlanan məbədlər tədricən təkamülə məruz qalaraq mədəni-maarif mərkəzlərinə çevrildilər. Bu mərkəzlər daha əlverişli şəraiti olan zikkuratlarda (məbədlərdə) yerləşirdi. Belə komplekslər bilik evi adlanırdı. Bilik evinin yanında kitabələr lövhəciklər saxlanan yer-kitabxanalar fəaliyyət göstərirdi.[1]

Beləliklə, ilk kitabxanalar məbədlərdə fəaliyyət göstərən məktəblərin (eddubaların) yanında yaradılmışdır.

Məhz buna görə də, Samuel Kramer ilk kitabxanaların, ilk kitabxana kataloqlarının Şumerdə yarandığını təsdiq edir. Qədim Şumerdə qazıntılar aparılan zaman gil lövhələr içərisində kitabların siyahısı əks etdirilən lövhəciklər tapılmışdır. Sonralar aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kitabların siyahısı olan bu lövhəciklər kitabxana kataloqudur.

Bu məsələni şərh edən S.Kramer yazır: "Bu kataloqun hansı məqsədlə hazırlandığını biz hələ bilmirik, mirzənin nəylə məşğul olduğu haqqında fərziyyə qura bilirik. Bəlkə o, mətnlərlə lövhəcikləri hansısa saxlama yerində yerləşdirməkdən qabaq onların siyahısını tərtib etmişdir, yaxud əksinə, onları "lövhəciklər evində" rəflərə düzərkən bu işi yerinə yetirmişdi.[2]

Şumer məktəb kitabxanalarının fondu haqqında fikir söyləmək üçün Şumer məktəblərinin tədris proqramlarına diqqət yetirmək lazımdır. Şumer məktəblərində təhsil iki əsas proqram üzrə həyata keçirilirdi. Birinçi proqram elm öyrənməyə, elmlərin əsasını mənimsəməyə yönəldilmişdi. Bu proqramın əsas məqsədi şumer dilini, onun qramatikasını və həmçinin bir sıra elmləri: botanikanı, zoologiyanı, coğrafiyanı, mineralogiyanı və s. elmləri öyrətmək idi. İkinci proqram ədəbiyyat yönümlü idi. Bu proqramın əsas məğzini mövcud ədəbi əsərlərin öyrənməsi təşkil edirdi. Ədəbi mətnlər yüzlərlə idi. Bunlar məktəblərdə toplanır, sistemləşdirilir, təsnif edilirdi. Gil

[1] *Rüstəmov F.Şərqdə pedaqogika tarixi B., 2002, s. 15.*
[2] *Kramer S.N. Tarix Şumerdən başlanır. B., 2009, s. 256.*





"lövhəciklərdə" gəlib çatan siyahılardan məlum olur ki, bu əsərlər Şumer allahlarına, qəhrəmanlarına həsr edilmiş əsatirlər, epik əfsanələr, allahlara, çarlara tərif himnləri, nağıllar, təmsillər, atalar sözləri və s. ibarət olmuşdur.[1]

Beləliklə, miladdan öncə üc min il əvvəlki qədim şumerdə güclü mədəniyyət, elm, ədəbi ənənə olmuşdur. Şumerdə məktəblər, sistemli oxu mətnləri, sabit dərsliklər, müəllimlər, mirzələr, xəttatlar vardı, Şumerdə zəngin "kitabxana" mövcud idi. Bu kitabxanalarda gil lövhələrdən ibarət "kitab"lar, yüzlərcə müxtəlif növ kitabələr, elmi əsərlər toplanmışdır.[2]

Şumerşünaslar belə qənaətə gəlmişlər ki, məktəb "lövhəciklər" evində (kitabxanalarda) saxlanılan lövhəciklərin böyük əksəriyyəti məktəbin şagirdləri tərəfindən üzü köçürülən lövhəciklərdir.

Deməli, şagirdlər məktəbdə təhsil almaqla yanaşı məktəb kitabxana fondlarının zənginləşməsində, onun yeni əsərlərlə təmin edilməsində də yaxından iştirak edirdilər.

Arxeoloji qazıntılar zamanı aşkar edilmiş lövhəciklərdən məlum olur ki, məktəb kitabxanalarında məktəbin proqramına müvafiq tədrislə bağlı kitablarla yanaşı elmin və bədii ədəbiyyatın müxtəlif sahələrinə dair kitablar olmuşdur. Qədim Şumerdə məktəb kitabxanaları ilə bərabər məbəd kitabxanaları da olmuşdur. Məbəd kitabxanaların da kitablarla yanaşı olaraq müxtəlif sahələrə aid sənədlər də saxlanılmışdı. Arxeoloji qazıntılar aparılan zaman ən qədim və zəngin kitabxanalar da şumer ərazisində aşkar edilmişdir. Şumer ərazisində arxeoloji qazıntılar Birinci dünya müharibəsi illərində başlamış qısa fasilədən sonra 1927-ci ildə yenidən davam etdirilmişdir.

Qazıntılar əsasən Fərat çayının ətrafında yerləşən şəhərlərdə aparılırdı. Qazıntılar zamanı çoxlu gil lövhəciklər, kitablar, qədim xəritələr, ələbiyyat mətnləri, riyaziyyata, botanikaya, kənd təsərrüfatına

[1] *Yenə orada. s.18.*
[2] *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvı mədəniyyət tarixı. B.. 1998. s.58.*

və digər elm sahələrinə aid gil lövhəciklər tapılmışdı. Ən çox gil lövhəciklərə Laqaş şəhərində rast gəlinmişdir. Onların sayı 20 mindən çox idi. Tapılan lövhəciklərin analiz edilməsi, o dövrdə kitabxanalarda saxlanılan kitabların sistemləşməsi qaydasının olunmasını təsdiq edir.[1] Beləliklə, kitabxanaların təşkilində, fondun yaradılmasında, qorunub saxlanılmasında, kitabların sistemləşdirilməsində mövcud qaydaların olması elementar kitabxanaçılıq fikrinin hələ 10-12 min il əvvəl qədim şərq ölkələrində yaranması haqqında fikir söyləmək imkanı verir.

Ən maraqlı tapıntı ölkənin dini mərkəzi hesab edilən Nippure şəhərində tapılan çox qədim kitabxana idi. Bu kitabxana onun üçün ayrılan 62 otaqda yerləşirdi. Kitabxanada tapılan gil lövhəciklərin tarixinin olması bu tapıntının elmi və mədəni əhəmiyyətini daha da artırırdı. Bu kitablarda yazılma tarixi kimi b.e.ə. 1700-cü il göstərilmişdi.

Şumerlərdən sonra qədim Şərq ölkələrindən Assuro-Vavilonda, Xett dövlətində və Misirdə zəngin kitabxanaların olması haqqında tarixi qaynaqlarda geniş məlumatlar vardır. Əlbəttə yuxarıda göstərdiyimiz ölkələrdə mədəniyyətin inkişafına, yazının, məktəblərin, kitab və kitabxanaların yaranmasına şumerlərin təsiri böyükdür. Məhz bu ölkələrdə yaranıb inkişaf edən mədəniyyəti şumer mədəniyyətinin davamı və inkişafı kimi qiymətləndirmək olar.

Qədim Şərqin ən zəngin kitabxanalardan biri e.ə. III minilliyə (1283-1260) aid olan Xett dövlətinin çarı Xattusilinin kitabxanasıdır. Bu kitabxana dövlət mərkəzi şəhəri Xattusasda yerləşirdi. Öz tipinə görə saray (dövlət) kitabxanası hesab edilirdi. Kiçik Asiya və indiki Suriyanın ərazisində yerləşən Xett Çarlığı b.e.ə. II minilliyə qədər 7 əsr fəaliyyət göstərə bilmişdir. Uzun müddət dövlətçiliyi olan Xett

[1] *Володин Б.Ф. Всемирная история библиотек. Санкт-Петербург. 2004, с.19.*





çarlığında öz dövrünün zəngin mədəniyyəti formalaşmışdı. Burada təhsil sistemi xeyli təkmilləşmiş, kitab, kitabçılıq işi ölkə həyatında mühüm əhəmiyyət kəsb etməyə başlamışdı.

1906-1907-ci illərdə Türkiyənin Bogazköy şəhərində arxeoloji qazıntılar aparılan zaman Xett mədəniyyətinə aid 11 min gil lövhəcik tapılmışdır. Burada tapılan lövhəciklər Xett Saray kitabxanasının qalıqları idi. Tapılan gil lövhəciklərin araşdırılması zamanı məlum olmuşdur ki, lövhəciklər içərisində rəsmi dövlət sənədləri, Çarın müraciətləri və digər sənədlərlə yanaşı çox qiymətli kitablar, letopislər, müəlliflərin əlifba sırasına görə hazırlanmış kataloqlar, müxtəlif bilik sahələrinə aid kitablar var imiş.

Şumer gil lövhəciklərindən fərqli olaraq Xett gil lövhəciklərində kitabın müəllifi, onun ünvanı, titulu və tərcüməçisi haqqında məlumatlar var idi. Əlbəttə, bu bəşəri kitabçılığın və kitabxanaçılığının inkişafında yeni bir mərhələ idi.

Şumer mədəniyyətini dərindən öyrənmək şumerlərin yaratmış olduğu ədəbi-bədii, fəlsəfi dünya baxışını dərk etmək üçün şumerlərin bəşəriyyətə yadigar qoyub getmiş şah əsəri, qəhrəmanlıq eposu "Bilqamışın" (hər şeyi bilən adamın dastanı) mühüm əhəmiyyəti vardır. Dastanın "Illiada"dan iki min ildən artıq yaşı var. Dastan b.e.ə. III minillikdə qədim Şumer dilində şifahi şəkildə yazılmış, II minillikdə akkad dilində gil lövhəciklərə köçürülmüşdür. Dastan 12 gil lövhə üzərində yazılmışdır. Dastanın baş qəhrəmanı Bilqamış tarixi şəxsiyyətdir. O, Şumer dövlət şəhəri Urukun rəhbəri olmuşdur. Qədim Babil müəlliflərinin əsərlərində əsərin baş qəhrəmanları "allahlar" olduğu halda "Bilqamış" eposunda əsərin qəhrəmanı insandır. Onda insanlara məxsus ən yaxşı keyfiyyətlər var. O sevir, nifrət edir, sevinir, yaradır, ümid edir və ümüdsüzləşir.

S.Kramer yazır: "Eposda haqqında söhbət gedən problemlər və niyyətlər, bütün vaxtlarda, bütün xalqlara yaxındır. Bu dostluğa sadiqliyin təriflənməsinə, şəxsi şöhrətə, hərisliyə, qəhrəmanlıqlara və

sərgüzəştlərə, həvəsə, qaçılmaz ölümqabağı qarşısıalınmaz qorxuya var gücü ilə ölümsüzlüyə tələbatdır."[1]

Bilqamış eposunda cəmiyyətin əsasını təşkil edən, saf, sağlam, sədaqətli ailəyə böyük ehtiram var. Ailə cəmiyyətin ilkin qaynağıdır. Cəmiyyətdə güclü əxlaq normaları, yüksək mənəviyyat hökm sürür. Eposda Şumerlərin qayda-qanunları, danışıq mədəniyyəti, ağsaqqala, ata-anaya, dosta böyük hörmət vardır. Eposda belə bir kəlam öz əksini tapmışdır ki, o kəsi insan hesab etmək olar ki, o yetgindir, müdrikdir, ağıllıdır, gözəldir, qüvvətlidir və qorxmazdır, sədaqətlidir, həyatın gedişini düşünür, dünyanı dərk edir, bəşər övladıdır, ədəbi yaşarlığa can atır.

Dastanda göstərilir ki, dastanın qəhrəmanı Bilqamışda sadalanan keyfiyyətlərin hamısı vardır.

Bəs Şumerlər kimdir? Bunlar hansı xalqların əcdadlarıdır? Bu suallar dünya elmini olduqca ciddi şəkildə maraqlandırır.

Son zamanlar dünya Şumerşünaslarının apardıqları intensiv tədqiqatlar nəticəsində indiyə qədər qaranlıq qalan bir çox problemlər açıqlanmış, Şumer mədəniyyəti haqqında qiymətli tədqiqatlar meydana gəlmişdir.

Bu qiymətli tədqiqatların bir neçəsini nəzərdən keçirək.

İngilis alimləri S.Leoyd, Q.Ceyl qeyd edirlər: "Turanlılar təxminən on iki min il bundan qabaq səfalı, bəhrəm, Dəcələ və Fərat çayları hövzəsində məskən salıb, ətraflarında yaşayan saysız-hesabsız vəhşi qəbilələrin heyrətli nəzərləri altında dünya svilizasiyasının nəzərini açdılar. Dünyada ulu bir mədəniyyətin məşəli alışdı".

Şumer dili barədə alman alimi Q.Vinkler yazır: "Dünyanın bu birinci dili haqqında bizdə ilk rəy yaranıb. Bu dil öz əsas əlamətlərinə görə türk dillərinə uyğundur.... və semit dillərindən tamamilə fərqlənir".[2]

---

[1] *Kramer S.N. Tarix Şumerdən başlanır. B., 2009, s. 223.*

[2] *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B., 1998, s.63.*





Fransız alimi E.Reklu yazır: "Mixi yazı dilində İran və semit dillərində uyğun xətlər qətiyyən yoxdur, əksinə Turan və Ural-Altay dilləri ilə qohumluq var".

Rus alimi S. Reder deyir: Şumer dili xüsusi bir dildir... öz qohumluğuna görə hər şeydən əvvəl, türk dilləri ilə müqayisə edilə bilər".[1]

Şumer haqqında fikirlərimizi mənəvi mədəniyyət tariximizin görkəmli tədqiqatçısı Elməddin Əlibəyzadənin sözləri ilə yekunlaşdıraq. O deyir: "Şumerlər dünyanın ən svilizasiyalı xalqıdır, şumerlər müasir türk xalqlarının əcdadldrıdır".[2]

XX əsrin axırlarında Azərbaycanın ən qədim dövlətləri haqqında aparılan tədqiqatlar E.Əlibəyzadənin bu fikrini təsdiqləməklə problemin öyrənilməsinə, ən qədim Azərbaycan dövlətlərinin Şumerlərlə iqtisadi, siyasi və mədəni əlaqələrinin olmasına aydınlıq gətirir. Belə tədqiqatlardan biri 1994-cü ildə çap edilmiş "Azərbaycan tarixi" kitabıdır. Şumer-Azərbaycan əlaqələrinə aydınlıq gətirmək işində, bu kitabın redaktorlarından və müəlliflərindən biri, Azərbaycan tarixinin qədim dövr tədqiqaçısı, görkəmli alim Y.B.Yusifovun xüsusi xidmətləri olmuşdur. Y.B.Yusifov "Azərbaycanın ən qədim dövlətlərinin iqtisadiyyatı və mədəniyyəti haqqında ətraflı məlumat verməyə çalışmışdır.

Tarixi qaynaqlara görə Azərbaycan ərazisində ilk dövlət Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında Aratta olmuşlar. Onun ərazisi Urmiya gölünün cənub və Cənub – Şərq hissəsini əhatə edirdi. Arratta Şumer şəhər dövlətləri ilə qonşu idi. Aratta haqqında ən mükəmməl məlumat Şumer dastanlarından olan "En-Merkar və Aratta hörmdarı" və s. verilmişdir. Bu dastanlardan məlum olur ki, Şumerlərlə qonşu olan Arattanın onlarla çox geniş iqtisadi, siyasi, mədəni əlaqələri olmuşlar. Bu dövrdə Şumerlərdə olduğu kimi, Arattada da çoxallahlıq yayılmışdı.

---

[1] *Yenə orada, s.61.*

[2] *Yenə orada. s.61.*

Qaynaqlardan məlum olur ki, Arattada və Şumerlərdə bərəkət və məhəbbət ilahəsi hesab edilən İnannaya ibadət geniş yayılmışdı. Beləliklə, erkən İkiçayarası (Şumer) mədəniyyəti dairəsinə daxil edilən Arattanın və Şumerlərlə geniş mədəni əlaqələri olmuş, onlar bir-birinin mədəni nailiyyətlərindən bəhrələnmişlər. Şumerdə olduğu kimi, Arattada da mixi yazı məlum olmuş, bu yazıdan yazıb oxumaq və diplomatik məktubların göndərilməsi işində istifadə edilmiş, minlərlə gil lövhələrdə kitabələr yazılmış, onların saxlanılması üçün gil lövhə kitablarını saxlayan məbədlər yaradılmışdır. Qaynaqlarda göstərilir ki, Şumer şəhər hakimləri zaman-zaman erkən Azərbaycan dövlətləri ilə əlaqələr yaratmış, dostluq etmiş, bir-birinin iqtisadiyyatının inkişafına, mədəni qurculuğuna kömək etmiş, bəzən də bu dövlətləri işğal etməyə çalışmışlar. Bu əlaqələrin izləri dövlət başçılarının bir-birlərinə göndərdikləri diplomatik məktublarda qalmaqdadır.

Arattanın dövlət idarələri şəhərlərdə yerləşir, hökmdar sarayda oturur və dövləti idarə edirdi. Vəzir, elçi, rəis və başqaları dövlət idarəsinin qulluqçuları olmuşlar. Çox maraqlıdır ki, Aratta dövlət idarələrində mirzələr də çalışırdılar.

Onlar dövlətin idarəçiliyində yazı işini həyata keçirməklə Şumer hökmdarlarına cavab məktubu yazır, həm də dövlət başçısına gələn başqa dillərdə olan məktubları tərcümə edirdilər. Qaynaqdan göründüyü kimi, Aratta dövlət idarələri Şumer mixi yazıları və Şumer dili ilə tanış idi.

Dövlət idarələrində xüsusi mirzə ştatlarının olması ölkədə yazı dilinin və kitabçılığın geniş yayılmasını sübut edən dəlillərdən biridir. Qaynaqlardan göstərilir ki, Şumer hökmdarı En-Merkar ilə Aratta hökmdarının mübahisəsi uzanan zaman o, Arattaya məktub göndərmişdi. Sonuncu dəfə qasid En-Merkaqrın yazılı kitabəsini Arattaya gətirdi: "Arattanın ali kahini bişmiş gili (kitabəni) elçidən aldı... Gilə (kitabəyə) baxdı, sözlər mismar kimi qalxdılar".[1]

---

[1] *Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Dərslik. B., 1994, s.68.*





Qaynaqdan göründüyü kimi, Aratta sarayında mixi yazılarını oxuyan, şumercəni başa düşən mirzələr var imiş.

Arattadan sonra Azərbaycanda yaranmış Sullubum (e.ə. XXIII əsrdə) və Kutium (e.ə.III minillikdə) erkən dövlətlərində də inkişaf etmiş mədəniyyət haqqında məlumatlar vardır.

Qaynaqlardan məlum olur ki, bu dövlətlərdə yazı mədəniyyəti inkişaf etmiş. Sullubilər və Kutilər heroqriflə yanaşı mixi yazılardan istifadə etmişlər. Görkəmli tarixçi Yusif Yusifov qədim dövrə aid tədqiqatlarında bu məsələlərə geniş yer verilmiş və bir sıra qiymətli faktlar aşkara çıxarmışdır. O yazır: "Beləliklə, e.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda İkiçayarası Akkad dövləti ilə rəqabət aparan güclü Sullubum dövləti yaranır. Bu dövlətin qüdrəti hökmdar Annubanin (e.ə. 2170-2150-ci illər) dövründə daha da artır. Məlumdur ki, Anubanin yazılarını mixi işarələrlə tərtib etdirirdi. Mixi yazı sistemi buranın əhalisinə, hakim dairələrinə hələ Aratta dövründən tanış idi".[1]

Qaynaqlarda göstərilir ki, İkiçayarasının Şumer şəhəri Kutti hökmdarlarının şərəfinə yazılar tərtib edirdilər. Kutti hökmdarı Saharabın (e.ə. 2135-2133-cü illər) Sinpar şəhərində akkad dilində yazısı aşkar edilmişdi.[2]

Kutilər də İkiçayarası mədəniyyəti dairəsinə daxil olduqları üçün Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazı ilə tərtib edilirdi. Beləliklə, erkən Azərbaycan dövləti haqqında qaynaqlardan və tarixçilərimizin tədqiqatlarından məlum olur ki, erkən Azərbaycan dövlətləri Aratta, Sullubum və Kuttium dövlətlərlə, Şumerlərlə qonşu olmuş, onlarla geniş iqtisadi, siyasi və mədəni əlaqələr saxlamışlar.

Qədim dünyanın ən qədim xalqı olan Şumerlər inkişaf etmiş mədəniyyətə, maarifə malik olmuş, onların öz yazıları, kitabları, məktəbləri və kitabxanaları olmuşdur. Erkən Azərbaycan dövlətlərinin

---

[1] *Yenə orada, s.68.*

[2] *Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Dərslik. B., 1994, s.70.*

Şumerlə geniş mədəni əlaqələrinin olması, Şumer dövlət xadimləri ilə erkən Azərbaycan dövlətləri başçılarının arasında diplomatik yazışmaların aparılması mixi yazıdan Azərbaycan dövlətlərində istifadə edilməsi belə fikir söyləməyə imkan verir ki, türk mənşəli sülalələrin idarə etdiyi erkən Azərbaycan dövlətlərində yazı, gil kitab və bu kitabları saxlayan kitabxanalar olmuşdur.

Beləliklə, Azərbaycan tarixçilərinin fədakar əməyi sayəsində aşkara çıxarılan bu dəlillər Azərbaycan kitabçılığı və kitabxanaçılığı tarixinin çox qədim zamanlara gedib çıxmasını, xalqımızın kitab və kitabxana mədəniyyətinə malik olmasını bir daha təsdiq edir. Bu problemin gələcəkdə öyrənilib dəqiqləşdirilməsinə və irəli sürülən mülahizələrin daha ciddi tədqiq edilməsinə böyük ehtiyac duyulmaqdadır. Güman etmək olar ki, müstəqil Azərbaycan Respublikasının tarixçi alimləri bu şərəfli vəzifənin öhdəsindən müvəffəqiyyətlə gələcəklər.

## 2.3. Qədim dünyanın ən böyük kitabxanası: Assuriya çarı Aşşurbanipalın saray kitabxanası

Qədim Şərqin ən böyük dövlətlərindən biri də Assuriya çarlığı olmuşdur. Uzun dövr ərzində mərkəzləşmiş dövləti olan Assuriyalılar bəşər mədəniyyətinin inkişafına öz töhfəsini vermiş, Şumer mədəniyyətinin nəaliyyətlərindən bəhrələnərək, onun qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində xüsusilə fərqlənmişlər.

Assuriya xüsusi ilə Aşurbanipalın çarlığı (669-633) dövründə böyük inkişaf yolu keçmiş, Tir və Azvadı işğal etmiş, Şərqdə və Şimalda Kimmerilərə, Skiflərə, İran və Midyalılara qarşı mübarizə aparmış Babili (e.ə. 648) və Elamı (e.ə. 690) istila etmişdir.[1] Böyük əraziyə və stabilləşmiş, dövlətə malik olan Assuriyada mədəniyyət də

[1] ASE. B., 1976, s. 516.





geniş inkişaf yolu keçmiş yazıdan geniş istifadə etməklə çoxlu sayda kitablar yazılmış, böyük və zəngin kitabxanalar yaranmışdır.

1841-ci ildə Tiqr çayının sahilində iki çay arasında, indiki İraqın ərazisində arxeoloji qazıntı aparan Mosuldakı fransız səfiri Pol Emil Botta qədim Assuriyanın mərkəzi Ninevanın xarabalıqlarını tapdı. Səfirin bu tapıntısı qədim dünyanın sirlərini açmaqla və "bəşər mədəniyyəti" tarixinin öyrənilməsində böyük tarixi hadisə oldu. Bottun tapıntısı tarix üçün çox mühüm olan belə bir həqiqəti aşkara çıxartdı ki, hələ qədim Misir svilizasiyasından çox-çox əvvəl Assuriya svilizasiyası mövcud olmuşdu.

1852-ci ildə isə ingilis Henri Osten Leyyard Nineveda arxeoloji qazıntı apararkən Assuriyanın axırıncı ən böyük çarı Aşşurbanipalın sarayının qalıqlarını tapdı.[1] Bu tapıntı nəinki təkcə Şərq, demək olar ki, bəşər elminin və mədəniyyətinin, qədim Şərq svilizasiyasının öyrənilməsinə böyük töhfə idi. Aşşurbanipalın o dövrdə "Öyüd-nəsihət və məsləhət evi" adlanan sarayında qədim Şərqin ən böyük kitabxanası olan Aşşurbanipalın saray kitabxanası yerləşirdi. Bu kitabxana fondunun həcminə və zənginliyinə görə öz dövrünün ən böyük kitabxanası hesab edilirdi. Tarixi qaynaqların məlumatına görə kitabxanada 20.000 gil lövhə (kitab) saxlanılırdı. Bəzi qaynaqlarda isə kitabxanada 100.000 gil lövhənin saxlanması haqqında məlumat vardır. Bu kitabxananın yaradılmasında və zənginləşməsində çar Aşşurbanipalın böyük rolu olmuşdur. O, çar olmaqla yanaşı kitab oxumağı sevən, qiymətli kitab toplamağacəhd edən, elmin inkişafına böyük əhəmiyyət verən bir çar olmuşdur. Deyilənə görə, Aşşurbanipalın atası çar Asarxaddon öz oğlunun təhsil almasını, kitabları öyrənməsini və ölkənin baş kahini olmasını istəyirdi. Lakin Aşşurbanipal baş kahin olmadı, kitabı sevən, elmə, mədəniyyətə, təhsilə qiymət verən bir şəxsiyyət oldu. Dünyada çox məşhur olan bir kitabxananın Nineva saray kitabxanasının yaradıcısı oldu, tarixə bu böyük kitabxananın yaradıcısı kimi düşdü. Böyük kitab həvəskarı Aşşurbanipal b.e.ə.

[1] Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963, с. 10.

VII əsrdə Kiçik Asiyanın cənub hissəsindən şimala qədər, Ərəbistandan Fars körfəzinə qədər, Elamdan Şərqə və Misirə qədər böyük bir ərazini, bütün svilizasiyalı dünyanı işğal edə bilmişdi. Qədim dünyanın ilk bibliofillərindən olan çar Aşşurbanipal işğal etdiyi bütün əraziyə 40 illik çarlığı dövründə agentlər göndərərək kitabları, qədim yazı mətnlərini, kitabələri topladaraq Ninevaya gətirmiş, onları bərpa etdirmiş, yenidən üzünü köçürtdürərək saray kitabxanasına daxil etmişdir. "Çarlar-çarı" Aşşurbanipal həmçinin digər qonşu dövlətlərin: Misirin, Vavilyonun, Akkadın, Larsın məbədgahlarında saxlanılan kitabların surətinin çıxarılıb Nineva kitabxanasının fonduna daxil olmasına da ciddi əhəmiyyət verirdi. Kitabxanada kitabçılıq işini yaxşı bilən, kitabları bərpa etməyi, tərçümə etməyi bacaran mirzələrin fəaliyyət göstərməsi kitab fondunun zənginləşməsinə böyük köməklik göstərirdi.

Həmçinin Nineva kitabxanasında görkəmli Assuriya alimlərinin-dilçilərinin, astronomlarının, riyaziyyatçılarının, astroloqlarının və b. işləməsi kitabxananın elmi ədəbiyyatın toplanmasına, ciddi elmi işlər aparılmasına səbəb olmaqla yanaşı kitabın və kitabxananın ictimai nüfuzunun artmasına ciddi təsir edirdi. Burada ilk dəfə olaraq ayın hərəkəti hesablanmış, günəşin və ayın tutulması haqqında əvvəlcədən məlumat verilmiş, böyük saraylar, tikintilər, məbədgahlar haqqında uğurlu layihələr hazırlanmış, müqəddəs kitablar yazılmışdır. Kitabxanada xalq yaradıcılığının, əfsanələrin, miflərin toplanmasına xüsusi qayğı ilə yanaşılmış, Assuriyalıların qədim yazılarının toplanmasına diqqət yetirilmişdir. Kitabxana kitablarını və digər sənədləri toplayıb saxlamaqla, zəngin kitab fondu yaratmaqla, kifayətlənmirdi, həm də onların təbliğinə insanlara çatdırılmasına xüsusi diqqət yetirilirdi. Kitabxananın qapıları bütün oxuçuların üzərinə açıq idi. Bütün insanlar kitabxanadan istifadə edə bilərdilər.

Kitabxanada saxlanılan gil kitabları hazırlamaq üçün xüsusi emalatxanalar fəaliyyət göstərirdi. Bu emalatxanalarda gildən kitabın səhifəsi ölçüdə, yəni 32x32 ölçüdə, qalınlığı 2,5 santimetr olan lövhələr hazırlanır, onun üstünə ağacla bu və ya digər kitabın məzmunu





köçürülür, sonra odda bişirilirdi. Belə lövhəciklər isə səhifələnərək kitaba çevrilirdi. Çünki hər bir lövhəciyin başlanğıcında kitabın adı yazılır, axırında isə gələcək lövhəyə keçid göstərilirdi. Kitabxanada lövhəcikləri kitab rəflərində bir-birinin arxasınca düzürdülər. Kitablar bir-birindən xüsusi ayrıcların köməyi ilə ayrılırdılar. Qədim şərqdə yazı materialı kimi gil lövhəcikləri seçən və kitabları onların üzərinə həkk edən insanlar qətiyyən səhv etməmişdilər.

Gil lövhəciklər üzərində yazılan kitabları min illərdən sonra dövrümüzə gətirib çıxaran zaman, o insanların müdrikliyini sübut etmişdir.

Nineva saray kitabxanasının strukturu, kitabsaxlayıcısı, fondda kitabların düzülüşü, oxuculara xidmət işinin təşkili məsələləri araşdırılarkən məlum olur ki, bu kitabxanada özündən əvvəlki, Şumer, Xett və s. kitabxanalara nisbətən kitabxana işi daha çox təkmilləşdirilmiş, kitabxana binasının tikilməsində mühüm elmi layihələr irəli sürülmüş, oxuculara xidmət işinə ümumi açıqlıq, hamı üçün açıq olmaq prinsipi irəli sürülmüşdür. Məlumdur ki, Nineva saray kitabxanasında gil lövhəciklərdən ibarət kitablar saxlanılırdı. Gil lövhəciklər oddan, yəni yanğından qorxmurdu. Onlar ən çox nəmişlikdən məhv olurdu. Ona görə də, kitabxana saxlanılan saray tikilərkən onun qabaq tərəfi şərqə, gün çıxana baxması vacib sayılırdı. Həmçinin kitabsaxlayıcıda nəmişlik olmasın deyə fond binanın ikinci mərtəbəsində yerləşdirilirdi.

Kitabxana fondunda kitabların düzülüşündə müəyyən sistem yaranmışdı. Hər hansı bi kitaba aid olan gil lövhəciklər bir yerə toplanır, rəflərdə yerləşdirilirdi. Rəflər ayırıcılarla bir-birindən ayrılırdılar. Hər bir kitabın ayrı-ayrı lövhələri (səhifələri) əvvəlki lövhəsi başlanğıc lövhəsi ilə nömrələnirdi. Həmçinin kitabın ardıcıllığını təmin etmək üçün hər bir lövhənin (səhifənin) qutaracağında yeni səhifənin başlığı verilirdi ki, bu da kitaba aid olan lövhənin ardıcıllığını təmin edirdi. Beləliklə, Nineva saray kitabxanasında formalaşan kitabxana işi prosesi dünya kitabxanaçılıq fikrinin yaranmasına və inkişafına ilk qiymətli töfhə idi. Əsası Şumer kitabxanalarında qoyulmuş

kitabxanaçılıq fikri Assuriyada da xeyli inkişaf etmiş, təkmilləşmiş dünya kitabxanaçılıq fikrinin inkişafına və təkmilləşməsinə mühüm təsir göstərmişdir. Nineva saray kitabxanasının yaranması və inkişafı bilavasitə Assuriyanın sonuncu çarı Aşşurbanipalın adı və fəaliyyəti ilə bağlıdır. Qədim dünyanın böyük işğalçı hökmdarı hesab edilən Aşşurbanipal eyni zamanda tarixdə kitabı, kitabxananı, yazını, yazılı abidələri, söz sənətini seçən, elmin, təhsilin inkişafına kömək edən bir şəxsiyyət olmuşdur.

Hələ 2600 il bundan əvvəl çar Aşşurbanipal tərəfindən naməlum mirzəyə diktə edilmiş və gil lövhəcik üzərində öz əksini tapmış müdrik sözlər dediklərimizi bir daha təsdiq edir. Lövhəcikdə yazılmışdır: "Mən hələ indiyə qədər mənim sələflərimin heç birinin öyrənmədiyi kitab incəsənəti əsərlərinin şərəfli yazılarının gil lövhəciklər üzərinə köçürülməsini əmr etdim. Mən onları öz sarayımda topladım, onları ayrı-ayrı hissələrə ayırdım və mən çarlar-çarı, allahın sevimlisi, kitabları oxumağı da bacarıram, kim cəsarət edib bu lövhələri aparsa və yaxud öz adını mənim adımın yanında yazsa, Assuriyanın və Bekittinin qəzəbinə düçar olacaq, allah onun adını məhv edəcək və nəslini yer üzündən siləcək".[1]

Nəsillərə yadigar qalmış Aşşurbanipalın bu sözləri bəşər mədəniyyətinin inkişafında bu unikal məbədgahın (kitabxananın) böyük rolunu aşkara çıxarır, onun tarixi əhəmiyyətini bir daha təsdiq edir.

Qədim dünyanın bir çox böyük kitabxanalarının taleyi kimi Nineva saray kitabxanasının taleyi də böyük facia ilə qurtardı b.e.ə. 609-cu ildə Assuriya çarlığı midiyalılar tərəfindən işğal edildi. Nineva şəhəri tamamilə dağıdıldı, yandırıldı. Dünyanın bu böyük mədəniyyət xəzinəsi də dağıdılıb yer ilə yeksan edildi.

Ancaq dağıntılar altında qalan gil lövhəciklər zamanın çətinliklərindən müvəffəqiyyətlə çıxmış, torpağın dərinliklərində uzun illər salamat qalmış lövhəciklər, zəmanəmizə gəlib çatmış və

---

[1] *Гарбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 12.*





görkəmli alimlərin tədqiqatı nəticəsində danışmağa başlamışlar. Qədim Nineva şəhərində XIX əsrin ortalarında aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş gil lövhəciklər ingilis alimləri tərəfindən Londona gətirilib Britaniya müzeyinin kitabxanasına verildi.

Görkəmli ingilis alimi Çorc Smit 1872-ci ildə Ninevadan gətirilmiş gil lövhələr üzərində tədqiqat apararkən onu oxumağa və həmin lövhədə çox ciddi elmi məlumat aşkara çıxarmağa müvəffəq oldu. Ç.Smit "İnsanın mənşəyi" haqqında gil lövhəni oxuyarkən dünyanı su alması haqqında əfsanəyə rast gəldi.

O bu əfsanənin "Bibliyada" verilən dünyanın su alması haqqında mətnlə uyğun gəldiyini aşkara çıxardı. Gil lövhəciklərdəki mətnlə Bibliyadakı mətn arasında müəyyən fərq olmasına baxmayaraq C. Smit bu qərara gəldi ki, Bibliya heç də din xadimlərinin dediyi kimi müqəddəs kitab deyildir. Bibliyada olan hadisələr hələ bütpərəslik dövründə, b.e.ə. III minillikdə qələmə alınmışdır. Bunu da nəzərə alsaq ki, gil lövhəcikdə qeyd edildiyi kimi bu mətn hələ bundan çox əvvəllər mətndən götürülmüşdür.

C.Smit öyrəndiyi lövhələrin davamını əldə etmək üçün yenidən Ninevaya gedir və oradan yeni 384 lövhəcik əldə edir. Yeni əldə etdiyi lövhələrdə bibliyada olan mətnin tam variantını aşkar edir və öz fikrini tam sübuta yetirir. Beləliklə də C.Simitin kəşfi kilsəyə böyük zərbə vurur.

C.Smitin Ninevadan əldə etdiyi lövhələr içərisindən həmçinin Şumerlərin qəhrəmanlıq dastanı "Gilqamışın" mətnində əldə edir ki, bu da elm aləmində böyük tapıntı idi.

Assuriya çarı Aşşurbanipalın yaratmış olduğu bu elm və mədəniyyət məbədgahı – Nineva kitabxanası min illər bundan qabaq məhv olsa belə, onun arxeoloji qazıntılar zamanı tapılan qalıqları qədim dünyanın yaratmış olduğu sivilizasiyanı müasir dünyanın gözü qarşısında canlandırmaqla bəşər mədəniyyətinin gələcək inkişafına böyük töhfələr vermişdir.

## 2.4. Antik Yunanıstanda kitabxanaların meydana gəlməsi

Bəşər elminə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına və s. böyük töhfələr verən antik Yunanıstan ilk qədim və zəngin, dünya şöhrətli kitabxanaların da vətəni olmuşdur.

Antik Yunanıstanda erkən yazının meydana gəlməsi, məktəblərin açılması, təhsil sisteminin təkmilləşdirilməsi kitaba olan tələbatı olduqca artırmış, antik Yunan kitabçılığında böyük tərəqqinin baş verməsinə səbəb olmuşdur.

Antik Yunanıstanda elmin müxtəlif sahələrinin: fəlsəfənin, riyaziyyatın, həndəsənin, biologiyanın, botanikanın, zoologiyanın, astronomiyanın, mineralogiyanın, tibbin, dilçiliyin, ədəbiyyatşünaslığın və s. inkişafı, elmi məktəblərin yaranması və həmçinin bədii ədəbiyyat, dramaturgiya, memarlıq, təsviri sənət və musiqi sahəsində qiymətli əsərlərin meydana gəlməsi kitabın məzmununda böyük dəyişikliklər etməklə, onun çeşidini çoxaltmış, cəmiyyətin mənəvi tələbatını ödəyən bir vasitəyə çevirmişdi. Antik Yunanıstanın görkəmli, dünya şöhrətli, elm tarixinə böyük töhfələr verən təbiət elmlərinin, ictimai və humanitar elmlərin əsasını qoyan alimlərinin əsərləri kitabın şöhrətini, daha da artırmış, cəmiyyətdə ona böyük tələbat əmələ gətirmişdi.

Antik Yunanıstanda yazı materialı kimi "papirusdan" istifadə də öz növbəsində kitabın tirajının (sayının) artmasına səbəb olmuşdur.

Beləliklə antik Yunanıstanda elmin mədəniyyətin, təhsilin inkişafı, savadlı, oxuyub yazmağı bacaran insanların çoxalması, kitaba və kitabxanaya böyük tələbat əmələ gətirmişdi. Məhz buna görədir ki, Yunanıstanda həm dövlət idarələri, həm təhsil sisteminin, rəhbərləri həm də ayrı-ayrı alimləri, görkəmli ziyalılar kitabxanalar təşkil etməyə ehtiyac hiss edirdilər. Bu iş bütün cəmiyyətin tələbatına çevrildiyindən kitabxanaların sayı artmağa başladı.

Antik Yunanıstanda ilk kitabxanalar artıq b.e.ə. VI əsrdə meydana gəlmişdi.[1]

---

[1] *Гарбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 19.*





Kitabxanaları Afinada Samos adasının hökmdarı Polikart və Afinanın hökmdarı Psistrat yaratmışdı. Yunanstanda kitabxanaların yaranmasında və inkişafında Psistratın xüsusi rolu olmuşdur. Məhz onun dövründə kitabxanalar qaydaya salınmış və hamı üçün açıq elan edilmişdir. Bu dövrdə Afina kitabxanalarında alimlərin "İlliada və Odessia" əsərlərinin siyahısını qaydaya salmağa mühüm elmi hadisə idi.

Afina kitabxanasının çox qəribə talei olmuşdur. İran ordusu Afinanı ələ keçirən zaman kitabxananı talan etmiş və onun kitablarını İrana aparmışdılar. 100 ildən sonra Yunanlar onu geri qaytarmağa və Afina kitabxanasını bərpa etməyə müvəffəq olmuşlar.

Yunanstanda kitabxana işinin əsas xüsusiyyətindən biri şəxsi kitabxanaların meydana gəlməsi olmuşdur. Tarixi qaynaqlarda göstərildiyi kimi ilk şəxsi kitabxana şair EvripD tərəfindən təşkil edilmişdir. Həmçinin yunan alimlərindən Sokratın tələbəsi olmuş Evfidemin, filosof Nipokratın, riyaziyyatçı Evkilidin şəxsi kitabxanalarında çox qiymətli elmi, tarixi, fəlsəfi və bədii ədəbiyyat toplanmışdı. Qədim dünyanın ən böyük şəxsi kitabxanası böyük filosof Aristotelin şəxsi kitabxanası hesab edilir. Böyük filosofun şagirdləri və tədqiqatçıları göstərirlər ki, o kitabı çox sevməklə yanaşı, onu toplamağa, qoruyub saxlamağa zəngin və nadir kitabxana yaratmağa böyük əhəmiyyət verirdi. O Yunanstanla yanaşı bütün ellinizim ölkələrdə yazılan kitablara böyük maraq göstərir, onları əldə etməyə çalışırdı. Məhz buna görədir ki, böyük filosof 40 min kitabdan (bükmədən) ibarət böyük bir kitabxana yaratmağa müvəffəq olmuşdur.[1]

Aristotelin şəxsi kitabxanasının təşkilində onun tələbəsi Makedoniyalı İsgəndərin (b.e.ə. 350-323) böyük köməyi olmuşdur. Kitabxananın zənginləşməsində Aristotelin tələbəsi Feofrast (b.e.ə. 372-287) mühüm rol oynamışdır. Sonralar Feofrastın davamçısı Nelens

---

[1] *Володин Б.Ф. Всемирная история библиотек. Санкт- Петербург. 2004, с.27.*

bu kitabxananın qayğısına qalmış, yeni ədəbiyyatla zənginləşdirmiş, həmçinin onun fondunu qoruyub saxlamaq üçün öz doğma şəhəri Skepsisə aparmış, uzun müddət orada saxladıqdan sonra Aristotel fəlsəfəsinin davamçılarının təşəbbüsü ilə Afinanın mərkəzi rayonlarından biri Likedəki Museyona* verilmişdi. Antik kitabxanalar oxucuların üzünə açıq olan, cəmiyyətin mənəvi tələbatını ödəyən kitabxanalar olmaqla, həm də elmə xidmət edən müəssisələr idi. Kitabxanalarda alimlər geniş elmi tədqiqatlar aparırdılar. Yunan elmi, artıq elmi biliklərin ayrı-ayrı elementləri kimi yox, öz dövrünə görə sistem halında formalaşırdı. "Alim" anlayışında da yeni baxış meydana gəlmişdi. Alim araşdırmalar yolu ilə yeni elmi fikir söyləyənlərə, başqa sözlə elmi yaradanlara və təhsil verənlərə deyilirdi.

Aristotel dövründə elmlərin öyrənilməsində şifahi öyrətmə prosesindən yazılı mətnləri mütaliə etməklə öyrənmə prosesinə başlandı. Bu da elmlərin öyrənilməsində sistemlilik prinsipini daha da möhkəmləndirirdi. Yunan cəmiyyətində elmə, təhsilə, mədəniyyətə, kitaba, mütaliəyə əmələ gələn böyük tələbat kitabxanalar qarşısında da yeni vəzifələr qoymuşdu.

Kitabxanalar elmin yayılmasında da yaxından iştirak etməklə, təhsil sisteminin əsas atributlarından birinə çevrilməli idi. Məhz bu dövr kitabxanalarının iş təcrübəsi ilə tanışlıq göstərir ki, kitabxanalar yunan alimlərinin köməyi ilə qarşılarında duran bu şərəfli vəzifənin öhdəsindən şərəfli gəlmişlər. Hər şeydən əvvəl kitabxanalar öz fondlarında kitablarla yanaşı sənədləri, kartları, xəritələri və digər yazılı vasitələri toplamaqla, müxtəlif ixtisaslı oxucular qrupuna xidmət etmək imkanı əldə etmiş, həmçinin əsl sənədləri istifadə etmək, üzünü çıxartmaq və oxucuların istifadəsinə verməyə başlamışdı ki, bu da kitabxanaların cəmiyyətdə tutduğu mövqeyin daha da möhkəmlənməsinə, elm və təhsilin yayılmasının etibarlı müəssisəsinə çevrilmişdi.

* *Yunanlar museyonu elm, sənət, bilik, mədəniyyət ilahəsinin iqamətgahı adlandırırdılar.*





Yunan kitabxanalarında fond yaratma metodikası xeyli dəyişmiş, kitablarla yanaşı olaraq digər sənədlərin: kartların, xəritələrin, dövlət sənədlərinin, qaydaların, nizamnamələrin, ticarət və digər sənədlərin, sərəncamların toplanmasına diqqət artırılmışdır.

Beləliklə, antik Yunan kitabxanaları cəmiyyətin elmə, təhsilə, mədəniyyətə artan tələbatını ödəmək üçün kitabı toplayıb saxlayan bir müəssisədən cəmiyyət üzvlərinin informasiya və mənəvi tələbatını ödəyən bir müəssisə kimi fəaliyyət göstərmiş, antik cəmiyyətin etimadını doğrultmağa müvəffəq olmuşdur.

Məhz antik Yunan cəmiyyətində baş verən bu proses bəşər mədəniyyəti tarixinə mühüm töhvələr verən, qədim dünyanın böyük möcüzəsi hesab edilən, müasir elmi kitabxanaların əcdadı kimi böyük şöhrət qazanan İsgəndəriyyə kitabxanasının təşkilinə şərait yaratdı.

## 2.5. İsgəndəriyyə kitabxanası

İsgəndəriyyə kitabxanası antik dünyanın ən böyük kitabxanası kimi şöhrət tapmış, ellinizm dünyasının ilk ümumi kitabxanası olmuşdur.

Ellinizm mədəniyyəti Aralıq dənizinin sağ sahilində yerləşən ölkələrin yunan (ellin) və digər xalqların qarşılıqlı təsiri nəticəsində yaranmış mədəniyyətdir. B.e.ə. IV əsrdən başlamış Roma imperiyasının süqutunadək (V əsr) bütün antik dünyanın mədəniyyəti "Ellinizm mədəniyyətinə daxildir".[1]

Makedoniyalı İsgəndərin ölümündən (b.e.ə. 323) sonra onun yaratmış olduğu imperiya dağıldı və əvəzində Ellinistik dövlətlər sistemi meydana gəldi. Ellinistik mədəniyyət yunan mədəniyyəti və qədim şərq xalqları mədəniyyətinin inteqrasiyası nəticəsində formalaşan həmçinin b.e.ə. 334-cü ildən 30-cu ilə qədər böyük inkişaf yolu kecən bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi bəşər

[1] *ASE. B., 1963, s. 36-37.*

mədəniyyətinin inkişafına təsir göstərən əsas mərhələ oldu. Məhz qədim dünyanın böyük elm və təhsil məbədgahı olan İsgəndəriyyə kitabxanası da bu dövrün məhsulu idi.

İsgəndəriyyə şəhərinin və İsgəndəriyyə kitabxanasının yaranması Makedoniyalı İsgəndərin adı ilə bağlıdır. 2300 il bundan əvvəl böyük sərkərdə Makedoniyalı İsgəndər Misiri işğal etdikdən sonra Nil çayının deltasında yerləşən Rakotis adlı kiçik bir kəndin yerində şəhər salınmasını əmr etdi. Bu yeni şəhər İsgəndərin şərəfinə İsgəndəriyyə adı verildi.[1]

E.ə 323-cü ildə Makedoniyalı İsgəndərin ölümündən sonra onun sərkərdələrindən biri Ptolemey Laq özünü çar elan etdi və İskəndəriyəni Yunanstanın paytaxtaına çevirdi. İsgəndəriyyə şəhəri paytaxt elan edildikdən sonra sürətlə inkişaf edib ellinizm mədəniyyətinin mərkəzinə çevrildi. Artıq bir əsrdən sonra Ptolomeyin oğlu I Ptolomey və II Fladelf zamanında özünün inkişafının yüksək mərhələsinə çatdı.

Beş əsrdən sonra artıq şəhərdə bir milyon əhali yaşayırdı.[2] İsgəndəriyyə şəhəri öz coğrafi mövqeyinə görə çox əlverişli yerdə yerləşdiyindən dünyanın bütün ölkələri ilə əlaqə saxlamaq imkanı var idi. İsgəndəriyyədə iki böyük limanın olması dünyanın bütün ticarət gəmilərinin buraya gəlməsinə şərait yaradırdı. Bu da İsgəndəriyyə hakimiyyətinə dünyanın bir çox ölkələri beynəlxalq əlaqələr qurmasına, geniş ticarət etməsinə səbəb olurdu. İsgəndəriyyənin bazarlarında Yunanıstanın, Hindistanın, Sirakurun və. s. ölkələrinə tacirlərinə tez-tez rast gəlmək olurdu. Şəhərin şərq limanının girəcəyində nəhəng daş heykəl oturacağının üzərində qədim dünyanın səkkizinci möcüzəsi hesab edilən on bir metr hündürlüyündə Mayak ucalırdı. Bu ticarət gəmilərinin limana daxil olmasına olduqca əlverişli şərait yaradırdı. Şəhərin mərkəzi kvartalında, dənizin kənarında, geniş parkların

[1] *Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 21-22.*
[2] *Володин Б.Ф. Всемирная история библиотек Санкт-Петербург. 2004, с.29.*





əhatəsində çar sarayı Burxeyon, şəhərin şimal-şərqində isə Makedoniyalı İsgəndərin Mavzoleyi yerləşirdi. Şəhərin ən gözəl memarlıq abidələrindən biri I Ptolomeyin əmri ilə tikilmiş Museyon da burada yerləşirdi.

Museyon öz mahiyyətinə görə elmi-tədqiqat tipli müəssisə idi. Burada bitkilərin və heyvanların kolleksiyaları toplanmış və rəsədxana yerləşdirilmişdi. Müseyonda mühazirə zalları, elmi iş və müəllim otaqları var idi. Burada Ptolomey I Coter (323-283) görkəmli yunan alimi Demetri Falerskinin məsləhəti ilə b.e.ə. III əsrin əvvəllərində İsgəndəriyyə kitabxanasını yaratdı.[1] Bu kitabxana yaxın bir müddət ərzində böyük inkişaf yolu keçdi, bütün ellin dünyasının kitabxanasına çevrildi.

Qədim Misir çarları bu kitabxananın zənginləşdirilməsi və fəaliyyətinin genişləndirilməsi üçün vəsaitə qırırğalanmışdı. Dünyanın kitab mədəniyyətinin ən qiymətli incilərini bu kitabxanada toplamağa çalışırdılar. Bu iş Misir hökmdarları tərəfindən bir ənənəyə çevrilmişdi. Yeni gələn bütün hökmdarlar bu ənənəni davam etdirirdi.

Ptolemey II Filodelf bütün ellin dünyasına öz nümayəndələrini göndərir, ən qiymətli kitabları İsgəndəriyyə kitabxanası üçün əldə edirdi. Ptolemey III Everqet belə bir qayda qoymuşdu ki, İsgəndəriyyəyə gələn hər bir insan özü ilə gətirdiyi kitabları İsgəndəriyyə kitabxanasına verməlidir. Məlum olduğu kimi, İsgəndəriyyə şəhəri qədim dünyanın ən böyük limanlarından biri idi. Demək olar ki, dünyanın bütün ticarət gəmiləri İsgəndəriyyə limanına daxil olurdu. Dövlət belə bir sərəncam vermişdi ki, İsgəndəriyyə limanına daxil olmaq istəyən hər bir ticarət gəmisi İsgəndəriyyə kitabxanası üçün bir kitab, əgər kitabı vermək imkanı yoxdursa, üzü köçürülmək üçün bir kitab gətirməlidir. Əks halda gəmilər Limana buraxılmayacaqdır.

Afinada məhsul qıtlığı ilə əlaqədar aclıq baş verən zaman Ptolomey III Everqet (e.ə. 246-222) e.ə. 221-ci ildə qızıl pul girov qoymaq-

[1] *Володин Б.Ф. Всемирная история библиотек Санкт-Петербург. 2004, с.30.*

la Esxilin, Evripidin və Sofoklin tragediyalarının orjinalını almaq şərti ilə Afinaya taxıl satmağa icazə vermişdi. Sonradan isə girov qoyulan qızıl puldan imtina edilmiş, orjinal əsərlər İsgəndəriyyədə saxlanmışdır. Yunanlar isə ancaq onların sürətini almağa müvəffəq oldular.

Misir hökmdarları İsgəndəriyyə kitabxanasını zənginləşdirmək, qiymətli kitabların orijinalını, nadir kitab kolleksiyalarını və görkəmli alimlərin, dövlət xadimlərinin şəxsi kitabxanalarını əldə etməyə xüsusi əhəmiyyət verirdilər. Tarix belə bir elmi və mədəni əhəmiyyətə malik olan faktı zəmanəmizə gətirmişdir ki, Misir çarı Ptolomey II Filodelf (b.e.ə. 235-246) görkəmli alim Demetr Falerskinin məsləhəti ilə böyük filosof Aristotelin şəxsi kitabxanasını almışdır.

Qədim dünyada görkəmli alimlər, dövlət xadimləri və ziyalılar tərəfindən təşkil edilmiş, şəxsi kitabxanalardan biri və belə demək mümkündürsə, birincisi olan Aristotelin kitabxanasında 40 mindən artıq kitab olmuşdur.

Böyük filosof Aristotel öz dövrünün ən böyük elm fədaisi, bir çox elmlərin əsasını qoyan, çox geniş elmi maraq dairəsinə malik, ensiklopedik zəka sahibi kimi dünya elminin inkişaf yolunu öz parlaq elmi kəşfləri, dərin ideyaları ilə işıqlandırmışdı. Aristotelin kitabxanası öz məzmunu etibarilə qədim dünya elminin, mədəniyyətinin, ədəbiyyat və incəsənətinin güzgüsü idi. Mübaliğəsiz demək olar ki, burada antik dünyanın bütün kitab mədəniyyəti toplanmışdı. Belə bir kitabxananın alınması İsgəndəriyyə kitabxanasının fondunu çox nadir kitablarla zənginləşdirirdi. İsgəndəriyyə kitabxanasını dünyanın ən böyük kitabxanasına çevirmək haqqında aparılan səylər nəticəsiz qalmadı. Artıq 246-cı ildə Filodelfin hökmdarlığının sonlarında kitabxanada 400000 kitabın olması haqqında məlumat var idi. Bir çox tarixçilər isə belə bir fikir irəli sürürlər ki, b.e.ə. I əsrdə kitabxanada 700000 kitab olmuşdur.

Kitabxananın dövlət tərəfindən maliyyələşdirilməsi onun hər tərəfli bir elm, təhsil, mədəniyyət mərkəzi kimi formalaşmasına səbəb olmuşdu. Museyonun başında kitabxananın rəhbəri dururdu. Misir hökmdarları





varislərinin tərbiyəsində bu başçılara tapşırılırdı. Məhz buna görədir ki, bir qayda olaraq kitabxanaya dövrün görkəmli alimləri, filosofları rəhbər təyin edilirdilər. Müxtəlif vaxtlarda kitabxanaya filosoflar-Erastofen, Aristofan Verantiyski, Apollon Eydoqraf, Aristarx Samafrariyski, Zenodod Efesski və s. olmuşdur. Kitabxanada ən çox işləyən alim Erastofon olmuşdur. Erastofon kitabxanada b.e.ə. 235-ci ildən işləməyə başlamış, 40 ildən artıq öz kitabxanaçılıq fəaliyyətini davam etdirmişdir. Erastofen Coğrafiya elminin əsasını qoyan görkəmli alimlərdən biri olmuş, coğrafiya xəritələrinin tərtibi metodikasını hazırlamış, dünyanın xəritəsini tərtib etmişdir. Onun ən böyük xidməti "Coğrafiya" istilahını elmi dövriyəyə daxil etməsi olmuşdur.

Zenodod Efesskinin rəhbərliyi dövründə kitabxanada Homerin "İlliada və Odisseya" poemasının üzü köçürülmüş, tam mətni hazırlanmışdır.

Həmçinin kitabxanada bütün ellen dünyasının görkəmli alimləri, qramatikləri, şairləri işləyirdilər. Onlar dünyanın ən nadir kitablarını kitabxanaya toplamaqla, onun gələcək nəsillər üçün qorunub saxlanılmasını təşkil etməklə yanaşı geniş elmi tədqiqatlar aparır, dünyanın ən qiymətli kitablarını yunan dilinə tərcümə edir, onları öyrənir, yeni kitablar yaradırdılar.

İsgəndəriyyə kitabxanası həmçinin kitabxanaçılıq fikrinin yaranıb formalaşmasında kitabxana işi təcrübəsinin təşəkkül tapması və daha da təkmilləşdirilməsində mühüm rol oynamış, kitabxanaları idarə etmək üçün bir çox yeni iş forma və üsullarının yaranmasını təmin etmişdir. İsgəndəriyyə kitabxanasında yaradılmış kitabxanaşünaslığa dair bir sıra nəzəri fikirlər, kataloq sistemlərinə, kitab fondlarının saxlanmasına və düzülüşünə dair iş forma üsulları öz əhəmiyyətini itirməmiş, zəmanəmizə qədər gəlib çıxmış, dünya kitabxanaşünaslığının yolunu işıqlandırmışdır. İsgəndəriyyə kitabxanasında uzun müddət işləyən görkəmli alim və şair Kallimax (b.e.ə. 310-240) kitabxana fondunun düzülüş qaydalarını və kataloqlaşdırma sistemini yaratmış və kitabxana işinə tətbiq etmişdir.

Görkəmli alim və şair Kallimax tarixə, qramatikaya və poeziyaya dair 800-dən artıq əsərin müəllifi olmuşdur. O, həmçinin ilk biblioqraf kimi "Pinakes" (siyahı) adlandırılan annotasiyalı biblioqrafiq göstərici tərtib etmişdir. Bu siyahıda 120 kitab öz əksini tapmışdı. Kitablar müxtəlif elm sahələrinə və poeziyaya aid idilər.

Kitabxanada kitabxanaçıların ixtisaslaşmasına xüsusi əhəmiyyət verilirdi. Onlar kitabxanaya yeni daxil olan kitabların uçotunu aparır, uçot kitabına daxil edir, fonda xüsusi təsnifata uyğun düzür, fondun qorunmasını təmin edir, onun nəmişlikdən qorunması üçün tədbirlər görür, kitabların inventarizasiyasına xüsusi diqqət yetirilirdi. Bu iş üçün xüsusi otaqlar ayrılmışdı. Kitablar iki yerdə - əsas və əlavə fondlarda saxlanılırdı. Dublikatlar şəhərin kənarında ayrılmış əlavə binada yerləşdirilmişdir. Kallimaxın təcnifatına görə bədii ədəbiyyat altı bölməyə: Epos, eleqiya, yalıb (iki hecalı şair vəzni), melika, tragediya, komediyaya, elmi ədəbiyyat isə beş: tarix, ritorika, fəlsəfə, tibb, qanunvericiliyə ayrılırdı.

Bunlardan başqa, müxtəlif ədəbiyyat bölməsi də var idi. Hər bir bölmədə kitablar rəflərdə müəlliflərin soyadlarına görə düzülür, hər bir müəllif haqqında qısa avtobioqrafik məlumat və əsərlərinin siyahısı verilirdi. Həmçinin kitabların (bükmələrin) quruluşu haqqında da məlumat təqdim olunurdu.[1]

Müasir dünya kitabxanaşünaslığı kitabxanaların dörd element (stun) üzərində qurulduğunu əsaslandırmışdır.

Bu elementlər kitab, oxucu, kitabxanaçı və maddi-texniki bazadır. İsgəndəriyyə kitabxanasının strukturunu diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, bu dörd element hələ b.e.ə. bu kitabxanada mövcud olmuşdur.

Kitabxananın o dövrün arxitekturasının son nailiyyətləri əsasında inşa edilmiş gözəl binası, ağ mərmərlə örtülmüş böyük qiraət salonu, ayrıca kitabsaxlayıcısı, kitabxana işçiləri üçün otaqları var idi.

[1] *Володин Б.Ф. Всемирная история библиотек Санкт-Петербург. 2004, с.32.*





Qiraət zalında oxumaq və yazmaq üçün stollar və bir az aralı yumşaq kreslolar və lojalar yerləşirdi.

Kitabxananın quruluşundan da məlum olur ki, kitabxananın əsas vəzifəsi oxuculara xidmət işini təşkil etmək, beləliklə də, ölkədə elmin, təhsilin, mədəniyyətin inkişafında yaxından iştirak etmək olmuşdur.

Deməli, müasir şəraitdə dünya kitabxanaşünaslığının əsas problemi olan oxucu problemi hələ antik dövrdə Isgəndəriyyə kitabxanasının da problemi olmuşdur.

Beləliklə, belə bir fikir söyləmək yerinə düşərdi ki, kitabxanalar üçün oxucu problemi, kitabxanaların əbədi və bəşəri problemidir.

Dünya şöhrətli, bəşəriyyətə üç əsr xidmət etmiş, bəşər elminin, mədəniyyətinin qiymətli incilərindən biri olan Isgəndəriyyə kitabxanasının məhvi haqqında tarixi mənbələrdə dəqiq məlumat yoxdur. Çoxlu fərziyyələr, tarixçilərin qeydləri, əfsanələr vardır.

Tarixi qaynaqlarda verilən məlumatlara görə kitabxananın böyük hissəsi b.e.ə. 47-ci ildə Yuli Sezar tərəfindən yandırılmışdır. Bu məlumatı yunan tarixçi alimi Plutarx da öz əsərlərində təsdiq edir. Başqa bir tarixi məlumat da var ki, kitabxana 273-cu ildə Rin İmperatoru Avrelianın dövründə Museyyonla birlikdə yanmışdır. Kitabxananın 391-ci ildə fanatik xristianlar tərəfindən yandırıldığı da ehtimal edilir.

Nəhayət cox da dəqiq olmayan belə bir məlumat da var ki, kitabxana VII-VIII əsrlərdə ərəblər Misiri işğal edərkən yandırılmışdır.[1]

## 2.6. Perqam kitabxanası

Qədim dünyanın böyük dövlətlərindən biri olan Perqam padşahlığı kiçik Asiyanın şimali-qərbində yerləşirdi. B.e.ə 283-133-cü illərdə fəaliyyət göstərən bu padşahlıq Ellinizm dövrünün ən böyük

[1] *Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 23.*

mədəniyyət mərkəzlərindən biri olmuşdur.[1] Uzun müddət müstəqil dövlət kimi fəaliyyət göstərən Perqam padşahlığında elm, xüsusilə kitabxanaçılıq və kitabxanalar sahəsində böyük işlər görülmüşdü.

B.e.ə. III-II əsrdə mövcud olan perqam padşahlığı bütün Ellen dövlətləri içərisində fərqlənən bir dövlət olmuşdur. Perqam dövləti öz dövrünün "elmi mərkəzi" kimi də məhşurlaşmışdır.

Perqam padşahlığının əsasını b.e.ə. yunan Filter (b.e.ə. 283-263) qoymuşdur. B.e.ə. II əsrdə Ellin dünyada böyük əraziyə malik ən varlı, iqtisadi cəhətdən inkişaf etmiş dövlət hesab edilirdi.

Perqam padşahlığının mərkəzi Perqam şəhəri indiki Berqam qədim şərqdə ən inkişaf etmiş mədəniyyət və elm mərkəzi hesab edilirdi. Burada bir çox alimləri birləşdirən elm və təhsil mərkəzləri yerləşirdi. Perqam şəhərini dünyada məşhur edən mədəniyyət mərkəzlərindən biri də Perqam kitabxanası olmuşdur. Kitabxananın binası şəhərin yuxarı hissəsində yerləşən Akropolda padşah sarayının yaxınlığında idi. Perqam çarı II Evmen kitabxanaya xüsusi qayğı ilə yanaşdığından kitabxana üöün çox möhtəşəm bir bina inşa edilmiş, ən müasir, cox qiymətli avadanlıqla təchiz edilmişdi. Kitabxanada dövrünün görkəmli alimləri, şairləri fəaliyyət göstərirdilər.

Perqam kitabxanası öz nadir fondu, fəaliyyəti, kitabxanada aparılan işlərin miqyası və elmi kollektivi ilə İskəndəriyyə kitabxanası ilə rəqabət etmək səviyyəsinə yüksələ bilmişdi. Kitabxananın yanında o dövrün görkəmli alimi, maarifçisi Kratet Malt tərəfindən yaradılmış qramatiklər məktəbi fəaliyyət göstərirdi.

Kitabxanada həmçinin böyük tərcüməçilər qrupu var idi. Bu yaradıcı qrup dünyanın ən nadir əsərləri haqqında informasiya toplayır, onların içindən elmi və bədii cəhətdən böyük əhəmiyyət kəsb edən əsərləri yunan dilinə tərcümə edirdilər. İsgəndəriyyə kitabxanasında olduğu kimi burada da Ellenist dünyasının çox görkəmli alimləri və şairləri işləyirdilər.

[1] *ASE. B., 1983, s.500.*





Perqam kitabxanası yaranarkən İsgəndəriyyə kitabxanasının təcrübəsindən və iş üsulundan istifadə edilmişdi. Kitabxana fondunun əsasını papirus kitablar (bükmələr) təşkil edirdi. Perqamlılar İsgəndəriyyədən kitablar almaqla yanaşı olaraq, yazı materialı kimi istifadə edilən, o dövrün ən qiymətli yazı materialı hesab edilən papirus da alırdılar. Ellin dünyasının ən qiymətli kəşflərdən biri də yeni yazı materialının - perqamentin kəşfi hesab oluna bilər. Bu kəşf dünya kitabxanaçılığının və kitabxanalarının inkişafında çox qiymətli bir kəşf kimi tarixə daxil olmuş, uzun müddət bəşər mədəniyyətinin inkişafına xidmət etmişdir. Bu kəşf bilvasitə Perqam kitabxanasının adı ilə bağlıdır.

Papirus bükməsi halında hazırlanan kitablar, yeni forma, muasir kitab formasına yaxın bir forma kəsb etdi. Perqament kitabların bir yerdən başqa yerə aparılması asanlaşdı, mütaliə prosesi daha əlverişli şəkil aldı. Perqament kitabxanaların üstünlüyü onda idi ki, onu kağız kimi bükmək, qatlamaq, səhifələmək, üzərində asanlıqla yazmaq mümkün olurdu. Perqament vərəqlərinin hər iki üzünə yazmaq mümkün olduğundan daha cox mətn yerləşdirmək üçün şərait yarandı. Perqamentin yazı materialı kimi papirusa nisbətən böyük üstünlükləri olsa da onun hazırlanması çox baha başa gəlirdi. Perqam ustaları onu inək, dana, keçi, qoyun dərisindən hazırlayırdılar. Bir kitab hazırlamaq üçün onlarla heyvan dərisi lazım olurdu. Bu da kitabın qiymətini bahalaşdırırdı, əlçatmaz edirdi. Perqamentin yaranması haqqında tarixçi alim Pliniyin verdiyi məlumata görə, Perqam padşahı II Evmen böyük bir kitabxana yaratmaq fikrinə düşür.[1]

Kitabxananı yaratmaq üçün coxlu kitab əldə etmək, onların üzünü köçürüb çoxaltmaq lazım gəlirdi. Bunun üçün isə çoxlu yazı materialı tələb olunurdu. O dövrdə yazı materialı kimi istifadə edilən papirus ölkədə istehsal edilmədiyindən onu Misirdən almaq zərurəti qarşıya çıxmışdı. Yazı materialı əldə etmək üçün Perqam çarı II Evmen Misir

[1] *Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 25.*

hökumətinə müraciət etdi. Lakin daha böyük kitabxananın meydana gələcəyindən və İsgəndəriyyə kitabxanasının dünya şöhrətinin azalacağından ehtiyat edən car III Ptolemey Perqamaya papirus satmaqdan imtina etdi. Buna görə də perqamalılar papirusu əvəz edəcək yeni yazı materialı axtarışına başladılar. Nəticədə perqament kəşf edildi. Yazı materialı əldə edən II Evmen kitabxana üçün yeni əzəmətli bir bina tikmək qərarına gəlir. Onun göstərişi ilə görkəmli memar Bitruziya tərəfindən əzəmətli bir bina tikildi. Binanın pəncərələri şərqə açılırdı. Memarın fikrinə görə bu kitabların yaxşı saxlanması və binanın işıqlı olması üçün əlverişli şərait yaradırdı. Kitabxananın fondu saxlanılan bina şəhərin mərkəzində yerləşirdi. Kitablar dörd böyük zalda saxlanılırdı. Böyük zalın mərkəzində mərmər sütun üzərində Afinanın heykəli ucalırdı. Tarixi qaynaqlara görə Perqam o dövrdə tibb mərkəzi hesab edildiyindən belə güman olunur ki, kitabxanada saxlanılan kitabların böyük əksəriyyəti tibb elminə aid olmuşdur.

Dünya elminə və mədəniyyətinə böyük tövhələr vermiş, bəşəriyyətin işıqlı gələcəyinə xidmət etmiş Perqam kitabxanasının taleyi də çox faciəli qurtarmışdır. B.e.ə. 133-cü ildə Perqam Roma çarlığı tərəfindən işğal edildi. Roma sərkərdəsi Mark Antoni kitabxananın zəbt edilmiş, qiymətli kitablarının xeyli hissəsini Misir çariçası Kleopatraya bağışlamışdı. Belə hesab edirlər ki, Perqam kitabxanasından gətirilmiş kitablar İsgəndəriyyə kitabxanasına verilmişdir. Güman ki, bu kitablar da İsgəndəriyyə kitabxanasının kitabları ilə birlikdə məhv olmuşdur.

### 2. 7. Qədim Roma kitabxanası

Qədim dünyada kitabxana işinin tarixində Roma kitabxanalarının da xüsusi yeri və mövqeyi olmuşdur. Ellinistik mədəniyyətin tərkib hissələrindən biri olan Roma mədəniyyəti Yunan mədəniyyətinin təsiri altında yaranmış və inkişaf etmişdir. Bu baxımdan romalılar Şərq kitabxanalarının təcrübəsindən bəhrələnmiş, ilk kitabxanalar üçün kitabları oradan gətirmiş, ən nadir kitabları yunan və digər xarici





dillərdən latın dilinə tərcümə etməyə xüsusi diqqət yetirmişdir. Belə hesab edirlər ki, papirus və kitab Romaya b.e.ə. II əsrin ortalarında gəlmişdilər.

Yunanlar romalılara kitabı sevməyi, onu mütaliə etməyi, yüksək qiymətləndirməyi aşılaya bilmişdir. Görkəmli şair Horasiyin dediyi kimi "Əsir düşmüş Yunanıstan öz vəhşi qalibini, əsir almış və ora incəsənət və qədim lasium (komediya) gətirmişdir".[1] Romada mədəniyyətin tədricən inkşaf etməsi, yazıb oxumağı bacaran insanların çoxalması, cəmiyyətdə kitaba böyük tələbat əmələ gətirmişdi. Varlı romalılar kitab üzü köçürməyə, onların miqdarını çoxaltmağa səy göstərir, kitab üzü köçürən emalatxanalar yaradır, buraya savadlı mirzələri cəlb edirdilər. Beləliklə, Romada ilk kitab üzü köçürülən müəssisələr meydana gəldi. Roma həmçinin yeni yaranan ilk kitab dükanları ilə məşhur oldu. Belə dükanlar müxtəlif illərdə antik dövr alimlərinin, yazıçılarının, şairlərinin əsərlərini çox da baha olmayan qiymətə satırdılar. Olduqca maraqlıdır ki, ayrı-ayrı qədim Romada mədəniyyət digər antik dövlətlərə nisbətən gec inkişaf etsə də burada mədəniyyətin, elmin, incəsənətin inkişafında daha çox novatorluq prosesi getmiş, daha mükəmməl mədəni müəssisələr yaranmışdır. Belə müəssisələr içərisində kitabxanalar xüsusi yer tutur. Məhz ilk böyük ictimai, ixtisaslaşdırılmış kitabxanalar və həmçinin ictimai əhəmiyyət daşıyan xüsusi, şəxsi kitabxanalar yaranmışdır.

Romada ilk kitabxanalar b.e.ə.II əsrdə meydana gəldi. Romalılar ilk kitabxanaları öz yazdıqları kitablar hesabına deyil, müharibələr zamanı hərbi qənimət kimi əldə etdikləri kitablar hesabına yaradırdılar. Buna görə də, Roma kitabxanalarının fondunda xarici dillərdə, daha çox isə yunan dilində kitablar toplanmışdı. Belə ki, b.e.ə. 168-ci ildə Konsul Luciy emiliy Pavel Makedoniya çarı Perseyanın yunan elm və ədəbiyyatının ən nadir kitabları toplanmış qiymətli kitabxanasını Romaya gətirmişdi. B.e.ə. 86-cı ildə isə Sulla böyük yunan

[1] *Гарбачевский Б. Люди, книги, библиотеки. М., 1963. с. 30*

filosofu Aristotelin şəxsi kitabxanasını əldə edib Romaya gətirməyə müvəffəq oldu.

Beləliklə, Roma Yunanıstandan kitabxana mədəniyyətini mənimsəməklə yanaşı Yunanıstan kitabxanalarını onların fondlarında saxlanılan kitabları əldə etməyə nail oldu. Sonralar isə Rimlilər öz vətəndaşlarına xidmət etmək üçün yeni kitabxanalar yaratmağa meyl göstərməyə başladılar. Doğrudur, Romada ilk kitabxanalar yaratmaq ideyası Yuli Sezar (b.e.ə. 100-44-cü illər) tərəfindən irəli sürülmüşdürsə, ilk kitabxana təşkil etmək onun yaxın silahdaşlarından biri b.e.ə. 76-ci ildə Ariniem Polliona nəsib oldu. Bu kitabxanada yunan ədəbiyyatının saxlanması ilə yanaşı əsasən yeni latın ədəbiyyatının toplanması ön plana çəkilmişdi. "Roma kitabxanaları oxucuların üzünə daha geniş açıq olması ilə özünə qədərki kitabxanalardan fərqlənirdi". Məhz buna görədir ki, kitabxana tarixi mütəxəssisləri Roma kitabxanalarını ümumi kitabxana kimi xarakterizə edirlər. Lakin imperator Yuli Sezarın hələ 100 il əvvəl İmperator kitabxanası yaratmaq ideyası Roma dövlətinin gündəmində qalmaqda davam edirdi. B.e.ə. 28-ci ildə imperator Avqustun göstərişi ilə Appolon məbədgahının kitabxanası, bir qədər sonra isə və Palatina adlanan kitabxana Yuli Sezar ideyasının, qismən də olsa, həyata keçirilməsinə xidmət edirdi. Əsl İmperator kitabxanası, İsgəndəriyyə kitabxanası ilə rəqabət apara bilən, imperator kitabxanası İmperator Tryan (98-117) tərəfindən yaradıldı. Artıq Romada kitabxanalar açmaq, zəngin kitab fondları yaratmaq, onların əhaliyə xidmət işinin yaxşılaşdırılmasına diqqət yetirmək geniş vüsət almışdı. İmperator Konstantinin (258-337) hakimiyyəti dövründə Romada 28 böyük kitabxana fəaliyyət göstərirdi.[1]

Bu dövrdə Roma kitabxanalarının sayı artmaqla yanaşı kitabxana işinin strukturunda da dəyişikliklər baş vermiş kitabxanalarda kitabın üzünün köçürülməsinə, cildlənməsinə başlanmış, kitabxana

[1] *Володин Б.Ф. Всемирная история библиотек. Санкт-Петербург. 2004, с.35.*





arxitekturası, kitabxana binalarının tikilməsi sahəsində elmi fikirlər meydana gəlmişdi. Rim arxitekturaları kitabxana binalarının qapısının və pəncərələrinin şərqə açılmasını məsləhət bilirdilər. Onlar belə hesab edirlər ki, qərbə və yaxud şimala açılan pəncərələr kitabların nəmdən xarab olması təhlükəsi yarada bilər.

IV əsrdə Roma imperiyasının dağılması, çiçəklənməkdə olan kitabxana işinə də olduqca böyük zərər vurdu. Təssüflə qeyd etmək lazımdır ki, müharibələr zamanı Roma kitabxanaları olduqca böyük fəlakət qarşısında qaldı. Əksər kitabxanalar dağıdılmağa və yandırılmağa məruz qaldı.

### 2.8. Orta əsrlərdə kitabxana işi

Roma imperiyasının dağılması dünya elm və mədəniyyətinə o cümlədən Romada böyük inkişaf yolu keçmiş bəşəri kitabçılığa və kitabxanaçılığa böyük zərbə oldu. Dünya kitab və kitabxanaçılığında tənəzzül başladı. Uzun müddət davam edən bu tənəzzül dünya kitab və kitabxanaçılıq mədəniyyətinin inkişafını xeyli ləngitdi. Bu tənəzzülün baş verməsinin və uzun illər davam etməsinin əsas səbəbkarı xristiyan fanatları-barbarlar idi.

Xristian fanatları klassik elmə ciddi düşmən kəsilmişdilər. Onlar klassik elmin bütpərəstlik mənşəyindən qorxurdular. Artıq bizim eranın VII əsrində yunan dili ölü dilə çevrilmişdi. Klassik elm ancaq xristian olmayan ölkələrdə saxlanılırdı.

Xristianlığın geniş yayılması, xristian dini təbliğatçılarının formalaşması, dindarlar zümrəsinin yaranması xristian dininin dünya miqyasında böyük inkişaf tapmasına səbəb olmuş, xristian dininin mərkəzləri olan kilsə və monastrlarının meydana gəlib formalaşmasını təmin etmişdir. Xristian dininin müqəddəs mərkəzi hesab edilən kilsələr zaman keçdikcə xristianlığı yaymaq, onun əsas ehkamlarını təbliğ etməklə yanaşı, böyük təhsil və mədəni mərkəzlər kimi çıxış edirdilər. Kilsələrdə din xadimlərinin xristian ideologiyasına dair kitabları tərtib edilir, kilsə məktəbləri yaradılır, bu məktəblərdə xris-

tian ruhaniləri hazırlanır, dini kitabların üzü köçürülür, böyük dini kitabxanaların əsası qoyulurdu. Kilsələrin kitaba və kitabxanalara münasibətində yumşalma baş vermişdi. Kilsələr kitablar hazırlayan, onun üzünü köçürüb yayan, kitabları toplayıb saxlayan mədəni mərkəzlər kimi cəmiyyətdə elm, mədəniyyət və təhsilin inkişafında mühüm işlər görür böyük humanist məqsədlərə xidmət edirlər. Xristianlığın əsas atributlarından biri olan monastrlarda bu mühüm işdə kilsələrin yaxın köməkçi rolunda çıxış edirdilər. İlk monastr kitabxanaları Qərbi Avropada V-VI əsrlərdə meydana gəldi. İlk monastr kitabxanalarının öz quruluşu etibarı ilə klassik kitabxanalara oxşarlığı yox idi. Onların olduqca kasıb fondları kiçik sandıqlarda saxlanılırdı.

Monastrlarda yaşayan monarxların təhsilinə xüsusi diqqət yetirilir onların bir dindar kimi hazırlandıqdan sonra monarxlardan dini kitabların yazılmasında, yayılmasında, üzünün köçürülməsi işində geniş istifadə edilirdi.

Kilsələrin və monastrların bu müsbət fəaliyyəti ilə yanaşı onların elmə və mədəniyyətə zidd olan baxışların, klarikal ideyaların, anti elmi nəzəriyyələrin formalaşmasında mənfi rolu getdikcə güclənməklə yanaşı, cəmiyyətin inkişaf prosesinə ciddi mane olmağa başladı. İlk dəfə olaraq kilsə xadimləri tərəfindən anti elmi ideoloji mübarizə böyük miqyas almış, qabaqcıl ideyalara elmi baxışlara qarşı antoqonist ziddiyyət formalaşmışdı. İlk dəfə olaraq kitabçılıq və kitab mədəniyyəti böyük ziddiyyətlərlə üzləşmiş, "Saxta" kitabların siyahısı, yəni dini baxışlara zidd elmi kitabların siyahısı meydana çıxmışdı. Bunu kitabçılıq sahəsində ilk senzura adlandırmaq olar. "Saxta" kitabların siyahısına və düşən kitabları təbliğ etmək, oxumaq, kitabxanalarda saxlamaq qadağan edilmişdi. Doğrudur, bu dövrdə elm, təhsil və mədəniyyət əsas etibarilə qeyri - xristian aristokratlar tərəfindən inkişaf etdirilirdi.

Zaman keçdikcə kilsə və monastrlarda qabaqcıl fikirli, cəmiyyətin inkişafında elm və mədəniyyətin xüsusi rolunu dərk edən, kitab və kitabxana mədəniyyətin xüsusi rolunu dərk edən, kitab və kitabxana mədəniyyətini yüksək qiymətləndirən, təhsilli insanların cəmiyyətdə böyük rola malik olmasını dərk edən episkoplar meydana gəldi. Kilsələr Kissiodar və Sidoniy və Apollinariy kimi episkopkar yetişdirirdi ki, bu yepiskopların dünya görüşü və əməli fəaliyyətində tamamilə yeni proqressiv baxışlar formalaşdı. Kilsələrin və monastrların təhsildə və mədəni inkişafında da yaxşı mənada əhəmiyyəti xeyli artdı. Bu mühüm proses özünü daha çox kilsə və monastr kitabxanalarının formalaşmasında, onların işinin daha məqsədyönlü təşkilində göstərməyə başladı. Bütün xristianlıq aləmində kilsə və monastr kitabxanaları dinin yayılmasında yaxından iştirak etməklə, bəşəri dəyərlərə malik olan kitab xəzinələrinə çevrildilər. Belə kitabxanalara misal olaraq 555-ci ildə İtaliyanın Neapol şəhərinin yaxınlığında yaradılmış, xüsusi binası olan monastrını, İrlandiya Bolqar Monastırını, Benediktinski monastrını və s. göstərmək olar.





### 2.9. Şərq ölkələrində kitabxana işi

Şərq xalqları dünya mədəniyyəti xəzinəsinə çox böyük incilər bəxş etmiş, bəşəriyyətin yaratmış olduğu elmin, təhsilin, mədəniyyətin inkişafında yaxından iştirak etmişdir. İslam dininin meydana gəlməsi, islam mədəniyyətinin yaranıb formalaşması, islamın hakim ideologiyaya çevrilməsi, dünya svilizasiyası tarixində yeni dövrün başlanğıcı oldu. İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimin yazıya köçürülməsi, üzünün çoxaldılıb yayılması, bütün islam ölkələrində elmin, təhsilin, kitabxanaçılığın inkişafına böyük təkan verdi. Ərəb dövlətlərində təhsil, savad geniş yayılmağa başlamışdı. Ərəb xilafətinin böyük şəhərləri elm və təhsil mərkəzlərinə çevrilmişdi. Ərəblər islamın əsasını qoyan Məhəmməd peyğəmbərin elm, bilik haqqında olan kəlamlarına: "Alimin mürəkkəbi və şəhidin qanı göylər üçün eyni rəngdədir", "Beşikdən məzara qədər elm istəyin, Biliki adamın üzünə baxmaq, onunla oturub-durmaq ibadətdir". "Əgər Çin sərhədinə getmək lazım gələrsə belə, elmi axtar".[1] Böyük hörmətlə yanaşmaqla, onun həyata keçməsinə çalışırdılar.

---

[1] *Əli Polad. Üç min ilin hikməti B., 2007, s.292.*

Ərəb ölkələrində islamın, yazının, təhsilin, kitabın yayılmasında, islamın ibadət edildiyi müqəddəs yer, "Allahın evi" sayılan məscidlərin böyük rolu olmuşdur. İlk məscid Məhəmməd peyğəmbər tərəfindən Mədinədə (Yasribdə) 623-cü ildə tikdirilmişdir. Məscidin səmti (üzü) Kəbəyə (qiblə) tərəf inşa edilmişdi.

İslamın müqəddəs mərkəzi hesab edilən əl-həram məscidi isə 630-cu ildə yaradılmışdır.[1]

Məscidlərin yaranması və şəbəkələrinin bütün islam ölkələrində genişlənməsi kitabçılıq və kitabxanaçılıq işinin genişlənməsinə də şərait yaratdı.

Məscidlərin yanında kitabxanalar yaradılması bir ənənəyə çevrildi. İslam dininə görə, məscidlər allahın evi, islam dininin müqəddəs məkanı, dini ayinlərin icra edildiyi yer olduğundan burada islamın təbliğinə xüsusi diqqət yetirilirdi. Məhz məscidlərdə savad öyrədilir, Qurani-Kərim tədris olunur, islamın biliciləri və təbliğatçıları olan ruhanilər yetişdirilirdi. Məscidlərin cox böyük əhəmiyyət kəsb edən bu humanist fəaliyyəti getdikcə yeniləşmiş, məscidlərdə tədris mərkəzləri olan dini məktəblər və Qurani-Kərim və onun şərhinə, öyrənilməsinə, əhəmiyyət və vəzifələrinə həsr edilmiş kitablar saxlayan, onun istifadəsini təşkil edən kitabxanalar yaranmağa başlamışdı. Məscidlərin təhsil fəaliyyətinin zamanın tələblərinə uyğun olaraq, daha da genişlənməsi dini məktəblər şəbəkəsinin, mədrəsələrin yaranmasına və genişlənməsinə səbəb oldu. Mədrəsələr hərtərəfli dini təhsil verən, islamın elmi əsaslarını dərindən bilən, onu öyrənməyi, dini bilikləri təbliğ etməyi bacaran, islamşünaslar hazırlayırdılar. Mədrəsələr islamşünaslığın elmi-nəzəri, əsaslarının hazırlanmasının ilk qaranquşları olmaqla islamşünaslığın bir elmi dünya görüşü kimi formalaşmasında mühüm işlər görmüşlər. Mədrəsələr islamşünaslığın ilk təhsil və elmi müəssisəsi olduğundan, burada çalışan mütəxəssislər və tələbələr ücün geniş mədrəsə kitabxanalarının yaranmasına böyük ehtiyac duyulmağa başlandı. Məhz bu dövrdə yaranan məscid və mədrəsə kitabxanaları islam dünyasında kitabxanaçılığın və kitabxanaşünaslığın əsasını qoymaqla böyük mədəniyyət nümunələri kimi formalaşdılar. Məscid və mədrəsə kitabxanalarının böyük üstünlüyü ondan ibarət idi ki, öz fondlarında dünyəvi kitabların saxlanmasına və lazım gəldikdə onların oxuculara verilməsinə də şərait yaradırdılar. İslam ölkələrində məscid və mədrəsə kitabxanaları ilə yanaşı olaraq ictimai, o cümlədən krallar və dövlət xadimləri tərəfindən yaradılmış və dünya kitabxanaçılığı tarixində özünə məxsus mühüm yer tutmuş kitabxanalar da az olmamışdır.

*[1] Buzovnalı Rəhimağa İmaməliyev . İslam ensklopediyası.B., 1997, s. 275.*





Belə kitabxanalardan biri hələ VII əsrdə müsəlman dünyasının mərkəzi Dəməşqdə təşkil edilən Əməvilər sülaləsi tərəfindən əsası qoyulan Kral kitabxanası idi.[1] Sonralar bu kitabxanada həm dünyəvi, həm də dini ədəbiyyatın saxlanması, onun elmi-humanitar əhəmiyyətini xeyli artırmış, dünyəvi xarakter daşımasına gətirib çıxarmışdı. Kitabxanada müxtəlif elm sahələrinə daha çox isə hüquqa, tibbə və təbiət elmlərinin bir çox sahələrinə dair ədəbiyyat toplanmışdı. Kitabxana dövlət kitabxanası statusunu daşıdığından burada dövlətçiliyə aid sənədlər də saxlanılırdı ki, bu da rəsmi dövlət arxivi hesab edilirdi.

Bu kitabxananın yaranmasında Əməvilər sülaləsindən (661-750) olan Xəlifə Müaviyanın (661-680) xüsusi xidməti olmuşdur. Müaviyanın hələ köçərilik dövründə yaradılmış kitabxanası sonralar "Baytallxikma"ya (hikmətlər evi) çevrildi.[2] Kitabxananın funksiyası dəyşdikcə arxiv kitabxanadan ayrıldı. Kitabxana fondunun komplektləşməsində ərəblər tərəfindən İranda saxlanılan Xristian – nestorianlar tərəfindən yaradılmış yunan mədəniyyət mərkəzinin ələ keçirilməsi və burada saxlanılan kitabların ərəb dilinə tərcümə edilib,

*[1] Шира Д.Х. Введение в библиотековедение. М., 1983, с.27.*
*[2] Володин Б.Ф. Всемирная история библиотек. Санкт-Петербург. 2004. с.49.*

qiymətli elmi, hüquqi, tarixi və s. ədəbiyyatın çoxalmasına böyük kömək göstərdi. Kitabxananın fondunda bəşəri xarakter daşıyan kitabların toplanması onu böyük mədəniyyət mərkəzinə çevirdi.

Təxminən 750-ci ildə Suriyada saxlanan yunan kitabxanalarının böyük əksəriyyəti tərcümə edilib kral kitabxanasına verilmişdi.

Dəməşqdən sonra Ərəb ölkələrində kitabxana işinin inkişafı Abbasilərin hakimiyyəti dövrünə təsadüf edir. Ərəb ölkələri tarixində Abbasilər sülaləsinin hakimiyyəti dövrü ərəb dövlətçiliyinin möhkəmlənməsi, daha böyük əraziləri işğal etməsi, böyük islam mədəniyyətinin, elminin, təhsilinin inkişaf etməsi, dünya elminə və mədəniyyətinə qiymətli sərvətlər verməsi dövrü kimi xarakterizə olunur. Bu böyük inkişaf prosesi 750-ci ildən 1258-ci ilə qədərki dövrü əhatə edir. Ərəb xəlifələri Bağdad şəhərini İslam dünyasının mərkəzinə çevirərək orada bəşər mədəniyyətinə qiymətli töhvələr bəxş edən böyük mədəniyyət yaratmağa müvəffəq oldular. Dünyanın böyük mədəniyyət mərkəzlərindən biri olan Bağdadda elm, təhsil, mədəniyyət böyük inkişaf yolu kecdi. Burada dünyanın ən böyük universitetlərindən biri kimi məşhurlaşan Bağdad universitetinin yaranması bəşəri dünya elminə böyük töhvələr verirdi. Bağdad universitetində dünyəvi elmlər böyük inkişaf yolu keçdi. Universitet böyük elmi kəşflərin mərkəzinə cevrildi. Bu dövrdə Bağdadda kitabçılıq və kitabxanaçılıq işi sahəsində də mühüm işlər görüldü. Böyük dini və dünyəvi kitabxanalar yarandı.

Bu dövrdə yaranmış Bağdad Universitetinin kitabxanası dünyanın ən böyük universitet kitabxanası, elmi kitabxana kimi şöhrət tapmışdı.

Bu kitabxana öz fondunun zənginliyinə, tərkibinin unikallığına və elmliyinə görə fərqlənirdi. Kitabxananın oxucuları arasında dünyanın ən böyük alimləri var idi. Elə kitabxanaya da bu alimlər rəhbərlik edirdilər. Kitabxanada fondun təsnifləşdirilməsi və kitabların oxuculara çatdırılması üçün kataloq sistemi yaradılmışdı. Kitabxana bütün istiqamətlərdə elmi-tədqiqat işi aparan alimlərin üzünə açıq idi. Kitabxanadan istifadəni asanlaşdırmaq, oxucuların sorğularına cavab vermək üçün yaradılmış kataloq, kitabxanaşünaslıq elmi üçün böyük əhəmiyyət kəsb edirdi. Bağdad universitetinin yaranmasında, formalaşmasında və inkişafında Xəlifə Harun Əl-Rəşidin xidməti böyük olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, Bağdad Universiteti və onun kitabxanası Xəlifə Böyük Əl- Məhəmmədin[1] Xəlifəliyi (813-833) dövründə böyük inkişaf yolu keçmiş, universitetdə yeni elmi laboratoriyalar yaranmış, bəşəri əhəmiyyət kəsb edən elmi kəşflər edilmiş, universitet kitabxanası fondunun formalaşmasına və oxuculara xidmət işinin təşkilinə görə dünyanın ən böyük universitet kitabxanalarından birinə çevrilmişdir.

Kitabxana öz fondunu təkmilləşdirmək uçün ərəb ölkələri ilə yanaşı İspaniya Hindistan, İtaliya və bir çox dünya ölkələri ilə də əlaqə saxlayır, onlardan çox nadir kitabları əldə edirdilər. Bağdad Universitetinin kitabxanası həm fondunun miqdarı, zənginliyi və olduqca qiymətli nadir kitablara malik olmaq cəhətdən orta əsrlərdə bütün ərəb dünyasına və islam aləminə nümunə idi. Orta əsrlərdə islam dünyasının elm və mədəniyyəti qərb ölkələrinə böyük təsir göstərirdi. Müsəlman dünyasının təsiri İspaniyaya qədər gedib çıxmışdı. İspaniyanın Kordove, Sevile, Toledo və sə şəhərlərdə kitabxanalar və müsəlman mədəniyyəti və elminin böyük mərkəzləri yaranmışdı.

Madriddə islam kitabxanalarının yaranması və fəaliyyəti bunu bir daha sübut edir. 1928-ci ildə Madridə səyahət etmiş coğraf Yakut Əl-Həməvi yazırdı: Madriddə 1228-ci ildə 20 kitabxana fəaliyyət göstərirdi.[2] Kitabxanada oxuculara xidmət işi olduqca demokratik əsaslarda təşkil etmişdi. Oxuculara kitabxanadan bir dəfəyə 200-ə qədər kitab götürməyə icazə verilirdi.

Cess Şira göstərir ki, müsəlman kitabxanaları təkcə geniş yayılması ilə fərqlənmirdilər, onlar fondlarının zənginliyi və fondda

---

[1] *Шира. Д.Х.Введение в библиотековедение. М., 1988, с.27.*
[2] *Шира Д.Х. Введение в библиотековедение. М., 1983, с.28.*

müxtəlif biliklərin əks etdirilməsi ilə, oxuculara xidmətin liberallığı ilə fərqlənirdilər. Hətta dinə səy göstərən kitabxanaçılar elmə böyük hörmət edir, oxucular arasında fərq qoymurdular. İslam kitabxanaları bu cəhətdən xristian kitabxanalarından yüksəkdə dururdular. Hətta kitabxananın bu gün səviyyəsi nöqteyi-nəzərindən götürsək, müsəlman dövrünün kitabxanaları olduqca müasir görünür. İslam ölkələri kitabxanalarının fərqli cəhətlərindən biri də kitabxana fondlarında dini kitablarla yanaşı elmi ədəbiyyatın toplanmasına ciddi fikir verilməsi idi.

Müsəlman kitabxanalarının da fondunda poeziyaya, beletriskaya, tibbə, hüquqa, astranomiyaya, kimyaya, maqiyaya, fəlsəfəyə, riyaziyyata, incəsənətə, tarixə və s. elmlərə dair kitablara geniş yer verilirdi. Fonda saxlanılan kitabların əsas forması kodeks idi.[1] Ancaq fondlarda çoxlu miqdarda papirus və perqament kitabları da saxlanılırdı. Fondlar kitabların predmetləşdirilməsi prinsipi üzrə düzülürdü.

Müsəlman kitabxanalarında kitabxana kataloqlarının tərtibi, təşkilinin də xüsusi, öz dövrü üçün bütün dünya kitabxanalarına nümunə ola biləcək qaydalar yaradılmışdır. Kataloqlarda kitabların təsviri predmetlərə görə aparılırdı. Bəzi hallarda kitablar haqqında kiçik annotasiya formalı məlumatlarda verilirdi. Kataloqlar böyük kitabın formasında tərtib edilirdi.

Böyük kitabxanalarda çoxcildli kataloqlar yaradılırdı. Elə böyük kitabxanalar var idi ki, onların 50-60 tomluq kataloqları oxucuların istifadəsinə verilirdi. İslam kitabxanalarında kitab mədəniyyətinin, xüsusilə kitab incəsənətinin inkişafına, kitabların miniatürlərlə bəzədilməsinə, kalliqrafiyanın inkişaf etdirilməsinə, yazı mədəniyyətinin daha da təkmilləşdirilməsinə, kitabın cildlənməsinə, ornamentlərlə bəzədilməsinə xüsusi diqqət yetirilirdi.

[1] *Kodeks [lat.codicis. Kitab sistemləşdirilmiş qanunlar külliyyatı məs. cinayət kodeksı, əmək haqqında qanunlar]*





İslam ölkələrində kitabxana işinin geniş yayılması, kitabxanalara diqqətin getdikcə artması, cəmiyyətdə kitabxanaların imicinin xeyli yüksəlməsinə səbəb olmuşdur. Məhz buna görə də, islam ölkələrində dövlət və ictimai kitabxanalarla yanaşı olaraq, geniş şəxsi kitabxanalar şəbəkəsi də meydana gəlmişdi. Tarixi mənbələrdən məlum olduğu kimi, dövlət və ictimai kitabxanalarla yanaşı olaraq şəxsi kitabxanalar da ölkənin elmi-mədəni həyatında yaxından iştirak edirdilər. Bir çox şəxsi kitabxanalar oxucuların xüsusilə də alimlərin üzünə açıq idi. Tarixi qaynaqlarda yüzlərlə görkəmli alimlərin şəxsi kitabxanalarından bəhrələndiyi haqqında qiymətli məlumatlar vardır. Belə bir cəhəti də vurğulamaq yerinə düşərdi ki, şəxsi kitabxanalarda daha qiymətli, öz dövrünün inciləri hesab edilən, nadir kitablar saxlanılırdı. Çox təəssüflə qeyd etmək yerinə düşərdi ki, İslam kitabxanalarının taleyi də Aralıq dənizi ölkələri kitabxanalarının taleyi kimi çox faciəli qurtardı. Onlar tez-tez baş verən qanlı müharibələr və XII əsrdən başlayaraq islam dünyasında elmə, biliyə, təhsilə marağın azalması ilə fəaliyyətlərini dayandırmalı oldular. Doğrudur, Şimali Afrikada və İspaniyada elm öz mövqeyini uzun müddət, təxminən iki əsr saxlaya bilmişdisə, bu dünyada baş verən mədəni prosesə o qədər də ciddi təsir göstərə bilməmişdi. Böyük bəşəri əhəmiyyət kəsb edən, dünyanın böyük kitabxanalarının dağıdılıb yandırılmasında xristian xaçpərəstləri yaxından iştirak etdilər. Demək olar ki, onlar XI-XIII əsrlərdə Suriyada, Fələstində və Şimali Afrikanın bir çox ölkələrində mədəniyyətin vəhşicəsinə dağıdılmasının əsas səbəbkarı oldular. Bunların arxasında XIII əsrdə monqollar Çingiz xanın hücumu zamanı İslam kitabxanalarına böyük zərbə vurulmuş böyük kitab xəzinələri vəhşicəsinə yandırılmışdır. Doğrudur, Çingiz xanın 1260-cı ildə ərəb ölkələrindən qovulmasına baxmayaraq ölkə ərazisində, o cümlədən Bağdadda kitabxanaları bərpa etmək təşəbbüsü baş tutmamışdı. Çünki 1393-cü ildə ərəb ölkələrinə hücum edən Tamerlan ərəb mədəniyyətinə, ərəb kitabxanalarına elə bir öldürücü zərbə vurdu ki, bu zərbədən sonra kitabxanaları bərpa etmək mümkün olmadı. Əgər biri-birinin arxasınca

İslam mədəniyyətinə bütlərlə dağıdıcı zərbələr vurulmasaydı, İslam mədəniyyəti dünya intibahına daha böyük tövhələr verərdi.

İslam dünyası kitabxanlarının tarixi xidmətlərindən biri də dünya kitabxanaçılıq fikrinin inkişafına, kitabxanaşünaslığa verdiyi böyük tövhədir. İslam ölkələrində yaranmış olan böyük kitabxanaları idarə etmək, onun strukturunu müəyyənləşdirmək, yeniləşdirmək, kitabxana fondlarını komplektləşdirməyin elmi əsaslarını yaratmaq, kitabxana fondlarını təsnifləşdirmək üçün daha məntiqi, daha mükəmməl təsnifatlar yaratmaq işində mühüm işlər görmüşlər. İslam kitabxanalarında kataloqlaşdırma, oxucuların sorğularına cavab vermək üçün məlumat-axtarış sistemlərinin daha yeni növlərini tədbiq etmək sahəsində də qiymətli işlər görülmüş, kitab şəklində çox cildli kataloqlar yaratmağın əsası qoyulmuş, izahlı kataloqlar tərtib edilməyə başlamışdır.

İslam kitabxanalarında kitabın tərtibi, onun qiymətli ornomentlərlə, miniatürlərlə, gözəl rəsm əsərləri ilə bəzədilməsi, qiymətli mürəkkəblə-qızıl suyu ilə yazılması, həmçinin kitabın cildlənməsinin daha da təkmilləşməsi, yeni cild növlərinin və formalarının hazırlanması uzun müddət dünya kitabxanalarının örnək mənbəyi olmuşdur. İslam kitabxanalarında meydana gələn bu yeniliklərdən, iş forma və üsullarından dünya kitabxanalarında istifadə edilməsi bəşəri xarakter daşımışdır.

## 2.10. Orta əsrlərdə Qərb ölkələrində kitabxana işi

Orta əsrlər Qərb ölkələri kitabxanaçılıq tarixində cəhalət və tənəzzül illəri olmuşdur. Şimaldan Barbarların vəhşi hücumu nəticəsində Rim İmperiyasının darmadağın edilməsi, bütün Avropaya böyük bir bəla gətirdi. Bütün Avropa qaranlığa qərq oldu. Orta əsrlərdə Avropada ən çox zərər çəkən, demək olar ki, inkişafı dayandırılan elm və mədəniyyət oldu. Xüsusilə kitab və kitabxanaçılığa irtica daha böyük zərər vurdu. Orta əsr Avropa kitabxanalarda Yunan-Rim kitabxanalarının demokratik və humanist prinsiplərə söykənən





ənənələri tamamilə yoxa çıxdı. Demək olar ki, bir neçə əsr kitabxanalar ancaq kicik kitab topluları kimi kilsə və monastrların yanında öz mövcudluğunu qoruyub saxlaya bilmişdi. Kitabxanaların yeni kitablarla təmin edilməsi ücün vəsait ayrılmadığından, onların fondu olduqca kasıb idi. Kilsə tərəfindən kilsə və monastr kitabxanalarına kitab almaq üçün vəsait ayrılmırdı. Kilsə və manastr kitabxanaları ancaq monarxların üzünü köcürdüyü kitablar hesabına komplektləşirdi. Kilsə və monastrlarda kitabların üzünün köçürülüb çoxaldılması işi sistemli xarakter daşıdığından yeni kitablar olduqca az hazırlanırdı. Hazırlanan kitablar isə tam dini məzmunda idi. Əsasən Bibliyanın digər dini kitabların və kilsə atalarının yazdığı kitabların üzü köçürüldü. Dini kitabxanalarda saxlanılan kitablar o qədər az idi ki, onları kitab rəflərində saxlamağa ehtiyac qalmamışdı. Kitablar xüsusi sandıqlarda saxlanılırdı. Hər hansı bir kitab lazım olduqda onları sandıqlardan tapmaq böyük problem və çətinliklər yaradırdı.

Doğrudur, orta əsrlərdə kitabın bədii-tərtibi sahəsində az da olsa, yeniliklər baş vermişdi. Bu yenilikləri Manuskriplərin[1] meydana gəlməsi kimi qiymətləndirmək olar. Ancaq bu yenilik olduqca nadir hallarda baş verdiyindən, geniş mədəni prosesə çevrilmədiyindən ciddi hadisə kimi qiymətləndirilməyə dəyməz. Kitabların monarxlar tərəfindən üzünün köçürülməsinin təşkili işində də ciddi nöqsanlar mövcud idi. Kitablar düzgün seçilmirdi. Bəzən bir kitabın üzü dəfələrlə köçürülür, lakin çox qiymətli kitabların üzü isə köçürülmürdü. Üzü köçürülən kitablara, ümumiyyətlə köçürmə prosesinə nəzarət yox idi. Ona görə də, üzü köçürülən kitablar ciddi nöqsanlarla dolu idi. Belə kitabları oxuculara, din xadimlərinə vermək bir çox narazılıqlar ortaya çıxarırdı. Orta əsr Avropa kitabxanalarına dəyən zərər müəyyənləşdirilmədiyindən onun miqyasını qiymətləndirmək mümkün olmasa da, belə bir fikir söyləmək olar ki, orta əsrlərdə Avropa

---

[1] *Qədim və orta əsr əlyazma manuskriplər əsasən papirus və perqa- ment üzərində yazılırdı.*

kitabçılığına, kitabxanalarına böyük zərər dəymiş, kitabxana işi yüz illərlə yerində sayımış, hec bir yenilik və inkişaf baş verməmişdir. Belə bir cəhət də diqqəti cəkir ki, orta əsr Avropa dini kitabxanalarında kitabxanaların strukturu, ümumiyyətlə kitabxana işi olduqca bəsit halda olmuş, kitabxanaşünaslıq fikri zəif inkişaf etmişdir. Dini kitabxanalarda bilavasitə kitabxana işini idarə edən peşəkar kitabxanaçının olmaması onların işinə olduqca mənfi təsir göstərirdi.

Tarixi mənbələrdən məlumdur ki, orta əsrlərdə Romada Vatikan Papa kitabxanası yarandı. Tarixçilər bu kitabxananın yaranmasının dəqiq tarixini müəyyənləşdirə bilməsələr də, göstərirlər ki, Vatikan Papa kilsəsinin yaranmasının ilk dövrlərindən başlayaraq kilsədə Papanın arxivini toplayıb saxlayan kiçik bir arxiv fondu olmuşdur ki, bu sonralardan tədricən kitabxanaya çevrilmişdir. Ancaq 700-cü ilə qədər kitabxana haqqında müxtəsər məlumat olsa da, kitabxanaçı haqqında məlumat olmamışdır. Orta əsr kilsə və monastrların strukturunda kitabxanaçı ştatı olmamışdır. Kilsə və monastr kitabxanalarında kitabxanaların işini təşkil etmək savadlı monaxlara, bəzi hallarda isə kilsənin din xadimlərinə tapşırıldı.

Qərb ölkələrində ilk peşəkar, alim kitabxanaçıların adı 500-cü illərdən sonra çəkilməyə başlanmışdır. İlk peşəkar kitabxanaçıların formalaşması, ölkələrin mədəni həyatında mühüm hadisə kimi qiymətləndirilməlidir. Dünya kitabxanalarının tarixi bir daha sübut edir ki, peşəkar kitabxanaçılar öz dövrünün elmli insanları kimi, elmin, təhsilin, mədəniyyətin, kitabcılıq və kitabxana işinin inkişafına qiymətli töhfələr vermiş, öz dövrünün görkəmli ziyalıları kimi qiymətləndirilmişdir. Orta əsrlərdə yetişmiş ilk belə kitabxanaçının adı 550-ci ildə cəkilməyə başlamışdır. Bu görkəmli şəxsiyyət İtaliyada yetişmiş və Rim hökmdarlarının sarayında çalışmış, sonradan kitabxana işi sahəsində böyük xidmətlər göstərmiş, Marqus Avreliy Kossiodor olmuşdur.[1] Kossiodor 550-ci ilə qədər Rim hökmdarı Te-

[1] *Шира Д.Х Введение в библиотековедение. М., 1983, с.38.*





odorixin yanında katib vəzifəsində işləmişdir. Bu vəzifədən istefaya getdikdən sonra Bavariyada Monastrın əsasını qoymuş və o dövr üçün çox zəngin hesab edilən öz şəxsi kitabxanasını yeni yaranmış monastr kitabxanasına vermişdir. O, ilk dəfə olaraq monastr və onun kitabxanasının idarə olunması qaydalarını formalaşdırmış, bu məsələyə xususi əsər həsr etmişdir. Kosiodor "Dini və dunyəvi kitab müəssisəsi" adlı kitab yazmışdı. Bu kitab, demək olar ki, alimlərin tələbatına uyğun tərtib edilmiş kitabxanaların ən qiymətli siyahısı idi. Bu siyahı monastr kitabxanalarında uzun müddət istifadə edilməklə, monastr kitabxanalarının fondunun əsasını təşkil etmiş, kitabxana fondlarının məzmunca zənginləşməsinə xidmət göstərmişdir.

Kosiodorun xidmətlərindən ən mühümü isə monastrın həyatına əqli əməyi daxil etməsi olmuşdur. Sonralar o müasir Boetiemlə birlikdə Qərbi Avropada klassik təhsilin əsasını qoymuşdur.

Kosiodorun həyata keçirdiyi mütərəqqi tədbirlər Qərbi Avropada sürətlə yayılmağa başlandı. Şimali Avropada, Irlandiyada, Isvecrədə, İngiltərədə, Fransada və s. ölkələrdə Kasiodorun ideyaları inkişaf etdirilmiş və nəticədə monastr kitabxanaları yaranmağa başlamış.

Orta əsrlərdə qərb ölkələrində kilsə və monastrların cəmiyyətdə rolunun möhkəmlənməsində, təhsilin yayılmasında, kitabçılığın inkişafında, zəngin kitabxanalar yaradılmasında fəaliyyət dairəsinin genişlənməsinə baxmayaraq artıq orta əsrlərin axırlarında əqli fəaliyyətin inhisarı üzərindəki nəzarətini itirmişdi. Keçmiş dövrlərdə olduğu kimi əyanlar (aristokratiya) kitablar toplamağa, kitablar yazmağa böyük səy göstərirdilər. Qərb ölkələrində elmin, təhsilin mədəniyyətin inkişafına böyük əhəmiyyət verən ziyalılar ordusu meydana gəlib formalaşmışdı. Artıq XIII əsrdən başlayaraq ilk universitetlər meydana gəlməyə başladı. İlk universitetlərin və kitabxanaların sələfləri bir neçə əsr bundan əvvəl Peripatetik* məktəblərdə

* *Peripatetizm materializm ilə ideolizm arasında tərəddüd edən qədim yunan filosofu Aristotelin nəzəriyyəsi.*

təhsil alan tələbələr və onların müəllimlərinin təşəbbüsü ilə ilk universitetlər meydana gəldi.

Təxminən XIII əsrdə bir qrup tələbə və müəllimlər birləşərək təhsil institutu yaratdılar. Doğrudur, tədris prosesini təşkil etmək və elmi adların verilməsini qaydaya salmaq üçün tədris planlarının tərtibi və elmi adların verilməsi üçün qaydaların hazırlanması olduqca zəif inkişaf etməsinə baxmayaraq, bəsit halda olsa da, universitetlər tədricən öz fəaliyyətlərini genişləndirirdilər. Beləliklə, ilk universitetlər birləşmiş tələbə və müəllimlər qrupunun federasiyası kimi meydana gəldi. Belə universitetlər peşəkarların sexinə bənzəyirdi.

Universitet – universtas latın sözüdür, hərfi mənası hər hansı birləşmənin cəmidir. Belə bir ehtimal da vardır ki, Fransada, İngiltərədə, İtalyada və s. universitetlərin yaranması ideyası da müsəlman İspaniyasından gəlmişdi. Yeni yaranan bu universitetlərdə kitabxanalar yox idi. Tələbələr kitabları universitetlərin ətrafında kitab ticarəti edən kitab mağaralarından əldə edirdilər. Tələbələrin birləşməsi ənənələri getdikcə daha sistemli xarakter alırdı. Tələbələrin birləşmə ideyalarının daha da genişlənməsi "Kolleqium"un yaranmasına gətirib çıxardı. Buradan fransız dilində "Kollej" sözləri yarandı. Tələbələrin yaratdığı belə "Kollejlər"də kiçik kitabxanalarda yaranmağa başladı ki, bununla da Avropada ilk tədris kitabxanalarının, universitet kitabxanalarının əsası qoyuldu. Universitet kitabxanalarının yaranması, onların fondunun zənginləşməsi, məzmunca yaxşılaşması, tələbələrə və müəllimlərə kitabxana xidmətinin demokratik əsaslarla təşkil edilməsində universitetlərin Avropanın elm, təhsil və mədəni inkişafında mühüm rol oynadı. Universitetlərin elm və mədəniyyət mərkəzləri kimi nüfuzunun artmasına səbəb oldu. Heç də təsadüfi deyil ki, Avropa ölkələrinin görkəmli ziyalıları universitetlərin fəaliyyətinə böyük əhəmiyyət verir. Onların inkişafına, xüsusilə də kitabxanaların yaranması üçün əllərindən gələni edirdilər.

Görkəmli fransız mədəniyyəti xadimi Rober de Sorbon 1250-ci ildə öz şəxsi kitabxanasını və kitabxananın gələcəkdə zənginləşməsi üçün xeyli vəsaiti Paris Universitetinin kitabxanasına bağışlandı.[1] Bu ənənəni görkəmli alimlər tərəfindən sonrakı illərdə də davam etdiyindən Paris Universitetinin kitabxanası öz dövrünün ən zəngin elmi kitabxanasına çevrildi.

Parisdə meydana gələn bu qiymətli ənənə Oksford və Kembric Universitetlərində də baş vermişdi. 1353-cü ildə din xadimi Tomas Kobemem öz kitabxanasını Oksford Universitetinə bağışladı.[2] Tarixi mənbələrə görə Kembric Universitetinin kitabxanasının inkişafında da hədiyyələr mühüm rol oynamışdır.

Orta əsrlərdə universitetlər klassik təhsil sisteminə qayıtmaqla bu sahədə intibahın əsasını qoydular. Təhsil sisteminin dünyəviləşməsi və liberallaşması, elmin və təhsilin gələcək inkişafına böyük töhfə verdi.

Bu dövrün xarakterik xüsusiyyətlərindən biri də Qərb ölkələrində proqressiv fikirli din xadimlərinin sayının artması olmuşdur. Belə din xadimlərindən biri kitab və kitabxana işinə böyük qiymət verən Oksford Universiteti kitabxanasının inkişaf planını hazırlayan Darema kilsəsinin baş keşişi, sonradan Lord-Konsler olmuş Ricard de Beri olmuşdur. Ricard de Beri kitab və kitabxana işinə böyük qiymət verir, onu təhsil sisteminin əsas atributlarından biri hesab edirdi. O kitabçılıq və mütaliə problemlərinə həsr edilmiş "filoliblion" adlı kitab yazmışdı. Onun bu kitabı mədəni inkişafda kitabın əhəmiyyəti və insanların təhsil və tərbiyyəsində mütaliəniin əhəmiyyəti haqqında qiymətli abidədir.

## 2.11. İntibah dövründə kitabxanalar

Qərbi Avropa ölkələrində baş verən intibah kitabxana işinə də olduqca müsbət təsir göstərdi və intibah dövrünün kitabxana

---

[1] *Шира Д.Х Введение в библиотековедение. М., 1983, с.34.*
[2] *Yenə orada.-стр.34*

xadimləri yetişdi. Onlar kitabxana işini ölkədə baş verən canlanma ilə əlaqələndirmək üçün kitabxana işi sahəsində islahatlar həyata keçirməyə, kitabxana işinin humanist xarakterlərini aşkara çıxarmağa ciddi səy göstərirdilər. Onların bu mühüm nəcib fəaliyyəti nəticəsiz qalmadı. Kitabxana işi elmin, mədəniyyətin, təhsilin əsas sahəsi, mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməyə başlandı. Bu görkəmli kitabxana xadimləri nəinki İntibah dövründə kitabxana işinin nəzəri problemlərini, inkişaf istiqamətini müəyyənləşdirir, həm də öz fəaliyyətləri və öz şəxsi vəsaitləri hesabına kitabxana işinin maddi-texniki bazasının möhkəmlənməsinə kömək edirdilər.

Belə kitabxana xidmətlərindən italyan alimi humanist Petrarkanın və Bokkaçonun xidmətləri olduqca yüksəkdə durur. Petrarka və Bokkaço kitabxana işinin inkişafında yeni dövrün əsasını qoydular. Hər iki görkəmli alim orta əsr doğmatından uzaqlaşmış, klassik kecmişə üz tutmuşdular. Onlar şəxsi kitabxanalar yaradır və ictimai kitabxanalara hədiyyə edirdilər. Bununla da şəxsi kitabxanalar yaratmağı, onları ictimailəşdirməyi, kitab mütaliəsini təbliğ edirdilər. 1362-ci ildə Petrarka öz zəngin şəxsi kitabxanasını oxucuların istifadəsi üçün Venetsiyanın San-Marko kitabxanasına hədiyyə etmişdi. İntibah dövründə kilsə və monastr kitabxanaları içərisində ən böyük kitabxana Vatikan kitabxanası idi. XX əsrdə bu kitabxana fondunun zənginliyi, məzmunu və oxuculara xidmət işinin təşkili sahəsində ən nüfuzlu kitabxana hesab olunurdu. Kitabxananın yeni əsaslarla qurulmasında və xristian aləminin ən böyük kitabxanasına çevrilməsində papa və Nikolayın (1447-1455) xüsusi xidməti olmuşdur. Elmlə, təhsillə və kitabçılıq və kitabxana işi ilə maraqlanan V.Nikolay kitabçılıq işini, yaxşı bilən özünün bacarıqlı kitabxanaçısı Tortellinin vasitəsi ilə bütün Avropa ölkələrin ən qiymətli kitablarını Vatikan kitabxanasına gətirməyə nail olmuşdu. O, belə hesab edirdi ki, Rim və Vatikan bütün xristian aləmi üçün kitabxana işinin mərkəzi olmalıdır. V.Nikolayın işi Nana IV Sikst tərəfindən müvəffəqiyyətlə davam etdirildi. Nana IV Sikst kitabxanasının maddi-texniki bazasını,





yeni kitablarla komplektləşdirilməsi işini qaydaya salmaqla, kitabxananın strukturunda xüsusilə oxuculara xidmət işinin təşkilində yeni sistem yaratmağa müvəffəq oldu. Kitabxana bütün oxucuların üzünə acıq elan edildi. Belə bir fikir söyləmək yerinə düşərdi ki orta əsrlər xristian dünyasının ən böyük kitabxanası olan Vatikan kitabxanası İntibah dövrünün ən böyük nailiyyəti idi.

1445-ci ildə İohan Qutenberq tərəfindən kitab çapına başlanması Avropada və demək olar ki, bütün dünyada yeni eranın, kitabçılıq işinin tərəqqisi erasının başlanğıcı oldu.

## 2.12. Reformasiya dövründə kitabxana işi

XVI əsrdə Qərbi və mərkəzi Avropa ölkələrinin çoxunu əhatə edən katolik kilsəsinə və papa hakimiyyətinə qarşı başlamış ictimai-siyasi hərəkat-Reformasiya Avropa ölkələrinin ictimai-siyasi həyatına böyük və həlledici təsir göstərirdi, Reformasiyanın əsas səbəbləri feodal istehsal üsulunun tənəzzülü, kapitalizm münasibətlərinin yaranması şəraitində antifeodal mübarizənin və ictimai ziddiyyətlərin kəskinləşməsi idi. İntibah dövrünün humanist hərəkatına əsaslanan reformasiyanın ideoloqları öz tələblərinə yenə də yeni dini təlim verir. Bibliyanı dini biliklərin yeganə mənbəyi hesab edir, ancaq papanın ali rolunu, təntənəli kilsə mərasimlərini inkar edirdilər.

Reformasiya kilsə həyatına böyük zərbə vurdu. Kilsə monastr torpaqları ləğv edildi. Bir çox monastrlar bağlanmaq təhlükəsi ilə üzləşdi. Reformasiyanın gedişi zamanı bir çox kilsə və monastr kitabxanaları olduqca böyük zərər çəkdi. Kitabxanaların böyük əksəriyyəti isə bağlanmağa məcbur oldu. Reformasiya nəticəsində Qərbi Avropanın bir çox ölkələrində kilsənin mənəvi diktaturasına son qoyuldu, katolik kilsəsinin inhisarçı mövqeyi aradan qaldırıldı. Reformasiya nəticəsində Qərbi Avropa ölkələrinin ictimai-siyasi həyatında baş verən bu dəyişikliklər dünyəvi elmin, mədəniyyətin, təhsilin yeni əsaslarla inkişafına səbəb oldu. Reformasiya kitabçılıq və kitabxa-

na işi sahəsində də ciddi problemlərin həlli, yeni kitabxanalar yaradılması, kitabxana işinin təşkilində xüsusilə kitabxana fondlarının komplektləşmə prinsiplərində mühüm dəyişikliklərin baş verməsinə gətirib çıxartdı.

Kitab yazmaq, onu çap etdirib yaymaq, evlərdə şəxsi kitabxanalar yaratmaq dəb şəklini aldı. Cəmiyyətdə təhsilə, elmə, kitaba və kitabxanaya böyük maraq əmələ gəlmişdi. Kitab çapının genişlənməsi ilə əlaqədar kitab ticarəti də geniş vüsət almışdı. Beynəlxalq kitab yarmarkaları keçirilməyə başlamışdı. XVI əsrdə beynəlxalq kitab ticarətinin mərkəzi kimi Almaniya mühüm yer tuturdu. Frankfurt kitab yarmarkasının kataloqu, demək olar ki, Avropa ədəbiyyatının ən qiymətli biblioqrafiyası idi. Görkəmli alman həkimi, alimi Konrad Qesner[1] özünün "Universal kitabxana" adlı fundamental əsəri ilə elmi biblioqrafiyanın əsasını qoydu. Fransada Kral kitabxanası yeni qaydalara müvafiq inkişafa başladı. Kitabxananın fondu yeni elmi əsaslarla komplektləşməyə, kitabxanaya elmi ədəbiyyatın alınmasına xüsusi diqqət yetirilməsi kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək üçün vəsaitin ayrılması, kitabxananın inkişafına şərait yaratdı. Xüsusi ilə kitabxananın Fentenbal şəhərindən Parijə köçürülməsi onun inkişafına olduqca müsbət təsir göstərirdi.

Kitabxana fondu, oxuculara xidmət işi xeyli yaxşılaşdı. Öz dövrünün ən görkəmli ziyalılarının kitabxanaya işə dəvət edilməsi kitabxananın işinin keyfiyyətinə olduqca müsbət təsir göstərdi. Kitabxanada peşəkar kitabxanacıların fəaliyyəti nəticəsində 1622-ci ildə cox qiymətli kitabxana kataloqunun yaranmasına, kitabxana işi haqqında elmi əsərlərin meydana cıxmasına əlverişli şərait yaratdı.

Bu dövrdə görkəmli kitabxanaçı-biblioqraf Qabriel Nodenin kitabxanacısı olduğu Kardinal Mazarının kitabxanasının Kral kitabxanasına verilməsi, kitabxananın həyatında çox mühüm hadisə oldu. Çünki bu kitabxananın təşkilində, idarə edilməsində xüsusilə dünyanın ən qiymətli kitabları ilə təkmilləşməsində bilavasitə iştirak edən Qabriel Node (1600-1653) öz dövrünün ən görkəmli elm adamı kimi kitabxananın elmi əsaslarla təşkilində mühüm işlər görürdü. Kitabxananın strukturunda əsaslı dəyişikliklər edən Node kitabxana işinə, kitabxanaşünaslığın nəzəri əsaslarına dair "Kitabxana qurmaq haqqında məsləhətlər" adlı ilk elmi əsərini 1627-cü ildə cap etdirmiş,[1] bununla dünya kitabxanaçılıq fikrinin inkişafına dəyərli töhvə vermişdir.

Beləliklə, Reformasiya dövründə Qərb ölkələrində həm kilsə və Monastr, həm kral, həm də şəxsi kitabxanaların fəaliyyəti ilə qısa tanışlıq belə bir fikir söyləməyə imkan verir ki, bu dövrdə kilsə və monastr kitabxanaları olduqca böyük zərər çəkmiş, yüzlərlə dini kitabxanaların fondu dağılmağa və bağlanmağa məruz qalmışlar. Ancaq zaman keçdikcə Reformasiyanın irəli sürdüyü yeniliklər, yeni dünya baxışı və ideyalar dini kitabxanaların təşkilində, formalaşmasında və idarə olunmasında müsbət ənənələrin yaranmasına ən mühümü isə dünyəvi kitabların dini kitabxanaların fonduna yol tapmasına səbəb oldu. Həmçinin kilsə və monastr kitabxanalarında kitabxanaları idarə edən, kitabxanaçı ştatları meydana gəldi. Oxuculara monarxlara və din xadimlərinə xidmət işində yeni ənənələr yarandı.

Reformasiyanın Kral kitabxanalarına, universitet kitabxanalarına və şəxsi kitabxanaların yaranması işinə də müsbət təsiri oldu. Qərbi Avropa ölkələrində zəngin universitet kitabxanaları formalaşmağa bağladı. Belə kitabxanaların yaranması daha çox İngiltərədə, Fransada, İtaliyada, İspaniyada, Almaniyada və s. ölkələrdə geniş vüsət aldı.

Ümumiyyətlə, götürdükdə, İntibah və Reformasiya dövrlərində kitabçılıq və kitabxana işi sahəsində Qərbi Avropada baş verən yeniliklər, yaranan ənənələr, demək olar ki, bütün dünya kitabxanaçılığına və kitabxana işinə böyük təsir göstərmiş, onların gələcək inkişafında həlledici əhəmiyyət kəsb etmişdir.

---

[1] *Шира Д. Х. Введение в библиотековедение. М., 1983, с.37.*

[1] *Шира Д. Х. Введение в библиотековедение. М., 1983, с.38.*

Reformasiya dövründən sonra Avropada başlayan maarifçilik dövrüdə kitabxana işi sahəsində mühüm izlər qoymuş, kitabxanaların yeni inkişaf istiqamətinin formalaşmasına ciddi təsir etmişdir. Məhz buna görədir ki, dünya kitabxana tarixçiləri maarifçilik dövrünü kitabxana işinin məzmununda yeni mərhələnin başlanğıcı kimi xarakterizə edirlər.

## 2.13. Maarifçilik dövründə kitabxana işi

Feodalizmə qarşı yönəldilmiş ictimai-siyasi cərəyan olan maarifçilik mövcud cəmiyyətin nöqsanlarını aradan qaldırmağa, cəmiyyətdə olan ədalətsizlikləri, elmi, humanist, əxlaqi prinsiplərin yayılması, təbliği yolu ilə dəyişdirməyə can atırdı. Cəmiyyətin inkişafında maarifçiliyin, təhsilin, elmin, mədəniyyətin inkişafına xüsusi, həlledici əhəmiyyət verən bu cərəyan əsasən üzünü insanların maariflənməsinə tutmuş, insanların maariflənməsini bəşəriyyətin xoşbəxtliyinin əsası hesab etmiş.

Maarifçilik dövrü təxminən XVII əsrin ikinci yarısından başlayaraq XVIII əsrin axırına qədər davam etmişdir.

Məhz bu dövrdə görkəmli alimlər Nyutonun, Hobbsanın, Lokkanın, Kantın, Qalilleyin, Ketlerin, Bekonun və b. rəhbərliyi ilə fiziki və sosial hadisələr böyük sürətlə öyrənilir, yeni nəzəriyyələr, biliklər meydana gəlir, elmlərin sistemləşməsi və inteqrasiyası sahəsində gərgin işlər aparılırdı.

Bu dövrdə alimlərin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə yaranan böyük elmi cəmiyyətlər, dünya elminin gələcək inkişafı üçün əsaslı zəmin hazırladı. Romada 1600-cü ildə Lincen Akademiyası ("Akademiya rısceqlarıx") 1666-cı ildə Parisdə Elmlər Akademiyası, 1660-cı ildə isə görkəmli alim Frensiz Bekonun təşəbbüsü ilə London Kral cəmiyyəti yarandı. Dünya elminin gələcək inkişafına böyük təkan verən bu ilk elm məbədgahları, maarifçilik dövründə kitabçılıq və kitabxana işinin inkişafına xüsusi ilə elmi və ictimai kitabxanaların





inkişafına böyük təkan verməklə, kitabxanaların cəmiyyətdəki mövqeyini xeyli möhkəmləndirdi.

Frensiz Bekonun biliyin sistemli təşkili haqqında nəzəriyyəsinə müvafiq, Avropa ölkələrində Kral kitabxanalarının yeni elmi əsaslar üzərində zənginləşməsinə, onların maddi-texniki bazasının möhkəmlənməsinə, oxuculara xidmət işinin daha səmərəli təşkilinə dövlət səviyyəsində diqqət xeyli artdı. 1759-cu ildə bir neçə elmi kitabxananın birləşdirilməsi əsasında dünyada öz fondunun zənginliyi və nadirliyi ilə fərqlənən, dünya kitabxanaçılığının inkişafına böyük töhvələr verən Britaniya müzeyi kitabxanası yarandı. Mübaliğəsiz demək olar ki, Britaniya müzeyi kitabxanasının yaranması maarifçilik dövrünün ən böyük nailiyyəti idi.

Maarifçilik dövründə dünyanın böyük alimlərinin yazıçı və şairlərinin, ümumiyyətlə götürdükdə dövlət xadimlərinin və ziyalılarının maarifin yayılmasında, marifçliyin bitkin ictimai-siyasi, humanitar cərəyan kimi inkişafında kitaba, kitabxanaya və mütaliəyə böyük qiymət verməsi cəmiyyətdə kitabxana işinin rol və əhəmiyyətini xeyli yüksəltmiş, kitabxana işi dövrün daim inkişafda olan mədəni hərəkatına cevrilmiş, kitabxana işinin elmi-nəzəri məsələləri ilə məşğul olan alim-kitabxanaçılar nəsli yetişmişdir.

Belə şəxslərə misal olaraq alman maarifçiliyinin rəhbəri, maarifçilik hərəkatının böyük xadimi, Berlin Akademiyasının əsasını qoyan Vilhelm Leybinsi göstərmək olar. Vilhelm Qotfird Leybins[1] (1646-1716) öz dövrünün görkəmli alimi, ictimai xadimi kimi bütün Avropada şöhrət tapmış, maarifçilik ideyasının yayılmasında, maarifçilik ictimai-siyasi cərəyanının, formalaşmasında böyük fəalliyyəti ilə fərqlənmişdir. Kitaba, mütaliəyə böyük həvəs göstərən V.Leybins gənc yaşlarında öz atasının şəxsi kitabxanasının oxucusu olmuş, sonralar Mayn alman bibliofili Fon Boyneburqun kitabxanasında kitab-

[1] *Шира Д.Х.Введение в библиотековедение. М., 1983, с.38.*

xanaçı vəzifəsində işləmişdir. 1676-cı ildən Qanover Hersoqunda kitabxanaçı işləməyə başlamış və burada özünün təklif etdiyi elmlər təsnifatı əsasında kitabxana təsnifatı cədvəlini hazırlamışdı.

Leybins özünün: "Kitabda toplanmış bəşəri biliklərin siyahısı" adlı əsərində kitabxana işinin bir cox məsələləri, xüsusilə kitabxana işinin idarə olunması, komlektləşdirilməsi və katoloqlaşdırılması haqqında yeni nəzəri fikirlər söyləmişdir ki, onun bu qiymətli fikirlərindən gələcək nəsillər bəhrələnmişlər.

Kitabxana işini elmin, mədəniyyətin, maarifciliyin əsas vasitəsi kimi qiymətləndirən Leybins inanmışdır ki, biliyin əsl tərəqqisi o zaman mümkündür ki, hər bir alim bəşəriyyətin nailiyyətlərinin toplandığı sənədlərdən istədiyi vaxt tez və asanlıqla istifadə edə bilsin.

Maarifçilik ideyaları təkcə Qərb ölkələrində deyil, bütün dünyada yayılmışdı. Şərq ölkələrində geniş yayılan Marifçiliyin Azərbaycanda, Türkiyədə və İranda da böyük nümayəndələri fəaliyyət göstərmişlər. Belə görkəmli mütəfəkkirlərdən M.F.Axundovu, Namiq Kamalı, İbrahim Şinasini, Mirzə Mülküm xanı, Zeynalabdin Marağalını və s. göstərmək olar.

Öz maarifçilik görüşləri ilə məşhur olan M.F.Axundov insanların tərbiyə və təhsilində, elmin, mədəniyyətin inkişafında və yayılmasında kitabxanaya, mütaliəyə olduqca böyük qiymət verirdi. Kitabı insanların maariflənməsində mühüm vasitə hesab edirdi. O yazırdı: "Əgər bir insan... filosofların əsərlərini oxuya bilirsə, mütaliə nəticəsində onun ağlı saflaşar, parlayar, pis əməllər onun nəzərində gündən-günə eybəcər və rüsvayçı görünər və belə bir halda o, bu pis əməlləri icra etməkdən utanar" və nəticədə, namus və vicdan sahibi olar.[1]

Beləliklə, dünyanın böyük mütəfəkkirləri, alimləri, mədəniyyət xadimləri, yazıçıları tərəfindən əsası qoyulan bu ictimai-siyasi cərəyan

[1] *Xələfov A.. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. I hissə. B., 2004, s.296.*





böyük mütərəqqi hadisə olduğundan tezliklə bütün dünyaya yayılmış bəşəri bir proses kimi maarifin, elmin, mədəniyyətin inkişafında yeni mərhələnin-maarifçilik mərhələsinin əsasını qoymuşdur. Məhz bu mərhələdə elmin, təhsilin, mədəniyyətin inkişafına, onun əhatə dairəsinin genişlənməsinə, təbliğinə diqqət artmışdı.

Cəmiyyətdə baş verən bu mütərəqqi proses dünyada kitabxana işinin inkişafına, onun yenidən qurulmasına, demokratik prinsiplər əsasında fəaliyyətinə, şəbəkəsinin genişlənməsinə olduqca müsbət təsir göstərmiş, kitabxanalar maarifçiliyin yayılmasında yaxından iştirak etmişlər. Kitabxanaların dindən ayrılması, ictimai dövlət və universitet kitabxanalarının sayca çoxalması, oxuculara xidmət işinin təşkilində yeni daha mütərəqqi ənənələrin formalaşmasına səbəb olmuşdur. Məhz maarifçilik ideyalarının bütün dünyada yayılması nəticəsində kitabxanalar bəşər elminin, təhsilinin, mədəniyyətinin məlumat bazasına çevrilmiş, tərəqqiyə xidmət etmişdir.

Maarifçilik ictimai-siyasi cərəyanı nəticə etibarilə böyük mədəni islahatların keçirilməsinə, XIX əsrdə kitabxanaların yeni elmi əsaslar üzərində qurulmasına gətirib çıxarmışdır. Beləliklə, maarifçilik dövründə cəmiyyətdə təhsilin rol və əhəmiyyətinə dair tamamilə yeni baxış formalaşmağa və möhkəmlənməyə başladı. Məhz XIX əsrdə müasir elmi dünya baxışının əsası qoyuldu və inkişaf etdirildi. Təhsilə, elmə yaranmış bu böyük maraq kitabxana işində də islahatlar aparılmasına, kitabxanaların rol və vəzifələrinin yeni elmi əsaslar üzərində qurulmasına dair yeni baxışlar formalaşdı. Kitabxanalar tədricən dövlət siyasətinə, cəmiyyətin təhsil, elmi və mədəni inkişafına xidmət edən və həyata keçirən bir müəssisə kimi formalaşırdı.

Bu dövrdə cəmiyyətin informasiya tələbatına xidmət edən yeni kitabxana tipləri yaranır, onların şəbəkəsi genişlənirdi. Maarifçilik dövrünün əsas amillərindən biri kimi bilavasitə elmə və təhsilə xidmət edən universitet kitabxanaları ilə yanaşı, sırf elmə xidmət edən akademik və geniş oxucu kütləsinə xidmət edən, ümumi kitabxanalar şəbəkəsində genişlənməyə başlamışdı.

## 2.14. XIX əsrdə kitabxana işi

XIX əsr bəşər tarixinə elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı dövrü kimi daxil olmuşdur. Məhz XIX əsrdə elmin inkişafında böyük nailiyyətlər əldə edilmiş, elmi kəşflərin sayı artmış, yeni elm sahələri, elmi istiqamətlər meydana gəlmiş, elmlər sistemləşdirilmiş, cəmiyyətin inkişafında elmin rolu və əhəmiyyəti olduqca mühüm yer tutmağa başlamışdır. XIX əsrdə təbiət elmləri ilə yanaşı humanitar elmlər də sürətlə inkişaf etmiş, cəmiyyətdə baş verən sosial proseslərə yaxından təsir etməyə başlamışdır.

Tarixçilər, hər şeydən əvvəl, bu dövrü bütün humanitar elmlərə mübasibətdə qəhrəmanlıq dövrü adlandırmışlar.[1] Məhz bu dövrdə elmi tədqiqatların bilavasitə təcrübəyə xidmət etməsinə, mücərrəd xarakter daşımasına diqqət artırılmışdı. XVII-XVIII əsrlərdən fərqli olaraq elmlə təhsilin qarşılıqlı əlaqəsinə daha böyük diqqət yetirilirdi. Universitet professorlarının böyük əksəriyyətinin təhsil prosesində müstəqil elmi araşdırmaların aparılmasına üstünlük vermələri universitetlərdə islahatlar aparılmasını tələb edirdi.

XIX əsrdə universitetlər haqqında tamamilə yeni olan fikirlər səslənməyə başlandı. Universitetlər təkcə bilik verən, elm öyrədən müəssisə yox, həm də bilik və elmlərin yarandığı elmi kəşflərin həyata keçirildiyi, elmi mərkəz kimi qiymətləndirilməyə başlandı. Məhz XIX əsrdə elm, təhsil, mədəniyyət sahəsində baş verən bu mütərəqqi yeniliklər, bilavasitə elmin, təhsilin, mədəniyyətin inkişafında xüsusi yeri olan kitabxanaların inkişafına, yeniləşməsinə böyük təkan verdi. Cəsarətlə demək olar ki, XIX əsr kitabxana şəbəkələrinin sürətlə genişlənməsi, yeni kitabxana tiplərinin meydana gəlməsi, cəmiyyətin ictimai-siyasi və mənəvi həyatında yaxından iştirak etdiyi illər olmuşdur. Kitabxana işində mühüm keyfiyyət dəyişikliklərinin baş verməsi, yeni kitabxana tiplərinin yaranması böyük vüsət almışdır. Məhz XIX əsrdə universitet kitabxanaları ilə yanaşı olaraq dövlət (kral), elmi, ictimai, ümumi və milli kitabxana şəbəkələrində xeyli genişlənmiş, dövlətlərin kitabxana işinə diqqət və qayğısı yeni xarakter almışdır.

[1] *Володин Б.Ф. Всемирная история библиотек Санкт-Петербург. 2004, с.176.*





XIX əsrdə Avropada və demək olar ki, dünyanın bütün inkişaf etmiş ölkələrində universitetlərin yaranması universitet kitabxanalarının geniş şəbəkəsinin formalaşmasına səbəb olmuşdur. Universitet kitabxanaları universitet təhsilinin əsas atributlarından biri sayılmış onların fəaliyyətinə diqqət artırılmış, maddi-texniki bazalarının möhkəmləndirilməsi, zəngin kitab fondlarının yaradılması, oxuculara xidmət işinin yeni elmi əsaslar üzərində qurulması üçün mütərəqqi layihələr həyata keçirilməyə başlamışdı.

XIX əsrdə İngiltərədə, İtaliyada, Fransada, Almaniyada, İspaniyada, Şərq ölkələrində və demək olar ki, dünyanın bütün inkişaf etmiş ölkələrində böyük, hərtərəfli formalaşmış fondda, oxuculara kitabxana xidmətinin təşkilində xüsusi ənənələri olan universitet kitabxanaları fəaliyyət göstərirdi. Bunlardan Fransanın Paris, İngiltərənin Kembric və Oksford, Amerikanın Kolumbiya, Harvard, Almaniyanın Berlin, Rusiyanın Moskva, Leninqrad, Kazan və s. universitet kitabxanaları daha çox fərqlənirdilər.

XIX əsrdə Almaniyada elmin sürətli inkişafı ölkədə elmi kitabxanaların xüsusilə universitet kitabxanalarının yenidən qurulmasına, kitabxana işi sahəsində islahatlar aparılmasına səbəb olmuşdu. Almaniyada universitetlərin çoxalması, onların elmin və təhsilin əsas bazasına çevrilməsi dövlətin təhsil siyasətinə əhəmiyyətli təsir etmiş, universitetlərdə islahatlar keçirilməsində, tədris proseslərində, predmetlərin tədrisində nəzarətin götürülməsi, müəllimlərə və tədqiqatçılara ideya azadlığının verilməsi, universitet kitabxanalarında islahatlar aparılması zərurətini ortaya çıxarmışdı. Universitet kitabxanalarında islahatların aparılması ilk dəfə Berlin Universitetindən başladı. Berlin Universitetinin kitabxanası XIX əsrin əvvəllərində

Almaniyanın və demək olar ki, Avropanın ən böyük kitabxanalarından biri idi. Kitabxananın Kral kitabxanası ilə sıx əlaqəsi, onun işinin keyfiyyətinə müsbət təsir göstərirdi. Kitabxananın Kral kitabxanasının nizamnaməsindən istifadə etməsi əsasında, öz nizamnanəsini yaratması onun işinə olduqca müsbət təsir göstərmişdi. Bu nizamnamədə kitabxana fondunun bütün elm sahələri nəzərə alınmaqla, planlı və ardıcıl komplektləşməsi, fondda sistemli düzülüş qaydalarından istifadə edilməsi, kitabxana kataloqlarının tərtibi, onların növləri və formaları haqqında qaydalar öz əksini tapmışdı. Bu nizamnamənin ən qiymətli cəhətlərindən biri də oxuculara xidmət işində yeni, daha demokratik qaydaların təbliği idi. Yeni qaydalara görə kitabxana təkcə professorlara yox, həmçinin doktorantlara və tələbələrə də geniş informasiya xidməti göstərməli idi. Universitet kitabxanalarında oxucu tərkibinin sürətlə artması kitabxana kataloqlarının yenidən təşkilini, onun strukturunda dəyişiliklər edilməsini vahid təsvir və təsnif qaydalarının yaradılmasını tələb edirdi. Bu dövrdə Almaniya Universiteti kitabxanalarının kataloqlarında vahid qaydaların olmaması anlaşılmazlığa gətirib çıxarırdı.

Bütün bu nöqsanların aradan qaldırılmasında və kataloqlaşma sahəsində yeni qaydaların yaranmasında Qettinqen universitetinin kitabxanaşünaslıq üzrə ilk professoru Karlo Drarkonun (1842-1903) böyük xidmətləri olmuşdur. Drarko ilk dəfə olaraq bütün ölkə miqyasında çap kitablarının vahid təsvir qaydalarını təqdim etdi. Bu qaydalar əsasında "Prussiya təlimatı" yarandı. Bütün ölkə miqyasında tətbiq edilən bu təlimat kitabxana kataloqlarının tərtibi və formalaşması sahəsində hərc-mərcliyi aradan qaldırdı, vahid qaydalar sisteminin yaranmasına səbəb oldu. Həmçinin bu dövrdə elmi kitabxanalarda kataloqlar sisteminin yaranması sahəsində də mühüm layihələr həyata keçirilməyə başlandı. Kitabxanalarda mərkəzi sistemli kataloqla yanaşı, oxucuların sorğularına cavab vermək üçün əlifba kataloqunun tətbiq edilməsinə başlandı. Kitabxana fondunun komplektləşdirilməsi sahəsində baş verən yeniliklər daha diqqətə layiq idi. İlk dəfə olaraq





Almaniya Kral kitabxanasında elmi kitabxanaların komplektləşməsinə görkəmli alimlərin məsləhətçi kimi cəlb edilməsi həyata keçirilməyə başlandı. Ayrı-ayrı elm sahələri üzrə məsul məsləhətçilər ölkədə və dünyada, nəşr edilən kitab repertuarı ilə tanış olmalı və bu nəşrlərdən kitabxanaya ən vaciblərini seçməli idilər. Bu tədbir elmi kitabxanaların plana uyğun və mükəmməl komplektləşdirilməsinə və kitabxanalara ayrılan vəsaitdən qənaətlə istifadə edilməsinə şərait yaradırdı. Həmçinin bu dövrdə kitabxana binalarının və kitabsaxlayıcıların tikilməsi məsələlərinədə diqqət yetirilməyə başlanmış, kitabxana arxitekturası haqqında elmi fikirlər formalaşmışdı.

Almaniyada həmçinin XIX əsrin axırlarında Avropada ilk dəfə peşəkar kitabxanacı kadrların hazırlanması və kitabxanaçılıq mətbuatının yaradılması həyata keçirildi. 1893-cü ildə Berlin Universitetinin kitabxanasının bazasında ali kitabxanaçılıq məktəbi fəaliyyətə başladı. 1884-cü ildə isə ilk kitabxanaçılıq jurnalı nəşrə başladı. Almaniyada kitabxanaşünaslığın inkişafı sahəsində həyata keçirilən bu mühüm tədbirlər Avropa kitabxanaşünaslığına və dunya kitabxanaşünaslığına olduqca mühüm təsir göstərirdi.

XIX əsrdə Avropa ölkələri ilə yanaşı Rusiyada da elmi kitabxanaların təşkili sahəsində xeyli iş görülmüşdü.

XIX əsrin ortalarında Rusiyada elmi kitabxanaların müxtəlif tip və növlərinin geniş şəbəkəsi formalaşmağa başladı. Belə kitabxanalara misal olaraq İmperator Ümumi Kitabxanasını, Rusiya Elmlər Akademiyasının Kitabxanasını, Moskva Rumyantsev Muzeyi kitabxanasını, Moskva və Peterburq universitetlərinin kitabxanalarını göstərmək olar.

Yuxarıda adı çəkilən kitabxanalar öz fondunun zənginliyi, oxuculara xidmət işinin təşkili, maddi-texniki təchizatı cəhətdən heç də Avropa ölkələri kitabxanalarından geri qalmırdılar.

Rusiya kitabxanalarında kitabxanaşünaslığın elmi-nəzəri və metodiki məsələlərinin işlənməsi sahəsində xeyli iş görülmüşdü. Kitabxana fondunun formalaşmasının daha da təkmilləşməsi, kitab-

xana kataloqlarının yeni elmi əsaslar üzərində qurulması, oxuculara məlumat-biblioqrafiya xidmətinin keyfiyyətcə yaxşılaşdırılmasına müsbət təsir göstərmişdi.

## 2.15. Milli kitabxanalar

XVIII əsrin sonlarından başlayaraq Avropa ölkələrində və dünyanın digər inkişaf etmiş ölkələrində elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı, böyük universitetlərin, elmi müəssisələrin, mədəniyyət mərkəzlərinin şəbəkəsinin genişlənməsi, kitab nəşrinin böyük vüsət alması, kitaba, mütaliəyə böyük maraq göstərən təhsilli insanların çoxalması, böyük ziyalılar ordusunun yaranması geniş oxucu dairəsinin genişlənməsinə, oxucuların sayının əhəmiyyətli dərəcədə artması ucün əlverişli şərait yaranmışdı.

Zaman keçdikcə kitabxana oxucularının miqdarının durmadan artması, cəmiyyətdə kitabxana oxucu münasibətlərinin yeni həllini, oxuculara xidmət sisteminin elmi əsaslarla qurulmasını tələb edirdi.

Məhz buna görədir ki, XIX əsr dünya kitabxanaşünaslığı tarixində kitabxanaların həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşdiyi, yeni kitabxana tiplərinin meydana gəldiyi, kitabxana işində yeni mütərəqqi islahatlar aparıldığı bir dövr kimi xarakterizə olunur.

Məlum olduğu kimi milli kitabxana anlayışı ilk dəfə XVIII əsrin axırlarında meydana gəlmişdir. Bir qayda olaraq, ölkənin dövlət kitabsaxlayıcısı hesab edilən, rəsmi kitabxana müəssisəsi kimi fəaliyyət göstərən böyük kitabxanalara milli kitabxana statusu verilirdi.

Kitabxana müəssisələrinin xüsusi tipi kimi milli kitabxanaların meydana gəlməsi XVIII əsrin sonlarına təsadüf edir. Dünyada ilk milli kitabxana 1895-ci ildə Fransada yaranmışdır. Konvent 1985-ci ildə Kral Kitabxanasını milli mülkiyyət elan etdi və kitabxanaya ölkədə nəşr edilən kitablardan məcburi nüsxə verilməsi haqqında qanun qəbul edildi. Milli kitabxana meydana gəldiyi dövrdə belə bir fikir vardır ki, milli kitabxanada ancaq vətən ədəbiyyatı saxlanmalıdır. Xarici nəşrlərin milli kitabxanaya alınması vacib sayılmırdı. Zaman keçdikcə bu fikrin yalnış olduğu dərk edildi. Milli kitabxanalar dövlətin əsas atributlarından biri olmaqla təkcə bir ölkənin, bir millətin kitab mədəniyyətini toplayıb saxlayan bir müəssisədən, bəşəri dəyərləri, dünyanın ən qiymətli, nadir kitab sərvətini topblayıb saxlayan, beynəlxalq əlaqələr yaradan, mədəniyyətlərarası kommunikasiyanın əsas vasitəsinə, dövlət kitabsaxlayıcısına çevrildi.





Milli kitabxanaya cəmiyyətdə onun tutduğu yerə, məqsəd və vəzifələrinə, rol və əhəmiyyətinə görə diqqət artdı. Milli kitabxanalar haqqında tamamilə yeni ideyalar formalaşmağa başladı. Artıq XIX əsrin əvvəllərində milli kitabxanalar Avropanın və dunyanın bir çox ölkələrində İngiltərədə, Fransada, Almaniyada, İspaniyada, Danimarkada, Portuqaliyada, İsveçrədə, Rusiyada, Amerikada, Şərqdə və s. ölkələrdə fəaliyyət göstərirdi.

Milli kitabxananın cəmiyyətdə tutduğu yeri və mövqeyi elmin, təhsilin, mədəniyyətin inkişafında, beynəlxalq əlaqələrin yaranmasında və formalaşmasında, mədəniyyətlərarası kommunikasiyanın ilk və etibarlı mərkəzi kimi rol və əhəmiyyətini xarakterizə etmək üçün dünyanın bir neçə milli kitabxanasının fəaliyyətini nəzərdən keçirək.

### 2.15. 1. Britaniya Muzeyi Kitabxanası

XIX əsrin peşəkar kitabxana cəmiyyətləri, görkəmli alimləri və ziyalıları Britaniya Muzeyi Kitabxanasına milli kitabxana kimi yuksək qiymət vermiş, onu elm və mədəniyyət xəzinəsi, bəşər mədəniyyətinin qızıl fondu kimi qiymətləndirmişlər. Britaniya Muzey Kitabxanasının əsası 1753-cü ildə qoyulmuş, o, oxuculara 1759-cu ildən xidmət etməyə başlamışdır. Kitabxana yarandığı elə ilk günlərdən dövlət qayğısı ilə əhatə edilmiş, onun fondu, dünya ədəbiyyatının və mədəniyyətinin ən qiymətli inciləri, tarixi yadigarları ilə zənginləşmişdir. Britaniya Muzeyi Kitabxanasına dövlət münasibəti, fəaliyyətində baş verən

yeniliklər, dünyanın ən sivil millətlərindən olan ingilislərin öz milli kitabxanalarına münasibəti, dünyanın bir çox ölkələri və xalqları üşün örnək olmuş, bəşəri əhəmiyyət kəsb etmişdir. XIX əsrin əvvəllərində kitabxananın strukturunda, kitabxana işinin yeni əsaslar üzərində qrulmasında, fondun və kataloqların yaradılmasında, oxuculara xidmət işinin təşkilində, peşəkar kitabxanaçı kadrların yetişdirilməsində böyük işlər görüldü.

XIX əsrdə Britaniya cəmiyyətində yaranmış, olduqca əlverişli şərait kitabxananın böyük sürətlə inkişafına səbəb olmuş, kitabxananın maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxana üçün yeni binalar, qiraət salonları tikilmiş, kitabxananın maliyyələşdirilməsi dövlət qayğısı ilə əhatə edilmişdi. Bu da kitabxanada islahatlar aparlmasına, beynəlxalq əlaqələrin genişlənməsinə, kitabxana fondunun vətən ədəbiyyatı və nəşrləri ilə yanaşı dünya ədəbiyyatı ilə komplektləşməsinə əlverişli şərait yaratmışdı. XIX əsrin II yarısında kitabxanada şərq ölkələrinin nadir kitablarından və əlyazmalarından ibarət bölmənin yaradılması dediklərimizə parlaq sübutdur. 1814-cü ildən kitabxananın bütün Britaniya imperiyasından məcburi nüsxələr almağa başlaması kitabxana fondunun daha da zənginləşməsinə səbəb oldu.

Britaniya Muzeyi Kitabxanasının inkişafında kitabxanada 1831-ci ildən işləməyə başlamış və kitabxananın on il direktoru olmuş prof. Antonio Pannitsinin böyük xidmətləri olmuşdur. Məhz bu böyük alim, filoloq, ictimai xadim, kitabxana işi sahəsində yüksəkixtisaslı peşəkar kitabxanaçı olan Pannisi kitabxana fondunun elmi əsaslar üzərində komplektləşməsinin, kitabxana kataloqlarının yaradılmasının, oxuculara xidmət işinin təşkilinin, peşəkar kitabxanaçı kadrlar hazırlanmasının, kitabxana işçilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasının səbəbkarı olmuş dünya kitabxanaçılığı üçün böyük əhəmiyyət kəsb edən konsepsiya hazırlayıb həyata keçirmişdi. Bu konsepsiyalar içərisində kitabxana fondunun kompleklaşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edirdi. Bu konsepsiyanın həyata keçirilməsi kitabxananın dünya kitabxanalarının əsas məlumat bazasına çevrilməsini təmin etdi. Kitabxana daxili məcburi nüsxə almaqla, dünya kitab ticarəti şirkətləri ilə böyük əlaqələr qurdu, beynəlxalq kitab mübadiləsi həyata keçirilməyə başladı. Kitabxanada dünya kitabxanalarına nümunə olan baş əlifba çap kataloqunun yaranması onun informasiya imkanlarını xeyli genişləndirdi. Kitabxanada peşəkar kitabxanaçı kadrların hazırlanması üçün proqram əhəmiyyətli sənədlər tərtib edilməsi işi yeni ənənələrin formalaşmasına böyük təsir göstərdi. Beləliklə, XIX əsrdə dünyanın ilk milli kitabxanası kimi fəaliyyətə başlayan Britaniya Muzeyi Kitabxanası milli kitabxana statusunu qazandı. Sonrakı illərdə də kitabxana öz birincilik ünvanını qoruyub saxlamaq üçün geniş quruculuq işləri apardı və cəsarətlə demək olar ki, dünya milli kitabxanalarının flaqmanına çevrildi. Kitabxana indi də öz birincilik ünvanını müvəffəqiyyətlə qoruyub saxlamaqdadır.





### 2.15. 2. Fransa Milli Kitabxanası

Dünyanın ilk milli kitabxanalardan biri kimi Paris Milli Kitabxanası dünya milli kitabxanaları tarixində öz zəngin və orjinal fəaliyyəti ilə öncül yerlərdən birini tutur.

1480-cı ildə Kral kitabxanası kimi əsası qoyulmuş Fransa Milli Kitabxanasına 1795-ci ildə Konventin qərarı ilə Milli Kitabxana statusu verilmişdir. 1537-ci ildən ölkədə nəşr edilən çap əsərlərindən Pulsuz məcburi nüsxə alan kitabxana, Avropa ölkələri kitabxanaları içərisində ən zəngin və nadir kitabxana fonduna malik bir kitabxana olmuşdur. İlk dövrlərdə Britaniya muzeyi kitabxanası kimi Fransa Milli Kitabxanasında əsas diqqəti Vətən ədəbiyyatı ilə komplektləşməyə üstünlük verirdi. Kitabxananın 1789-1794-cü illərdə Fransa inqilabı zamanı məcburi nüsxə almaqdan məhrum olması kitabxana fondunun komplektləşməsinə mənfi təsir göstərmişdi. Tezliklə bu tədbirin səhv olduğu meydana çıxdı və Fransa dövləti 1810-cu ildən kitabxananın məcburi nüsxə almaq hüququnu bərpa etdi. XIX əsr kitabxananın tarixinə böyük

inkişaf və tərəqqi illəri kimi daxil oldu. Məhz XIX əsrdə kitabxana Milli Kitabxana statusuna məxsus olan vəzifələri müvəffəqiyyətlə həyata keçirməyə başladı. Kitabxananın strukturunda, yeni elmi əsaslar üzərində komplektləşməsində, fondun qorunub saxlanılmasında, kataloqların təşkilində, oxuculara xidmət işinin demokratik əsaslar üzərində qurulmasında ciddi islahatlar aparılmışdı. Hazırda kitabxana dünyanın ən böyük kitabxanalarından biri kimi bəşər mədəniyyətinin daha da çiçəklənməsinə xidmət edir.

### 2.15. 3. İspaniya Milli Kitabxanası

XIX əsrdə Avropada yaranan milli kitabxanalardan biri də İspaniya Milli Kitabxanası idi. Avropanın inkişaf etmiş ölkələrindən biri olan İspaniya kitab və kitabçılıq sahəsində zəngin ənənələri olan ölkələrdən biri olmuşdur. Bu ənənələrin davamı olaraq İspaniya kitabxana işi sahəsində daha irəliyə getməyə müvəffəq olmuş, ölkədə dövlət, ictimai, elmi kitabxanalar şəbəkəsi genişlənmişdi. İspaniya Milli Kitabxanasının yaranması kitabxana işinin daha da genişlənməsi üçün şərait yaratdı. Çünki Milli Kitabxana regionlarda kitabxana işinin əlaqələndirilməsini, onların işinə kömək edilməsini də öz qarşısında məqsəd qoymuşdu.

İspaniya Milli Kitabxanasının Əsası 1811-ci ildə Kortesin qərarı ilə qoyuldu. Milli kitabxana dövlət kitabxanası statusuna malik olmaqla ölkə ərazisində nəşr edilən bütün çap məhsulunu toplamalı, saxlamalı, milli kitabın repertuarını yaratmalı və həmçinin bu böyük kitab xəzinəsinin biblioqrafik informasiyasını təşkil etməli idi. Bu məqsədlə kitabxana çap məhsullarından iki məcburi nüsxə almağa başladı. Sonralar kitabxana öz beynəlxalq əlaqələrini genişləndirərək digər xarici ölkələrin qiymətli və nadir kitablarını əldə etməyə başladı ki, bu da onun fondunu dünya ədəbiyyatı ilə zənginləşməsinə və kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsinə səbəb oldu. İspaniya da elm, təhsil ictimaiyyətinin və bütün ziyalıların milli kitabxanaya yüksək qiymət verilməsi və xüsusi qayğı ilə yanaşması, kitabxananın gələcək inkişafı üçün böyük perspektivlər açdı. Artıq XIX əsrin axırlarında kitabxana Avropanın ən inkişaf etmiş kitabxanalarından birinə çevrilmişdi.





### 2.15. 4. Rusiya Milli Kitabxanası

Rusiya Milli Kitabxanası 1814-cü ildə İmperator Ümumi kitabxanası statusunda Sankt-Peterburq şəhərində açıldı. Kitabxana fəaliyyətə başladığı gündən onun direktoru olan görkəmli alim, mədəniyyət xadimi, kitabxanaşünas A.N.Oleninin kitabxananın yaradılmasında və inkişafında böyük xidmətləri olmuşdur. Avropa ölkələri Milli kitabxanalarının iş təcrübəsinə bələd olan A.N.Olenin kitabxananın fəaliyyətində bu təcrubədən bacarıqla istifadə etməklə olduqca zəngin və qiymətli kitab fondunun formalaşmasına, kitabxananın strukturunu müasir tələblərə müvafiq qurmağa müvəffəq olmuşdur. Kitabxana İmperator kitabxanası olduğundan onun maliyyələşdirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə, kadr potensialının gücləndirilməsinə ciddi fikir verilirdi. Kitabxana üçün ayrıca, yüksək arxitekturaya malik binanın tikilməsi, yeni binada kitabsaxlayıcı ilə yanaşı qitaət zallarının fəaliyyətə başlaması, oxuculara xidmət işinin təşkilində yüksək səviyyəli oxucuların kitabxanaya gəlməsinə şərait yaratdı. Yaxın bir müddət içərisində kitabxana rus ziyalılarının ən çox istifadə etdiyi və hörmət etdiyi bir müəssisəyə çevrildi.

Kitabxana tez bir zamanda milli ədəbiyyatın toplanması sayəsində böyük uğurlar qazandı. Kitabxana açılarkən onun fondunda olan 243 min kitabın ancaq bir faizi rus dilində idi. Kitabxanada rus kitabının repertuarını yaratmaq üçün dövlət səviyyəsində mühüm tədbirlər görüldü. Kitabxanaya məcburi nüsxə almaq hüququ verilməklə, kitab almaq üçün lazımi qədər vəsait ayrıldı. Kitabxanada

əlyazmaları toplayıb, qoruyub saxlayan əlyazmalar fondu yaradıldı. Görülən tədbirlər öz nəticəsini verdi. Artıq 1850-ci ildə kitabxanada 500 mindən artıq kitab var idi ki, bunun da yarıya qədəri milli dildə olan kitablar idi.[1]

Milli kitabxananın yüksək statusu, elmi və mədəni əhəmiyyəti nəzərə alınaraq, kitabxana işinə dövrünün çox görkəmli ziyalıları, alim və yazıçıları cəlb edilirdi. Kitabxananın fəaliyyətində bilavasitə iştirak edən ziyalılar, kitabxana praktikasına çox böyük yeniliklər gətirməklə, yeni ənənələr yaratmaqla, kitabanaşünaslığın nəzəri problemlərinin də inkişafına ciddi təkan verirdilər. Belə görkəmli alim və ziyalılar sırasında İ.A. Krılovu, A. Olenini, M.A. Korfu, V.İ. Sobolşikovu və b. göstərmək olar. Məhz bu görkəmli mədəniyyət xadimlərinin böyük səyi nəticəsində kitabxana yaxın zaman ərzində Avropanın ən nüfuzlu kitabxanalarından birinə çevrilmiş, kitabxananın ardıcıl və mükəmməl komplektləşdirilməsi, kitabxana kataloqları sisteminin yaradılması, kitabxana işinin daxili texnologiyasının müasir tələblər əsasında formalaşması, kitabxana informasiya-məlumat kompleksinə çevrilməsi elmi biblioqrafiyanın əsasının qoyulması və daha da inkişaf etdirilməsi işində uğurlar əldə edildi və oxuculara xidmətin təkmilləşməsi işində böyük nailiyyətlər qazanıldı və elmə, mədəniyyətə xidmət edən ənənələr yarandı. Məhz uzun müddət yaşayan bu ənənələr rus kitabxanaçılığının gələcək inkişafına böyük təkan verən ənənələrə çevrildi.

### 2.15. 5. Amerika Birləşmiş Ştatları Konqres Kitabxanası

Dünyanın ən böyük və ən zəngin kitabxanası olan ABŞ Konqres Kitabxanasının əsası 1800-cü ilin 24 aprelində Prezident fərmanına müvafiq Konqresin Filodelfiyadan ABŞ–ın yeni paytaxtı Vaşinqtona

[1] *Володин Б.Ф.. Всемирная история библиотек. Санкт-Петербург. 2004, с.176.*





köçürülməsindən sonra qoyulmuşdur. Kitabxana fəaliyyətə başladıqdan sonra XVIII əsrin axırlarından Amerikada toplanmağa başlayan bir sıra kitab kolleksiyalarının kitabxanaya verilməsi onun fondunu xeyli zənginləşdirmişdi.

1803-cü ildə Konqres kitabxanası haqqında Konqres tərəfindən qəbul edilmiş qanun imzaladı. Bu qanunlada Konqres kitabxanası rəsmi dövlət statusu aldı. Qanunda kitabxananın komplektləşməsi üçün komissiyanın yaradılması və kitabxananın gələcək inkişafı üçün olduqca böyük perspektivlər açdı.

Qanunda kitabxananın komplektləşdirilməsi, kitabxana rəhbərliyinin təyin edilməsi, həmçinin kitabxanadan istifadə qaydaları haqqında müddəalar öz geniş əksini tapmışdır. Qanuna görə konqres kitabxanasının rəhbəri prezident tərəfindən təyin edilirdi. Konqres kitabxanasından yalnız konqres üzvləri, prezident və vitse-prezident istifadə edə bilərdilər. Konqres kitabxanasından istifadəni məhdudlaşdıran bu qaydalar sonralar dəyişdirildi. Kitabxananın tarixi ilə tanışlıq belə bir həqiqəti aşkar edir ki, ABŞ prezidentləri daimi olaraq kitabxananı diqqət mərkəzində saxlamış, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, kitabxana fondunun zənginləşdirilməsinə, yüksəksəviyyəli peşəkar kadrlarla təmin edilməsinə, oxuculara xidmət işinin səmərəli təşkilinə diqqət yetirmişlər. 1811-ci ildə prezident Medisonunun Konqres kitabxanasına ildə 10.000 dollar ayrılması haqqında imzaladığı sərəncam dediklərimizə misaldır.

XIX əsrin əvvəllərində kitabxananın dəfələrlə müharibələrdən və yanğınlardan zərər çəkməsinə baxmayaraq dövlətin bilavasitə köməyi sayəsində yenidən bərpa olunmuşdur. 1815-ci ildə kitabxananın həyatında olduqca diqqətəlayiq bir hadisə baş verdi. Çoxdan bəri hazırlanan kitabxana fondunun çap kataloqu geniş əlifba göstəricisi ilə birlikdə nəşr edildi. XIX əsrin ortalarından Konqres kitabxanasının oxucu dairəsi xeyli genişlənmiş, kitabxananın fondundan hökumətin bir çox məsul şəxsləri, Dövlət katibi, Departament rəhbərləri, ali məhkəmənin üzvləri Vaşinqtona gələn qonaqlarda istifadə etmək imkanı əldə etdilər.

Kitabxanaya ayrılan vəsaitin ilbəil artırılması, kitabxananın ölkədə nəşr edilən kitablardan məcburi nüsxələr alması, kitabxananın beynəlxalq əlaqələrinin genişlənməsi, kitabxanaya daxil olan şəxsi kolleksiyaların davamlı xarakter alması kitabxananın kitab fondunun sürətlə artmasına səbəb olmuşdu. Artıq XIX əsrin 60-cı illərində kitabxananın fondunda 80000 nüsxə kitab var idi ki, bu da kitabxananın dünya milli kitabxanaları içərisində öncül yerlərdən birini tutmasına təmin edirdi. Konqres kitabxanasının fondu kəmiyyətcə artdığı kimi, keyfiyyətcə də böyük uğurlar əldə etmiş, dünya kitabcılığının ən nadir kitablarını əldə etməyə müvəffəq olmuş, demək olar ki, dünya xalqlarının dillərində çox qiymətli kitabları fonduna daxil olmuşdur. Beynəlxalq kitab fondunun formalaşmasında XIX əsrin ikinci yarısından kitabxananın dünyanın bir çox ölkələrindən ardıcıl olaraq kitab alması mühüm əhəmiyyət daşıyır.

1853-cü ildə kitabxana üçün çox geniş bir oxu zalı istifadəyə verildi. Oxu zalının istifadəyə verilməsi kitabxanada oxuculara xidmət işini xeyli yaxşılaşdırmaqla, yeni oxucuların kitabxanadan istifadə etməsinə şərait yaratdı. Kitabxana Konqresə xidmət etməklə yanaşı ali məhkəməyə, dövlət departamentlərinə və digər hökumət müəssisələrinə xidmət etməyə başladı ki, bu da onun sosial institut kimi imicinin formalaşmasına müsbət təsir etdi.

Milli kitabxananın fəaliyyət göstərdiyi dövrdə Vaşinqtonda dövlət Smitsanovski İnstitutuda fəaliyyət göstərirdi. Bu institutun çox zəngin kitabxanası var idi. İnstitutun kitabxanası bir çox cəhətdən milli kitabxanaya nisbətən xüsusi üstünlüklərə mailk idi. 1870-ci ildə hökumətin qərarı ilə bu institutun kitabxanası Konqres kitabxanasına verildi. Olduqca zəngin və nadir kitab fonduna malik institut kitabxanasının konqres kitabxanasına verilməsi kitabxananın fondunu əhəmiyyətli dərəcədə zənginləşdirdi.

1897-ci ildə konqresin qərarı ilə inşa edilən Konqres kitabxanasının yeni binasının tikintisi başa çatdı. Kitabxana dünyada öz böyüklüyü, əzəməti və memarlıq yeniliyi və gözəlliyi ilə unikal olan bina ilə təmin olundu. Yeni binaya köçməklə kitabxananın həyatında yeni mərhələ başlandı. Kitabxana özünün 740000 minlik nəhəng fondunu tam yeni qaydalarla yeniləşdirmək, yeni təsnifat əsasında düzülüş aparmaq imkanı əldə etdi. Kitabxana yeni mərhələdə oxucuların müxtəlif sorğularına cavab verə bilən məlumat-biblioqrafiya aparatının, xüsusilə baş kataloqların, kartotekaların yaradılmasına, kitabxana xidmətinin yeni elmi əsaslar üzərində qurulmasına diqqət yetirməyə, kitabxana mətbuatı yaratmaq sahəsində təşəbbüs göstərməyə başladı. Bu dövrdə görülən işlərə misal olaraq kitabxananın yaratdığı Konqres kitabxanasının təsnifatının, yaradılmasını, mərkəzləşmiş kataloq sisteminin tətbiq edilməsini ABŞ kitabxanaları üçün çap kataloqları nəşr etməyə başlamasını və s. göstərmək olar.

Beləliklə, ABŞ Konqres Kitabxanası artıq XIX əsrin axırlarında öz fondunun zənginliyi, kitabxana texnologiyasının tətbiqi, oxuculara xidmət işinin yeni mərhələyə, daha demokratik mərhələyə qaldırılması sahəsində dünyanın ən böyük milli kitabxanasına çevrilmişdi. Dünya kitabxanaçılığına, kitabxanaşünaslıq elmi fikirlərinin inkişafına qiymətli töhfələr verilmişdir.

### 2.16. Ümumi kitabxanalar

Maarifçilik dövründə cəmiyyətin ictimai-siyasi və mədəni həyatında bütün elm, təhsil və mədəniyyət müəssisələri ilə birgə fəaliyyət göstərən, maarifçilik ideyalarının yayılmasına, təhsil müəssisələrinin fəaliyyətinə yaxından təsir göstərən müəssisələr içərisində, hələ olduqca az sayda olan və əhaliyə xidmət işində məhdud imkanlara malik kitabxanalar siyasi və mədəni-maarif müəssisəsi kimi daha çox diqqəti cəlb etməyə başlamışdılar. Belə kitabxanalar sırasına elmi, xalq, ictimai, təhsil, dini və s. demək olar ki, mövcud bütün kitabxanaları aid edirdilər. Ancaq belə kitabxanaların sayı olduqca az olduğundan cəmiyyətdə baş verən proseslərə, elmin, təhsilin

və mədəniyyətin inkişafına cavab verə bilmirdilər. Məhz buna görədir ki, XIX əsrin axırı - XX əsrin əvvəllərində bir çox Avropa ölkələrində maarifçilik dövründə başlamış kitabxana işinin inkişaf prosesi daha sürətlə davam edirdi. Bu proses təkcə Avropanı deyil, o cümlədən Şimali və cənubi Amerikanı, Asiya ölkələrini, Cin və Yaponiyanı da bürümüşdü. Asiya və digər Şərq ölkələrində kitabxana işi sahəsində əldə edilmiş kecmiş ənənələr qorunub saxlanılmağa, yeni, daha geniş oxucu dairəsinə xidmət edən, ümumaçıq, xalq kitabxanaları və ümumi kitabxanalar meydana gəlməyə başladı. Kitabxana işi sahəsində baş verən bu proses dönməz bir proses idi.Cünki bu proses zamanın, sürətlə inkişaf edən yeni cəmiyyətin tələbi idi.

Həmçinin XIX əsrdə Avropada kapitalizmin daha da möhkəmlənməsi, yeni, daha proqresiv ideyaları, elmi bilikləri təbliğ edə bilən kitabxanalar şəbəkəsinin yaranmasını tələb edirdi. Məhz zamanın tələbinə müvafiq yaranan belə kitabxanalar ümumaçıq kitabxanalar adlanmağa başladılar.

Avropa ölkələrində sonralar ümumaçıq kitabxanalar "ümumi kitabxanalar (publicnie biblioteki)" adlandırıldı.

XIX əsrin ikinci yarısında İngiltərədə qəbul edilən kitabxana işi haqqında qanunda ümumi kitabxanalar "Pulsuz ümumi kitabxanalar" adlandırılırdı. 1850-ci ildə isə ümumi kitabxanalar haqqında xüsusi qanun qəbul edildi. Bu qanuna görə on min nəfərdən artıq əhalisi olan yaşayış məntəqəsində ümumi kitanxanaların təşkilinə icazə verildi. Belə kitabxanaların bələdiyyələr tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulurdu.

İlk bələdiyyə ümumi kitabxanası 1852-ci ildə Mançestr şəhərində təşkil edilmişdi. Artıq 1883-cü ildə İngiltərədə 125 ümumi kitabxana mövcud idi.

Tədricən İngiltərədə ümumi kitabxanaların modeli formalaşmağa başlandı. İngiltərə ümumi kitabxanalarının ilk günlərdən başlayaraq orta sinfin mənafeyinə xidmət etməsi, onların orta sinif institutları kimi formalaşmasına imkan verirdi.





İngiltərədə ümumi kitabxanaların meydana gəlməsi və onların şəbəkələrinin artması 1877-ci ildə ilk dəfə "Kitabxana birliklərinin" yaranmasına şərait yaratdı. "Kitabxana biliklərinin" yaranması kitabxana işi sahəsində yeni hadisə olmaqla kitabxanaların birləşməsi, təşkilatlanması, kitabxana işinin metodikası, kitabxanaların təcrübəsinin yayılması, kitabxanaşünaslığın nəzəri problemlərinin həlli üçün böyük imkanlar açdı.

XIX əsrin II yarısından başlayaraq Avropa, Asiya və Şərq ölkələrində də ümumi kitabxanaların təşkili xeyli genişlənmişdi. Məhz bu dövrdə Avropa ölkələri ilə yanaşı olaraq Amerika Birləşmiş Ştatlarında da ümumi kitabxanaların yaradılması geniş vüsət almışdı. 1840-cı ildən ABŞ-da bütün əhali üçün ümumi kitabxanalar təşkil etmək hərəkatı başlamışdı. Bu hərəkata müvafiq 1848-ci ildə Bostonda ümumi kitabxana təşkil edildi. Boston kitabxanası üçün şəhər adminstrasiyasının kitabxananı saxlamaq ücün xüsusi vergi tətbiq etmək haqqında qərar qəbul etməsi bu hərəkatın ölkə daxilində yayılmasına olduqca müsbət təsir göstərdi, ümumi kitabxanaların saxlanması mexanizmini müəyyənləşdirdi.

XIX əsrin ikinci yarısından başlayaraq ölkənin ayrı-ayrı ştatlarında bir-birinin ardınca ümumi kitabxanalar yaratmaq haqqında qanunlar qəbul edildi. Görülən tədbirlər nəticəsiz qalmadı. 1850-1875-ci illərdə qısa bir müddətdə ABŞ-da 2240 ümumi kitabxana təşkil edilmişdi ki, bunun da cəmisi 18-ci ictimai vəsait hesabına fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında İngiltərə və ABŞ-da başlanan ümumi kitabxana hərəkatı bütün qərb ölkələrini, həmçinin Asiya və Şərq ölkələrini də bürüdü.

Artıq əsrin axırlarında "ümumi kitabxana" hərəkatı bütün qitələrdə, hətta inkişaf etmiş ölkələrdə də yayılaraq ümumdünya hadisəsinə çevrildi. Ümumi kitabxanalar cəmiyyətin elmi, təhsil və mədəni həyatında mühüm yer tutan "ümumxalq" müəssisələri kimi inkişaf edirlər.

# III FƏSİL

## KİTABXANA SOSİAL İNSTİTUTDUR

***Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.***

**Heydər Əliyev**

Bəşər mədəniyyətinin tərkib hissəsi olan kitabxanaların 5 min ildən artıq bir tarixi vardır. İlk Şumer kitabxanalarından zəmanəmizə qədər kitabxanalar olduqca çətin, mürəkkəb, daşlı-kəsəkli, qanlı-qadalı bir yol keçmişdir. Bu yolun təkamül yolu olması cəmiyyətin inkişaf prosesinə müvafiq kitabxanaların daim təkmilləşməsinə yeni keyfiyyətlər kəsb etməsinə, gil lövhəciklər saxlayan bəsit kitabxanalardan, möcüzəli elektron daşıyıcılara malik, dünya svilizasiyasının son nailiyyəti olan internetə qoşulmaqla, müasir insanın informasiya tələbatını ödəyən, bir elmi müəssisəyə, sosial instituta çevrilməsinə xidmət etmişdir. Uzun əsrlər boyu insanlara xidmət edən, bəşər biliyinin qorunub saxlanılmasında, svilizasiyanın inkişafında və daha da möhkəmləndirilməsində, elmi nailiyyətlərin, mənəvi sərvətlərin nəsildən-nəsilə ötürülməsində, humanist ideyaların daşıyıcıları olan kitabxanalar insanın fərdi inkişafına böyük töhvələr vermişdir. Nəsillər-nəsilləri əvəz etmiş, insan ruhunu, insanların yaratdığı mədəni, elmi sərvətləri qoruyub saxlayan fikir gəmisi, insanların zehni düşüncəsi olan maddiləşmiş kitabları mühafizə edən kitabxana isə qalmışdır. Şumerlərdən başlamış zəmanəmizə qədər dünyanın ən qədim, xeyirxah, humanist peşə sahibi olan kitabxanaçılar isə həmişə "hər şey insanlara qalır" qayəsini müqəddəs sayaraq bəşər ruhunun müqəddəs yazıları olan kitabları qoruyub saxlamağı və onu gələcək





nəsillərə ötürməyi öz müqəddəs vəzifələri hesab etmiş və bu bəşəri amal uğrunda mübarizə aparmışlar.

İlk kitabxanaların yaranmasından zəmanəmizə qədər kitabxanaların keçdiyi inkişaf yoluna nəzər saldıqda belə bir mənzərənin şahidi oluruq ki, kitabxanalar mütəmadi olaraq onları yaradan, cəmiyyət qarşısında öz vəzifələrini şərəflə yerinə yetirmiş, bəşəriyyətin işıqlı gələcəyinə xidmət etmişlər.

Dünya xalqları dillərinin lüğət fonduna daxil olan kitabxana məfhumunun yaranması uzun və tarixi bir yol keçmiş, zaman ötürdükcə müxtəlif xalqların dillərində müxtəlif cür səslənmişdir.

Kitabxana məfhumunun (anlayışının) bu müxtəlifliyini təhlil edib öyrənərkən məlum olur ki, bu məfhum həmişə sözlə, biliklə, mərifətlə, nəsihətlə, kitabla bağlı olmuşdur. Müxtəlif dövrlərdə, müxtəlif xalqların dillərində bu məfhum "lövhəciklər evi", "Papirus evi", "Perqament evi", "Nəsihət və mərifət evi", "Elm məbədgahı", "Kitab evi", "Kitab saxlanılan yer", ""Bilik evi və s. kimi işlənmişdir. Azərbaycan dilində işlədilən kitabxana məfhumu "kitab" (ərəbcə) və "xa-na" (farsca) sözlərin birləşməsindən yaranmışdır. Hərfi mənası "Kitab evi", kitab saxlanan yer deməkdir. Kitabxana məfhumunu digər dünya dillərində işlədilən kitabxana məhfumu ilə müqayisə etdikdə bütün dillərdə olan, kitabxana məfhumunun eyni məzmun daşıdığı aydın olur. Məsələn, Avropa ölkələrində ən çox yayılmış "Biblioteka" məfhumu "Biblio"(yunanca) kitab, "teka" isə saxlanan yer mənasını daşıyır. Yəni kitab saxlanan yer.

Kitabxana bəşəriyyətin yaratmış olduğu ən qədim sosial institutlardan biridir. Bütün sosial institutlar kimi kitabxanalar da onu yaradan cəmiyyətlə birlikdə inkişaf etmiş, cəmiyyətin qarşıda qoyduğu vəzifələrə xidmət etmişdir. Təkamül prosesinə müvafiq kitabxanaların strukturu, funksiyaları, məqsəd və vəzifələri, fondu, oxuculara xidmət prosesinin metod və üsulları əhəmiyyətli dərəcədə dəyişmiş, yeni keyfiyyətlər əldə etmişdir. Qədim dünya və orta əsr kitabxanaları kilsə, monastr, məscid və mədrəsə kitabxanalarına bənzəmədikləri

kimi XVIII-XIX əsr kitabxanaları da XX-XXI əsr kitabxanalarından əsaslı surətdə fərqlənirlər. Uzun əsrlər boyu təkamül yolu ilə inkişaf edən kitabxanalar XX əsrin ikinci yarısında "İnformasiya partlayışı" ilə, atom əsri ilə, texnoloji tərəqqi ilə yüksək inkişaf edən kitabxana və informasiya texnologiyası ilə üzbəüz qaldılar. Böyük inqilabi dəyişikliklər etməyə, elektron daşıyıcılardan istifadə etməklə xidmət prosesini yenidən qurmağa başladılar.

İnformasiya əsri formalaşmaqda olan yeni açıq cəmiyyətin bütün institutları kimi, kitabxana-instituta da böyük inqilabi təsir göstərirdi.

Beləliklə, kitabxanaların keçdiyi tarixi inkişaf yolu, cəmiyyətin inkişafında oynadığı rol, onları "sosial institut" olmasını bir daha təsdiq etdi və kitabxana problemlərinin sosial institut kimi öyrənilməsi vəzifələrini qarşıda qoydu. Xüsusi ilə bu problemin hərtərəfli öyrənilməsi, ümumiləşdirmələr aparılması, müasir informasiya cəmiyyəti şəraitində daha ciddi elmi əhəmiyyət kəsb etdi.

### 3.1. Sosial institut anlayışı

İnstitut (sosial institut) termini sosialogiyanın əsas problemlərindən biridir.

İnstitut – insanların birgə fəaliyyətinin, müəyyən tarixi dövrə, ölkəyə, birliklərə xarakterik olan sabit formasıdır. İnstitut insanların tələbatını ödəmək məqsədi ilə onların fəaliyyətini təşkil edir və istiqamətləndirir.

Beləliklə, İnstitut-sosial törəmədir, sosial vasitədir.[1] İnstitut cəmiyyət strukturunun, xüsusən mədəniyyət strukturunun tikinti blokudur. İctimai İnstitutlar cəmiyyət hadisələrinin əlaqələndirilməsində böyük gücə malikdir. Onlarsız cəmiyyət dağıla, hissələrə parçalana

[1] Шира. Д. Х. Социологические основы библиотечного дела.- М., 1973, с.18.





bilər. Kitabxanaların sosial institut kimi fəaliyyət göstərməsi, bu problemin dünya kitabxanaşünasları tərəfindən geniş araşdırmalar aparılamasını, elmi nəticələr çıxarılmasını ön plana çəkmişdir. Məhz buna görədir ki, müasir dünya kitabxanaşünaslığında kitabxanalar cəmiyyətdə elmə, informasiyaya, mədəniyyətə, təhsilə və tərbiyəyə xidmət edən institut kimi qiymətləndirilir.

Dünya kitabxanaşünaslığında olduğu kimi, bir çox ölkələrin kitabxana işi haqqında qəbul edilmiş qanunlarında kitabxanalar institut adlandırılır, mədəniyyətin mühüm sahəsi kimi onların qarşısında çox böyük sosial vəzifələr qoyulur. Belə qanunlara misal olaraq Azərbaycan Milli Məclisinin 1998-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu göstərə bilərik. Bu qanunda deyilir: "Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən institutdur".[1]

Kitabxanaların sosial institut adlandırılması haqqında fikirlər hələ XX əsrin əvvəllərindən səslənməyə başlamışdır. Belə fikirlər Amerikada və Avropada daha geniş yayılmışdı. Hələ XX əsrin 30-cu illərində Amerika alimi L.Ballard "Sosial institutlar" adlı kitab nəşr etdirmişdi. Bu kitabda sosial institut istilahı daha geniş və hərtərəfli təhlil edilmiş, kitabxanaların sosial institut olması əsaslandırılmış, bu məsələyə ayrıca fəsil əlavə edilmişdir. L. Ballarddan sonra Amerika kitabxanaşünası L. Martin 1937-ci ilin oktyabrında "Library quartezlu" jurnalında kitabxananın sosial institut olması haqqında oçerk çap etdirmişdi. Bu əsərində L.Martin kitabxananın sosial institut olması fikrini geniş elmi dəlillər əsasında təhlil etmiş, ciddi elmi nəticələr çıxarmışdır.

[1] Xələfov A.. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. B., 2009, s.63.

Kitabxananın sosial institut olması haqqında fikirlərə görkəmli Amerika alimi, müasir dünyanın görkəmli kitabxanaşünaslardan biri kimi tanınan C.X.Şiranın əsərlərində də geniş yer verilmişdir.

Cəmiyyət sosial münasibətlərin sabitliyini təmin edən, cəmiyyət üzvlərinin davranışına nəzarət edən, təsisatları özünəməxsus sistem şəkilində yaradır. Bu sistemdə institutların (institut latınca "institition") - qurmaq, təsis etmək) təsisatların yerinə yetirdikləri vəzifələr xüsusilə əhəmiyyətlidir. Sosial institutlar sosial hadisələrin, şərti və yaxud formalaşdırılmış strukturların məcmusudur. Cəmiyyət onların köməyi ilə hüdudları müəyyən edir, nəzarəti həyata keçirir və cəmiyyət üzvlərinin fəaliyyət formalarını təyin edir. Həmçinin cəmiyyət bir alət kimi onların vasitəsi ilə öz iradəsini əhaliyə diqtə edir və insanların can atdığı məqsədlərə və dəyərlərə uyğun davranışlarını formalaşdırır. Yeri gəldikdə qadağalar qoyur, adətlər formalaşdırır, həyatın bütün sahələrinə təsir göstərir.

İnstitut öz funksiyalarını orqanlar, birliklər, uyğun kollektivlər vasitəsi ilə həyata keçirir. Ancaq həmişə davranış normalarını məhz institut təyin edir. Bütün dövrlərdə adət kimi çıxış edən institutlar öz iradəsini cəmiyyət üzvlərinə diktə etməklə can atdığı məqsədlərə və dəyərlərə uyğun insanların davranışını formalaşdırır.

Qadağalar qoyur, yeni adətlər formalaşdırır. Beləliklə də həyatın bütün sahələrində hegamon mövqeyə sahib olur. İnstitutun aparıcı keyfiyyətlərindən ən mühümü onun orqanlarla əlaqəsinin olduqca sıx olmasıdır. Ancaq davranış normalarını həmişə institut təyin etməsinə baxmayaraq onları bir-birindən fərqləndirmək olduqca çətindir. Bütün yuxarıda göstərdiyimiz keyfiyyətlərə baxmayaraq, cəmiyyətin onların qarşısında qoyduğu vəzifələrin öhdəsindən gələ bilməyəndə cəmiyyət onları rədd edə bilər.

Cəmiyyətdə yerinə yetirdikləri vəzifələrə görə müxtəlif institutlar (təsisatlar) mövcuddur. Bunların içərisində: iqtisadi təsisatlar, siyasi təsisatlar, tərbiyəvi, mədəni təsisatlar və sosial təsisatlar xüsusilə fərqlənirlər. Tərbiyəvi və mədəni təsisatlar sırasına daxil olan kitabxanalar sosial institut kimi cəmiyyətin mədəni sərvətlərini xalqa çatdırmaq üçün mədəniyyətin möhkəmləndirilməsində, gənc nəslin tərbiyəsində və təhsil prosesində yaxından iştirak edir.





Sosial institutların yaranması, cəmiyyətdə onların rolu, vəzifələri haqqında antropoloqlar, sosioloqlar və filosoflar ciddi elmi araşdırmalar aparmış, cəmiyyətdə onların yerini, əhəmiyyət və vəzifələrini müəyyənləşdirən elmi anlayışlar yaratmışlar.

Sosial institut sosial strukturun elementi, ictimai həyatın təşkili və nizama salınmasının tarixi formasıdır. Sosial institutun köməyi ilə cəmiyyətdə insanlar arasındakı əlaqə, onların fəaliyyəti, davranış qaydaları tənzimlənir və beləliklə də, ictimai həyatın möhkəmləndirilməsi təmin edilir.

İnstitut həmçinin mədəniyyəti hərəkətə gətirən, onun işlənməsini təmin edən sosial təsisat, sosial vasitədir. Cəmiyyəti birləşdirən, əlaqələndirən qüvvədir, bunsuz cəmiyyət dağıla, hissələrə parçalana bilər. Fikrimizi aydınlaşdırmaq üçün misallara keçək. Ailə sosial instituta aid misallardan biridir. Başqa misal kimi, dini, qanunu, təhsil və biliyi kitabxananı göstərək. İnsanlar öz vəzifələrini yerinə yetirmək üçün tarixi inkişaf proseslərində yaranıb, təkmilləşən orqanları yaradır. İnstitutun yaratmış olduğu orqan bilavasitə onun xeyrinə fəaliyyət göstərməklə, onun qarşısında duran vəzifələri yerinə yetirir. Beləliklə, orqan institutun xeyrinə yaranmış sosial vasitədir. Məhz orqanın vasitəsilə institutun hərəkəti meydana çıxır. Misallara muraciət edək: əgər hüquq institutdursa, məhkəmə onun orqanıdır. Din institutdursa, kilsə onun orqanıdır. Təhsil və bilik institutdursa, məktəb, universitet onun orqanıdır.

Cəmiyyətin yaratmış olduğu sosial institutlardan ən mühümlərindən biri də təhsil, tərbiyə, mədəniyyət və informasiya işində mühüm rol oynayan kitabxanalardır. Çox qədim tarixə malik olan kitabxanalar onu yaratmış olan cəmiyyətin məqsədinə xidmət etmiş, sosial yeniliklərin ardınca getmiş, dövrün əsas informasiya bazası kimi elmə, təhsilə, mədəniyyətə xidmət etmişdir. Kitabxananın sosial

institut olmağı onun bilavasitə yüz illər boyu sosial yeniliklərin ardınca gedərək cəmiyyətin qarşıda qoyduğu məqsədlərin xidmət etmiş, daim yeniləşmiş, dövrün, zamanın tələbinə müvafiq yeni keyfiyyətlər əldə etmiş, yaşamaq, fəaliyyətdə olmaq hüququ qazanmışdı. Hər bir sosial institutun orqan olduğu kimi sosial institut olan kitabxananın da orqanı kitabxana işidir.

Məlumdur ki, kitabxana işi olmadan kitabxanalar cəmiyyətin onun qarşısında qoyduğu vəzifələri: kitabla insanlar arasında əlaqə yaratmaq, kitabı təbliğ etmək, cəmiyyətin informasiya tələbatını ödəmək, insanların mədəni, intellektual səviyyəsinin yüksəlməsində, tərbiyə prosesinin təşkilində yaxından iştirak etmək vəzifələrini həyata keçirə bilməz. Deməli, kitabxana işi kitabxananın sosial institut kimi yaşamasını, inkişaf edib təkmilləşməsini, cəmiyyətin əsas təsisatlarından biri kimi fəaliyyət göstərməsini təmin edən əsas amildir, orqandır. Məsələn, kitabxana sosial institutdursa, onda, ilk növbədə, kitabxanada işləyən adamlar qrupu və kitabxananın yerinə yetirdiyi funksiyanın təşkilatı formaları nəzərdə tutulur. Bunlar isə bilavasitə kitabxana işinin, yəni orqanın köməyi və iştirakı ilə baş verir. Beləliklə, kitabxana işi sosial institut olan kitabxananın orqanı, əsas vasitəsi kimi çıxış edir, kitabxana fəaliyyətinin kompleks təşkilini təmin edir.

Dünya kitabxanaşünaslığında XIX əsrin axırı-XX əsrin əvvəllərinə qədər kitabxana ilə kitabxana işi arasında fərqlər dəqiqləşdirilmişdir. Bunlar əksər hallarda bir-birindən fərqləndirilmədən öyrənilirdi.

İlk dəfə rus kitabxanaşünaslığında "kitabxana işi anlayışı" XIX əsrin axırı-XX əsrin əvvəllərində işlənməyə başlamışdı. Bu vaxta qədər bir çox rus kitabxanaşünasları "kitabxana" və "kitabxana işi" anlayışlarını bir-biri ilə eyniləşdirirdilər. Bu dövr kitabxanaşünasları nəzərdən qaçırırdılar ki, ayrıca götürülmüş, bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərən kitabxanalar öz sosial mənasında kitabxana işini təşkil etmirlər. Kitabxana işi o zaman geniş fəaliyyət sahəsinə çevrilir ki, o, ictimai əhəmiyyət kəsb etsin, cəmiyyətin mədəni həyatının





ayrılmaz hissəsinə çevrilsin, cəmiyyət üzvlərinin tərbiyə və təhsilində yaxından iştirak etsin. Bu mühüm vəzifələrin yerinə yetirilməsi, kitabxanaların ictimai rolunun artmasına, kitabxanaların fəaliyyətində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsinə, beləliklə, kitabxana işinin ictimai xarakter almasına gətirib çıxardı. Cəmiyyətdə kitabxana işi anlayışı ayrı-ayrı kitabxanaların dar çərçivəsindən çıxaraq ümumregion, ümumölkə xarakteri almağa başladı.

Xalq kütlələrinin kitabxanalardan daha geniş şəkildə istifadə etməyə başlaması, kitabxanaların oxucu dairəsinin genişlənməsi, kitabxanalardan ictimai istifadənin forması olan kitabxana işini insanların müasir mədəniyyətin zirvələrinə qovuşmasına və bəşəriyyətin yaratmış olduğu milli sərvətlərdən geniş istifadəsini təmin edən sosial kommuni-kativ sistemə çevrildi. Məhz buna görədir ki, 1911-ci ildə Rusiyada keçirilən kitabxanaçıların birinci ümumrusiya qurultayı kitabxana işinə əhaliyə kitabxana xidmətinin təşkilinin əsası kimi olduqca böyük əhəmiyyət verdi. Kitabxana işi sahəsində əldə edilmiş təcrübənin öyrənilməsini və yayılmasını zəruri hesab etdi. Beləliklə, "kitabxana işi" anlayışı kitabxanaların əsas vasitəsi, orqanı, kimi geniş elmi, informasiya, mədəni, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi formalaşmağa başladı.

XX əsrin 20-ci illərindən başlayaraq dünya kitabxanaşünaslığında kitabxana işinin bu və ya digər sahələrinə dair geniş elmi-tədqiqat işləri aparıldı başladı. Kitabxana işinin qarşısında çox mühüm vəzifələr qoyan müasir şərait bu sahədə yeni elmi, nəzəri fikirlərin meydana gəlməsi üçün şərait yaratdı. Kitabxana işinə dair qiymətli monoqrafik əsərlər, dərsliklər, dərs vəsaitləri, metodik əsərlər yarandı. Dünya ölkələrində yüzlərlə belə əsərlərin meydana çıxması bu işin sosial mahiyyətini, cəmiyyətin mədəni tərəqqisində rol və əhəmiyyətini bir daha artırdı. Məlum olduğu kimi, ən kiçik kitabxana belə öz fondunda bütün biliklər sistemini: təbiət elmlərinə, humanitar elmlərə, sosial-siyasi elmlərə, həm də bədii ədəbiyyata və incəsənətə dair əsərləri toplayır. Kitabxana fondu ensklopedik bilik mərkəzini

xatırladır. Müxtəlif elm sahələrinə dair kitablar, kitabxana rəflərində bir yerdə toplanaraq oxucuların istifadəsinə verilir. Kitab-xana bütün biliklər xəzinəsini öz oxucularına asanlıqla, operativ çatdırmağı təmin etmək üçün müxtəlif iş formalarından istifadə edir ki, bu kitabxana işidir. Kitabxana işi anlayışı altında vətəndaşların və onların birliklərinin elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində fəaliyyəti başa düşülür. Bu fəaliyyətə kitabxana şəbəkəsinin yaradılması və inkişafı, onların fondlarının formalaşması və işlənməsi, oxuculara (istifadəçilərə) kitabxana, informasiya və soraq-biblioqrafiya xidmətinin təşkili, kitabxana işinin idarə edilməsi və iqtisadiyyatı, kitabxanaların inkişafının elmi-metodiki təminatı və kitabxanaçı kadrların hazırlanması daxildir. Kitabxananın fəaliyyəti kitabxana ehtiyyatlarının hərəkətinə və inkişafına səbəb olur. Daha doğrusu, kitabxana işinin müasir və gələcək problemi olan sənəd – informasiyası sahəsində, fərdi tələbatı təmin etməyin kompleks problemlərini xarakterizə etmək imkanı müəyyənləşdirir.

Beləliklə, kitabxana işi meydana gəldiyi gündən mahiyyət etibarilə xidmət prosesində daha da inkişaf edib təkmilləşmiş, müasir dövrün ən böyük problemi olan kitabxana xidməti problemin təşkili vasitəsi kimi fəaliyyət göstərməyə başlamışdır.

Sosial institut olan kitabxanaların cəmiyyətdəki fəaliyyətinin əsas təzahür forması olan kitabxana işi sosial vasitə kimi böyük əhəmiyyət kəsb edir. Cəmiyyətin kitabxanaların qarşısına qoyduğu sosial vəzifələrin bilavasitə sistem halında formalaşan, geniş və mürəkkəb struktura malik olan kitabxana işi tərəfindən həyata keçirildiyini nəzərə alsaq, bu mühüm işin elmi təşkilinin nə qədər böyük əhəmiyyət kəsb etdiyi aşkara çıxar. Uzun illər boyu kitabxana və kitabxana işi məfhumları eyniləşdirilmiş, onlar ayrıca tədqiqat obyekti kimi öyrənilmişdir. Bir çox xarici ölkələrdə və keçmiş SSRİ məkanında da bunların ayrıca öyrənilməsinə diqqət yetirilmişdir. Ancaq 1997-ci ildə S. Kartaşov və V.V.Skvortsov tərəfindən yazılmış "Ümumi kitabxanaşünaslıq" («Общее библиотековедение») dərsliyində "Kitabxana





işi haqqında təlim"ə ayrıca bölmə kimi yer ayrılmışdır. Müəlliflərin bu qərara gəlməsi bilavasitə cəmiyyətdə kitabxana işinə olan sosial tələbatla bağlı yaranmışdır. Müasir şəraitdə cəmiyyətin inkişafında informasiyanın rolu artdıqca, cəmiyyət üzvlərinin əsas tələbatına çevrildikcə, kitabxana işinin daha böyük əhəmiyyət kəsb etdiyi göz qabağındadır. Məhz buna görədir ki, əvvəllər SSRİ məkanına daxil olan ölkələrin parlamentləri tərəfindən son zamanlar qəbul edilmiş kitab-xana işi haqqında qanunlarda kitabxana işinin termonoloji izahının, məzmununun açılmasına və strukturunun müəyyənləşdirilməsinə xüsusi yer verilmişdir. Bu baxımdan kitabxana işi məfhumunun termonoloji cəhətdən müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi, ümumi xarakteristikası, sistem halında öyrənilməsi və strukturunun müəyyənləşdirilməsi mühüm elmi və təcrübi əhəmiyyət kəsb edir.

Beləliklə, kitabxana sosial institutdursa, bilavasitə kitabxana tərəfindən yaradılan kitabxana işi sosial vasitədir-orqandır. Orqan bilavasitə institut tərəfindən yaradılır və onun xeyrinə işləyib, fəaliyyət göstərməsinə və inkişafına xidmət edir.

Kitabxana işi anlayışı Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda belə müəyyənləşdirilmişdir: "Kitabxana işi-elm, informasiya, mədəniyyət təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi - metodik təminatını əhatə edən fəaliyyət sahəsidir".[1]

Beləliklə, kitabxana işi dedikdə elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində vətəndaşların və onların birliklərinin fəaliyyəti başa düşülür. Buraya həmçinin kitabxana şəbəkələrinin yaradılması və inkişaf edilməsi, onların fondunun formalaşması və

---

[1] *"Azərbaycan" qəzeti, 1999, 14 mart.*

işlənməsi, oxuculara (istifadəçilərə) kitabxana-informasiya, soraq-biblioqrafiya xidmətinin təşkili, mütəxəssis kitabxanaçı kadrların hazırlanması, kitabxanaların elmi-metodik təminatının təşkili, maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi, müasir şəraitdə kitabxana işinin komplektləşdirilməsi və s. komponentlər daxildir. Göründüyü kimi, kitabxana işi ayrı-ayrı hissələrdən, elementlərdən ibarətdir. Lakin bu hissələrin və elementlərin ayrı-ayrılıqda bir-birindən təcrid edilmiş şəkildə öyrənilməsi onları başa düşməyə imkan vermir. Bunun üçün hissələrin qarşılıqlı əlaqələrini və asılılığını öyrənmək, onlara bir məcmu halında baxmaq, onları bir tam kimi nəzərdən keçirmək lazımdır. Hissə tamın tərkibinə daxil olan və müəyyən nisbi müstəqilliyə malik olan komponentdir. Tam isə öz aralarında qarşılıqlı əlaqələnən hissələrdən təşkil olunmuşdur və birləşdirdiyi hissələrdə olmayan bir sıra əlavə xassələrə malik olan sistemdir. Buna görə də tam və hissənin qarşılıqlı əlaqəsi tamın strukturunu müəyyən edir. Struktursuz tam yoxdur. Struktur tamın mövcudluq formasıdır. Struktur həm də sistem və element anlayışı ilə bağlıdır. Sistem qarşılıqlı əlaqədə olan elementlərin kompleksidir. Element isə sistemin nisbi bölünməz komponentidir.

Beləliklə, dünya kitabxanaşünaslarının kitabxana işi problemlərini uzunmüddətli araşdırmaları nəticəsində kitabxana işinin mahiyyəti, strukturu və vəzifələri haqqında qiymətli elmi fikirlər irəli sürülmüşdür. Bu fikirlərə istinad etmək kitabxana işinin strukturuna aşağıdakı elementlərin daxil olduğunu söyləmək olar:

- kitabxana sistemlərinin və şəbəkələrinin yaradılması və inkişafı;
- kitabxana fondlarının formalaşması və idarə olunması;
- Oxuculara kitabxana və informasiya xidmətinin təşkili;
- kitabxanaların maddi-texniki bazasının yaradılması, kitabxana işinin kompüterləşməsi;
- kitabxanaçı kadrların hazırlanması;
- kitabxana işinin elmi-metodik təminatı.





Kitabxana işinin strukturuna daxil olan bu elementlərin birgə fəaliyyəti, kitabxana işinin mövcudluq formasıdır, onun işləmə prosesidir. Kitabxana işi sistemi, bütövlükdə kitabxana fəaliyyətinin yaranmasını və formalaşmasını təmin edir. Kitabxana fəaliyyəti isə kitabxana ehtiyatlarının (vəsaitlərinin) hərəkəti və inkişafı ilə şərtləndirilir. Daha doğrusu, kitabxana işinin ehtiyat mənbəsinin, sənəd informasiyasına olan ictimai və fərdi tələbatın ödənilməsi problemləri kompleksindən ibarətdir. Kitabxana işinin uğurlu təşkili kitabxana ehtiyatlarının səviyyəsindən və vəziyyətindən çox asılıdır. Kitabxana ehtiyatlarının dövrün, zamanın müasir şəraitin səviyyəsində olması onun müvəffəqiyyətinin rəhnidir. Kitabxana ehtiyatları kitabxana fəaliyyətini uğurla həyata keçirmək üçün aşağıdakı mühüm xüsusiyyətlərə malik olmalıdır:

1. Müxtəlif tipdən və növdən olan kitabxanaların fəaliyyətini bütöv bir sistem kimi təmin etmək;

2. Kitabxana fondları cəmiyyətin informasiyaya olan tələbatını, oxucuların sorğu və maraqlarını nəzərə alaraq formalaşdırmaq;

3. Kitabxanaları yüksəkixtisaslı mütəxəssis kadrlarla təmin etmək, onların seçilib yerləşdirilməsinə, müntəzəm olaraq yeniləşdirilməsinə diqqət yetirmək;

4. Nəhayət, kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək. Kitabxana işini dövrün mühüm informasiya tələblərini ödəmək üçün kompüterləşdirmək, İnternet sisteminə qoşulmasını təmin etmək.

Beləliklə, kitabxana ehtiyatlarının formalaşdırılması və onun uğurları bilavasitə kitabxana işinin strukturuna daxil olan elementlərin və komponentlərin birgə, qarşılıqlı fəaliyyəti nəticəsində mümkündür. Bu mühüm prosesdə kitabxana işinin əlaqələndirilməsi, kitabxanalararası münasibətlərin dərinləşməsi, kitabxana birliklərinin yaradılması, lazım gəldikdə kitabxana işinin vahid məqsədə yönəldilməsi üçün kitabxana konsorsiumlarının yaradılması zəruridir. Bu mühüm işdə kitabxana işinin kooperasiya və koordinasiyası da böyük əhəmiyyət

kəsb edir. Bu müəyyən kitabxana şəbəkələri, yeri gəldikcə bütün kitabxana sistemi şəraitində həyata keçirilməlidir. Kitabxana ehtiyatları müntəzəm olaraq dəyişir, inkişaf edir. Kitabxana əlaqələri isə kitabxana işinin dəyişməyə daha az məruz qalan hissələrindəndir. Onlar kitabxana ehtiyatlarının dəyişməsi ilə əlaqədar olaraq dəyişmir, kitabxana ehtiyatlarının sərbəst surətdə inkişafı üçün şərait yaradır.

Kitabxana işi daim inkişaf etdiyi, dinamik olduğu, həmçinin daxili inkişaf qanunları müntəzəm olaraq dəyişdiyi üçün onun öyrənilməsi müəyyən çətinliklərə səbəb olur. Kitabxana işi inkişaf prosesində: 1. dərəcələrə ayrılır və ixtisaslaşır; 2. inteqrasiya olunur və birləşir. Birinci proses zamanı müxtəlif kitabxanalar və kitabxana şəbəkələri, ikinci proses zamanı isə kitabxana sistemi yaranır.

Kitabxanalar arasında hər cür dərin koordinasiya və inteqrasiyanın getməsinə baxmayaraq kitabxana şəbəkələri ilə kitabxana sistemləri arasında fərq qalmaqdadır. Kitabxana sistemlərinin elə mühüm, ümumi xarakterik cəhətləri vardır ki, onlara ayrı-ayrı kitabxana şəbəkələrində rast gəlmək olmur. Məsələn, regional kitabxana fondlarının yaradılması, ayrı-ayrı kitabxana birlikləri üçün ümumi kataloqların yaradılması və s. Beləliklə, müasir şəraitdə əhaliyə kitabxana xidmətinin təşkili məsələləri kitabxana şəbəkələri və kitabxana sistemləri problemlərinin də elmi cəhətdən öyrənilməsinin zəruriliyini irəli sürür. Kitabxana ictimai təşkilat olduğundan şəxsiyyətin kitabxanaya münasibəti öyrənildiyi kimi, kitabxananın da cəmiyyətlə qarşılıqlı əlaqə-sini nəzərdən keçirmək zəruridir. Bu mühüm münasibətlərin qarşılıqlı öyrənilməsi kitabxananın cəmiyyətdə rolunun və yerinin dəqiq müəyyənləşdirilməsinə imkan yaradır.

Beləliklə, böyük tarixi keçmişə malik olan, bütün dövrlərdə, ictimai-siyasi formasiyalarda bilavasitə cəmiyyətdə baş verən hadisələrə, sosial proseslərlə bağlı olan kitabxana işinin sosioloji əsaslarına söykənmədən funksiyalarını, məqsəd və vəzifələrini öyrənmək xeyli çətinliklər yarada bilər. Kitabxanaların sosial institut kimi fəaliyyət göstərməsi cəmiyyətin xüsusilə bütövlükdə mədəniyyətin





formalaşmasında mühüm əhəmiyyət kəsb etməyə bilməz. Kitabxanalar mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi, birinci növbədə, mədəniyyətin ümumi inkişaf qanunlarına isnad etməli və mədəni proseslərin formalaşmasının yaradıcısı olmalıdır. Beləliklə, kitabxana işi proseslərini, onun sosioloji əsaslarını, bilavasitə mədəniyyətin formalaşması və inkişafı qanuna-uyğunluqlarına müvafiq öyrənilməsi zərurəti meydana çıxır. Bu baxımdan görkəmli Amerika kitabxanaşünası D.X.Şiranın tədqiqatları olduqca böyük maraq doğurur.[1]

D.X. Şira belə hesab edir ki, mədəniyyətin məğrini, ehtimal ki, daha anlaşıqlı üçbucaq formasında (şəkil 1) təsəvvür etmək olar.

İndi Şiranın təklif etdiyi üçbucağı nəzərdən keçirək.



*(Şəkil 1)*

Sol tərəfi Texniki bazanın, alətləri və başqa mexanizmləri simvollaşdırır. Bu avadanlıq ibtidai insanın daş baltasından və nüvə ucluqlarından tutmuş, müasir alimlərin və mühəndislərin elektron qurğularınadək insan təcrübəsinin bütün qammasını (musiqidə səslərin ardıcıl sırası) əhatə edir. Həqiqətən mədəniyyətin yetkinliyi qismən texniki bazanın mürəkkəbliyi səviyyəsi ilə müəyyən edilir. Lakin üçbucaq digər iki tərəfinin köməyi olmadan inkişaf edə bilməz. O, cəmiyyətin ona göndərdiyi tələblərə hay verir, nə qədər ki, əmək

[1] *Шира Д.Х.. Введение в библотековедение. М., 1983, с.61-67.*

alətləri sahəsində nailiyyəti, onlardan yeni istifadə üsulları stimullaşdırılır, bu əlaqə bir o qədər ikili xarakter daşıyır.

Üçbucağın sağ tərəfinə keçək. Bu tərəf "alimlik" adlandıra biləcəyiniz başqa sözlə, cəmiyyətin bütün üzvlərinin topladıqları biliklərin cəmi, təsdiq edilmiş biliklərin, nəzəriyyələrin, inancların, təcrübələrin, əsatirlərin, əfsanələrin və yaradıcı əməyin məcmusudur. Bu alimlikdən fəlsəfi sistem yaxud konstruksiya meydana gəlir. Başqa sözlə, insanının digər insanlarla və içərisində olduğu onunla harmoniyada, əqli və əxlaqi inkişafda olduğu, kainatla bağlı olduğu hər nə varsa, onların birliyidir.

**Adətlər** kodlaşdırılmış institutlar və onlara tabe olan orqanlar, yaxud vasitələrlə, fəaliyyət göstərən bu alimlik davranışını və ictimai həyatın normalarını müəyyən edir, sosial təşkilata hədlər qoyur. Onları hazırlamaq və istehsal etmək üçün lazımi biliklər olmadan əmək alətləri ixtira etmək mümkün deyil.

Üçbucağın əsası (oturacağı) **Sosial təşkilati** əks etdirir, mədəniyyəti "istiqamətləndirən" yaxud ona reallıq verən institutlar və onların orqanları. Hər hansı mədəniyyət o vaxt institut hesab edilə bilər ki, onun təşkilati sistemi olsun.[1] Təşkilati sistemin kamilliyi mədəniyyətin inkişafı, daim yeniləşməsi, mədəniyyətlər arasında əlaqə yaradılması, onların inteqrasiyası və qarşılıqlı zənginləşməsi üçün şərait yaradır.

Beləliklə, mədəniyyətin varlığı və bütövlüyü üçün bu üç aspekti (texniki baza, alimlik və sosial təşkilat) bir-biri ilə münasibətdə hormoniya şəklində fəaliyyət göstərməlidirlər. Əgər bu hormoniya pozularsa, biri digərindən geri qalarsa və yaxud irəli gedərsə mədəniyyət deformassiyaya uğraya bilər. Belə deformassiyaların baş verməməsi üçün sosial institutların həmişə çevik, dinamik, baş verən proseslərin idarə edilməsinə ciddi və daimi nəzarəti ön planda olmalıdır.

---

[1] *Шира Д.Х.. Введение в библиотековедение. М., 1983, с.63-67.*





Mədəniyyətin inkişafına, formalaşmasına, məqsədyönlü fəaliyyət göstərməsinə öz töhvəsini verən cəmiyyətin bütün təsisatları, bütün institutları içərisində mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxanalar daha həlledici rola malikdir. Kitabxanalar cəmiyyətin fəal üzvləri olan oxucularla, yəni şəxsiyyətlərlə bilavasitə təmasda olduqlarından, əhalinin maariflənməsi, mədəni cəhətdən inkişaf etməsi, informasiya ilə təmin olunmasında bilavasitə iştirak etməklə mədəni tərəqqiyə xidmət edirlər. Kitabxanalar yuxarıda göstərdiyimiz mədəniyyətin üst tərəfinin - "Texniki baza", "alimlik", "sosial təşkilat" birlikdə, hormonik fəaliyyətinə əməli köməklik göstərməklə, digər sosial institutlardan daha çox fərqlənirlər. Məhz buna görədir ki, sosial institut kimi kitabxanaların məqsəd və vəzifələrinin sosial funksiyalarının, strukturunun və əsas elementlərinin bütöv sistem kimi dərindən öyrənilməsinə, elmi ümumiləşdirilmə aparılmasına böyük ehtiyac vardır.

### 3.2. Kitabxana və kommunikasiya

Sosial institut olan kitabxanalar mədəniyyətin inkişafı naminə sosial proqramların yaradıcısı və icraçısı kimi davamlı, ictimai infrastrukturun kommunikasiya sahəsidir. Məhz buna görə də, oxuculara xidmət prosesində kommunikasiyanın müxtəlif formalarının yaradılmasında və istifadə edilməsində yaxından iştirak etməyə borcludurlar.

Kitabxanalar müasir informasiya cəmiyyətində biliklərin idarə olunmasında, cəmiyyətlə-insan, insanla-informasiya arasında qarşılıqlı informasiya kanallarının yaradılmasında və əlaqələndirilməsində, ardıcıl olaraq təkmilləşdirilməsində, sürətlə islahatlar aparmaq və yeniləşmək vəzifəsi qarşısında dayanmışdır. Böyük sürətlə qloballaşan dünya "elektron inqilab" erasına qədəm qoyur. Bu böyük inqilabı prosses bütövlükdə bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxanalar qarşısında da mühüm vəzifələr qoyur. Bu vəzifələrin

həllində yarandığı gündən zəmanəmizə qədər ilk Şumer kitabxanalarından milli kitabxanalara qədər, keçdiyi yolda kitabxanaları kommunikasiya sistemləri yaxından müşayiət etmişdir.

Kommunikasiya ilə daimi yol yolcusu olmuş kitabxanalar adətləri, davranışı və əqidələri bir-biri ilə bölüşən, insanların ünsiyyət vasitəsi kimi istifadə etdiyi kommunikasiya sistemində vacib həqədir. Əlaqəsiz, ünsiyyətsiz insan qrupları, cəmiyyət olmadığı kimi, bilavasitə insanlara xidmət edən, insanlar arasında birlik vasitəsi olan kitabxanalar da kommunikasiyasız yaşaya bilməzlər. Məhz bu da kommunikasiya proseslərini öyrənməyi kitabxanaşünaslar qarşısında mühüm vəzifə kimi qoyur.

Kommunikasiya (communicatio-latın sözüdür) mənası 1) ümumi etmək, bağlamaq, ünsiyyətdə olmaq; 2) iki və ya daha çox şəxs arasında olan və qarşılıqlı anlaşmaya əsaslanan ünsiyyət; bir şəxsin əldə etdiyi məlumatı başqasına (başqalarına) çatdırması və s.

Kommunikasiya məlumatın insandan-insana verməsinə deyilir.[1] İnsan mahiyyət etibarilə biri-digəri ilə ünsiyyətdə olan varlıqdır. Ünsiyyət insanın sosiuma daxil olması və orada fəaliyyət göstərməsi üçün mühüm vasitədir. Məhz buna görədir ki, insan həyatında arakəsilməz informasiya mübadiləsi, yeni vərdişlər, təcrübələr əldə etmək həyati zərurətdir. Ünsiyyətin məqsəd və məzmunundan asılı olaraq onun vəzifələri də müxtəlif ola bilər. Ünsiyyət həmişə hərəkətdə olan dinamik bir proses olduğundan partnyorlar arasında yeni münasibətlər formalaşa bilər.

Son zamanlar elmi ədəbiyyatda "ünsiyyət" termini ilə yanaşı olaraq "Kommunikasiya" termini daha çox işlədilir. Bizcə, "ünsiyyət" terminine nisbətən kommunikasiya terminin daha əhatəli və çox mənalı xarakter daşıdığından, bu terminin kommunikasiya kimi işlədilməsi daha məqsədə müvafikdir. Müasir informasiya cəmiyyəti şəraitində insanların böyük sürətlə inkişaf edən müntəzəm olaraq yeniləşən, dərinləşən, yeni keyfiyyətlər kəsb edən informasiya tələba-

[1] *Məhərrəmli Q.. Mediada özlənən alınma sözlər izahlı lüğət. B. 2008, 111 s.*





tının ödənilməsi kommunikasiyanın yeni, daha mürəkkəb formalarının aşkarlanmasını tələb edir.

Cəmiyyət inkişafının ən erkən dövrlərində insanlar biri-birilə əlaqə yaratmaq, birləşmək, ünsiyyətdə olmaq, informasiya toplamaq məqsədi ilə kommunikasiyanın müxtəlif vasitələrindən istifadə etmişlər. Zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə, insanların bilik səviyyəsi, ətraf mühiti dərk etmək qabiliyyəti artdıqca, yeni kommunikasiya kanalları meydana gəlmiş, kommunikasiya bəşər fikrini aktuallaşdırmaq vasitəsinə çevrilmişdir. Qarşılıqlı təsir prosesində insanlar birinin o birinə köməyi, ünsiyyəti, birləşməsi hesabına zənginləşir, bəşəriyyət tərəfindən toplanan təcrübə hamının malına çevrilirdi.

Kommunikasiyanın inkişaf tarixini 4 mərhələyə bölən sosioloqlar bu dövrləri kommunikasiya inqilabı adlandırırlar. 1) yazının ixtira edilməsi; 2) kitab çapının başlanması; 3) radio televiziyanın meydana gəlməsi; 4) dünyanın böyük möcüzəsi internetin zühur etməsi kommunikasiyanın cəmiyyətin formalaşması və inkişafı, insanın bilik və bacarığının təkmilləşməsi sahəsində əsas amilə çevrildi. Cəmiyyətin kommunikasiya proseslərinə, onun vasitələrinin öyrənilməsinə, tədqiqinə diqqət artdı. Kommunikasiya inqilablarına nəzər salarkən belə bir elmi fikir diqqəti cəlb edir ki, bu inqilablar arasında onların, birinin digərinə keçməsi prosesində də ciddi bir əlaqə vardır. Bu proseslər heç də biri-birini inkar etmir, varislik prinsipi gözlənilir. Köhnə məhv edilmir, onun səmərəli toxumları saxlanılır beləliklə, yeni yaranan vasitələr daha mükəmməl daha müasir formada özünü göstərir.

Kommunikasiyanın cəmiyyətin çox erkən dövrlərindən yaranmasına baxmayaraq "Kommunikasiya" termini elmi ədəbiyyatda XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu termin altında informasiyanın insandan-insana ötürülməsi, cəmiyyətdə qarşılıqlı təsiri, informasiya mübadiləsi kimi başa düşülür.[1]

[1] *Kokonovka Z.T., Akuliç M.M.., Kuznecov V.N. Ümumi sosiologiya. B., 2007, s. 318*

Beləliklə, yuxarda dediklərimizə və sosioloqların qiymətli araşdırmalarına və elmi nəticələrinə əsaslanaraq deyə bilərik ki: Kommunikasiya ünsiyyətdir, informasiyanın insandan-insana ötürülməsidir. Cəmiyyətdə qarşılıqlı təsirdir, informasiya mübadiləsidir. Həmçinin maddi və mənəvi dünyanın müxtəlif obyektlərinin əlaqə vasitəsidir.

Cəmiyyətin tarixi inkişafı prosesində kommunikasiyada tədricən, təkamül yolu ilə inkişaf etmiş, onun yeni-yeni növləri, kanalları, vasitələri meydana gəlmişdir.

Kommunikasiyanın növləri Kommunikasiyanın insanlar arasında unsiyyət, əlaqə və insanların biri-birini qarşılıqlı anlama vasitəsi kimi bir çox növləri vardır. Sosioloqlar və kitabxanaşünaslar kommunikasiya proseslərini üç növə ayırırlar.[1]

1. Şəxsiyyətlərarası kommunikasiya. Bu növə həmçinin kommunikasiyanın xüsusi forması olan qruplar, birliklər və s. kommunikasiyalar da daxildir.

2. Kütləvi kommunikasiya. Bu kommunikasiyanın ən çox yayılmış və demək olar ki, cəmiyyətin bütün üzvlərinin, bütün idarə və müəssisələrin, xüsusi ilə informasiya orqanlarının və kitabxanaların istifadə etdiyi kommunikasiyadır. Cəmiyyətdə hakim mövqe tutan kütləvi kommunikasiya insanların sosial hisslərin açıq ümumiliyinə və ümumi sosial təcrübəyə malik olduqları vaxt həyata keçirilir, reallaşır.[2] Cəmiyyətin informasiya təminatında və insanların informasiya mübadiləsində mühüm rol oynayan kütləvi informasiya vasitələri – qəzet, jurnal, sənədli kino, radio və televiziyadan ibarət sistem kütləvi kommunikasiyanın klassik nümunəsidir.

3. Mədəniyyətlərarası kommunikasiya. Mədəniyyətlər arası kommunikasiya iki və daha çox müxtəlif mədəniyyətlərin əlaqəsi prosesində informasiya mübadiləsi və mədəni sərvətlərin, qarşılıqlı

---

[1] *Гениева Е. Библиотека как центр межкультурной коммуникации. М., 2008, с 32*

[2] *Kokonovka Z.T., Akulıç M.M., Kuznesov V.N. Ümumi sosiologiya. B., 2007, s. 318*





əlaqələrin yaranmasına xidmət edir. Mədəniyyətlərarası kommunikasiya insanları cəmiyyətin mənəvi dəyərlərinə qovuşdurur.

Qloballaşan dünayada mədəniyyətlərarası kommunikasiyanın fəaliyyət sahəsi sürətlə genişlənməklə, daha intensiv xarakter alır. Həmçinin mədəniyyətlərarası kommunikasiya ölkələr, dövlətlər və millətlər arasında beynəlxalq əlaqələrin genişlənməsində, davamlı və ardıcıl xarakter almasında mühüm əhəmiyyət kəsb edir. Mədəniyyətlərarası kommunikasiya mədəniyyətlərin zənginləşməsinə səbəb olmaqla, xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsində, ayrı-ayrı mədəniyyətlərin birləşərək zənginləşib, ümumbəşəri mədəniyyətə qovuşmasında mühüm amilə çevrilir.

Kitabxana və kommunikasiya problemlərinin son zamanlarda araşdırılması, xüsusilə sosioloji eksperimentlərin ümumiləşdirilməsi bir daha təsdiq etmişdir ki, kitabxanalar tarixən kommunikasiya müəssisəsi – vasitəsi kimi formalaşmış, özünün keçdiyi tarixi təkamül yolunda kommunikasiyanın formalaşması və inkişafına kömək etməklə, özü də bir kommunikasiya müəssisəsi kimi inkişaf etmiş, insanların ünsiyyət təcrübə bazasına, informasiya mübadiləsi mərkəzinə çevrilmişdir. Kommunikasiya insanlar birliyinin yaradılması vasitəsi olmuşdur. Kitabxanalar bilavasitə insanla, onun formalaşması ilə informasiya tələbatının ödənilməsi sahəsində fəaliyyət göstərdiyindən, kommunikasiyanın müxtəlif növlərindən, kommunikasiya vasitələrindən, kommunikasiya kanallarından geniş istifadə etməklə oxucuya xidmət prosesini təşkil etməlidir. Oxucu fenomeni müasir kitabxanaşünaslığın, əsas tədqiqat obyekti kimi, bilavasitə insan amili ilə bağlı olması, insanın (oxucunun) hərtərəfli fəlsəfi, pedaqoji, psixoloji nöqteyi nəzərdən öyrənildiyi kimi, onun kommunikativliyi, informasiyanı əldə etmək, öyrənmək, biliyə çevirmək biliklərin idarə edilməsində iştirak etmək, beləliklə mədəniyyətin inkişafına öz töhvələrini vermək prosesi də öyrənilməlidir.

Ümumiyyətlə götürdükdə kommunikasiya iki və ya bir neçə şəxsin iştirak etdiyi sosial hadisə olsa da, insan orqanizmi daxilində də

əlaqələr sistemi vardır. İnsanlar müxtəlif olduğu kimi, onların daxili aləmləri də biri-birinə bənzəmir. Buradan da hər bir insana-oxucuya, informasiya tələbatçısına fərdi yanaşma meydana çıxır.

Kommunikasiyanın daxili və xarici xarakter daşımasından asılı olmayaraq kommunikasiya dörd elementdən ibarətdir. Ötürücü, qəbuledici, informasiya və ötürmə vasitəsi.[1] Şifahi nitq vaxtı ötürücü vasitə hava dalğasının növbələnən qalxıb enməsidir, başqa sözlə titrəyişidir. Ötürücü ilə qəbuledici hansısa bir aralıq vasitənin olub-olmamasından asılı olaraq kommunikasiya yaxud da bilavasitə ola bilər. Birinci halda məlumatın ötürülməsində oxucu və kitabxanaçı iştirak edirsə, ikinci halda əlavə vasitə, sənəd, qram yazılar, audiovirtual material, elektron vasitələr ola bilər. Beləliklə, birincini bilavasitə kommunikasiya, ikincini isə bilavasitə kommunikasiya adlandırmaq olar.

Kommunikasiyanın bu dörd elementi içərisində kitabxanalar üçün öyrənməsi və fəaliyyət prosesinə tətbiqi ən mühümü informasiya və ötürmə vasitəsidir. İnformasiya şifahi və yaxud maddiləşmiş halda ola bilər. Şifahi informasiya maddiləşdikdən sonra sənədə, yəni kitaba çevrilir. Kitab isə minilliklər boyu bəşəriyyətə sədaqətlə xidmət edən, cəmiyyətin yaratdığı bütün maddi və mənəvi sərvətlər haqqında elmi, fəlsəfi, tarixi, ədəbi-bədii fikirləri öz səhifələrində qoruyub saxlayan, bütün mənəvi fikirlərin, ideyaların, əqidələrin, inacların ölməzliyini təmin edən, dahilərin ruhunu yaşadan vasitə kimi böyük əhəmiyyət kəsb edir. Dövrlər, zamanlar, nəsillər arasında əlaqə yaradır. Xalq arasında belə bir fikir var ruh ölmür. Bəli, insanlar ölür, ancaq onların yaratmış olduğu kitablar yaşayır, deməli ruh kitablarda yaşayır. Kitabın şifahi informasiyalardan fərqi odur ki, kitab məkan və zaman sərhədlərini aşa bilir. Kitab vasitəsilə insan min il ondan əvvəl yaşamış adamdan informasiya qəbul edə bilir. Keçmiş, dünyasını dəyişmiş müəlliflərlə ünsiyyətdə ola bilir. Keçmiş nəslin gələcək

[1] *Шира. Д. Х. Введение в библиотековедение. М., 1983, с. 70*





nəsillərə vəsiyyəti olan kitabları zamanı birləşdirən əfsanəvi əsərlər adlandırmaq yerinə düşərdi.

Beləliklə, bəşəriyyətə xidmət edən kommunikasiya vasitələri içərisində kitab, kitab vasitəsilə informasiyanı qəbul etmək xüsusi, əvəzsiz bir vasitə kimi böyük əhəmiyyət kəsb edir. Məhz bəşəriyyət kitabın bu xüsusi əvəzedilməz rolunu, bu möcüzəli sənədsiz keçinməyin mümkünsüzlüyünü nəzərə alaraq, onun gələcək nəsillərə qorunub saxlanması üçün kitabxanaları yaratdı. Kitabları qoruyub saxlamaq, nəsillərdən-nəsillərə ötürmək, insanlara informasiya daşıyıcısı kimi xidmət etmək üçün yaranan kitabxanalar məhz ən zəruri kommunikasiya vasitəsi kimi formalaşmışdır.

Böyük sosial funkisiyaları yerinə yetirməyə borclu olan kitabxanalar şəxsiyyətin kommunikasiyasının daşıyıcıları kimi də diqqət mərkəzinə çevrilmişdi. Şəxsiyyət kommunikasiyası fərdiləşmiş xarakter daşıyır. Kitabxanaya gələn fərd (oxucu) özünə lazım olan sənədi seçmək üçün kitabxana fondundan istədiyi məlumatı əldə edir. Ayrı-ayrı fərdlər (oxucular) bu məlumatları əldə etmək üçün kitabxanadaxili kommunikasiya formalarından və kanallarından öz intellekt səviyyəsindən asılı olaraq ya bilavasitə ya da bilvasitə istifadə edirlər. Bu mühüm mürəkkəb prosesdə kitabxanaların da yaxından iştirakı oxucu və kitabxanaçı arasında ünsiyyətin - birliyin kommunikasiyanın yaranmasını fəallaşdırır.

Zaman keçdikcə, cəmiyyətdə təhsil, mədəniyyət, elmi tərəqqiyə nail olduqca, təhsilli, elmli insanların miqdarı əhəmiyyətli dərəcədə artmış, kitabxana oxucularının sayı çoxlamışdı. Oxucuların artması ilə kitabxanada gedən proseslər kütləvi xarakter almağa başlayır. Ancaq bu prosesə dərindən diqqət yetirdikdə məlum olur ki, kitabxanaya çoxlu insanların gəlməsinə baxmayaraq onu kütləvi kommunikasiya orqanı hesab etmək olmaz. Çünki bu insanların hamısı kütləvi informasiya vasitələrində olduğu kimi eyni məlumat almır və həm də həmin insanlar eyni məlumat üçün kitabxanaya gəlmirlər. Əksinə hər bir oxucu fərdi qaydada onun tələbatına və marağına cavab verən

informasiyanı axtarır. Üstəlik, oxucu ehtiyac duyarsa, eyni məlumata bir neçə dəfə müraciət edə bilər.

Bəşər mədəniyyətinə xidmət edən kitabxanaların dinamik inkişaf tarixi bir daha sübut etmişdir ki, onlar həmişə demokratikləşmə prinsiplərinə və təcrübəsinə sadiq qalmış, demokratiya kitabxana işinin mahiyyətinə hopmuşdur. Belə sədaqət kitabxananın yarandığı gündən yaranmış ənənələrin yeniləşməsi ilə nəticələnmişdir. Kitabxana yarandığı ilk dövrlərdən elita, elmi nüfuzu, yaxud elmi marağı olan intellektual səviyyəli şəxslər üçün nəzərdə tutulmuşdur. Bunun nəticəsində də onun oxucu kontingenti nisbətən az olmuşdur.

Lakin demokratiyanın kitabxanalara yol tapması ilə kitabxanaların geniş oxucu kütləsi dairəsi meydana gəlmişdir. Yeni oxucu kütləsinin marağı olduqca müxtəlif və qeyri-müəyyən olduğundan bu maraqları öyrənmək və ödəmək xeyli çətinliklər ortaya çıxartdı. Kitabxanaların qarşısına çıxan bu problemlər kitabxana işinin məzmununda və formasında yeni dəyişikliklərin, yeni kommunikasiya formalarının və kanallarının yaranmasını və daha da təkmilləşməsini tələb edirdi.

Cəmiyyətdə kitabxanaların sosial rolu artdıqca onların strukturunun və əsas elementlərinin öyrənilməsinə ciddi tələbat əmələ gəlmişdir.

Struktur latın sözüdür, hərfi mənası "quruluş" deməkdir. Struktur sistemin təşkilinin ünsürləri arasındakı qarşılıqlı əlaqələri və bu əlaqələrin qanunauyğunluqlarını aşkara çıxarır. Məhz buna görədir ki, son zamanlar dünya kitabxanaşünaslığında "Kitabxana" ayrı-ayrı hissələrdən təşkil olunmuş sistem (bütöv, tam) kimi tədqiq edilir.[1]

Dünay kitabxanaşünasları genetik təhlil metoduna əsaslanaraq belə bir nəticəyə gəlmişdilər ki, kitabxana quruluşca dörd elementdən ibarətdir. Bu elementlərsiz heç bir kitabxananın mövcudluğu və fəaliyyəti mümkün deyildir. Bu elementlər aşağdakılardır:

[1] *Xələfov A. Kitabxanaşünaslığa giriş. B., 2001, s. 266*





1. Sənəd (kitab və digər nəşrlər, o cümlədən elektron vasitələr).
2. Oxucu (istifadəçi).
3. Kitabxanaçı.
4. Maddi-texniki baza.

Kitabxananın əsas elementlərinin müəyyən edilməsində görkəmli Amerika alimi D.X.Şiranın mühüm xidmətləri vardır. O, 1970-ci ildə nəşr etdirdiyi "Kitabxana işinin sosioloji əsasları" adlı əsərində yazır: "Əgər bir kitabxananın modelini üçbucaq formasında təsəvvür etsək, üçbucağın bir tərəfi kitab (sənəd), yaxud ümumiyyətlə, qrafik yazılar*, başqa tərəfi insan, oturaçağı isə kitab (sənəd) qrafik yazı, və insan (kitabxanaçı) olaraq".[1]




kitab və insan

Bu üçbucaqdan görünür ki, kitabxana-kitab (sənəd), insan (oxucu)) və kitabxanaçı elementlərinin birgə fəaliyyəti sayəsində yaranır və fəaliyyət göstərir. Dünya kitabxanaşünaslığının da kitabxanaların strukturu haqqında tədqiqatlar XX əsrin 80-90-cı illərində daha da intensivləşmiş və bir sıra yeni elmi fikirlər irəli sürülmüşdür. Öz elmi əhəmiyyəti, orijinallığı ilə fərqlənən yeni fikir görkəmli rus kitabxanaşünası Y.N.Stolyarovun 1981-ci ildə nəşr etdirdiyi "Библиотека структурно-функциональный подход"[2] əsərində belə bir qənaətə gəlmişdir ki, kitabxananın strukturuna daxil olan elementlərdən biri də "Kitabxananın maddi-texniki bazasıdır". Maddi-texniki baza ol-

* *Müasir şəraitdə elektron vasitələri də buraya əlavə etmək olar*

[1] *Д.Ж.Шира. Социологические основы библиотечного дела. М., 1973, с.7*

[2] *Столяров Ю.Н.. Библиотека структурно-функциональный подход. М.1981*

madan heç bir kitabxana öz işini müvəffəqiyyətlə apara bilməz. O göstərir ki, fondun, oxucunun və kitabxanaçının dialektik birliyi həmişə müəyyən maddi-texniki baza mühitində mövcud olur. Bina, təchizat, mexanizm, texniki vasitələr, kitabxana-informasiya texnologiyası, kompüterlər və s. bərabərhüquqlu elementlər kimi kitabxana elementləri sırasına artıq elə daxil olmuşdur ki, bunu ayırmaq olmaz.

Sistem halında kitabxananın 4 elementli modeli aşağıdakı kimidir.




Bu modeldən göründüyü kimi, kitabxana biri-biri ilə əlaqədar olan, biri-birinə qarşılıqlı təsir edən, biri digəri üçün şərt olan, biri-birindən ayrılmaz dörd elementdən ibarətdir ki, bu da kitabxananın bütövlüyünü təmin edir. Nə sənəd (S), nə oxucu (O), nə kitabxanaçı (K), nə də maddi-texniki baza (MTB) özü - özlüyündə, nə də onların əlaqəsi, biri digərindən ayırldıqda götürüldükdə kitabxananın bütövlüyünü təmin etmir.

Yuxarda kitabxanaların struktur quruluşu haqqında verdiyimiz qısaca məlumatdan aşkar oldu ki, göstərilən elementlərin özlərinin biri-biri ilə daxili üzvü əlaqəsi olmadan kitabxananın struktur bütövlüyü, yəni kitabxananın özü belə bir müəssisə kimi mövcud ola bilməz.

Beləliklə, kommunikasiya vasitəsi olan kitabxananın struktur quruluşu və bilavasitə onun elementləri arasında canlı kommunikasiya sistemi fəaliyyət göstərir. Kitabxananın strukturunda baş verən kommunikasiya prosesi (sənədlə-oxucu, oxucu ilə-kitabxanaçı, sənəd-oxucu və kitabxanaçı ilə maddi-texniki baza ilə əlaqələr) kitabxananın bir sosial institut kimi kitabxananın elm, informasiya, təhsil, tərbiyə funkisiyalarının yerinə yetirilməsi vəzifələri də kommunikasiya sistemindən, bütövlüklə onun, müxtəlif növlərindən, ayrı-ayrılıqda səmərəli istifadə edilməsindən asılıdır. Beləliklə, kommunikasiyasız bütöv struktura malik kitabxana yoxdur.





Kitabxanaların fəaliyyət sahəsi olan kitabxana işi bilavasitə kommunikasiya prosesləri ilə əlaqədar olduğundan kitabxananın bütün fəaliyyəti, xüsusilə oxuculara xidmət işi bu prosesin mühüm tərkib hissəsisir. Kitabxana işi bir fəaliyyət sahəsi kimi elm, informasiya, mədəniyyət, təhsil, tərbiyə sahəsində, həmçinin kitabxana şəbəkələrinin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, kitabxana-informasiya xidmətinin təşkili, kitabxanaların elmi-maddi təminatı sistemlərini tənzimləyən bir proses kimi həmişə kommunikasiya və onun forma və kanalları ilə sıx əlaqədə olmuşdur.

Hələ çox qədim kitabxanalarda kitabxana işi bir fəaliyyət sahəsi kimi formalaşarkən kommunikasiya bu prosesin təminatçısı kimi kitabxana fəaliyyəti sisteminin ayrı-ayrı komponenetlərinin əlaqələndirilməsində, koordinasiya edilməsində, təcrübəmübadiləsində yaxından iştirak etmişdir. Kitabxana kommunikasiya münasibətləri demək olar ki, kitabxana fəaliyyətinin bütün sahələrində, xüsusi ilə oxucu ilə kitabxanaçı arasında, kitabxananın məlumat-axtarış sistemləri ilə oxucu arasında, internet şəbəkəsinə qoşulmuş kitabxana, kitabxanaçı ilə oxucu arasında daha geniş baş verir.

Bu proseslərdə kitabxanaçı ilə oxucu arasında baş verən kommunikasiya növləri içərisində ən çox istifadə edilən ünsiyyət, söhbət və məsləhət formalarıdır. Kitabxanaçı ilə oxucu arasında baş verən ünsiyyət kommunikasiyanın bilavasitə fərdlə üzbəüz aparılan canlı təsiri növü kimi olduqca böyük əhəmiyyət kəsb edir. Ünsiyyət vaxtı oxucu ilə kitabxanaçı arasında baş verən kommunikasiya oxucu haqqında kitabxanaçının geniş məlumat almasını, oxucunun maraq dairəsini, şəxsiyyətini, sənətini, öyrənməsini və oxucu marağının gələcəkdə ödənilməsini müəyyənləşdirmək imkanı verir.

Məlumdur ki, "Maraq" kateqoriyası elmi kateqoriya kimi bir çox elmlərin tədqiqat obyektidir. Kitabxanaşünaslıqda maraq subyektin-oxucunun sənətini, intellektual səviyyəsini, həyat şəraitini, sorğusunu, kitaba münasibətini öyrənmək kimi başa düşülür. Məlumdur ki, kitabxana oxucu münasibətləri həmişə kitabxanaların əsas problemi hesab edilmiş, informasiya cəmiyyəti şəraitində bu münasibətlər daha ciddi xarakter almışdır.

Müasir şəraitdə kommunikasiya sistemləri və kanallarından hərtərəfli istifadə etmədən bu problemi həll etmək olduqca çətindir. Kommunikasiya həmçinin kitabxana-internet-oxucu münsibətlərinin həllində, xüsusilə internetdən istifadə, ən zəruri ədəbiyyatın, sənədin seçilməsi audiovizual və elektron vasitələrdən istifadənin təşkilində mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, yeni informasiya texnologiyası əsasında yaradılan kommunikasiya sistemləri və kanallarından istifadə müasir kitabxananın əsas vəzifəsidir.

### 3.3. Kitabxana fondu ümumbəşəri sərvətin məcmusudur

Beş min ildən artıq tarixi olan kitabxanalar bəşər mədəniyyətinin formalaşmasında həmişə öncül cərgədə olmuş, təhsilin, elmin, mədəniyyətin inkişafına böyük töhfələr vermişdir. Kommunikasiya sistemlərinin əsas həlqələrindən biri kimi kitabxanaların ənənəvi rolu mədəni irsin toplanıb saxlanmasından, qorunmasından və nəsildən-nəsilə ötürülməsindən ibarət olmuşdur.

Kitabxanalar həmçinin cəmiyyətin formalaşmasında və təkmilləşməsində iştirak edən digər mədəni sistemlərin də dəyərlərini ötürə bilər və həqiqətən də bunu etməyə borcludur. Ancaq kitabxanaların tarixi inkişaf prosesində məlum olmuşdur ki, kitabxanalar bilavasitə onların qarşısında duran vəzifələrdən, dəyərlər sistemindən uzaqlaşsa, mədəniyyətdə baş verən dəyişikliklərə cavab verə bilməsə, yeniliklə ayaqlaşmaqdan məhrum olsa, bir də görər ki, sosial məqsədi yoxdur və mədəniyyət onu taleyin hökmünə buraxıb[1]. Belə bir mürəkkəb şərait kitabxanalara öz vəzifələrini daha dərindən düşünməyi, öz işini ciddi elmi əsaslar üzərində qurmağı tələb edir.

Məlumdur ki, kitabxananın strukturunu təşkil edən 4 elementdən biri kitabdır (sənəd). Kitabsız kitabxananı düşünmək mümkün deyildir. Qədim dünyada yaranmış ilk kitabxanalardan başlamış zəmanəmizə qədər kitabxanalar milli, mədəni sərvət kimi qiymətləndirilərkən, həmişə qiymətləndirilmə kriteriyası kitabxanalarda saxlanılan kitablar olmuşdur. Kitab bilik mənbəyidir, bəşəriyyətin tarixi yaddaşıdır, mənəviyyatıdır, elmi kəşfləridir, mədəniyyətidir, texniki nailiyyətidir, xalqların soy kökdür, dilidir, milli mentalitetidir. Əsrlərin arxasından gələn səsidir, ünüdür. Bir sözlə keçmişlə bu günü bağlayan, bu günlə sabahı əlaqələndirən əsas ünsiyyət vasitəsidir. Məhz buna görədir ki, hər bir xalq öz milli varlığının, öz düşüncə tərzinin, öz mənəviyyatının əsası hesab etdiyi kitab mədəniyyətini yüksək qiymətləndirir, kitabı sevir, onun qorunub saxlanması, kitabxanalar yaradılması uğrunda mübarizə aparır.

Kitab hər bir xalqın mədəniyyət göstəricisidir, elmi-mədəni irsidir, əcdadlarının, ata-babalarının, böyük şəxsiyyətlərinin, filosoflarının, mütəfəkkirlərinin, görkəmli şəxsiyyətlərinin, alimlərinin, yaradıcı ziyalılarının ruhudur, onların gələcək nəsilə vəsiyyətidir.

Mən deyərdim ki, xalqımızın fəlsəfi təfəkkürünün, mənəvi ruhunun, əxlaqi kamilliyinin məhsulu olan qiymətli kitablarını "Avesta", "Kitabi-Dədə Qorqud" əsərlərinin, böyük Nizaminin, Füzulinin, M.F.Axundovun, A.Bakıxanovun, N.Nərimonovun, S.Vurğunun, Heydər Əliyevin və b. kitabları, xalqımızın kitab mədəniyyəti xəzinəsi, həmişə xalqımızın qürur mənbəyi olub. İşıq və enerji mənbəyi olan bu kitablar daim xalqımızın mədəniyyətə, tərəqqiyə doğru yönəlmiş inkişaf yolunu işıqlandırmışdır.

---

[1] *Шира Д.Ж.. Введение в библиотековедение. М., 1983, стр. 72*

Beləliklə kitabxanaların inkişaf və təkamül yolu kitab mədəniyyətinin yaranması, formalaşması və təkmilləşməsi yolundan keçmiş, kitab toplamaq, onun kolleksiyasını yaratmaq, onu qoruyub saxlamaq gələcək nəsillərə ötürmək qaydaları meydana gəlib, bəşəri təcrübəyə çevrilmişdir. İlk kitabxanaların kitab toplamaq təcrübəsi kitab fondlarının yaranması üçün örnək olmuşdur.

Fond latın sözü olub, hərifi mənası "alt", "torpaq", "bünövrə", "nüvə" deməkdir. Qədim kitabxanalar kitabsaxlayıcı (biblioteka) adlanırdı. Sonralar kitabxanalar inkişaf etdikcə, kitabxana anlayışı ilə kitab fondu anlayışı biri-birindən kəskin surətdə fərqləndiyi ortaya çıxdı. Kitabxana bir çox komponentləri özündə birləşdirən sosial institutdursa kitabxana fondu onun ayrılmaz tərkib hissəsidir.

Kitabxanaşünaslıqda "fond" termini XX əsrdən işlənməyə başlanmışdır. "Kitabsaxlayıcı" termini uzun illər keçdiyi təkamül prossesində daha anlaşıqlı və elmi bir termin olan "fond" termini ilə əvəz edilmişdir. "Fond" terminin meydana gəlməsi, və yaxın zaman kəsiyində beynəlxalq istilaha çevrilməsi, onun dünya kitabxanaşünaslığında xüsusi anlayış kimi qəbul edilməsinə səbəb oldu. Kitabxana fondu anlayışı kitabxanaşünaslığın mühüm anlayışlarından biri kimi elmi dövriyəyə daxil edilərək tədqiq edilməyə, kitabxana fondunun yaradılması üçün yeni elmi üsulların, ideya və nəzəriyyələrin yaradılmasına gətirib çıxardı.

Kitabxana fondunun formalaşdırılmasının əsas əlamətlərini, xüsusiyyətlərini umumiləşdirən, kitabxana fondu anlayışı, bilavsitə kitabxana-informasiya kütləsinin formalaşması nəzəriyyəsinə əsaslanaraq, olduqca mürəkkəb bir proses olan kitab fondunun formalaşdırılmasının elmi əsaslarını, kitabxana fondunun bütövlüyü, tamlığı prinsiplərini və perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirir.

Kitabxana fondunun formalaşması olduqca mürəkkəb, dinamik, cəmiyyətdə baş verən hadisələrlə əlaqədar, daim yeniləşən və təkmilləşən bir proses olduğundan, onun həmişə diqqət mərkəzində olmasına və bu işin təşkilinə kitabxananın bütün kadr potensialının





cəlb edilməsinə böyük tələbat vardır. Kitabxanaların formalaşdırılması onların qarşısında duran vəzifələrə, kitabxanaların yerləşdiyi ərazinin xüsusiyyətlərinə, iqtisadi inkişaf problemlərinə, oxucu kontingentinin sosial və elmi mədəni tələblərinə uyğun olaraq aparılmalıdır.

Kitabxana fondlarının formalaşmasına kitabxananın fəaliyyət göstərdiyi ərazidə yaşayan görkəmli ziyalıların, alimlərin müəllimlərin, həkimlərin müxtəlif sahələr üzrə mütəxəssislərin və fəal oxucuların cəlb edilməsidə olduqca zəruridir.

Kitab ilk növbədə milli sərvətdir. Milli sərvət olan kitablar, onu yaradan xalqın milli sərvəti olmaqla yanaşı ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm, bütün dünyaya məxsusdur. Mütəfəkkirlərin, yaratmış olduğu elm, mədəniyyət tez bir zaman içərisində bütün bəşəriyyətin malına çevrilir. Bütün elmi nailiyyətləri əks etdirən kitablar ölməzdir. Dünyanın böyük şəxsiyyətlərinin-filosoflarının, alimlərinin, yazıcı və şairlərinin yaratdığı sənət inciləri, bilik mənbəyi, elm və mərifət mənbəyi olan kitablar böyük mütəfəkkirlərin ruhudur. Ruh isə ölməzdir. Min illər bundan əvvəl yaşamış dünyanın dahi şəxsiyyətlərinin ölməz əsərləri bu gündə insanlara onun elminə, təhsil və tərbiyyəsinə, mədəni inkişafına xidmət edir. Bu kitabları dünya mədəniyyətinə bəxş edən, insanların milli mənsubiyyətindən asılı olmayaraq dünyanın bütün millətlərinə, bəşəriyyətə xidmət edir. Deməli, hər şey insanlara qalır. Kitablarda insanlara qalır, insanlığa xidmət edir. Bəşər mədəniyyətinin qoyub getdiyi elmi, ədəbi-bədii fəlsəfi irs bütövlükdə bəşəriyyətə məxsusdur. Ona görə də kitabxana statusuna malik bütün müəssisələr formalaşarkən əsrlərin yadigarı olan əsərlərlə komplektləşməyə xüsusi qayğı ilə yanaşılmalı, bəşəri dəyərə malik olan qiymətli yadigarları kitabxana fondlarında toplanmalıdır.

Beləliklə, yuxarda dediklərimizdən aydın oldu ki, kitabxana fondunun formalaşması prosesi mürəkkəb və daimi diqqət tələb edən bir sistemdir. Bu sistemin yaradılması və idarə edilməsi üçün kitabxana özünün bütün maddi və kadr potensialından məqsədyönlü istifadə

etməli, sistemin qüsursuz işləməsini təmin etməlidir. Kitabxana fondu təkcə kitabdan (sənəddən) ibarət deyildir kitabxana fonduna kitab, jurnal, qəzet, not, kart, izoqrafiya, audiovizual materiallar (diafilmlər, mikrofilmlər, maqnit lentləri, plastinkalar) elektron vasitələr, disklər, elektron kitablar, videokasetlər, telefilmlər, patentlər, disklər və s. daxildir. Kitabxana fondunun yaradılması, sistemləşdirilməsi, təsnifləşdirilməsi, düzülməsi və onun idarə edilməsini təmin edən amillər içərisində, kitabsaxlayıcının yaradılması, onun müasir texniki vasitələrlə təmin edilməsi, avtomatlaşdırılması işi mühüm elmi-texniki əhəmiyyət kəsb edir. Beləliklə, kitabsaxlayıcının qurulması fondun formalaşması üçün şərait yaratmaqla vahid kitabxana fondu yaratmağa, fondun bütövlüyünü təmin etməyə imkan verir. Kitabxana fondunda saxlanılan nəşrlərin tipindən və növündən asılı olaraq böyük kitabxanalarda kitabxana fondunun strukturunda ixtisaslaşdırılmış müxtəlif fondlar: kitab fondu, qəzet fondu, jurnal fondu, əlyazmalar fondu, audiovizual vasitələr fondu, elektron kitablar fondu, nadir kitablar fondu və s. ola bilər.

Fondun tərkibini diqqətlə nəzərdən keçirdikdə, müasir informasiya cəmiyyəti şəraitində zamanın tələbi ilə informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələr və texnoloji tərəqqi nəticəsində, ümumiyyətlə, kitabxana işi quruculuğunda, həmçinin fondların formalaşması prosesində ciddi islahatların baş verdiyi meydana çıxır. Bu islahatların aparılması qaçılmazdır. Çünki yeni zaman, yeni cəmiyyət özü ilə birlikdə yeni texnologiya, texnoloji tərəqqi, ümumiyyətlə, yeni inkişaf gətirir. Əgər kitabxanalar informasiya cəmiyyətinin qarşıda qoyduğu yeni islahatlarla ayaqlaşa bilməsə, öz sosial funksiyalarını yerinə yetirməkdə çətinlik çəkər, sosial institut kimi öz fəaliyyətini dayandıra bilər.

Doğrudur, hələ də cəmiyyətdə bu islahatların normal şəraitdə, dialektik inkişaf baxımından aparılmasına mane olan sağ və sol qüvvələr (kitabxanaçılar və informatiklər) vardır. Bu qüvvələr içərisində mən sağlar adlandırdığım mühafizəkar kitabxanaçılar, ancaq ənənəvi kitabxanaçılıqdan bərk-bərk yapışaraq cəmiyyətin informasiya tələbatının ödənilməsi şəraitində baş verən yenilikləri görmürlər, aparılması zəruri olan islahatlara qarşı çıxmağa çalışırlar, elektron kitabxanaçılıqdan yan keçməyə üstünlük verirlər. Bu isə yeniliyə qarşı çıxmaq, inkişafı görməməkdir.

İkinci qrup sollar isə informatiklərdir. Bunlar isə ultra yeniciliklər, keçmiş təcrübəni qiymətləndirə bilməyən, yeni informasiya texnologiyasına aludə olan insanlardır. Onlar açıq-açığına ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitabxananın struktur quruluşunu dəyişməyə çalışır, kitabxananın bütün iş prosesini elektronlaşdırmağı təklif edirlər. Sola nüfuz edən belə mütəxəssislər də, mən deyərdim ki, sağa meyl göstərənlərdən də təhlükəlidirlər. Onlar dərk etməlidirlər ki, 5 min illik tarixi təcrübəyə malik bəşəriyyətin yaddaşı olan kitabxanaların fəaliyyətinə son qoymaq ideyası heç də müasir cəmiyyət üzvlərinin böyük əksəriyyəti tərəfindən müsbət qarşılanmır.

Məhz buna görədir ki, müasir şəraitdə kitabxanaların işinə yüksək qiymət verən YUNESKO-nun İnformasiya cəmiyyətində kitabxanaların yeri haqqında bəyanatında "Kitabxana informasiya cəmiyyətinin ürəyidir" fikrinin irəli sürülməsi dediklərimizi bir daha təsdiq edir.[1]

Son zamanlar həm respublikamızda, həm də bütün dünyada kitabxana-informasiya xidmətinə, elə ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş elmi konfranslarda, seminarlarda, simpoziumlarda, demək olar ki, bu problemin müzakirəsi gündəlikdən çıxıb, əsas məsələ kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri gündəmə gəlmişdir.[2] Kitabxana işinin bütün strukturunda yeniliklər baş verməyə.

[1] *Басов С.А.. Библиотека в контексте цивилизации и культуры. Библиотековедение.2010, №1, стр. 26*

[2] *Шрайберг. Я.Л. Библиотеки, электронная информация и меняющееся общества в информационном веке. Судак, Москва 2006, стр.9*

islahatlar aparılmağa başlandı[1]. İlk növbədə, kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana işinin kompleksləşdirilməsindən başlamış, kitabların və digər sənədlərin, elektron vasitələrinin kitabxana qaydası ilə işlənməsi, kitabxana-uçot və hesabat işlərinin, həmçinin kitabxana işinin canı olan oxuculara, tələbatçılara, hüquqi və fiziki şəxslərə kitabxana-informasiya xidmətinin informasiyalaşdırılması prosesi geniş meydan almağa, yeni iş üsulu və formaları, metodiki təminat sistemi meydana gəlməyə başladı. Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmaqla, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşdirməklə, kitabxana-informasiya infrastrukturunun inkişafını təmin etməyə başladı. Kitabxana fondlarına fiziki cəhətdən ona məxsus olmayan sənədlər axını başladı. İnternet vasitəsilə elektron resursları ilə işləyən oxucu bunların haradan əldə edilməsini bilmir və heç də maraqlanmır. Bütün bunlar gələcək kitabxana texnologiyasının innovasiyası kimi formalaşır.

Beləliklə, kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi, kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, struktur quruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana - informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, ənənəvi kitabxanaçılıqdan imtina etmədən, yeniliyin keçmiş ənənələrlə inteqrasiyasını yaratmaq, yeni kitabxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır. Amerika filosofu Djorji Santayaka hələ XX əsrin əvvəllərində ənənə məsələlərindən danışarkən demişdir: "Tərəqqinin əsasında baş verən dəyişiliklərdən

[1] *Басов С.А. Библиотека в контексте цивилизации и культуры. Библиотековедение. 2010. №1, стр. 26*





daha çox ənənə durur. Kim ki, keçmişi yadda saxlamağa qadir deyil, onu təkrar etmək məcburiyyətindədir."[1]

Beləliklə, kitabxana fondu – kitabxananın qarşısında duran məqsəd və vəzifələri, sosial funkisiyaları həyata keçirmək, əhaliyə (müxtəlif tip oxuculara) kitabxana-informasiya xidməti göstərmək məqsədi ilə formalaşmış, çap əsərlərinin, müxtəlif növ sənədlərin, elektron daşıyıcıların məqsədyönlü, seçilmiş, sistemləşdirilmiş, qaydaya salınmış, təsnifləşdirilmiş elm, bilik və mərifət xəzinəsidir. Cəmiyyətin inkişafının mühüm amili olan bilik ictimai nemətdir. Elmsiz, biliksiz cəmiyyət tərəqqi və inkişafdan məhrumdur. İctimai nemət olan biliklərin kitabxanalarda toplanması, kitabxanalar vasitəsilə xalqa çatdırılması, kitab fondlarının ən qiymətli xəzinə olmasını bir daha təsdiq edir. Məhz buna görədir ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda "Kitabxana fondu"nun formalaşması məsələlərinə ayrıca fəsil ayrılmışdır. Ölkəmizin kitabxana fondları Azərbaycan Respublikasının Dövlət kitabxana fondu adlandırılmışdır. Qanunda deyilir: "Azərbaycan Respublikasının Dövlət Kitabxana fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir. Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur.... Azərbyacan Respublikası dövlət kitabxana fondu dövlət mülkiyyətidir".[2]

Daha sonra qanunda kitabxana fondlarının təchizi, milli kitabxana və böyük elmi-mədəni əhəmiyyət kəsb edən kitabxanalara pulsuz məcburi nüsxələr verilməsi məsələləri öz geniş həllini tapmışdır.

Həmçinin qanunda kitabxana işi sahəsində dövlət siyasətinin əsas

[1] *Шрайберг Я.Л. Библиотеки, электронная информация, меняющееся общество в информационном веке. Судак, Москва 2006. стр.11*
[2] *Mədəniyyət fəaliyyətinə aid qanunlar toplusu. B., 2003, s.122*

prinsipləri və dövlətin vəzifələri bölməsində böyük uzaqgörənliklə kitabxanaların informasiyalaşdırılması vəzifələri öz əksini tapmışdır. Qanunda deyilir "Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması, milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması".[1]

Yuxarda göstərdiklərimiz bir daha kitabxana fondunun formalaşmasının kitabxana informasiya xidməti binasının bünövrəsi olduğunu və bu prossesin bilavasitə yüksək təhsilli, geniş dünyagörüşlü, təcrübəli kitabxanaçılardan daha çox asılı olduğunu aşkara çıxardı. Kitabxanaçı bilavasitə xidmət etdiyi kitabxananın tipindən və profilindən asılı olaraq, kitabxanının yerləşdiyi ərazinin iqtisadiyyatını, əhalinin məşğuliyyət sahəsini, insanların tələb və sorğusunu, mədəni səviyyəsini dərindən bilməli, kitabxananı formalaşdırarkən kitabxananın yerləşdiyi ərazidə yaşayan ziyalıların, mütəxəssislərin, təhsil işçilərinin köməyindən, tövsiyələrindən istifadə etməlidirlər.

Keçmiş sovet kitabxanaşünaslığında kitabxana fondlarının iki mühüm tərkib hissəsindən ibarət olması göstərilirdi. Bunlardan 1-cisi nüvə, 2-cisi komplektləşmədir. Kitabxana fondlarının formalaşması prosesinə tarixi aspektdən yanaşdıqda məlum olur ki, fondun əsas özəyi olan nüvə bütün dövrlərdə həm bilik mənbəyi olan kitabın qorunub saxlanmasında, həm də kitabxananın bir sosial institut kimi formalaşmasında mühüm əhəmiyyət kəsb etmiş, tarixi təkamül prosesi nəticəsində kitabxana müəssisələrinin bütövlüyünü təmin etmişdir.

Növündən, tipindən, profilindən asılı olmayaraq, milli kitabxanalardan başlamış kütləvi kitabxanalara qədər, bütün kitabxanalarda bəşəriyyətin yaratmış olduğu bütün bilik, elm sahələrinə, incəsənətə və texniki ədəbiyyata dair ən mühüm fundamental əsərlər kitabxanaların nüvə fonduna daxil olmalıdır.

[1] *Mədəniyyət fəaliyyətinə aid qanunlar toplusu. B, 2003, s. 117*





Nüvə-hər bir kitabxana fondunun əsas tərkib hissəsidir. Nüvə kitabxananın ən zəruri, ən unikal tərkib hissəsi olduğundan, burada kitabxananın tipinə və növünə münasib ən qiymətli bəşəri elmi nailiyyətləri əks etdirən təbiət, texniki, humanitar ədəbiyyat və incəsənətə dair biliklərin əsası olan kitablar, sənədlər, elektron vasitələr və s. toplanmalı, qorunub saxlanmalıdır.

Milli, böyük elmi kitabxanalarda fondun nüvə tərkibi üçün, demək olar ki, bütün çap əsərlərinin seçilib toplanması zəruridir. Sahəvi kitabxanalarda isə sahəvi ədəbiyyatın toplanması ön plana çəkilməlidir. Kütləvi kitabxanalarda isə bütün elm, texniki ədəbiyyat, incəsənət əsərlərinin ən yaxşı qiymətlilərinin seçilib toplanması böyük əhəmiyyət kəsb edir.

Kitabxanaların nüvə fondu nə qədər zəngin və əhatəli olsa kitabxananın cəmiyyətdə tutduğu xüsusi elmi-mənəvi çəkisi bir o qədər artıq olar.

Kitabxana fonduna dair mövcud ədəbiyyat fondunun ikinci tərkib hissəsi ikinci seçim adlanır. Muasir şəraitdə kitabxanalarda kitabxana fondlarının formalaşması sahəsində baş verən prosesləri diqqətlə izlədikdə belə bir nəticəyə gəlmək olur ki, bu istilah həm adına, həm də məzmununa görə yerində işlənməmişdir. Əgər fondun iki tərkib hissəsindən birincisi nüvədirsə, onda ikinci tərkib hissəsinin adı nə üçün seçim adlanır. Çünki nüvə özü də seçim nəticəsində formalaşır. Bizcə, kitabxana fondunun ikinci tərkib hissəsinin adı çap məhsulunun və elektron vasitələrin "mükəmməl repertuarı" kimi adlandırıla bilər. Ola bilsin ki, bizim "mükəmməl repertuar" kimi adlandırdığımız istilah o qədər də müvəffəqiyyətli səslənmir. Hal-hazırda bu istilah barədə fikirləşməyin vaxtı çatmışdır. Kitabxana fondunun tərkib hissəsi olan bu iki növün formalaşmasında da fərqli cəhətlər vardır. Əgər "nüvə"nin formalaşmasına bəşəriyyətin yaratmış olduğu ən dəyərli elmi, mədəni, mənəvi sərvətləri, elmi kəşfləri əks etdirən nəşrlər və elektron vasitələr daxil edilərsə, "mükəmməl repertuar" adlandırdığımız ikinci tərkib hissəsinə daha böyük həcmdə, cəmiyyətdə

gedən bütün prosesləri, yeni elmi, mədəni, mənəvi yenilikləri, elmi kəşfləri, innovasiya xarakterli nəşrləri və informasiya daşıyıcıları daxil edilməlidir. Kitabxana fondunun "nüvə" tərkib hissəsi əsasən təcrübəli, yüksək intellekt səviyyəli kitabxana işçiləri, görkəmli alimlər və təcrübəli mütəxəssislər tərəfindən, həmçinin oxucu marağı nəzərə alınaraq formalaşırsa, ikinci tərkib hissəsi bilavasitə oxucuların tələb və sorğuları əsasında formalaşdırılır. Hər iki halda formalaşma prosesi çox mühüm iş hesab edildiyindən, bu prosesin təşkilinə kitabxana olduqca ciddi yanaşmalıdır. Məlumdur ki, oxuculara kitabxana-informasiya xidmətinin təşkili bilavasitə bu işin müvəffəqiyyətlə aparılmasından asılıdır.

Kitabxana fondunun həm "nüvə", həm də "mükəmməl repertuar" növlərinin formalaşmasında oxucu sorğuları və tələbatları mühüm amildir. Oxucu tələbatının öyrənilməsi, elmi ümumiləşdirmələr aparılması, fonda alınacaq çap əsərlərinin və audiovizual materialların, elektron daşıyıcıların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, oxucu tələbatını öyrənmək üçün xüsusi araşdırmalar aparılmalı, nəzəri cəhətdən əsaslandırılmalıdır.

Sahəvi kitabxanalara nisbətən ümumi kütləvi kitabxanalarda ədəbiyyatın seçilməsi prosesi xüsusilə çətindir. Ümumi (kütləvi) kitabxanaların vəzifəsi olduqca qeyri-müəyyən, mürəkkəb və çoxcəhətli olduğundan, kompleklaşmə işini olduqca çətinləşdirir. Buna görə də, ümumi (kütləvi) kitabxanalarda ədəbiyyatın seçilməsində iki istiqamət meydana çıxır. Birinci istiqamət tələbat nəzəriyyəsi istiqamətidir. Ümumi (kütləvi) kitabxanalar dövlət müəssisəsi olduğundan dövlət tərəfindən maliyyələşdirilir. Kitabxana əhalinin tələbatını ödəməyə borcludur. Bunun üçün isə daha keyfiyyətli, az vəsait tələb edən layihələr hazırlanmalı, komplektləşdirilərkən ədəbiyyatın elektron daşıyıcılarının miqdarı və məzmunu müəyyənləşdirilməlidir. Şübhəsiz ki, bu problemin həllində ümumi (kütləvi) kitabxanaların üzərinə daha ciddi məsuliyyət düşür. Tələbat nəzəriyyəsinin yaradılması və bu nəzəriyyənin ayrı-ayrı komponenetlərinin hazırlanması, tələbat





nəzəriyyəsinin mahiyyəti, məzmunu, predmeti və anlayışı haqqında araşdırmalar aparmaq, müasir şəraitə uyğun konsepsiyalar hazırlamaq kitabxanaşünaslığın əsas vəzifəsi olmalıdır. Bu nəzəriyyənin hazırlanması bilavasitə kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsinə əsaslanmalıdır.

Ümumi (kütləvi) kitabxanaların komplektləşməsində ikinci mühüm istiqamət dəyər nəzəriyyəsidir. Dəyər nəzəriyyəsi kitabxanaçının qarşısında daha mühüm vəzifə-kitabxanaların ən yaxşı, qiymətli, yüksək elmi səviyyəli, daha uzun ömürlü kitablarla komplektləşdirmək vəzifəsi qoyur.

Dəyər nəzəriyyəsi istiqaməti kitabxananın maddi bazasına, büdcəsinə, kitab almaq üçün ayrılan vəsaitə əsaslanır.

Kitabxanaçının qarşısında çox ciddi bir sual meydana çıxır: "yaxşı" kitablara, "uzunömürlü" kitablara hansı kitabları aid etmək olar? Kitabxanaçı bu suala cavab vermək üçün yenə də oxucu dairəsinə, mütəxəsislərə güvənməli, onların sorğu və tələbatlarını öyrənib ümumiləşdirmək əsasında dəyər nəzəriyyəsini əsaslandırılmalı, ümumiləşdirmələr əsasında komplektləşdirmənin perspektiv layihəsini hazırlamalıdır.

Kitabxanaçı komplektləşdirmə layihəsini hazırlayarkən öyrəndiyi və əldə etdiyi biliklərə əsaslanmaqla öz fəlsəfi düşüncələri baxımından həll etməlidir. Kitabxanaçı belə bir fəlsəfi konsepsiyanı rəhbər tutmalıdır ki, kitablara məhəbbət yox, həqiqətə məhəbbət ön plana çəkilməlidir: "Çünki biliyin nəticəsi - müdriklikdir müdriklik, isə bütün qarşılıqlı əlaqələri ilə birlikdə həqiqətə yetişmək qabiliyyətidir."[1]

Kitabxanaların komplektləşdirilməsi zamanı istifadə edilən müxtəlif forma və üsullar oxucuların tələbatının ödənilməsi prinsipinə xidmət etməlidir. Məhz bu prinsiplər kitabxana işində baş verən təzahürlərin vəhdətini təmin edir. Bəzi tədqiqatçılar kitabxana fond-

---

[1] *Шира Д.Ж.. Введение в библиотековедение. М., 1983, стр. 78*

larını yaxşı seçilmiş, məntiqi ardıcıllıqla tərtib edilmiş antologiyaya bənzədirlər. Bu və ya digər elm sahəsinə, bədii ədəbiyyata aid tərtib edilmiş antologiyalar da oxucular tərəfindən ona görə böyük maraqla qarşılanırlar ki, bu antologiyalarda oxucu öz axtardığını məhz orada tapmaq imkanı əldə edir. Kitabların təsadüfən bir yerə toplanması hələ kitabxana deyil, bu kitabların cəmidir. Antologiyada olduğu kimi, kitabların məqsədyönlü, seçilməsi, ardıcıllıqla toplanması, cəmiyyətin qarşıda qoyduğu məqsəd və vəzifələrə, oxucuların tələblərinə cavab verə bilməsi zəruridir.

Kitabxana fondu elə seçilib formalaşmalıdır ki, insan biliyinin sistemləşməsinə, biliklərin idarə olunmasına, bilik mənbəyi olan kitablar vasitəsilə insanların mütaliəsinə, tərbiyə, təhsil prosesinə təsir etsin. Görkəmli filosof Frensiz Bekonun ifadəsi ilə desək mütaliə məqsədli cəmiyyət, o isə məqsədli insan yaradır.[1] Böyük filosofun bu kəlamı öz peşəsini sevən hər bir kitabxanaçının həyat devizi olmalıdır.

## 3.4. Kitabxaxna və şəxsiyyət

***Mütaliə-məqsədli cəmiyyət, o isə məqsədli insan yaradır.***

**F.Bekon**

Öz mahiyyəti məqsəd və vəzifələri və sosial funksiyaları baxımından ictimai təşkilat olan kitabxanaların fəaliyyəti bilavasitə şəxsiyyətlə bağlıdır. İnsanın bioloji varlıqdan şəxsiyyətə ucalmaq yolunun çoxsaylı bələdçilərindən biri də kitabxanalardır. Heç şübhəsiz insanın şəxsiyyət kimi yetişməsində zamanın keşməkeşli yollarını qət etmiş bəşəriyyətin yaddaşını qoruyub saxlayan, bilik mənbəyi olan kitabların və kitabxanaların rolu danılmazdır.

[1] *Шира Д. Х.. Введение в библиотековедение. М., 1983. стр.78*





İctimai mühitin, öz yaşayış şəraitinin, təhsili və tərbiyəsinin məhsulu olan şəxsiyyətin formalaşmasında mütaliənin mühüm əhəmiyyəti danılmazdır. Mütaliə insanı kamilləşdirir, intellektual səviyyəsini yüksəldir, bilikli, yüksək elmi və mədəni səviyyəli bir şəxsiyyətə çevirir. Böyük Niazmi demişkən kitab elə bir zəmindir ki, ondan hamı yesə də qurtarmaz. Məhz buna görədir ki, kitabxana və şəxsiyyət probleminin öyrənilməsi hələ lap qədimlərdən kitabxanaşünasların diqqət mərkəzində olmuş bu problem kitabxana işinin əsas və həlledici problemi hesab edilmişdir.

Kitabxana içtimai təşkilat olduğundan o həmişə şəxsiyyətlə əlaqədar olmuş, şəxsiyyətlə kitabxana arasında olduqca yaxın, qırılmaz tellərlə əlaqədar formalaşmışdır. Bu əlaqələr nəticəsində oxucu, qismində kitabxanaya müraciət edən hər bir fərd, şəxsiyyət kimi formalaşmaq imkanı əldə edir. Deməli, şəxsiyyət problemi araşdırılarkən yalnız şəxsiyyətin kitabxanaya münasibəti deyil, həm də kitabxanaların cəmiyyətlə, onun üzvləri ilə qarşılıqlı münasibətləri bir-biri ilə təsir dairələri nəzərdən keçirilməlidir.

Həm kitabxana, həm də şəxsiyyət (oxucu) cəmiyyətinin elementləri olduğundan, sosial sistemdə kitabxananın yerini indiki kimi kitabxanaya müraciət edən oxucunun şəxsiyyət kimi formalaşmasında kitabxananın vəzifələrini müəyyənləşdirmək zərurəti qarşıya çıxır. Kitabxana və şəxsiyyət məsələsinin elmi həlli ona görə zəruridir ki, kitabxana işi bilavasitə oxucuya xidmətlə başlayır.

Cəmiyyətin çoxlu sayda şəxsiyyətlər yaratdığını nəzərə alsaq, müxtəlif oxucu qruplarına fərdi xidmət edən, onların tələb və sorğularını ödəməkdən başlamış, informasiya xidmətinin təşkilinə qədər mühüm bir iş prosesini yerinə yetirən, kitabxanaların böyük fəaliyyəti göz önünə gəlir. Beləliklə də kitabxana-şəxsiyyət-fərd və oxucu münasibətlərinin araşdırılması zərurəti yaranır.

### 3.5. Şəxsiyyət anlayışı

Cəmiyyətin strukturunda mühüm yer tutan insan və şəxsiyyət məsələsi sosialogiya elminin əsas problemlərindən biridir.

Şəxsiyyət insanın şüur və fəaliyyətinin fərdi xüsusiyyətlərində ifadə olunmuş intellektual, sosial-mədəni və əxlaqi-iradi, keyfiyyətlərinin dinamik, nisbi, sabit, bütöv sistemidir.[1] Şəxsiyyət ayrıca, yaradıcı, sosial varlıq olan insandır, bəşər nəslinin ən şərəfli nümayəndəsidir. Fərdin inkişafının nəticəsi kimi formalaşan şəxsiyyət insanın sosial keyfiyyətlərinin tam təcrübəsidir. İnsan və şəxsiyyət sosialogiya ilə yanaşı bir sıra təbiət və cəmiyyət elmləri tərəfindən də öyrənilir. Təbiət elmləri insanı təbiət varlığı kimi, humanitar elmlər ilə sosial varlıq kimi öyrənirlər.[2]

İnsanın öyrənilməsində fəlsəfə, iqtisadiyyat, hüquq, tibb, etika, estetika, mədəniyyətşünaslıq, tarix, antropologiya, pedaqogika, psixologiya, politologiya, kitabxanaşünaslıq və s. elmlərin də yaxından iştirak edir. İnsan-şəxsiyyət problemi çoxşaxəli, geniş xarakterli bir problem olduğundan onun öyrənilməsinə kompleks yanaşma amilləri qaçılmazdır. Bütün əlaqədar elmlərin araşdırılmasının ümumiləşdirilməsi nəticəsində əldə edilən ümumi-nəzəri və praktiki müddəalar şəxsiyyət anlayışının formalaşdırılmasını əsaslandırır. Elmlərin inteqrasiyası və diferensiasiası əsasında formalaşması prosesinə ciddi diqqət yetirirlər. Hər bir insan dünyaya "fərd" kimi gəlir. Fərd ayrıca götürülmüş insandır. İnsan cinsinin təkcə nümayəndəsidir. İnsan nəslinin vahididir, insanın məxsus olan keyfiyyətlərinin daşıyıcısıdır. Sosialogiyada işlənən "fərdiyyət" anlayışı "fərd" anlayışına müvafiq yaradılmışdır. Fərdiyyət anlayışı bir fərdi digər fərddən ayırmaq, onların özünəməxsus xarakterik xüsusiyyətlərini, qabiliyyət və bacarıqlarını, düşüncə tərzini, əks etdirmək üçün işlədilir. Ayrı-ayrı

[1] *Fəlsəfə ensklopedik lüğətı. B., 1997, 139 s.*
[2] *Qalenkova Z., Akulıs M.M., Kuznetsov V.N. Ümumi sosialogiya. B., 2007, 230 s.*





fərdlərdə mövcud olan bu və ya digər xüsusiyyətlər və keyfiyyətlər fizioloji, psixoloji, mədəni, elmi və s. ola bilər.

Beləliklə, ayrılıqda götürülmüş hər bir insan təkraredilməz fərdiyyət ola bilər. İnsanın mahiyyəti ictimai münasibətlərin məcmusu olduğundan fərdin tədricən inkişaf edib şəxsiyyətə çevrilməsi prosesi labüddür. Sosioloqların qeyd etdiyi kimi şəxsiyyət fərdin inkişafının nəticəsidir, insanın sosial keyfiyyətlərinin tam təcəssümüdür.[1]

Görkəmli sosioloq İ.S.Kona görə "İnsan şəxsiyyət olaraq doğulmur, sonradan şəxsiyyətə çevrilir.[2] Sosioloq alim V.A.Yadov şəxsiyyət anlayışına daha əsaslı aydınlıq gətirərək yazır: "Şəxsiyyət-insanın sosial xassələrinin bütövlüyüdür, ictimai inkişafın və fərdin fəal, ünsiyyət" fəaliyyətinin vasitəsi ilə sosial münasibətlər sisteminə daxil olmasının məhsuludur.[3]

Beləliklə, yuxarıda şəxsiyyət anlayışının qısa şərhi əsasında bu məsələyə qismən də olsa aydınlıq gətirdik, ictimai varlıq olan şəxsiyyətin, fərdin inkişafının sosial keyfiyyətləri nəticəsində formalaşdığı aydınlaşdı. Belə ki, ayrılıqda götürülmüş hər bir insan təkraredilməz fərdiyyətdir. Şəxsiyyət isə cəmiyyətin üzvü olan ayrı-ayrı fərdlərin təkammül yolu ilə formalaşması prosesində yaranır. Şəxsiyyətin forma-laşma prosesində demək olar ki, cəmiyyətin bütün sistemi, onun ayrı-ayrı institutları (elm, təhsil, mədəniyyət, incəsənət, din, kitabxana və. s.) bütün tərbiyə sistemləri, ailə, sosial birliklər, cəmiyyətlər və s. yaxından iştirak edirlər. Belə ki, insanın mənəvi həyatı əvvəlcədən proqramlaşdırılmır. Həyata qədəm qoyan hər bir insan özündən əvvəlki nəsillərin təcrübəsini öyrənir və tarixən yaranmış sərvətlərdən istifadə edir.

Şəxsiyyətin formalaşmasında ayrı-ayrı fərdlərin şəxsiyyətə çevrilməsində, cəmiyyətdə fəaliyyət göstərən sosial institutlar və

[1] *Qulenkov Z.T., Akulıs M.M., Kuzentsov V.N. Ümumi sosiologiya. B., 2007, s 139 s.*
[2] *Yenə orada*
[3] *Ядов В.А., Социология: словарь-справочник. М., 1990, стр.2.*

s. içərisində cəmiyyətin hamisi olduğu, mühüm sosial institut kimi geniş və məqsədyönlü fəaliyyət göstərən kitabxanalar da yaxından iştirak edirlər. Cəmiyyətdə əhaliyə xidmət edən bütün kitabxana sistemləri, şəbəkələri, tipləri və növləri şəxsiyyətin formalaşmasına kömək etmək məqsədi ilə qarşılarına qoyduqları vəzifələrə müvafiq, kitabxanalar bütün oxuculara fərqli xidmət edir, onların müxtəlif sorğu və tələbatlarını yerinə yetirmək üçün geniş iş aparırlar. Kitabxanalar müasir informasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələrə müvafiq, ənənəvi kitabxana xidməti ilə yanaşı, yeni informasiya texnologiyasının son nailiyyətlərini kitabxana işinə tətbiq etməklə oxucuların tələbatını tam və hərtərəfli ödəməsinə çalışırlar.

Ölkəmizdə tarixən yaranmış və tədricən inkişaf etmiş, sistem və şəbəkə halında formalaşmış kitabxanalarımızın iki mühüm tipi, müxtəlif formaları və növləri mövcuddur. Bu müxtəlif tiplər və növlər yaradılarkən onların özlərinəməxsus statusu, vəzifələrini müəyyənləşdirən nizamnamələri vardır. Bu nizamnamələrdə kitabxanaların idarə olunması, oxucu kontingenti və oxuculara xidmət işinin təşkili və s. müddəalar öz əksini tapır.

XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində ölkəmizdə kitabxanaların iki mühüm tipi formalaşmışdır: Universal kitabxanalar və xüsusi kitabxanalar. Ölkəmizdə ən böyük şəbəkəyə malik olan, böyük şəbəkəyə zəngin kitab fondlarına geniş xidmət potensialına, maddi-texniki bazaya, kitabxana-informasiya texnologiyasına, geniş oxucu kontingentinə malik olan və dövlət tərəfindən maliyyələşdirilən, dövlətin böyük qayğısı sayəsində inkişaf edən kitabxanalar universal tipli kitbxanalardır.

Universal kitabxanalar müasir informasiya cəmiyyəti şəraitində əhaliyə kitabxana-informasiya xidmətinin təşkilində, cəmiyyətin informasiya tələbatının ödənilməsində, informasiya azadlığının təmin edilməsində yaxından iştirak etməklə, milli dövlətçilik və Azərbaycançılıq ideologiyasının təbliğində mühüm işlər görür və böyük nüfuz qazanırlar. Olduqca fərəhləndirici haldır ki, universal





kitabxanalar uzun illərdən bəridir ki, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafında, xalqımızın ümumi mədəni və intellektual səviyyəsinin yüksəlməsində mühüm xidmətlər göstərməklə, bütün oxucuların, ziyalıların, alim və mütəxəssislərin ən çox müraciət etdiyi və sevdiyi bir məkana çevrilmişdir.

Təqribən XX əsrin 30-cu illərindən formalaşmağa başlamış, əsrin axırlarında tam formalaşmış universal kitabxanalar keçmiş sovetlər birliyi dövründə, həm də müstəqillik illərində respublikamızın ictimai, sosial və mədəni həyatında mühüm rol oynamış respublikamızda iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin inkişafına öz töhvələrini vermişdir. Universal kitabxanalar qarşısında duran vəzifələrə görə iki tipə ayrılırlar: Universal kütləvi (ümumi) kitabxanalar və universal elmi kitabxanalar.

Universal kütləvi kitabxanalar respublikamızda ən böyük şəbəkəyə malikdır: Bu şəbəkəyə həm Mədəniyyət və Turizm Nazirliyinin, həm də digər nazirliklərin və təşkilatların kitabxana şəbəkələri daxildir.

Ölkəmizdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm və həlledici yeri və mövqeyi olan kütləvi kitabxanalar zəngin və universal kitab fonduna və dövlət tərəfindən maliyyələşdirilənən böyük şəbəkəyə malikdir. Müasir dövrdə respublikamızda 11 mindən artıq kitabxana vardır ki, bunun da 9 mindən çoxu kütləvi kitabxanalardır. 50 milyondan artıq kitab fonduna malik olan kütəvi kitabxanalar, təxminən 2 milyondan artıq oxucuya xidmət edir.

Respublikamızın müstəqilliyi şəraitində kütləvi kitabxanalar Respublikamızda dövlət siyasətinin, milli ideologiyanın, ulu öndər Heydər Əliyev tərəfindən əsaslandırılmış Azərbaycançılıq ideologiyasının həyata keçirilməsində yaxından iştirak etməklə, çox mühüm dövlət əhəmiyyətli vəzifələri yerinə yetirirlər.

Bu vəzifələr içərisində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalq kütlələrinin ümumi mədəni və intellektual səviyyəsinin yüksəldilməsi, insanların informasi-

ya təminatının intensiv ödənilməsi, iqtisadiyyatın inkişafına kömək göstərilməsi mühüm yer tutur.

Kütləvi kitabxana kontingentinin bilavasitə geniş xalq kütlələri, yaşlı əhali, gənclər və uşaqlar olduğundan onların tərbiyəsi və sosiallaşdırılması kitabxanaların ən prioritet vəzifələri kimi qarşıda durur. Kütləvi kitabxanalar şəxsiyyətin formalaşmasına, hərtərəfli inkişafına kömək etmək məqsədi ilə mənəvi tərbiyənin bütün sahələrinə dair ədəbiyyat təbliğini ön plana çəkməli, yaşlı əhalinin intellektual səviyyəsinin yüksəldilməsinə, peşələrinin təkmilləşdirilməsinə cəmiyyətin inkişaf prosesi ilə əlaqədar insanların sosiallaşdırılmasına, çalışmalıdır.

Bu məqsədlə şəxsi təhsilin və fasiləsiz təhsilin əsas bazası kimi bütün oxucu qruplarının və regionda yaşayan bütün vətəndaşların, sorğu və tələbatını ödəməyi ön plana çəkməli, fasiləsiz təhsilə, əhalinin sosiallaşmasına kömək etmək üçün geniş təbliğat-təşviqat, informasiya və siyasi, kütləvi işlər aparmalıdır.

Bütün tədbirlər kompleks şəkildə biri-biri ilə əlaqədar, bir-birini tamamlamaq ardıcıllığı ilə həyata keçirilməlidir ki, insanların hərtərəfli ahəngdar inkişafına kömək etsin.

Hazırda respublikamızda universal kütləvi kitabxanalar inzibati tabeçilik baxımından iki şəbəkəyə bölünür:

1. Dövlət kitabxana şəbəkəsi;
2. Ayr-ayrı nazirliklərin, idarə və müəssisələrin, təşkilatların, cəmiyyətlərin kitabxana şəbəkələri.
3. Dövlət kitabxana şəbəkələri bilavasitə dövlət tərəfindən maliyyələşdirilir və ona Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi rəhbərlik edir. Dövlət kitabxana şəbəkəsinə aşağıdakı kitabxanalar daxildir:

1. Mərkəzləşmiş kitabxana sistemləri və onların filalları;
2. Mərkəzi rayon kitabxanaları;
3. Kənd kitabxanaları;
4. Rayon Uşaq kitabxanaları;





5. Şəhər kitabxanaları;
6. Mərkəzi şəhər kitabxanaları,
7. Şəhər Uşaq kitabxanaları.

Ayrı-ayrı nazirliklərin idarə və müəssisələrin, təşkilatların, cəmiyyətlərin və s. universal kütləvi kitabxana şəbəkələrinə:

1. Təhsil Nazirliyinin ümumtəhsil məktəbləri kitabxana şəbəkəsi, məktəb kitabxanaları;
2. Həmkarlar ittifaqı kitabxana şəbəkəsi və s.daxildir.

Universal kütləvi kitabxanalar şəbəkəsi öz məqsəd və vəzifələrinə görə şəxsiyyətin formalaşması proseslərində yaxından iştirak etməli, öz oxucu kontingentinin tərkibini, onların maraq və sorğusunu nəzərə almaqla, kitabxana-informasiya xidmətini təşkil etməli, onun məzmununa və istiqamətinə uyğun fəaliyyət göstərməlidir. Ölkəmizdə kütləvi kitabxanaların prioritet vəzifələrindən biri əhalinin tərbiyəsində və sosiallaşdırılmasında yaxından iştirak etməkdir.

Belə bir məsələni xatırlamaq yerinə düşərdi ki, keçmiş sovetlər birliyində sosiologiya elminin inkişafına diqqət yetirilmirdi. Sosioloji tədqiqatların aparılmasına, sosioloq kadrların hazırlanmasına qadağa qoyulmuşdu. Bəzi hallarda cəmiyyətdə gedən proseslərin öyrənilməsi, ümumiləşdirmələr aparılması, tək partiyalı sistemin tələblərinə uyğun gəlmədiyindən konfliklərin yaranması qaçılmaz olurdu.

Ona görə də, hakim ideologiya cəmiyyətin sosiallaşma prosesini diqqətdən kənarda qoymağa, əksər hallarda isə ona mane olmağa çalışırdı. İdeoloji müəssisələri, o cümlədən kitabxanaları əhalinin kommunist tərbiyəsində dayaq məntəqəsi hesab edən hakim ideologiya kitabxanalarda aparılan tərbiyə işlərinə partiyalı xarakter verməyə çalışırdı. Bu səbəbdən də kitabxanalar xalqın istək və arzularının, tələbat və sorğularının həyata keçirilməsində böyük çətinliklərlə qarşılaşırdı. Kitabxanalar öz fəaliyyətini bilavasitə kommunist tərbiyəsinin təbliğinə yönəldirdi. Əhalinin sosiallaşma prosesi isə tam diqqətdən kənarda qalmışdı.

### 3.6. Sosiallaşma anlayışı

Sosiallaşma anlayışı - sosiologiyada ən mühüm anlayışlardan biridir. Çox təssüf ki, bu anlayış uzun illər sovet alimləri tərəfindən şübhə ilə qarşılaşmış, onu tərbiyə anlayışı ilə əvəz etməyə çalışmışlar. Sovetlər birliyi dağıdıldıqdan yeni müstəqil dövlətlər marksizm - leninizm ideologiyasından imtina etdikdən sonra sosiallaşma anlayışına da aydınlıq gətirilməyə başlandı. "Tərbiyə" anlayışı ilə "Sosiallaşma" anlayışı arasında fərqlər və oxşar cəhətlər ciddi elmi təhlil əsasında onların fərqli cəhətlərinə, məqsəd və vəzifələrinə aydınlıq gətirildi. Sosiologiyada tərbiyə-cəmiyyətdə fəaliyyət göstərən, normativ modellərə uyğun olaraq şəxsiyyətin məqsədyönlü, müntəzəm suratdə formalaşması prosesidir, yəni mühitin bütün amillərinin təsiri altında şəxsiyyətin formalaşmasıdır.[1] Tərbiyə prosesi şəxsiyyətin uzun sürən, məqsədyönlü inkişaf və formalaşması prosesidir. Tərbiyə prosesin məqsədyönlü, əvvəlcədən proqramlaşdırılmış, mürəkkəb, fasiləsiz, kompleks və uzun sürən bir proses kimi səciyyələndirmək olar. Tərbiyə prosesinin mühüm xüsusiyyətlərindən biri də onun ikitərəfli proses olmasıdır. Bu prosesdə iki tərəfə: tərbiyə edən və olunan iştirak edir. Bu iki tərəf arasında qarşılıqlı əlaqə, əks əlaqə nə qədər güclü, nə qədər daxili rabitəli olsa, proses bir o qədər səmərəli və faydalı olar. Bəzən tərbiyəçi və tərbiyə olunan arasında gözə görünməyən əlaqələr, könüldən-könülə yollar yaranır ki, bu da tərbiyənin effektivliyini bir o qədər yüksəldir. Tərbiyəçi və tərbiyə olunan arasında bu mühüm proses o zaman güclü olur ki, tərbiyəçidən ötürülən informasiya bolluğu üstünlük təşkil edir, tərbiyə olunan zəngin informasiya məkanına daxil olur və bu məkanda zənginləşir.

Məlum həqiqətdir ki, insanın inkişafında, onun bir şəxsiyyət kimi yetişməsində, cəmiyyətin fəal, yetgin üzvünə çevrilməsində əxlaq

[1] *Qulenkov Z.T., Akulis M.M, Kuzentsov V.N.. Ümumi sosiologiya. B., 2007, s. 165.*





tərbiyəsinin mühüm əhəmiyyəti vardır. Əxlaq tərbiyəsi insanlara ictimai əxlaqi keyfiyyətlərin şüurlu suratdə, davamlı olaraq tərbiyə edilməsi, yetişdirilməsi prosesidir. Əxlaq tərbiyəsinin əsas vəzifəsi insanlarda əxlaqi şüuru formalaşdırmaq, əxlaqi hissləri tərbiyə və inkişaf etdirmək, əxlaqi davranış bacarıqlarını və vərdişlərini yarat-maqdan ibarətdir. Tərbiyə anlayışı çox böyük, mühüm hərtərəfli anlayış olduğundan onunla həm pedaqoqlar, həm də, sosioloqlar, ziyalılar, bütövlükdə yaşlı nəsil, ailə, məktəb, kütləvi informasiya vasitələri, mədəni-maarif müəssisələri və s. çox yaxından məşğul olurlar. Ümumiyyətlə, tərbiyə prosesində bütün cəmiyyət yaxından iştirak etməlidir.

Cəmiyyətdə şəxsiyyətin formalaşması prosesində daha çox pedaqoqlar və sosioloqlar iştirak edirlər. Tərbiyə tərbiyəçilərin və tərbiyə olunanların başqa sözlə müəllimlərin və şagirdlərin qarşılıqlı surətdə biri-birini zənginləşdirməsi, biri-birinə təsir göstərməsi prosesində baş verir. Buna görə də, "tərbiyə" anlayışından sosioloqlara nisbətən daha çox pedaqoqalr istifadə edirlər, həmçinin belə bir cəhə-tə də diqqət yetirmək lazım gəlir ki, tərbiyə anlayışı xüsusilə əxlaq tərbiyəsi anlayışı özündə bir çox ünsürləri birləşdirdiyindən geniş anlayışdır. Sosioloqlar tərbiyə anlayışı ilə yanaşı olaraq "Sosiallaşma" anlayışına da xüsusi diqqət yetirirlər. Sosioloqlar belə hesab edirlər ki, sosiallaşma nəticəsində hər bir fərd özündən əvvəl yaranmış mədəniyyəti mənimsəyərək müstəqil şəxsiyyət kimi formalaşır. Sosiallaşma cəmiyyətin inkişafı prosesində yaranmış mədəni dəyərləri və mənəvi sərvətləri bir nəsildən başqa nəslə ötürməklə muxtəlif nəsilləri bir-birinə bağlayır.

Sosiallaşma- "Şəxsiyyətin təşəkkülü və inkişafı prosesi olub, fərd tərəfindən özünün bütün həyatı boyunca ona mövcud cəmiyyətdə fəaliyyət göstərməyə imkan verən sosial və digər normaların, mədəni dəyərlərin və davranış nümunələrinin mənimsənilməsindən ibarətdir."[1]

[1] *Qulenkov Z.T., Akulis M.M., Kuzentsov V.N.. Ümumi sosiologiya. B., 2007, s. 166.*

Beləliklə, sosiallaşma insanı, hər bir fərdi cəmiyyətdə gedən proseslərə qovuşmağa, cəmiyyətdə mövcud olan qayda-qanunları, mənəvi dəyərləri mənimsəməyə, kommunikasiya vasitələrindən istifadə etmək bacarığı aşılamaqla, davranış qaydalarını mənimsəməkdə onlara kömək edən ən mühüm anlayışdır.

Cəmiyyətin sosiallaşması cəmiyyətin daha da təkmilləşməsində, azad xoşbəxt cəmiyyətin formalaşdırılmasında, cəmiyyət üzvlərinin yüksək inkişaf etmiş şəxsiyyət kimi yetişməsində əsas amil olduğundan cəmiyyətin yaratmış olduğu bütün sosial institutlar, birliklər, cəmiyyətlər, kütləvi informasiya vasitələri və b. sosiallaşma prosesindən kənarda qalmamalı, bu prosesin gedişində yaxından iştirak etməlidirlər. Cəmiyyətdə tərbiyə və sosiallaşma prosesinin təşkilində bütün sosial institutlar, birliklər, təşkilatlar, kütləvi informasiya vasitələri ilə yanaşı cəmiyyətin hamisi olduğu, sosial institut olan kitabxanaların da öhdəsinə olduqca böyük vəzifələr düşür. Hələ təxminən beş min il bundan əvvəl yaranmış ilk kitabxanalardan başlayaraq, zəmanəmizin nəhəng milli kitabxanalarına qədər kitabxanaların keçdiyi yola nəzər saldıqda məlum olur ki, kitabxanalar həmişə bəşəri, milli sərvət olan kitab fondlarını toplayıb, saxlayıb, nəsildən-nəslə ötürmək, bəşəriyyətin yaddaşını qorumaqla yanaşı, cəmiyyətin tərbiyəsində və sosiallaşmasında, yaxından iştirak etməklə insanlar üçün həmişə mənəvi mühit yaratmışdır. Cəmiyyətdə formalaşan qlobal mühitin tərkib hissəsi, bir parçası olan bu mühit kitabxana mühitidir. Kitabxanalar cəmiyyət üzvlərinin tərbiyə və sosiallaşma prosesində məhz bu mühitin vasitəsi ilə iştirak edirlər. Kitabxana mühitini formalaşdırmaq kitabxananın tipindən və növündən asılı olmayaraq bütün kitabxanaların vəzifəsidir. Oxucu kitabxananın yaşamasıdır. Oxucusuz kitabxana məhvə məhkumdur. Məhz kitabxananın sosial institut kimi formalaşması, sosial funksiyalar yerinə yetirməsi, oxuculara kitabxana xidmətinin təşkili ilə bağlıdır. Kitabxanada oxuculara xidmət, kitabxana mühitinin formalaşması kitabxanalar üçün həyati prosesdir.





Kitabxana mühiti termini kitabxanaşünaslıq elmi ədəbiyyatında az işlədiyindən bu terminə aydınlıq gətirmək yerinə düşərdi. Kitabxana mühiti məfhumunun məzmununa: oxucunun kitabxanalara gəlişindən, kitabxananın abonenti olduğundan, kitabxananın daimi oxucusuna çevrildiyi dövr fəaliyyəti daxildir. Bu mühitin formalaşması olduqca mürəkkəb və uzun müddətli bir prosesdir. Bu mühitə oxucunun kitabxana haqqında, onun fondu haqqında, məlumat-axtarış sistemi haqqında informasiya, kitabxananın işi ilə, kitabxananın qiraət salonu və onun fəaliyyəti haqqında tanışlığı, kitabxananın məlumat fondu, kataloq və kartoteka sistemi, kitabxananın kütləvi işləri: daimi, yeni və dövrü kitab sərgiləri, yeni kitabların təqdimat mərasimləri, yeni kitab-xananın biblioqrafik icmalları, kitab müzakirələri, oxucu konfransları, mühazirələr və s. daxildir. Kitabxana mühitinin yaranmasında oxucuların biri-biri ilə ünsiyyəti və tanışlığı, fikir mübadiləsi də mühüm əhəmiyyət kəsb edir.

Kitabxana mühitinin yaranmasının əsas tərkib hissəsi və aparıcı qüvvəsi olan oxuculara kitabxana xidməti bütün dövrlərdə və zamanlarda kitabxanalarının əsas vəzifəsi olduğundan oxucu problemi həmişə kitabxanaların əsas daimi problemi olmuşdur. Məhz buna görədir ki, oxucu anlayışı son zamanlar kitabxanaşünaslığın əsas tədqiqat obyektinə çevrilmişdir.

### 3.7. Oxucu anlayışı

Oxucu sözü "oxu" sözündən əmələ gəlmişdir. Mənası kitabxanaya yazılmış adam, kitabxana üzvü, kitabxanadan istifadə edən şəxs. Kitabxanaçılıq terminologiyasında isə kitabxana abonentlərindən istifadə etmək hüququ verilən şəxs. Oxucu abonement anlayışı olduqca mürəkkəb və çox şaxəli anlayışdır. Bu anlayışa kitabxananın oxuculara, kitabxana informasiya xidməti göstərmək üçün həyata keçirdiyi bütün fəaliyyət sahəsi daxildir.

Oxucunun kitabxanalara üzv olmasından başlamış, onların maraq dairəsinin, mütaliə marağının öyrənilməsi və istiqamətləndirilməsi, informasiya tələbatının ödənilməsi, kitabxananın axtarış-informasiya sistemi ilə tanış edilməsi, oxucuların internetdən istifadə etməyə hazırlanması, kitabxananın kütləvi işlərinə cəlb edilməsi və s. oxucu anlayışının əsas tərkib hissəsidir. Oxucularla aparılan bütün bu tədbirlər isə kitabxanaların əsas məqsədinə oxucuların tərbiyə edilməsinə və sosiallaşmasına xidmət edir.

Bəşər mədəniyyəti tarixində sosial institut kimi formalaşan kitabxanalar üç sütun üzərində: (kitab, oxucu, kitabxanaçı) bərqərar olmuşdur. Bu sütunlar içərisində ən mühümü qızıl həlqə oxucudur. Oxucu problemi tarixi problem kimi həmişə kitabxanaların əsas problemi, kitabxana işinin məhvəri, səmərəli toxumu kimi daimi diqqət mərkəzində olmuşdur. Məhz buna görədir ki, oxucu probleminin araşdırılması, onların maraq və sorğu dairələrinin öyrənilməsi və təmin olunması, oxucu psixologiyasının, pedaqoqikasının təhlili, oxu mədəniyyətinin formalaşması həmişə kitabxanaşünasların tədqiqat obyekti olmuşdur. Kitabxana işinin inkişaf qanunauyğunluqlarını öyrənən kitabxanaşünaslıq elmi də məhz bu problemin öyrənilməsi yönümündə apardığı sosioloji tədqiqatlar və elmi araşdırmalar kitabxanaşünaslığın humanitar elm kimi formalaşmasına və fundomental elmi statusu almasına ciddi təsir göstərmişdir.

Cəmiyyətin kitaba-biliyə tələbatını ödəmək məqsədi ilə yaranan kitabxanaların ən mühüm vəzifəsi oxuculara kitabxana-informasiya xidmətini təşkil etməkdir. Cəmiyyət tərəfindən sosial institut kimi formalaşan kitabxanalar öz prioritet vəzifəsi olan insanların tərbiyəsində və sosiallaşmasında məhz oxucuların maraq, tələb və sorğularını mütəmadi olaraq ödəməklə iştirak edirlər. Oxuculara xidmət işinin canı, sütunu, həyat mövqeyi kimi qiymətləndirilir. Müasir informasiya cəmiyyəti şəraitində oxucu və onun maraq, sorğu və tələbatlarına kitabxana-informasiya xidmətinin təşkili böyük dövlət əhəmiyyəti kəsb etməyə başlamışdır. Məhz buna görədir ki, müasir şəraitdə oxucu və mütaliə probleminin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Müasir kitabxanaşünaslıq tədqiqatlarında oxucu məfhumu birmənalı qarşılanmır. Bəzi tədqiqatçılar bunu "istifadəçi", bəziləri "tələbatçı" kimi qəbul etməyi məsləhət görürlər. Xüsusilə, informatiklər bu istilahın yeniləşdirilməsini zəruri hesab edirlər. Ola bilsin ki, informasiya xidməti sahəsində oxucu istilahını "tələbatçı" və yaxud "istifadəçi" kimi qiymətləndirməyə əsas vardır. Ancaq kitabxana xidməti sahəsində oxucu istilahının dəyişdirilməsinə o qədər də böyük ehtiyac duyulmur. Kitabxanaların tarixinə nəzər saldıqda və kitabxanaların keçdiyi yolu təhlil etdikdə belə bir həqiqət meydana çıxır ki, oxucu istilahı dünyanın bütün kitabxanaçıları tərəfindən birmənalı qəbul edilmiş və kitabxana xidməti prosesinin məzmununda əhəmiyyətli yer tutmuşdur. Bizcə oxucu, sözü, öz məzmununda kitaba təkcə bir günlük tələbi olan adamı ifadə etmir, əksinə, kitaba daimi ehtiyacı olan, öz professional səviyyəsini və mənəvi zənginliyini həmişə təkmilləşdirən, kitabxananın daimi abonenti olan, kitabxananın ictimai fəaliyyətində ardıcıl iştirak edən, sistemli qaydada biliklərə yiyələnmək istəyən, kitabxana mühiiti yaradan ziyalı şəxslər oxucu tituluna sahib ola bilərlər. Bizcə, təsadüfdən-təsadüfə, ancaq ehtiyacı olan zaman kitabxanaya müraciət edən istifadəçilər oxucu deyillər. Oxucu sözünün özündə bir ziyalılıq duyulmaqdadır. Oxucu dedikdə kitabxanaçılıq aləmində ziyalı, kitabı sevən, qiymətləndirməyi bacaran adam başa düşülür. Hər istifadəçi, hər tələbatçı oxucu səviyyəsinə yüksələ bilmir. Hər informasiya tələbatçısını bizim başa düşdüyümüz mənada "oxucu" hesab etmək olmaz.

Fikrimizi sübut etmək üçün kitabxanaların həyatından bəzi məqamlara diqqət yetirək. Ölkəmizdə ən geniş şəbəkəyə malik kütləvi kitabxanaların oxucuları kimlərdir? Kütləvi kitabxanalar kəndlərdə, rayon mərkəzlərində, şəhərlərdə fəaliyyət göstərirlər. Belə kitabxanalara həm təsadüfi oxucular, yəni müəyyən bir məsələni həll etmək üçün informasiyaya ehtiyacı olan şəxslər, həm də kitabxananın daimi istifadəçiləri gəlirlər. Daimi oxucular kitabxananın fəaliyyəti ilə

ardıcıl bağlı olan, kitabxanaya alınan yeni kitabları izləyən, müəyyən oxucu planına, mütaliə ardıcıllığına, fasiləsiz təhsil istiqamətinə malik olan oxuculardır. Belə oxucular içərisində kənd, rayon ziyalıları, mütəxəssisləri, həkimlər, aqronomlar, müəllimlər, elmi işçilər, dövlət məmurları ilə yanaşı olaraq sadə peşə adamları da vardır. Sadə peşə adamları qrupunda bir çox hallarda ali təhsili olmayan adamlar da çox olur. Bunların içərisində çox yüksək intellektə, hər tərəfli inkişaf etmiş mədəni və elmi səviyyəyə malik olan insanlar vardır ki, bunlar daimi oxuculardır.

Uşaq və məktəb kitabxanalarının oxucu kontingentini nəzərdən keçirək. Məlumdur ki, bütün orta məktəb şagirdləri kitabxanalara getmirlər. Uşaq və məktəb kitabxanaların oxucularının tərkibini diqqətlə təhlil etdikdə belə bir fakt aşkara çıxır ki, bu cür kitabxanalarda iki qrup oxucu vardır: daimi oxucular və təsadüfdən-təsadüfə, vaxtaşırı kitabxanaya gələn oxucular. Daimi oxucular sırasında əsasən məktəblilərin əla və yaxşı oxuyan şagirdləri geniş yer tutur. Vaxtaşırı gələn oxucular içərisində əsasən kafi qiymətlə oxuyan şagirdlər çoxluq təşkil edir. Bu qrup oxucular daimi, ardıcıl marağa malik olmadıqlarından onlara müəyyən informasiya lazım gəldikdə və yaxud müəllim müəyyən bir mövzunu öyrənməyi tələb etdikdə kitabxanaya gəlirlər.

Beləliklə, kütləvi kitabxanaların həm yaşlı, həm də uşaq oxucuları içərisində kitabxanaların daimi oxucuları ardıcıl mütaliəçi oxucu kimi digərlərindən fərqlənirlər.

Elmi və xüsusi kitabxanaların oxucularının əksəriyyətini təsadüfi tələbatçılar yox, ardıcıl mütaliəçilər təşkil edir. Bunlar elmi mərkəzlərdə, elmi tədqiqat institutlarında, ali məktəblərdə fəaliyyət göstərən elmi işçilər, tələbələr və müəllimlərdir. Bu qrup insanlar öz ömürlərini bilavasitə elmi-tədqiqatla bağladıqlarından geniş mütaliə etmək, müqaisələr aparmaq, şəxsi təhsil işini ardıçıl davam etdirmək zərurəti qarşısındadırlar. Ona görə də, bu qəbildən olan insanlar kitabxanaların əsl oxucuları kimi böyük hörmətə malikdirlər. Bu cür





oxucular kitabxana işinin inkişafını izləyən, kitabxana fondlarının komplektləşdirilməsinə daim diqqət və qayğı göstərən, kitabxana işinin təkmilləşməsi qayğısına qalan insanlardır. Onlar cəmiyyətdə kitabxana işinin özünə məxsus yer tutmasına daha çox çalışır, kitabxana işinin təssübkeşi kimi çıxış edirlər.

Məhz göstərdiyimiz dəlillər bir daha təsdiq edir ki, oxucu məfhumunun kitabxananın əsas elementi kimi işlədilməsi daha məqsədəmüvafiq olar.

Kitabxanalar öz qarşısına qoyduqları insanların tərbiyəsi və sosiallaşdırılması vəzifələrini bilavasitə oxuculara kitabxana-informasiya xidmətinin təşkili prosesində həyata keçirirlər. Oxucuların maraq və sorğularının öyrənilib vaxtında ödənilməsi, onların ixtisas sahələrinə cəmiyyətdə baş verən proseslərə, iqtisadiyyat, siyasət, mədəniyyət, ideologiya və s. sahələrdəki yeniliklərə dair müntəzəm olaraq informasiya vermək işini mütəmadi olaraq həyata keçirməlidirlər. Oxucuların maraq və sorğusu bilavasitə mütaliə ilə əlaqədar olduğundan kitabxanalar oxucu mütaliəsinin təşkili, istiqamətləndirilməsi, mütaliə mədəniyyətinin tərbiyəsi işini ön plana çəkməlidir.

### 3.8. Mütaliə anlayışı

*Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar.*

**(Sokrat)**

Mütaliə-yazılı informasiyanın mənimsənilməsi, ardıcıl və davamlı oxu deməkdir. Yazılı informasiya daha etibarlı, sınanmış, dəfələrlə yoxlanmış mötəbər informasiyadır. İnsanlara gərəkli olan belə informasiyanı isə kitablardan, jurnallardan və qəzetlərdən əldə etmək olar. Təkcə kitabları və bədii ədəbiyyatı oxumaqla kifayətlənmək

olmaz, həm də elm, texnika, iqtisadiyyat, sosiologiya, tarix, fəlsəfə, psixologiya filologiya və s. sahələr üzrə çap edilən dövri nəşrlərin də oxunması insana dünyada baş verən proseslər haqqında son elmi məlumatları verməklə, ətraf mühiti, gələcəyi dərk etməyə imkan yaradır və özünü reallaşdırmaq üçün istiqamətləndirir. Kitabxanalar elə bir mühit və şərait yaratmalıdır ki, o, insanları oxumağa, mütaliəyə vadar edə bilsin, kitabı xalqa yaxınlaşdırsın, kitabla xalq arasında yaranmış maneələri dəf etsin, kitabı hər bir Azərbaycan ailəsinin yaxın dostuna, silahdaşına, evinin bəzəyinə çevirsin.

Mütaliə prosesinə-milli qiraətə ictimai təsir göstərən əhəmiyyətli müəssisələrdən biri də kitabxanalardır. Kitabxanalar lap qədim zamanlardan zəmanəmizə qədər insanlarda mütaliə marağının formalaşmasına, milli qiraətin istiqamətləndirilməsinə xidmət etməklə ümumbəşəri xarakter daşımışdır.

Bəşəriyyət qlobal informasiya cəmiyyətinin qurulması mərhələsinə daxil olmuşdur. İndi hər bir ölkənin tərəqqisi, ilk növbədə informasiyanın toplanması, qorunub saxlanması, keyfiyyəti, bütün cəmiyyətdə ümumaçıq olması və cəmiyyət üzvləri tərəfindən mənimsənilmə dərəcəsi ilə müəyyənləşir. İnformasiya cəmiyyətində informasiyanın toplanıb saxlanılmasında, informasiya istehsalatının təşkilində, "İnformasiya hamı üçün" proqramının həyata keçirilməsində, informasiya mədəniyyətinin, mütaliə mədəniyyətinin tərbiyəsində, mü-hüm və aparıcı rol oynayan kitabxanaların problemlərinin həlli ciddi bir məsələ kimi cəmiyyətimizi düşündürməyə bilməz.

Müstəqillik illərində ölkəmizdə kitabxana quruculuğu sahəsində aparılan islahatlara, əldə edilən müvəffəqiyyətlərə baxmayaraq həllinə böyük ehtiyac duyulan bir çox problemlər hələ də qalmaqdadır.

Müasir dövrdə kitabxanalarımızın qarşısında duran ən mühüm problem mütaliə problemidir. Mütaliə təkcə kitabxanaların yox, bütün cəmiyyətin problemidir. Mütaliə edən xalqın intellektual və şüur səviyyəsi daim yüksəlir. Xalqın yüksək şüurlu olması, dövləti daha da gücləndirir. Dövlətin gücü insanların şüurlu olmasındadır desəm,





yerinə düşər. Hazırda kitabxanaların qarşısında əhalinin maarifləndirilməsinə, şüur səviyyəsinin daha da yüksəldilməsinə yönəldilmiş çox mühüm vəzifələr: şəxsiyyətin tərbiyə edilməsində yaxından iştirak etmək, oxucuya xidmət işini, əhalini kitabxana oxucuları sırasına cəlb etmək işini günün tələbləri səviyyəsinə yüksəltmək, mütaliə prosesini istiqamətləndirmək və idarə etmək vəzifələri qoyulmuşdur. Mənəvi intellektual tələbat insan üçün əbədi ehtiyacdır. Təbiət və cəmiyyət haqqında, onun inkişaf qanunları haqqında, lazımi biliklər əldə etmədən cəmiyyətin fəal üzvü olmaq mümkün deyildir. Bu baxımdan öyrənməyin, məlumatlandırılmağın, dövrlə-zamanla ayaqlaşmağın ən mühüm vasitəsi mütaliədir, fasiləsiz təhsildir. Məlumdur ki, insan müxtəlif şəraitdə, evdə, işdə, istirahət müəssisələrində mütaliə edə bilər. Lakin tələbatına müvafiq olaraq hər hansı mövzu və ya problem haqqında mükəmməl elmi məlumat əldə etmək məqsədi daşıyan mütaliə isə yalnız kitabxana şəraitində baş verə bilər. Belə ki, kitabxanaların zəngin kitab fondu, fondun araşdırılması üçün məlumat aparatı, müxtəlif lüğətlərin, ensiklopediyaların və digər məlumat ədəbiyyatının mövcudluğu lazımi texniki vasitələr, eləcə də istənilən zaman mütəxəssis kitabxanaçının köməyindən istifadə etmək imkanı burada mütaliə prosesinin daha effektli və ona sərf edilən vaxtın daha səmərəli olmasına zəmin yaradır. Bu baxımdan informasiya cəmiyyəti şəraitində kitabxanaların qarşısında bütün əhalini kitabxana oxucuları sırasına cəlb etmək kimi çox mühüm vəzifələr durur.

Keçmiş sovetlər birliyi dövründə kitabxanaların qarşı-sında əhalinin maksimum 50 faizinin kitabxana oxucuları sırasına cəlb edilməsi vəzifəsi qoyulurdu. İndiki informasiya cəmiyyəti, biliklər cəmiyyəti şəraitində bu göstərici olduqca azdır. Müasir kitabxanalar çalışmalıdır ki, bütün əhalini kitabxana oxucuları sırasına cəlb etsinlər. İnformasiya cəmiyyətində əhalinin informasiyalaşdırılması, informasiya tələbatının ödənilməsi, bilavasitə ölkənin iqtisadiyyatında, siyasətində, elmində, təhsilində, mədəniyyətində, ideologiyasında mühüm amil olduğundan əhalinin kitabxana-informasiya

təminatı dövlət əhəmiyyətli vəzifədir. O dövrdə oxucular kitabxanaya daha çox informasiya almaq üçün müraciət edirdilərsə indiki oxucular bilik almaq, öz peşə hazırlığını yüksəltmək, iqtisadiyyatı inkişaf etdirmək, əmək məhsuldarlığını artırmaq, innovasiyanın tətbiqində iştirak etmək üçün müraciət edirlər. Müasir oxucuların maraq, sorğu və tələbatları daha konkret, daha məqsədyönlü xarakter daşıdığından, kitabxanalar oxucuların tələbatını təmin etmək üçün ənənəvi üsullarla yanaşı yeni xidmət formaları və üsullarından istifadə etməli, kitabxana-informasiya xidməti sahəsində məqsədyönlü, bilavasitə təcrübəyə xidmət edən islahatlar aparmalıdırlar. Belə islahatların keçirilməsini, həmçinin cəmiyyətdə son zamanlar baş verən mənfi proseslərin aradan qaldırılmasını da tələb edir.

Ölkəmizdə son dövrlərdə mütaliə edən insanların, xüsusilə gənclərin sayının günbəgün azalması, mütaliəni və oxu mədəniyyətini sistemli böhran həddinə gətirib çıxarır. Doğrudur, respublikamızda mütaliə prosesinin səviyyəsini göstərən statistik məlumat olmadığından mütaliədən uzaqlaşan insanların miqdarı haqqında fikir söyləmək çətindir. Mədəniyyət və Turizm Nazirliyi kitabxana şəbəkəsinin hesabatlarına görə, respublikanın yaşlı əhalisinin 50 faizindən çoxu kitabxanaların oxucusudur. Bu oxucuların xeyli hissəsi də kitabxanaların daimi oxucuları olmayan, özlərinə müəyyən səhiyəyə dair informasiya lazım olanda kitabxanaya müraciət edən insanlardır. Beləliklə, kitabxana işinin son dövr fəaliyyətinin təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olar ki, bütün dünyada olduğu kimi respublikamızda da son illərdə mütaliəyə münasibət dəyişmiş, mütaliənin səviyyəsi aşağı düşmüş, oxucuların sayı xeyli azalmışdır. Bu acınacaqlı vəziyyətin uzun müddət davam etməsi millətin faciəsinə çevrilə bilər.

Doğrudur, mütaliəyə marağın azalması bütün dünyanı bürümüş bir meyldir. Bu, olduqca təhlükəli meylin qarşısını almaq üçün bir çox ölkələr xüsusi strateji proqramlar qəbul edib, səmərəli üsullar həyata keçirirlər. Bu taleyüklü problemin həllində kitabxanaların mühüm rol





oynaya biləcəyini nəzərə almaq, kitabxanaların vəziyyətini yaxşılaşdırmaq, onun oxuculara xidmət işini günün tələbləri səviyyəsinə qaldırmaq zərurəti qaçılmazdır.

Məlumdur ki, müasir kitabxana hər şeydən əvvəl möhkəm maddi-texniki bazaya malik olmalı, müasir informasiya texnologiyaları ilə təchiz edilməlidir. Maddi-texniki baza dedikdə ilk növbədə kitabxanaların binası göz önünə gəlir. Çox təssüflə deməliyəm ki, kitabxanalarımızın binasının 90 faizindən artığı müasir tələblərə cavab vermir. Keçmişdən müasir Azərbaycan dövlətinə çox pis bir miras qalıb. Azərbaycanda Sovet hakimiyyəti illərində cəmi 10-a yaxın rayonda nümunəvi kitabxana binası tikilib. Demək olar ki, bütün kitabxanalar mövcud iş şəraitinə uyğunlaşdırılmış köhnə binalarda fəaliyyət göstərir. Respublikamızda maliyyə çətinliyi üzündən müstəqilliyin ilk illərində yeni nümunəvi kitabxana binası tikmək mümkün olmamışdır. Son beşillikdə respublikanın maliyyə imkanlarının artması ilə əlaqədar 14 yeni kitabxana binası tikilmişdir. Dövlətin bu təşəbbüsü müvəffəqiyyətlə davam edir. Ümid etmək olar ki, yaxın gələcəkdə respublikamız digər sahələrdə olduğu kimi müasir dünya standartlarına cavab verən yeni kitabxana binaları ilə də təmin olunacaqdır.

Hazırda respublikamızın kütləvi kitabxanalarının 70 faizindən çoxu bir otaqda yerləşir, oxu zalları yoxdur. Oxu zalı olmayan kitabxanalar oxuculara ancaq abonement vasitəsi ilə xidmət edir ki, bu da oxucuların kitabxanadan uzaqlaşmasına səbəb olur. Məlumat ədəbiyyatı və dövri mətbuat evə verilmədiyindən oxucular kitabxana-informasiya xidməti ilə tam təmin olunmur.

Kitabxanalar oxucuları mütaliə prosesinə cəlb etmək, onlarda mütaliə mədəniyyəti tərbiyə etmək məqsədi ilə vaxtaşırı əhali arasında kitabxana fondu, kitabxananın aldığı yeni kitablar və dövri mətbuat haqqında, kitabxananın iş saatı haqqında öz yerləşdiyi rayonun ərazisində reklam xarakterli informasiyalar verməlidir. Kitabxanalarımızın iş təcrübəsindən məlumdur ki, kitabxanaların oxucular arasında apardığı ictimai-siyasi və kütləvi işlər kitabxananın daimi

oxucularının miqdarının çoxalması ilə bərabər oxucu fəallığının artmasına səbəb olur. Əvvəllər kütləvi kitabxanalar ənənəvi olaraq oxucular arasında böyük maraq doğuran kütləvi tədbirlər: daimi və yeni kitab sərgiləri, kitabxana plakatları, yeni kitabların müzakirələri, oxucu konfransları keçirir, yazıçılar, şairlər, alimlər, kitab naşirləri, hüquq mühafizə orqanlarının işçiləri, dövlət qulluqçuları, hərbi xadimlər və başqa görkəmli adamlarla görüşlər təşkil edirlər. Kitabxanalarımızda böyük canlanma var idi. Hər bir kütləvi tədbir öz arxasınca kitabxanalarımıza onlarla oxucu gətirirdi. Ziyalılarımız çoxsaylı insanlarla ünsiyyət imkanı qazanır, öz yaradıcılıqları, cəmiyyətdə baş verən proseslər haqqında fikirlərini onlarla bölüşə bilirdilər. Belə görüşlər rəsmiyyətdən uzaq olduğundan çox səmimi xarakter daşıyır, insan mənəviyyatına, psixologiyasına müsbət təsir göstərir, insanların əhval-ruhiyyəsini yaxşılaşdırırdı.

Görkəmli pedaqoqların dediyi kimi insanın intellektual həyatında mühüm rol oynayan mütaliənin əsasları məktəbdə qoyulur. Bilik mənbəyi olan kitablara sevgi, məhəbbət də gəncliyimiz olan uşaqlarda məhz məktəb illərində formalaşır. Məktəb illərində oxunan kitab insanın yaddaşında ömürlük qalır. Heç zaman insanı ömür boyu tərk etmir. Kitabı sevən, daim mütaliə edən, şagirdlər həmişə yaşıdlarından yüksək biliyi, mədəniyyəti, intellektual səviyyəsi ilə fərqlənirlər. El arasında belə bir kəlam var: "Uşaqlar bizim gələcəyimizdir". Sual olunur bu gələcəyə erkən yaşda kim təhsil və tərbiyə verməlidir?

Əlbəttə bu şərəfli vəzifə yaşlı nəslin: ataların, anaların, babaların, nənələrin, tərbiyəçilərin, müəllimlərin, kitabxanaçıların bütün ziyalıların öhdəsinə düşür.

Beləliklə də, gələcəyimizi uşaqlar yox, biz, hazırda cəmiyyətin idarə edilməsində iştirak edən, cəmiyyətin aparıcı qüvvəsi olan yaşlı nəsil müəyyənləşdirir. Məhz bu günkü yaşlı nəsil mütaliə etməsə, mütaliənin böyük həyatı əhəmiyyətini başa düşməsə, kitabın gücünə, bütün biliklərin mənbəyi, yüksək insani keyfiyyətlərin, mənəviyyatın daşıyıcısı olmasına inanmasa, özü mütaliə etməsə, mütaliəçi kimi şəxsi nümunə göstərməsə, gənc nəslin tərbiyəsində heç şübhəsiz ki, yaxından iştirak edə bilməyəcək. Beləliklə, mütaliədən uzaqlaşmağa can atan nəsil yetişməyə başlayacaq ki, bu da millətin faciəsi ola bilər. Məhz buna görədir ki, cəmiyyət öz gələcəyini yetişdirməsində mühüm rol oynayan respublikamızın təhsil kitabxana şəbəkəsinin inkişafına və onun işinin məzmununa ciddi fikir verməlidir. Respublikamızda ən böyük kitabxana şəbəkəsi olan nazirliklərdən biri də Təhsil Nazirliyinin kitabxana şəbəkəsidir. Respublikamızda 4 500 məktəb kitabxanası fəaliyyət göstərir. Deməli, minimum 4 500 məktəb kitabxanaçısı vardır. Bu çox böyük ziyalılar ordusu, məktəblilərin mütaliəsinin təşkilində, rəhbərlik edilməsində, mütaliə mədəniyyətinin tərbiyəsində böyük iş görə bilər və görməlidir.

Beləliklə, kitabxana və şəxsiyyət probleminin qısa da olsa öyrənilməsi, şərh və təhlili bir daha təsdiq edir ki, şəxsiyyətin formalaşmasında kitabxanalar ən mühüm sosial təsisatdır, sosial institutdur və bunların fəaliyyətindən insanların tərbiyə və sosiallaşması olduqca çox asılıdır. Kitabxanalar bu problemi həll etmək üçün hər şeydən əvvəl kitabxana və oxucu problemini həll etməli, oxucu anlayışının strukturunu müəyyənləşdirməli, oxucuların maraq dairəsinin öyrənilməsinə dair metodiki işlər, sosioloji tədqiqatlar aparmalıdır. Oxucu anlayışı kitabxanaşünaslıq ədəbiyyatında öz tam həllini tapmamışdır. Doğrudur, həm beynəlxalq, həm də Vətən kitabxanaşünaslığında bu problemə dair bir çox araşdırmalar aparılmış, elmi məqalələr, manoqrafiyalar, dərsliklər və dərs vəsaitləri yazılmışdır. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, bu tədqiqatlar müasir informasiya cəmiyyətinin tələblərinə cavab vermir, oxucu anlayışı öz geniş tədqiqatlarını gözləməkdədir. Oxucu anlayışının strukturunda onun nüvəsi hesab edilən mütaliə amili olduqca az araşdırılan problemlərdəndir. Müasir dünyada mütaliə marağının azalması, cəmiyyəti düşündürən əsas məsələlərdən biridir. Bu baxımdan kitabxanalarla yanaşı olaraq kitabxana-şünasların da qarşısında böyük vəzifələr durur. Kitabxana-şünaslar pedaqogika, psixologiya, sosiolo-

giya və digər elmlərdən fərqli olaraq mütaliənin mahiyyətini, strukturunu, onun insanların maraq, tələb və sorğuları ilə qarşılıqlı əlaqəsini və oxucularda mütaliə marağının tərbiyə edilməsi yollarını dərin elmi təhlil, sosioloji tədqiqatlar əsasında öyrənməli, qabaqcıl təcrübəni ümumiləşdirməklə ciddi elmi tövsiyyələr hazırlamalıdır.

Kitabxanaşünaslıq tədqiqatlarında oxucu və mütaliə probleminin öyrənilməsində oxucuların tipologiyası və təsnifatında mühüm məsələlərdən biridir. Bu problemin həlli kitabxanaçılara, oxuculara xidmət prosesində fərdi yanaşmaq, onların mütaliəsinə rəhbərlik etmək və istiqamətləndirmək, oxucu qruplarını, formalaşdırmaq işində yaxından kömək etməklə oxucuların kitabxanaya cəlb edilməsinə, kitabxanaya gələn oxucuların daimi oxuculara, fəal oxuculara çevrilməsinə də böyük kömək edərdi.

Müasir şəraitdə kitabxana oxucularının statistikasının aparılmasında kitabxanaların yeni ədəbiyyatla təkmilləşmə repertuarının hazırlanmasında, ilkin və əlavə komplekləşmənin perspektiv planlarının tərtibində oxucuların təsnifləşdirilməsinin yekunlarına görə kitabxananın özünün fəaliyyət planının hazırlanmasında böyük və həlledici əhəmiyyət kəsb edir.

Təsnifat-(siniflərə ayırmaq), hər hansı bir elmdə və ya əmək fəaliyyətin müəyyən bir sahəsində daim istifadə edilmək üçün nəzərdə tutulur. Təsnifat predmetlər arasında mühüm oxşarlıq və fərqləri aşkara çıxarmaq, onların əsas əlamətlərinə əsaslanaraq bölgülər aparmaq üçün yaradılır. Təsnifləşdirmə metodunun tipləşdirmə, predmetləşdirmə, sistemləşdirmə və s. kimi müxtəlif növləri kitabxanaçılıq nəzəriyyəsində və praktikasında daha çox tədbiq edilir. Kitabxana işi çoxsahəli, mürəkkəb bir proses olduğundan burada təsnifatsız keçinmək olmaz. Kitabxana işinidə təsnifləşdirməyə böyük ehtiyac hiss edilən sahələrdən biri də oxucuların təsnifatıdır. Son zamanlar kitabxanaşünaslar kitabxanaların tipologiyasında kitabxanaların məqsəd və vəzifə əlamətlərinə üstünlük verirlər. Bu cür təsnifatda digər başqa əlamətlərin də yer tutması istisna edilmir. Kitabxanala-





rın təsnifləşdirilməsi praktikasına əsaslanaraq oxucuların təsnifatında oxucu marağı, tələbatı və sorğusu prinsiplərinə əsaslanamaq faydalı ola bilər. Məlumdur ki, kitabxanaya üzv olmaq istəyən hər bir insan, kitabxanaçı ilə ilk söhbətində öncə öz marağını açıqlayır, hansı elm, bilik və informasiya sahəsinə tələbatı olduğunu bildirir. Bu maraq tələbatı əsasında öz sorğusunu bəyan edir. Əlbəttə oxucu tərəfindən bəyan edilən bu sorğu kitabxana oxucusu olmaq istəyən hər bir insanın heç də təsadüfi, keçici sorğusu deyildir. Bu uzun müddət onun formalaşmış marağının nəticəsidir. Bu maraq onun peşə və ixtisası ilə əlaqədar olduqda daha stabil və davamlı olur.

Maraq- insanın daxili aləminin, təfəkkür və düşüncəsinin ifadəsi kimi meydana çıxan fərdi psixoloji xüsusiyyətidir. Bu elə bir xüsusiyyətdir ki, insanı fəallaşdırır, onun əməli fəaliyyətə istiqamətidir.

Marağın səviyyə və keyfiyyəti insanın ümumi inkişaf səviyyəsi ilə əlaqədardır. Məlumdur ki, hər bir adam cəmiyyətdə, ictimai fəaliyyət göstərir və bu fəaliyyət zamanı da onlarda müxtəlif maraqlar əmələ gəlir. Şəxsiyyətin ümumi inkişafı ilə əlaqədar olaraq bu maraqlar da inkişaf edir.[1]

Oxucu marağının daim müəyyən bir obyektə istiqamətlənməsi, insanın ümumi inkişaf səviyyəsi ilə daha çox əlaqədar olması, oxucuların dünyagörüşünün, məqsəd və arzularının təsiri, mütaliə mədəniyyətinin formalaşmasının əsas amili kimi təzahür edir.

Həmçinin kitabxanaların həm tarixi, həm də müasir təcrübəsindən, kitabxanaların statistik hesabatlarından məlum olur ki, zaman keçdikcə oxucuların maraq dairəsi daha da genişlənir, mükəmməlləşir, stabilləşir və dərinləşir. Bu da bizə oxucuların təsnifləşdirilməsində maraq amilinin daha mühüm əlamət kimi irəli sürülməsinə imkan yaradır.

---

[1] *Rzayev S. Kitabxana xidməti.-B., 2009, 116 s.*

Kitabxanaya müraciət edən oxucuların maraqlarının böyük əksəriyyəti öyrəndikləri, ixtisaslaşdıqları elm sahələri və bir çox hallarda isə əmək fəaliyyəti ilə əlaqədar olduğundan, oxucuları ayrı-ayrı elm sahələri üzrə təsnifləşdirilməsini əsas təsnifat əlaməti kimi irəli sürür. Oxucuların marağına görə elm sahələri üzrə təsnifləşdirilməsi:

1. Təbiət elmləri;
2. Texniki elmlər;
3. Qarışıq maraqlar;
4. Humanitar elmlər;
5. İctimai elmlər;
6. Mədəniyyət, ədəbiyyat və incəsənət.

Bizcə yuxarıda göstərdiyimiz bölgü müasir şəraitdə oxucuların təsnifatına tam cavab vermir. Ancaq yeni daha mükəmməl, oxucuların təsnifatının bütün əlamətlərini əks etdirən təsnifat yaranana qədər kitabxanalar öz statistik hesabatlarında bu təsnifatdan istifadə edə bilərlər.

## 3.9. Kitabxana və uşaq dünyası

***Bütün millətin rifah halı uşaqların tərbiyəsindən asılıdır.***

**C. Lokk** [1]

Uşaq dünyası sirli-sehirli bir aləmdir. Ona görə də, bəşəriyyət yarandığı gündən bu aləmə daxil olmağa, onun sirlərini və sehirlərini açmağa can atır. İnsan amilini öyrənən elmlərin: fəlsəfənin, sosiologiyanın, pedaqogikanın, psixologiyanın və digər humanitar və təbiət elmlərinin nümayəndələri cəmiyyətin gələcəyi olan uşaqların tərbiyə və təhsil prosesinin öyrənilməsinə həsr edilmiş ciddi elmi tədqiqatlar, aparmış tövsiyyələr, proqramlar, istiqamətlər, konsepsiyalar hazırlamışlar. Tarixi inkişaf prossesində təkamül yolu ilə aparılan bu

[1] *Lokk C.- İngilis filosofu, pedaqoqu*





tədqiqatlar öz müsbət nəticələrinin zaman-zaman, yeni nəslin tərbiyə və təhsilində göstərməklə, tərbiyə prossesinin gələcək inkişafında mühüm amil olmuşdur. Bugünkü uşağın dünənkindən daha bilikli, daha səviyyəli, inkişaf etmiş olması, cəmiyyətdə gedən tərbiyə prossesinin müsbət nəticəsidir.

Uşaqların tərbiyəsində demək olar ki, bütün cəmiyyət, onun sosial institutları: ailə, məktəbəqədər uşaq müəssisələri, kütləvi informasiya vasitələri, məktəblər, məktəbdən kənar uşaq müəssisələri, bütün yaradıcı ziyalılar yaxından iştirak edirlər. Ölkəmizdə uşaqların tərbiyə və təhsilində yaxından iştirak edən bütün müəssisələrin və bu müəssisələrin işində iştirak edən bütün insanların, yaradıcı ziyalıların, elm, təhsil, tərbiyə sahəsində çalışan peşəkarların böyük şəbəkəsi yaranmışdır. Biri-biri ilə yaxından əlaqə saxlayan, kompleks tədbirlər həyata keçirən bu şəbəkələrin dövlət tərəfindən tənzimlənməsi, uşaqların təhsil və tərbiyəsinə dövlət qayğısının təzahürüdür.

Təhsilin əsasında məktəbəqədər tərbiyə durur. Məktəbə qədər tərbiyə ailədə və məktəbəqədər uşaq tərbiyə müəssisələrində həyata keçirilir. Məktəbəqədər tərbiyə müəssisələrində: körpələr evi, uşaq bağçası, xüsusi uşaq bağçası və s. daxildir.

Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə işinin məzmununa ümumbəşəri dəyərlər, milli ənənələrimiz, milli ideologiyalarımız, vətənə, xalqa məhəbbət kimi yüksək mənəvi ideallar təşkil edir.

Böyüməkdə olan nəslin tərbiyəsində ailənin rolu olduqca böyükdür. Demək olar ki, uşaqların təlim və tərbiyə prosesinin əsasında birinci növbədə ailə durur. Sosioloqlar ailəni tam sosial orqanizmin hissəsi, cəmiyyətin hüceyrəsi sosial tərbiyəedici kollektiv hesab edirlər.[1] Qan və qohumluq münasibətləri ilə bağlı olan ailə, cəmiyyətin struktur vahidi kimi, bilavasitə cəmiyyət quruculuğuna, onun formalaşmasına, müsbət keyfiyyətlər əldə edilməsinə, şəxsiyyətin tərbiyə edilib yetişdirilməsinə ciddi təsir göstərir.

[1] *Paşayev Ə.X.., Rüstəmov F.A.. Pedaqogika. B., 2002, 439 s.*

Ailə tərbiyəsi uşaqların erkən yaşından, dünyaya göz açdığı andan, başladığına görə olduqca həlledici rola malikdir. Belə ki, ailə uşaqların böyüməsi, uşaqların və yeniyetmələrin sosiallaşdırılması və onların fiziki, əmək və mənəvi, əxlaqi, estetik tərbiyəsinə bilavasitə təsir edir.

Uşaqların ailədə tərbiyəsinin zəruriliyi haqqında görkəmli mütəffəkirlərin və pedaqoqların fikirləri dediklərimizi bir daha təsdiq etdiyindən onlardan bəzilərini nəzərdən keçirək:

- Uşaqların tərbiyəsi ilə onların doğulduğu vaxtdan başlamaq lazımdır. (S.Urməvi)

- Uşaq süddən ayrıldıqdan sonra hələ əxlaq korlanmağa vaxt tapmamış, onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır. (N.Tusi)

- Təzə əkilən tinglərə və ağaclara su vermək nə qədər lazım olarsa, uşaqlara da təlim və tərbiyə kiçiklikdə bir o qədər lazımdır. (M.T.Sidqi)

- İnsanı tərbiyə etməyin müvəffəqiyyəti kiçik yaşından beş yaşınadək müəyyən olunur. (A.S. Makarenko).[1]

Uşaqların ailə tərbiyəsində ailənin bütün yaşlı üzvləri: atalar və analar, nənələr və babalar, böyük yaşlı qardaşlar və bacılar yaxından iştirak etməli, uşaqlara bilik, bacarıq, yüksək mənəviyyat xalqımızın gözəl ənənələrini, əxlaqi keyfiyyətlərini, milli mentalitetimizi aşılamağa səy göstərməli, onlarda sağlam vərdişlər yaratmalıdırlar.

Ailə tərbiyəsi uşaqlarda çətinlikləri və maneələri aradan qaldıra bilən keyfiyyətlər formalaşdırmalı, şəxsiyyətin sosiallaşdırılması prossesini həyata keçirməlidir. Ailənin ən mühüm vəzifəsi uşağını əsl vətənpərvər, vətəndaş öz ailə ənənələrinə sadiq, soy kökünə bağlı insan kimi yetişdirməkdir.

Bütün yuxarıda göstərdiyimiz insani keyfiyyətlərin tərbiyəsində valideynlərə ən yaxın köməkçi bilik mənbəyi olan kitabdır. Kitaba sevgi və məhəbbət uşaqlarda məhz ailədə formalaşır. Dünyanın görkəmli alimləri, pedaqoqları, uşaq yazıçıları belə bir qənaətə gəlmişlər ki, ailədə uşaqların tərbiyəsini mütləq kitablarla, mütaliə ilə əlaqələndirmək lazımdır. Uşaqların tərbiyə prossesinin təhlili göstərir ki, kitabı sevən, mütaliəyə meyl göstərən uşaqlar həmişə öz yaşıdlarından yüksək biliyi, mədəniyyəti, intellektual səviyyəsi, əməksevərliyi, davranışı ilə fərqlənirlər. Görkəmli pedaqoqlar və psixoloqlar belə bir fikri təsdiqləyirlər ki, uşaqlıqda oxunan kitablar insanın ömrü boyu yaddaşından silinmir. Mütaliə prossesində əldə edilmiş bu ilk biliklər uşaqların inkişafına təsir göstərməklə onlrda dünyaya baxışı formalaşdırır, gələcək həyat yolunu işıqlandırır.

Beləliklə də, belə bir fikirlə razılaşmaq lazımdır ki, uşaqlarda kitaba sevgi, mütaliəyə həvəs, mütaliə marağının formalaşmasının əsası, ilk növbədə ailədə qoyulur. Hər bir ailə başçısı, valideyn uşaqların tərbiyəsini başlı-başına buraxmamalı, onlarda kitaba, mütaliəyə maraq yaratmaq üçün uşaq kitabları almalı, uşağın maraq dairəsinə müvafiq kiçik bir kitabxana təşkil etməli, uşaqların yaş səviyyəsinə uyğun kitablardan ucadan oxular keçirilməli, şerlər, hekayələr, nağıllar oxumalı, kitabın ecazkar gücünü onlara göstərməlidir. Əgər bu gün yaşlı nəsil mütaliə etməsə, mütaliənin şəxsiyyət tərbiyəsindəki rolunu qiymətləndirməsə, kitabın gücünə, bütün biliklərin mənbəyi, yüksək insani keyfiyyətlərin, mənəviyyatın daşıyıcısı olmasına inanmazsa, özü mütaliə etməzsə, mütaliəçi kimi ailədə böyüyən uşağına nümunə göstərməzsə, heç şübhəsiz ki, böyüməkdə olan nəslin tərbiyəsində iştirak edə bilməyəcək. Beləliklə də, mütaliədən uzaqlaşmağa can atan nəsil yetişməyə başlayacaq ki, bu da milli faciəyə çevrilə bilər.

Uşaqların ailədə tərbiyə edilməsinə xüsusi önəm verən Ulu öndər Heydər Əliyevin kəlamları ölkəmizin hər bir ailəsi, hər bir valideyni üçün həyat amalı olmalıdır.

Ulu öndər yazır: "Hər bir valideyn üçün onun uşağı, övladı hər şeydən əzizdir. Ancaq uşağı, övladı nə qədər çox istəyirsənsə, onun tərbiyəsi ilə, onun təhsili ilə də bir o qədər məşğul olmalısan. Əgər çox istəmək, sevmək nəticəsində uşaq, gənc uşaqlıq, gənclik

[1] *Abbasov A. Pedaqogika. B., 2010, s. 19.*

çərçivəsindən çıxırsa o, yaxşı təhsil ala bilməz. Ona görə də gərək valideynlər də uşaqlarına tələbkar olsunlar. Müəllimlər də tələbkar olsunlar. Məhz belə halda biz yaxşı gələcək nəsil yetişdirəcəyik."[1]

Respublikamızda uşaqların təlim-tərbiyəsində mühüm yeri olan məktəbəqədər müəssisələr içərisində uşaq bağçalarının xüsusi yeri vardır. Böyük şəbəkəyə, zəngin təcrübəyə malik olan uşaq bağçaları uşaqların ilk ictimai tərbiyə müəssisəsi kimi müasir şəraitdə uşaqların məktəbə hazırlanmasında da böyük təcrübə qazanmışlar. Müstəqillik illərində uşaq bağçalarının pedaqoji fəaliyyəti xeyli geniş-lənmiş, uşaqların tərbiyəsi ilə yanaşı, təlim prossesinə ciddi diqqət yetirilməyə başlamış, uşaqlarda kitaba, mütaliəyə maraq oyatmaq məqsədilə kütləvi tədbirlərin həyata keçirilməsi işi geniş vüsət almışdır. Məhz buna görədir ki, pedaqoqlar uşaq bağçalarında aparılan təlim-tərbiyə işlərini pedaqoji işin ilk pilləsi, məktəbəqədər pedaqogika kimi qiymətləndirirlər.

### 3.9.1 Uşaq bağçaları kitabxanaları

Uşaq bağçaları uşaqların məktəbə qədər təhsil və tərbiyə müəssisələrinin ilk pilləsi kimi, bilavasitə öz işini ümumi təhsil məktəblərinin sinifdənkənar işlərinə müvafiq qurur, uşaqların məktəbə hazırlanması prossesini həyata keçirirlər. Son zamanlar uşaq bağçalarında aparılan tərbiyə və təlim prossesini kitabla, xüsusilə uşaqlar üçün çap edilən şəkilli kitablarla, multimedia vasitəsi ilə əlaqələndirilməsinə daha çox diqqət yetirilir. Uşaqların şəkilli kitabları, müəllimin köməyi ilə oxuması, şəkilə baxıb nəql etməsi, uşaqlar üçün nağılların, kiçik hekayələrin ucadan oxunması, uşaqlara əlifbanın öyrədilməsi, uşaq bağçalarının işinin məzmununda yeni iş üsulu və metodlarının meydana gəlib, formalaşmasına səbəb olmuşdur. Uşaq bağçaları, kitabı və mütaliə mədəniyyətini təbliğ edən ilk pedaqoji müəssisə kimi, daha çox diqqəti cəlb etməyə başlamışdır. Bütün bun-

[1] *Azərbaycan təhsil siyasəti. B., 2005, s. 415-419.*





lar isə uşaq bağçalarında tərbiyə və təlim prossesində istifadə edilən digər vasitələrlə, avadanlıqlarla yanaşı olaraq kiçik kitabxanalar da yaradılmasını ön plana çəkir. Beləliklə də, bağça kitabxanaları təhsil prossesinin mühüm atributlarından biri kimi formalaşır və təhsil kitabxanaları şəbəkəsinin ilk pilləsi kimi fəaliyyət göstərir.

Uşaq bağçaları, həmçinin uşaqlarda mütaliə marağının bünövrəsinin qoyulmasına xidmət edən olduqca əhəmiyyətli pedaqoji bir müəssisə kimi xarakterizə olunur.

Uşaq bağçalarında aparılan təlim-tərbiyə işlərinin içərisində kitabxana işini mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Müasir dövrdəuşaqbağçalarınınişininməzmununtəhlilivəqiymətləndirilməsi göstərir ki, bağça kitabxanalarının təşkili günün zəruri məsələsinə çevrilmişdir. Uşaq bağçalarında təlim-tərbiyə işlərini kitab və kitabxanasız aparmaq çətinlik törədə bilər. Müasir informasiya cəmiyyəti şəraitində bağça kitabxanalarının elektron vasitələrlə, elektron kitablarla milli media vasitələri ilə, müxtəlif filmlərlə təmin etmək zərurətində meydana çıxmışdır. Beləliklə kitabxanalar müasir bağçanın əsas atributlarından biri kimi fəaliyyətini genişləndirməkdədir.

Son illərdə uşaq bağçalarının böyüməkdə olan nəslin təlimtərbiyəsində mühüm müəssisə olduğunu nəzərə alaraq Azərbaycan dövləti onların şəbəkəsini genişləndirmək və maddi-texniki bazasını möhkəmləndirmək, təlim vasitələri ilə təchiz etmək sahəsində əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

Ölkəmizdə son 20 ildə heç bir məktəbə qədər təhsil müəssisəsi tikilmədiyi halda, son iki ildə ilk dəfə olaraq 32 yeni uşaq bağçası tikilib istifadəyə verilmiş, 37 məktəbə qədər təhsil müəssisəsi əsaslı təmir edilmiş, 134 müəssisə müasir avadanlıqla təchiz olunmuşdur. Bakı şəhərində bağçalara cəlb edilən uşaqların sayı 8601 nəfər artmışdır.[1]

[1] *Mərdanov M. Azərbaycan təhsil islahatlarının uğurlu nəticələri 2009-2010-cu illər. B., 2010, s. 10.*

Həmçinin 2010-cu ildə qəbul edilmi. "Azərbaycan Respublikasının Təhsil Qanununa" müvafiq 5 yaşlıların məktəbəqədər təhsilə cəlb etməyin zəruriliyi bağçaların təlim prossesində məsuliyyətini xeyli artırmış, onları təhsil sisteminin ilk pilləsinə çevirmişdir.

Qədim tarixi keçmişə, zəngin mədəniyyətə malik müdrik Azərbaycan xalqı daim böyüməkdə olan nəslin, gənclərin təhsil və tərbiyəsinə böyük qayğı ilə yanaşmışdır.

Ölkəmizdə təhsil həmişə strateji sahə kimi qiymətləndirilmiş və böyük dövlət qayğısı ilə əhatə edilmişdir. Müstəqillik illərində təhsil sisteminin qarşısına olduqca yeni vəzifələr. Dərin və hərtərəfli biliyə, bacarığa, yüksək mədəniyyətə, praktiki hazırlığa, mütərəqqi dünya görüşünə, yüksək intellektual səviyyəyə malik şəxsiyyət formalaşdırması vəzifəsi qoyulmuşdur. Bu mühüm vəzifələrə hər şeydən əvvəl xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən ailəsini, soy kökünü, millətini, dilini sevən və daim uca tutmağı bacaran doğma Azərbaycanımızı dünyanın ən inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə yüksəltməyə qadir olan insan tərbiyə etmək kimi çox böyük amallar daxildir. Məhz buna görədir ki, müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin sükanı arxasında dayanan xalqımızın xilaskarı, ulu öndər H.Əliyevin həyata keçirdiyi dövlət siyasəti içərisində təhsil, məktəb quruculuğu siyasəti, olduqca əhəmiyyətli bir yer tuturdu. Təhsili xalqın gələcəyi hesab edən ulu öndər müstəqillik dövründə zamanın tələbinə uyğun islahatların keçirilməsinə böyük diqqət yetirməklə, təhsil konsepsiyasının yaradılması üçün bir çox dövlət sənədləri imzalanmış, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün maliyyə vəsaitinin artırılmasını ön plana çəkmişdir.

Ölkədə ulu öndərin göstərişləri ilə böyük təhsil islahatları həyata keçirilməyə başlamışdır. Bu islahatlar aparılarkən qloballaşan dünyada təhsil sahəsində formalaşmış bəşəri dəyərlər nəzərə alınmaqla, xalqımızın milli xüsusiyyətləri, soy kökümüzə qayıdışı ulu öndər tərəfindən irəli sürülmüş dövlətçilik və Azərbaycançılıq ideologiyası mühüm yer tuturdu. Azərbaycançılıq ideologiyasının həyata keçirilməsi, gənc nəslin bu mühüm ideologiyaya müvafiq tərbiyə edilməsi məktəblərimizdə aparılan tərbiyə işinin əsas məzmununu təşkil edirdi.





Bu mühüm işdə təhsil sisteminin böyük rolunu qeyd edən Ulu öndər H.Əliyev 1 sentyabr 2001-ci ildə Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışı mərasimində proqram xarakterli çıxışında deyirdi: "Təhsil sistemi Azərbaycan gəncliyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksəktəhsilli etsək, həqiqi yüksəktəhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək müstəqil Azərbaycanın inkişafı, təhsilin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır."[1]

Ulu öndərin çıxışında irəli sürülən, böyük dövlət əhəmiyyətinə malik olan ideyaları və elmi-nəzəri fikirləri həyata keçirmək üçün böyük tədbirlər: Təhsil sisteminin maddi-texniki bazasını möhkəmləndirmək, təhsilə ayrılan maliyyə vəsaitini müntəzəm olaraq artırmaq, təhsilin keyfiyyətini yüksəltmək, dərsliklərin və dərs vəsaitlərinin dövrün, zamanın tələblərinə müvafiq yenidən işləmək, pedaqoji kadrların hazırlanması işini günün tələbləri səviyyəsinə yüksəltmək, tədris prossesinə yeni qabaqcıl iş, forma və üsullarını tətbiq etmək, məktəbi yaddaş məktəbindən ağıl və hiss məktəbinə çevirmək, məktəbi informasiya cəmiyyətinin tələbatına uyğun olaraq informasiyalaşdırmaq, dünya təhsil sisteminin dəyərlərini mənimsəmək, bu dəyərləri Azərbaycan məktəblərinin təcrübəsinə tətbiq etmək üçün bəşəri təhsil sisteminə inteqrasiya etmək kimi olduqca mütərəqqi islahatlar keçirmək lazım gəlirdi.

XXI yüz illik ağlın, intellektin təntənəsi əsridir. Müstəqillik yolunda iri addımlarla irəliləyən respublikamızın milli mənafeyi

[1] *Əliyev H. Təhsil, Bilik, Məktəb. B., 2006, 282 s.*

Azərbaycan məktəbinin, ilk növbədə ağıl və intellekt məktəbi kimi formalaşmasını, məktəb üçün ən mühüm vəzifə olan şəxsiyyət tərbiyə etmək problemini həll etmək, ön plana çəkilməyi tələb edirdi.

Bu mühüm vəzifələri həyata keçirmək üçün dövlətimiz son illərdə təhsilin inkişaf etdirilməsi üçün olduqca böyük miqyaslı tədbirlər həyata keçirməyə müvəffəq oldu. Respublikamızda əldə edilmiş bu nailiyyətlər son yüz illikdə əlldə edilmiş nailiyyətlərə bərabər nailiyyətlər idi

Bu nailiyyətlərin əldə edilməsində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin təhsil sahəsində apardığı uzaqgörən siyasəti birmənalı şəkildə Ulu öndər H.Əliyevin dövlətçilik ideyalarına sadiqliyinin parlaq təzahürü idi. Prezidentin "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik." kimi nəzəri müddəaları ölkəmizdə təhsilin inkişafına, yüksək şəxsiyyət yetişdirilməsinə, insan kapitalının formalaşmasına ciddi qayğısının nəticəsi idi. Bu sahədə məktəbin roluna böyük əhəmiyyət verən Azərbaycan dövlətində öncə təhsil sisteminin maliyyələşdirilməsinə ayrılan vəsaitin dəfələrlə artırılması və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ciddi addımlar atıldı. 2010-cu ildə təhsilə ayrılan büdcə 6 dəfədən çox artırılaraq 1.2 milyarda çatdırılmışdır.[1]

2009-cu ildə 68, 2010-u ildə isə 17434 yerlik, 49 yeni məktəb binası, 10 məktəb üçün 1418 yerlik əlavə korpuslar tikilib. Həmçinin 400-ə yaxın məktəb əsaslı təmir olunub. Məktəblərin avadanlıqla, laboratoriya ləvazimatı ilə təmin edilməsi üçün ayrılan vəsait bir neçə dəfə artırılmışdır.

Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində Heydər Əliyev fondunun xidmətləri təqdirə layiqdir. Fondun təşəbbüsü ilə 300-ə yaxın yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi tikilmiş və ən yeni avadanlıqla təmin edilmişdir.

*[1] Mərdanov M. Azərbaycan təhsil islahatlarının uğurlu nəticələri 2009-2010-cu illər. B.,2010, s. 11.*





Müstəqillik illərində Azərbaycan təhsil sisteminin əldə etdiyi ən böyük nailiyyətlərdən biri orta ümumtəhsil məktəbləri üçün dərsliklərin hazırlanması, nəşri və pulsuz olaraq şagirdlərə verilməsi hesab edilməlidir. Böyük miqdarda maliyyə vəsaiti hesabına reallaşan bu çox mühüm iş dövlətimizin böyük qayğısı hesabına başa gəlmişdir. Həmçinin müstəqillik şəraitində milli ideyalogiyamızın, Azərbaycançılıq ideologiyasına, soy-kökümüzə, tariximizə, milli-mənəvi dəyərlərimizə, dünya elminin texnikasının və texnoloji prosseslərin, demokratik prinsiplərin son nailiyyətlərinə söykənərək dərsliklərin hazırlanması Azərbaycan alimlərinin, müəllimlərinin, ziyalılarının böyük uğurları kimi qiymətləndirilməlidir.

Təkcə 2010-11-ci tədris ili üçün 127 adda 4.6 milyon nüsxə dərslik və müəllimlər üçün metodik vəsaitin çap edilməsi və 400 adda yeniləşmiş dərsliklərin şagirdlərin istifadəsində olması dediklərimizə əyani sübutdur.[1] Beləliklə, müstəqillik illərində Azərbaycan təhsilinin əldə etdiyi mühüm nailiyyətlər, dövlət tərəfindən böyük islahatların keçirilməsi, Azərbaycan təhsil sistemini dünyanın qabaqcıl təhsil sisteminə inteqrasiyası, ağlın və intellektin təntənəsi əsri olan XXI yüzillikdə yüksək intellekt səviyyəli şəxsiyyət tərbiyə edib, yetişdirilməsi və təhsilin gələcək inkişafı üçün böyük perspektivlər açılmışdır.

Azərbaycan məktəbinin qarşısında informasiya-bilik cəmiyyətinin əsas vəzifəsi informasiyanın möhkəm, əsaslı biliklərə çevrilməsi prossesini təmin etmək, məktəb üçün ən mühüm problem olan insan amili, uşaq-şagird problemini ön plana çəkmək, cəmiyyətimiz üçün yüksək intellektual səviyyəli, vətənə, Azərbaycan dövlətçiliyinə sadiq olan yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvər,

*[1] Mərdanov M. Azərbaycan təhsil islahatlarının uğurlu nəticələri 2009-2010-cu illər. B., 2010, s. 12.*

Azərbaycançılıq ideyasına yiyələnmiş, şəxsiyyət yetişdirmək vəzifəsi qoyulmuşdur. Bu böyük çoxşaxəli vəzifələrin yerinə yetirilməsində, bütövlükdə cəmiyyət, bütün məktəbəqədər təhsil müəssisələri və məktəbdən kənar tərbiyə və mədəniyyət müəssisələri, müxtəlif birliklər və təşkilatlar yaxından iştirak etməlidir. Bütün göstərdiyimiz müəssisələrin və təşkilatların, bütövlükdə cəmiyyətin birgə səyi nəticəsində həyata keçirdikləri kompleks təlim-tərbiyə və mədəni tədbirlər nəticəsində bu möhtəşəm vəzifənin həlli mümkün ola bilər. Respublikamızda məktəbdənkənar müəssisələrin böyük şəbəkəsi yaranmışdır. Məktəbdənkənar müəssisələrin əsas vəzifəsi məktəblərin təlim-tədris və tərbiyə proqramlarına müvafiq öz işini qurmalı, məktəblərə insan amilinin formalaşmasında, şagirdlərdə müsbət keyfiyyətlərin inkişaf etdirilməsində, məktəbdə aldıqları biliklərin, vərdişlərin daha da möhkəmləndirilməsində kitaba, mütaliəyə maraq tərbiyə edilməsində, onların elmi biliyə maraq dairəsini genişləndirilməsində, vətənin ləyaqətli şəxsiyyəti, vətənpərvər övladı kimi böyüməsinə kömək etməkdir. Məktəbdən kənar müəssisələrə uşaqlar və yeniyetmələrlə onların asudə vaxtlarında təlim tərbiyə işi aparan dövlət və ictimai müəssisələr daxildir. Məktəbdən kənar müəssisələrin hazırda 2 növü: ümumi və xüsusi növləri fəaliyyət göstərir.

Uşaq yaradıcılıq mərkəzləri, sarayları və uşaq parkları, uşaq kitabxanaları, gənc turistlər stansiyaları, gənc texniklər stansiyaları, gənc təbiətçilər stansiyaları, uşaq kinoteatrları, uşaq teatrları, uşaq-gənclər yaradıcılıq klubları, uşaq filarmoniyası, uşaq-gənclər idman məktəbləri, məktəbdən kənar iş mərkəzləri və s. xüsusi müəssisələr qrupuna daxildir.

Məktəbdənkənar: həm ümumi həm də xüsusi müəssisələrin işinin məzmunu ilə apardıqları işin forma və növləri ilə tanış olduqda belə bir mühüm cəhət diqqəti cəlb edir ki, belə müəssisələr bilavasitə öz işlərini məktəbin təhsil və tərbiyə işi ilə əlaqədar qurur, məktəbin tədris proqramının daha da təkmilləşməsinə, keyfiyyətcə yaxşılaşmasına, şagirdlərin dünya görüşünün formalaşmasına, mədəni





səviyyəsinin yüksəldilməsinə, cəmiyyət üçün hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi yetişməsinə xidmət edirlər. Müasir şəraitdə qarşıya çıxan əsas vəzifə məktəbdən kənar müəssisələrlə məktəbin əlaqəsinin daha da möhkəmləndirilməsi onların işinin əlaqələndirilməsi və birləşdirilməsidir.

Məktəbdənkənar müəssisələrin işinin geniş tədqiqi və təhlili bizim araşdırmamızın mövzusu olmadığından, onların işi ilə qısa tanışlıq bizə belə bir fikir söyləməyə imkan verir ki: məktəbdənkənar müəssisələrin işinin təşkili bu müəssisələrdə uşaqlarla, şagirdlərlə yeniyetmələrlə iş aparılması kitabla, mütaliə ilə daha çox bağlıdır. Şagirdlər öyrəndikləri bilik sahələrinə, yiyələndikləri peşələrə, maraqlandıqları texniki vasitələrə, texnologiyaya dair kitablar tələb edirlər. Bütün bunlar isə məktəbdənkənar müəssisələrin rəhbərləri qarşısında müasir elm, bilik və peşə sahələrini əhatə edən zəngin kitab fonduna malik təhsil kitabxanaları yaratmaq vəzifələri qoyur.

Təəssüflə qeyd etmək lazımdır ki, bu vəzifələri yerinə yetirmək məktəbdənkənar müəssisələrin imkanı xaricindədir.

Müasir tələbləri yerinə yetirmək üçün onların nə maddi-texniki bazaları nə də maliyyə imkanları vardır.

Respublikamızda uşaqlara kitabxana xidməti əsasən iki nazirlik: Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi kitabxana şəbəkələri tərəfindən yerinə yetirilir.

### 3.9.2. Məktəb kitabxanaları

Respublikamızda ən böyük kitabxana şəbəkəsinə malik olan Təhsil Nazirliyinin 4500-dən artıq ümumtəhsil məktəb kitabxanaları vardır. Demək olar ki, respublikamızda mövcud olan bütün məktəblərdə kitabxanalar fəaliyyət göstərir. Bəşər təhsil tarixinə nəzər saldıqda belə bir maraqlı fikir aşkara çıxır ki, elə ilk kitabxanalar da, məktəblərdə yaranmış, kitabxanaların əcdadı da məktəb kitabxanalarıdır.

Görkəmli amerika tarixçisi, şumerşünas alim Samuel Kramer özünün məşhur: "Tarix Şumerdən başlanır" əsərində göstərir ki, qədim dünyanın ilk məktəbi olan Şumer məktəbi b.e ə 3-cü minilliyin ortalarında mixi yazının meydana gəlməsi nəticəsində yaranmışdır. Mixi yazının kəşfi və onun təkmilləşdirilməsi isə Şumerin bəşər tarixinə ən önəmli töhfəsi oldu." [1]

Qədim Şərqdə qazıntılar aparılarkən ilk gil kitabələr Şumerin ən böyük şəhəri olan Urukum xarabalıqlarından tapılmışdır.

Şumerdə ilk məktəblər (eddubalar)[2] mirzələrin (savadlı, yazıb oxumağı bacaran, kitab üzü köçürən, məktəbdə uşaqlara dərs deyən adamlar mirzə adlanırdı) ailələrində sonralardan isə məbəd, saray və kitabələr evində yaranırdı. Zaman keçdikcə kitabələr evi tarixi təkamül prossesində, kompleks bilik mərkəzi olan bilik evlərinə yəni məktəblərə çevrilirdilər. Bunların yanında lövhəciklər saxlanan yer-lövhəciklər evi (kitabxanalar) olurdu. Bəşər mədəniyyətinin ilk mərkəzləri olan bu kitabxanalarda mirzələr tərəfindən kitablar yazılır, üzü köçrülür, şagirdlərə öyrədilirdi. Şumer şəhəri Şurapakda aparılan qazıntılar zamanı həmin dövrə aid çoxlu məktəb mətnləri əldə edilmişdi. Bu mətnləri də ilk dərs vəsaiti hesab etmək olar.[3]

Yuxarıda göstərdiyimiz kiçik faktlardan məlum olur ki, ilk məktəb 5 min il bundan əvvəl yaranmışdır. İlk məktəblər yaranarkən onların ayrılmaz tərkib hissəsi olan kitabxanalar da onlarla birlikdə meydana gəlmiş, məktəbin bir nömrəli laboratoriyası kimi təhsil prossesində iştirak etmiş, məktəbin əsas atributlarından birinə çevrilmişdir.

Azərbaycan məktəb tarixinə ötəri olsa da nəzər saldıqda belə bir olduqca qiymətli məlumat ortaya çıxır ki, ta qədim zamanlardan başlayaraq zəmanəmizə qədər Azərbaycanın həm dünyəvi, həm də dini

---

[1] *Rüstəmov F. Şərqdə pedaqogika tarixi. B., 2002, s. 11.*
[2] *Şumer dilində məktəblər adduba adlanırdı.*
[3] *Rüstəmov F. Şərqdə pedaqogika tarixi. B., 2002, s. 11.*





məktəblərində məktəb kitabxanalarının yaradılması tədris prossesinin əsas amili kimi qiymətləndirilmişdir və bütün məktəblərin yanında kitabxanalar fəaliyyət göstərmişdir.

Məktəblərin və məktəb kitabxanalarının tarixi haqqında verdiyimiz bu qısa məlumat bir daha tarixən məktəb kitabxanalarının təhsil sisteminin formalaşmasında, tədris prossesinin təkmilləşməsində və keyfiyyətinin yüksəldilməsində böyük əhəmiyyət kəsb etdiyini və informasiya cəmiyyəti şəraitində onların işinin daha da yaxşılaşdırılmasını və şəbəkəsinin genişləndirilməsinə böyük ehtiyac olduğunu zəruri edir.

Məhz buna görədir ki, müstəqillik illərində Azərbaycan dövləti, təhsil sisteminin mühüm tərkib hissəsi olan məktəb kitabxanalarının inkişafına xüsusi qayğı ilə yanaşmış, məktəb kitabxanalarının inkişaf etdirilməsi üçün bir sıra proqram xarakterli sənədlər qəbul edilmişdir.

Məktəbin struktur quruluşunun əsas atributlarından biri olan və onun bir nömrəli laboratoriyası hesab edilən məktəb kitabxanaları, məktəbin təlim tərbiyə işində, tədris prossesinin keyfiyyətinin yüksəlməsində, intellektual səviyyəli şəxsiyyətlər tərbiyə edilməsində yaxından iştirak edən şagird və müəllimlərin informasiya tələbatını ödəyən mühüm mədəni-maarif müəssisəsidir.

Azərbaycanın pedaqoji ictimaiyyəti, xalq müəllimləri, məktəb kitabxanaları haqqında onların təhsil sistemində rolu haqqında çox qiymətli nəzəri fikirlər irəli sürülmüş məktəb kitabxanalarını məktəbin tərkib hissəsi kimi qiymətləndirmişlər. Bu baxımdan, 1927-ci ildə "Maarif işçisi" jurnalında nəşr edilmiş "məktəb və kitabxana" adlı məqalə böyük maraq doğurur. Məqalədə deyilir: "Məktəb və kitabxana bu iki maarif müəssisələrinin, daha doğrusu bu iki maarif mənbələrinin hər ikisi bir gözlə də görülməlidir." Kitabxana məktəb xaricindəki maarif işinin ibtidası və nəhayəti zənn olunur. Maarif işi bir binaya təşbiə edilərsə, məktəb onun bünövrəsi, məktəb xaricindəki təhsil divarı, gəndi başına təhsil şəqfi yerini

alır. Bu binanın hər bir qismini bir-birinə möhkəmləndirən sement isə kitabdan ibarətdir."[1]

Kitab və kitabxana haqqında deyilmiş bu qiymətli fikirlər təhsil prossesində məktəb kitabxanalarının rolunu bir daha təsdiq edir.

Müassir informasiya cəmiyyəti şəraitində məktəblər, məktəbdənkənar müəssisələrin köməyi və iştirakı olmadan öz vəzifələrini yerinə yetirməkdə böyük çətinliklərlə üzləşə bilərlər. Belə müəssisələr içərisində məktəb kitabxanalarının işi olduqca böyük əhəmiyyət kəsb edir. Kitabsız, dərsliksiz təhsil olmadığı kimi kitabxanasız məktəbi də düşünmək qeyri mümkündür. Kitabxanalar məktəb təhsili prossesinin elə bir həlqəsidir ki, bu həlqənin olmaması və yaxud qırılması bütün prossesin pozulmasına səbəb ola bilir.

Məhz buna görədir ki, respublikamızda milli mentalitetimizə, Azərbaycan təhsilinin keçmiş ənənələrinə, qloballaşan dünyanın müasir inkişaf meyllərinə söykənərək, keçirilən təhsil islahatlarında məktəb kitabxanalarının məqsəd və vəzifələrinə, statusuna, təhsil prossesində onların böyük rol və əhəmiyyətinə geniş yer verilməsi, kitabxana işinin diqqətdə saxlanılması təqdirə layiqdir.

Respublikamızda ümumtəhsil məktəblərində dövlət tərəfindən maliyyələşdirilən məktəb kitabxana şəbəkəsi fəaliyyət göstərir. Məktəb kitabxanaları tədris müəssisəsinin üzvü tərkib hissəsi kimi əsasən məktəb şagirdlərinə və müəllimlərinə xidmət etməklə, məktəbin təlim-tərbiyə, tədris və ictimai həyatında yaxından iştirak edirlər. Məktəb kitabxanaları öz işini məktəbin proqram təminatını müvafiq qurur, məktəbdə tədris edilən fənnlərə uyğun fondunu formalaşdırır, oxuculara fərqli xidmət etmək üçün kitabxana informasiya xidməti təşkil edir. Məktəbin qarşısında duran vəzifələrə xidmət işinin səmərəli təşkili məktəb kitabxanasının dövrün, zamanın tələblərinə və oxucuların maraq və sorğularına cavab verə bilən, kitabxana fondu

---

[1] *Maarif işçisi jurnalı, 1927, №2.*





formalaşdırmaq, kitabxana fondunu ən qiymətli kitablarla, məlumat nəşrləri ilə, dövrü mətbuatla zənginləşdirməyi tələb edir.

Məktəb kitabxanaları məktəbdə tətbiq edilən mövcud tədris proqramlarının tələbərinə uyğun olaraq fondunu universal, sahəvi, elmi, bədii və uşaq ədəbiyyatı ilə təmin etməlidirlər. Məktəb kitabxanaları formalaşdırılarkən ilk növbədə: dərsliklərin, dərs vəsaitlərinin, tədris metodiki ədəbiyyatın, elmi-pedaqoji ədəbiyyatın, elmi-kütləvi, fantastik ədəbiyyatın, universal xarakterli məlumat kitablarını ön plana çəkmək zəruridir.

Məktəb kitabxanaları həmçinin məktəbin şagird və müəllim kollektivinin miqdarına müvafiq, məktəbin maliyyə imkanları nəzərə alınaraq dövrü nəşrlərin, qəzet və jurnalların əldə edilməsinə də diqqət yetirməlidir.

Məktəb kitabxanaları məktəbdə yeganə kitabxana-informasiya xidmətini həyata keçirən, şagirdlərlə yanaşı olaraq müəllimlərə də xidmət etdiyindən fondun formalaşmasında, fondun nüvə hissəsinin komplektləşdirilməsinə xüsusi diqqət yetirməli, ədəbiyyat seçimində kitabxana şurasının üzvlərinin və müəllim kollektivinin tövsiyyəsindən istifadə edilməlidir. Müasir informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə müvafiq məktəb kitabxanalarının informasiyalaşdırılması ön plana çəkilməlidir. İnformasiyalaşdırma işi, ilk növbədə kitabxana fondunun elektron vasitələrlə, CD və DVD materialları ilə və multimedia materialları ilə komplektləşdirilməli, elektron kataloq yaradılmalı, internetə qoşulmalı, Web saytı açılmalıdır.

Bəzi hallarda düzgün olmayaraq məktəb kitabxanaları ancaq şagirdlər üçün kitabxana kimi başa düşülür. Müasir məktəblərdə şagirdlərlə yanaşı böyük tərkibdə müəllim kollektivi, tədris-köməkçi heyət və digər işçilər çalışır. Bunların da kitabaxana-informasiya xidmətinə böyük ehtiyacını nəzərə alsaq, kitabxana həm də məktəbin bütün müəllim, işçi heyətinə xidmət etməyi qarşısında məqsəd qoymalıdır. Müasir şəraitdə məktəb kitabxanalarının statusunun dəyiş-məsini, məktəb kitabxanalarının təkcə şagirdlərə kitabxana-informasiya

xidməti göstərən müəssisə kimi yox, onların da ali məktəb kitabxanaları kimi həm şagirdlərə, həm də müəllimlərə kitabxana-informasiya xidməti göstərən, bütün məktəb kollektivinin informasiya tələbatını ödəyən bir müəssisəyə çevrilməsini tələb edir. İndiki şəraitdə məktəblərimizdə fəaliyyət göstərən kiçik kitabxanalar göstərdiyimiz vəzifələri yerinə yetirə bilmir. Buna kitabxanaların maddi-texniki bazası və maliyyə imkanları imkan vermir. Məktəb kitabxanalarının demək olar ki, böyük əksəriyyəti birotaqlı binalarda yerləşir. Həm də onların maliyyə imkanları müəllimlər üçün elmi-pedaqoji ədəbiyyat almağa imkan vermir. Belə bir vəziyyətdə məktəbin müəllimləri, tədris texniki heyəti və digər işçiləri kitabxana-informasiya xidmətindən kənarda qalır. Bu da müəllim kollektivinin peşə hazırlığına olduqca mənfi təsir göstərir. Gələcəkdə maliyyə imkanları yarandıqca məktəb kitabxanalarını məktəbin bütün kollektivinə xidmət edən, müasir maddi-texniki bazaya, zəngin kitab fonduna malik informasiyalaşdırılmış kitabxanaya çevirmək zərurəti qarşıya çıxır. Məlum həqiqətdir ki, ancaq bir otaqdan ibarət binası olan, qiraət salonu olmayan ən azı üç peşəkar kitabxanaçısı olmayan kitabxanalar kitabxana-informasiya xidmətini həyata keçirməkdən məhrumdurlar, onları kitabxanaların qarşısında qoyulmuş vəzifələri yerinə yetirəcək bir kitabxana hesab etmək olmaz.

Məktəb kitabxanaları həmçinin təlim prosesi ilə yanaşı olaraq məktəblilərin tərbiyə prosesində, böyüməkdə olan nəslin şəxsiyyət kimi formalaşmasında yaxından iştirak etməli, şagirdləri, vətənpərvərlik, milli ideologiya, Azərbaycançılıq idealogiyası, milli mənəvi dəyərlərə yiyələnmək, ruhunda tərbiyə etməkdə məktəbin yaxın köməkçisi olmalı, kitabı təbliğ etmək üçün uşaqlar arasında geniş kütləvi tədbirlər həyata keçirməlidir.

Məlum olduğu kimi böyüməkdə olan nəslin təlim və tərbiyəsində kitabın və mütaliənin olduqca böyük rolu vardır. Kitab bilik mənbəyidir. Kitab oxuyan, kitablarla dostluq edən, mütaliəni biliyin əsası kimi qiymətləndirən şagird həmişə öz həmyaşıdlarına nisbətən yüksək intellekt səviyyəsinə mənsub olurlar. Belə şagirdlərdə nitq mədəniyyəti, danışıq qabiliyyəti, ümumləşdirmələr aparmaq, həyat hadisələrini düzgün qiymətləndirmək bacarığı sürətlə inkişaf edir. Kitab insanı bilmədiyi, görmədiyi hadisələrlə tanış edir, görkəmli insanlarla ünsiyyət qurmağa alışdırır, şagirdin şəxsiyyət kimi formalaşmasına kömək edən ən mühüm vasitə olan mütaliə dünyanı dərk etməkdə, əxlaq normalarına yiyələnməkdə ən mühüm vasitə olmaqla insanın biliyinin, elminin, mədəniyyətinin yüksəlməsinə dərindən nüfuz edir.

Mütaliə-yazılı informasiyanın mənimsənilməsi, ardıcıl davamlı oxu deməkdir. Heç də təsadüfi deyil ki, dünyanın görkəmli sosioloqları, psixoloqları, pedaqoqları və kitabxanaşünasları yazılı informasiyanı ən etibarlı, dəfələrlə yoxlanılmış, tarixin sınağından keçmiş informasiya hesab edirlər. İnsanlara gərəkli olan belə informasiyanı isə kitablardan, jurnallardan, qəzetlərdən əldə etmək olar. Mütaliə bütün biliklərin mənbəyi olmaqla, insan şəxsiyyətinin formalaşmasının əsas amilidir. Bu baxımdan məktəb kitabxanalarının qarşısında şagirdlərdə mütaliə marağını formalaşdırmaq kimi olduqca mühüm vəzifə durur. Uşaqlarda mütaliə prossesinin aşılanması ailədə qoyulsa da, bu prossesin daha da təkmilləşməsi, dönməz bir prossesə çevrilməsi məktəb kitab-xanalarının öhdəsinə düşür.

Məktəb kitabxanaları məktəbin təcrübəli müəllim kollektivinin köməyindən istifadə etmək imkanına malik olduğundan, bu mühüm iş şagirdlərin mütaliə marağının formalaşmasında və mütaliə mədəniyyətinin tərbiyəsində böyük imkanlara malikdir.

Şagirdlərin mütaliəsinə rəhbərlik məktəb kitabxanalarının ən prioritet vəzifəsi olduğundan, bu işin təşkili məktəb kitabxanaçılarından böyük pedaqoji ustalıq, uşaqları sevmək, onlarla nəzakətlə davranmaq, maraqlarını öyrənmək, sorğularına cavab vermək kimi keyfiyyətlər tələb edir. Uşaqların mütaliəsinə rəhbərlik, onların mütaliəsini isitqamətləndirmək üçün kitabxanaçı hər şeydən əvvəl uşaq ədəbiyyatını, uşaqların yaş xüsusiyyətini nəzərə almaqla onların öyrəndiyi fənlərə dair kitablarla tanış olmalı, belə kitablar haq-

qında əsaslı məlumatlara sahib olmalıdırlar. Mütaliəyə rəhbərlik prosesində kitabxanaçı səbrli, təmkinli olmaqla yanaşı şagirdlərə sevgi və məhəbbətini aşkara çıxarmalı, onlarla söhbət etməli, suallarına və sorğularına cavab verməli, oxuduğu kitabın məzmununu soruşmalı, söhbət zamanı ortaya çıxan məsələlərə dair yeni kitablar tövsiyə etməlidir. Oxucularla söhbət zamanı və oxucu formulyarlarının təhlili zamanı ortaya çıxan problemlər təhlil edilməli, vəzifələr müəyyənləşdirilməli, kitabxana oxucuların tələbatına və sorğusuna cavab verə bilən, yaş qrupları nəzərə alınmaqla müvafiq tövsiyə ədəbiyyat siyahıları tərtib edilməlidir.

Doğrudur müasir dövrdə kitabxanaşünaslıq ədəbiyyatında "oxucuların mütaliəsinə rəhbərlik məsələləri birmənalı qarşılanmır". SSRİ dağıldıqdan sonra keçmiş ittifaq məkanına daxil olan ölkələrdə, ilk növbədə isə Rusiyada mütaliəyə rəhbərlik oxucuların azadlıqlarına müdaxilə, onların oxucu hüquqlarının tapdanması, keçmiş amirlik siyasətinin nəticəsi kimi, qiymətləndirilməyə və bu prinsipdən əl çəkilməsi tövsiyə edilməyə başlandı. Doğrudur oxucuların mütaliəsinə rəhbərlik prinsiplərinin əleyhinə səslənən nəzəri fikirlərdə müəyyən obyektiv mülahizə vardır. Belə mülahizələr Avropa kitabxanaşünaslığında da təsdiq edilməkdədir. Bizcə bu mülahizələrdə və nəzəri konsepsiyaların özündə də tam əsaslandırıla bilinməyən cəhətlər də yox deyildir. Mütaliəyə rəhbərlik konsepsiyasının əleyhinə və leyhinə söylənilən anlayışları, fikirləri, nəzəri müddəaları, öyrənib ümumləşdirərkən hələlik tam əsaslandırılmış bitkin elmi fikirlər söylənilmək də çətindir.

Müzakirəsinə ehtiyac hiss edilən bu problemi araşdırarkən kitabxanaların çoxəsrlik tarixinə nəzər salmaq yerinə düşərdi. Bu məqsədlə kitabxanaların tarixinə, onların oxuculara xidmət prossesinin təşkilinə nəzər salarkən məlum olur ki, kitabxanaların oxuculara xidmət prossesində həmişə mütaliə, onun öyrənilməsi, rəhbərlik edilməsi, isitqamətləndirilməsi, olduqca ibtidai, bəsit formada olsa belə gündəmdə olmuşdur.





Beləliklə, son zamanlar mütaliə, mütaliəyə rəhbərlik, mütaliənin isitiqamətləndirilməsi və s. haqqında irəli sürülən fikirlərin təhlilinə, öyrənilməsinə, dəqiqləşdirilməsinə yeni elmi əsaslara söykənmiş kitabxanaşünasların böyük əksəriyyətinin rəylərinə uyğun gələn, fikirlər söyləməyə böyük ehtiyac hiss edilməkdədir. Bizcə mütaliəyə rəhbərlik ideyasına birmənalı baxmaq düzgün olmazdı. Oxucular müxtəlif olduğu kimi mütaliəyə rəhbərlik anlayışına hər bir oxucu qrupunun, xüsusiyyətlərinə məxsus yanaşmaq daha düzgün olardı. Bu işdə kitabxanaların tipləri və növləri hər bir kitabxana tipinin oxucu qrupları onların səviyyələri, fərqli cəhətləri mütləq nəzərə alınmalıdır.

Məsələn, azyaşlı uşaqlara xidmət edən uşaq və məktəb kitabxanalarının oxucu qrupları ilə elmi və xüsusi kitabxanaların oxucu qrupları tamamilə biri-birindən fərqlənirlər. Bunların arasında oxşar cəhətlər demək olar ki, yox dərəcəsindədir. Elmi və xüsusi kitabxanaların oxucuları əsasən yüksəkixtisaslı mütəxəssislər, magistrlar, doktorantlar, ayrı-ayrı ixtisaslar üzrə fəlsəfə və elmlər doktorları və s. olurlar. Belə oxucular hazırlıqlı, intellektual səviyyəli şəxsiyyətlər olduğundan onların mütaliəsinə rəhbərlikdən danışmaq yerinə düşməzdi. Ancaq kitabxananın informasiya mütəxəssisləri, biblioqraflar belə oxuculara yeni ədəbiyyat haqqında məlumat verməyə, onların sorğu və maraqlarına cavab verməyə, onların maraqlarını yeni istiqamətlərə, yeni kitablara və dövri nəşrlərə, ayrı-ayrı elm sahələrində baş verən yeni elmi prosseslərə isitiqamətləndirməyə borcludurlar.

Uşaq və məktəb kitabxanalarında isə vəziyyət tamamilə başqadır. Hələ oxumağa, mütaliəyə yeni-yeni alışmağa başlamış oxucuların kitabxanalarının köməyinə, tövsiyəsinə kitabla davranış haqqında məsləhətlərinə böyük ehtiyacları vardır. Uşaqlara kitabxana xidməti prossesində tamamilə başqa oxucu-kitabxanaçı mühiti yaranır. Bu mühitin tədqiqi və təhlili bir daha göstərir ki, uşaqların mütaliəsinə rəhbərlik və mütaliə mədəniyyətinin formalaşması olduqca zəruridir.

Uşaqların təlim-tərbiyə və mütaliə prossesinin öyrənilməsi ilə məşğul olan dünyanın görkəmli pedaqoqları və psixoloqları uşaqların

mütaliəsinə rəhbərliyin zəruriliyini bu prosesdə məktəb müəllimlərinin və məktəbdən kənar müəssisələrin, ilk növbədə isə kitabxanaların iştirakının vacibliyini vurğulamışlar.

Nəticə olaraq demək olar ki, uşaqlar xüsusi qrup oxucu kimi, onlara kitabxana xidmətinin təşkilinin özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərin araşdırılması, təhlili və ümumləşdirilməsi, uşaqlara kitabxana-informasiya xidmətinin təşkili prossesində onların mütaliəsinə rəhbərliyin, mütaliə mədəniyyətinin tərbiyəsinin zəruruiliyi bir daha təsdiq olunur. Müasir informasiya cəmiyyəti şəraitində uşaqların mütaliəsinə rəhbərlik, onların müasir informasiya texnologiyası, elektron vasitələrlə tanış edilməli, internetdən istifadə qaydaları öyrədilməlidir. Bütün bunlar isə uşaqların mütaliə mədəniyyətinin formalaşmasını mühüm bir problem kimi irəli sürür.

Beləliklə, digər kitabxanalardan fərqli olaraq məktəb kitabxanalarının qarşısında oxuculara kitabxana-informasiya xidmətinin təşkil etməklə yanaşı, şagirdlərin mütaliəsinə rəhbərlik və mütaliə mədəniyyətinin formalaşması kimi çox mühüm vəzifə durur.

Bu da hər şeydən əvvəl uşaqların mütaliəsinə fərdi rəhbərlik etməyi, onlarda kitab oxumaq vərdişləri yaratmağı, mütaliə planların tərtib etməyi, tövsiyə siyahıları hazırlamağı tələb edir. Göstərilən olduqca mühüm vəzifələrin yerinə yetirilməsi məktəb kitabxanalarında yüksəkixitisaslı, öz peşəsinə dərindən yiyələnmiş, intellektual səviyyəli, uşaqları sevən, onlarla işləməyi bacaran uşaq pedaqogikasını və psixologiyasını dərindən bilən kitabxana işçilərini seçilib yerləşdirilməsini tələb edir.

Məktəb kitabxanaçısı o zaman uşaqların mütaliəsinə rəhbərlik işini uğurla yerinə yetirə bilər ki, özü kitabı sevsin, kitab fondlarında saxlanılan kitab repertuarından xəbəri olsun, yeni nəşr edilən uşaq kitablarını əldə etsin və onları uşaqlar arasında təbliğ etsin, uşaqlarla fərdi işə daha çox yer ayırsın, onlarlarla söhbət əsasında maraqlarını öyrənsin, onu vaxtında ödəsin, qiymətləndirməyi bacarsın, beləliklə də, uşaqların etimadını qazana bilsin. Uşaqların mütaliəsinə rəhbərlik işi kitabxanaçıdan öz mədəni, intellektual və peşə səviyyəsini daim yüksəltməyi, pedaqoji ustalığa yiyələnməyi, yeni kitabların nəşrini daim izləməyi, onu əldə edib tədqiq etməyi tələb edir. Müasir dövrdə kitabxana işinin məzmununa daxil edilən elektron vasitələri bilməyi, kitabxana işinin kompyuterləşməsi prossesini öyrənməyi və imkan daxilində kitabxana işinə təsdiq etməyi bacarmağı və böyük yaşlı şagirdlərin internetdən necə istifadə etməyə, hazırlamağı bacarmalıdır.

Böyüməkdə olan nəslin təlim-tərbiyəsində və şəxsiyyət kimi formalaşmasında olduqca böyük rolu və əhəmiyyəti olan məktəb kitabxanaları məktəbdə aparılan təlim və tərbiyə prossesinin ayrılmaz tərkib hissəsi kimi öz işlərini bilavasitə məktəb pedaqoji şurasının rəhbərliyi altında, məktəbin müəllim kollektivinin köməyilə həyata keçirir. Məktəb kitabxanalarının işinin məzmununa nüfuz edən, məktəb kitabxanalarında aparılan kitabxana xidməti prossesini isitiqamətləndirən məktəbin təcrübəli müəllim kollektivinin köməyilə məktəb kitabxanaları oxuculara kitabxana xidmətinin təşkili prossesində kompleks xidmətlər göstərmək imkanına malikdir. Məktəb kitabxanaları məktəbin tədris planlarına müvafiq fondun formalaşdırılmasını ardıcıl olaraq həyata keçirməli, geniş kütləvi işlər daimi və tematik kitab sərgiləri, müzakirələri, kiçik yaşlı oxucular üçün ucadan oxular, bədii qiraət təşkil etməli, bilavasitə müəllimlərin köməyilə müxtəlif dərnəklər təşkil etməlidirlər. Həyata keçirilən bütün kompleks tədbirlər, biavasitə uşaqlarda mütaliə mədəniyyətinin formalaşmasına xidmət etməlidir.

Məhz buna görədir ki, müstəqillik illərində respublikamızda məktəb kitabxanalarının təşkilinə və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, məktəbin təlim-tərbiyə prossesində, məktəbin əsas atributlarından biri kimi onun inkişaf edib təkmilləşməsinə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir.

Hal-hazırda respublikamızda ümumtəhsil müəssisələrində 4524 kitabxana fəaliyyət göstərir. Kitabxanaların fondunda 53.850659 ki-

tab vardır. Kitabxanalar 793889 oxucuya xidmət edir. Göstərilən kitabxanalarda 3348 kitabxanaçı çalışır. Deməli, 1176 ümümtəhsil müəssisəsində ya kitabxana yoxdur və yaxud da kitabxanalar ictimai əsaslarla müəllimlər tərəfindən idarə olunur. Bu isə respublikamızın indiki surətli inkişaf səviyyəsi ilə ayaqlaşmır, şagirdlərin kitabxana-informasiya xidmətinin təşkilinə də mənfi təsir göstərməyə bilməz.

Məktəb kitabxanalarında çalışan kitabxanaçıların kadr tərkibi də ürəkaçan deyil. Kitabxanalarda çalışan 3348 kitabxanaçıdan cəmi 515 nəfərinin yəni 15.4 %-i ali ixtisas, 210 nəfərinin yəni 6.3 %-i qeyri-ali ixtisas, 750 nəfərinin yəni 22.4 %-i orta ixtisas, 329 nəfərinin yəni 9.8 %-nin qeyri-orta ixtisas, 1544 nəfərinin yəni 46.1 %-nin orta təhsili vardır.

Yuxarıdakı rəqəmlərdən göründüyü kimi kitabxanaçı kadrların bu tərkibi müasir informasiya cəmiyyəti şəraitində məktəb kitabxanalarının qarşısında qoyulan şagirdlərin təlim-tərbiyəsi və şəxsiyyətin formalaşması kimi olduqca mühüm vəzifələrə cavab verə bilməz. Yuxarıdakı rəqəmlərdən göründüyü kimi məktəb kitabxana müdirlərinin 46.1 %-nin ümumi orta təhsili vardır. Heç bir peşə ixtisas təhsili olmayan işçilərlə, məktəb kitabxanalarının işini günün tələbləri səviyyəsinə qaldırmaq mümkün deyildir. Məktəb kitabxanalarına əksər hallarda pedaqoji fəaliyyətdən uzaqlaşmış müəllimləri təyin edirlər. Son illərdə məktəb kitabxanalarının kadr tərkibi təzələnmir. Kitabxanaçılıq ali və orta ixitsas təhsil müəssisələrini bitirən gənc kadrlar məktəb kitabxanalarına işə göndərilməmişdir. Son zamanlarda respublikamızda məktəb quruculuğu sahəsində dövlət tərəfindən olduqca böyük tədbirlər həyata keçirilir. Son beş ildə 2000-dən artıq yeni məktəb binasının tikilməsi həmin məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni müasir avadanlıqla informasiya texnologiyası və kompüterlərlə təchiz edilməsi böyük nailiyyətdir. Yeni tikilib istifadəyə verilən bütün məktəblərdə, məktəb kitabxanası üçün yeni binaların ayrılması, kitab fondlarını komplektləşdirmək üçün maliyyələşdirmənin yaxşılaşdırılması, məktəb kitabxanalarının





şagirdlərə kitabxana-informasiya xidmətinin təşkilində yeni imkanlar açır. Respublikamızın 4500-dən artıq məktəb kitabxanaları bu imkanlardan bəhrələnməli, məktəbin tədris-tərbiyə və şəxsiyyətin formalaşdırılması sahəsində həyata keçirdiyi böyük dövlət əhəmiyyəti kəsb edən vəzifələrin həyata keçirilməsində yaxından iştirak etməlidir. Bu mühüm vəzifələrin həyata keçirilməsi hər bir kitabxanaçının vətəndaşlıq borcudur.

### 3.9.3 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsi

Müasir şəraitdə böyüməkdə olan nəslin təhsil və tərbiyəsində kitabın böyük rolu danılmazdır. Məhz buna görədir ki, dövlətimiz tərəfindən uşaqlara və yeniyetmələrə kitabxana-informasiya xidmətinin təşkilinə, uşaqlarda mütaliə mədəniyyətinin tərbiyəsinə böyük diqqət yetirilir. Bu məqsədlə respublikamızda uşaqlara kitabxana xidməti göstərmək üçün Təhsil Nazirliyinin kitabxana şəbəkəsi ilə yanaşı Respublika Mədəniyyət və Turizm Nazirliyinin böyük kitabxana şəbəkəsi də fəaliyyət göstərir.

Respublika Mədəniyyət və Turizm Nazirliyi sistemində uşaqlara kitabxana xidməti kitabxanaların iki əsas növü tərərfindən müstəqil uşaq kitabxanaları və yaxud böyüklərə məxsus kitabxanaların yəni kütləvi kitabxanaların uşaq şöbələri tərəfindən həyata keçirilir.

Respublikamızda dövlət uşaq kitabxanaları bir qayda olaraq ərazi prinsipləri üzrə yerləşdirirlər. Bu şəbəkəyə rayon, şəhər, muxtar respublika və respublika uşaq kitabxanası daxildir. Respublikamızda müstəqil uşaq kitabxanalarının yaranmasına XX əsrin 20-ci illərindən başla-masına baxmayaraq 50-ci illərə qədər onlar olduqca az miqdarda idi. 50-ci illərdən sonra müstəqil uşaq kitabxanaları şəbəkəsi xeyli genişlənmişdir. Artıq 1958-ci ildə respublikada da 1 155,2 milyon 155 min iki nüsxə kitab fonduna malik olan 71 uşaq kitabxanası vardır. Bu kitabxanalar il ərzin-də 110,6 nəfər oxucuya xidmət etmiş, onlara 30.339 kitab vermişdir.

Müstəqillik illərində respublikamızda müstəqil uşaq kitabxanaları həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf etmiş, uşaqlara kitabxana-informasiya xidmətinin məzmunu xeyli yaxşılaşmışdır.

Hal-hazırda respublikamızda 100-ə yaxın uşaq kitabxanası fəaliyyət göstərir.

Müstəqil uşaq kitabxanaları ilə yanaşı olaraq Mədəniyyət və Turizm Nazirliyinin 4500 artıq kütləvi kitabxanalarında uşaq şöbələri fəaliyyət göstərir. Kütləvi kitabxanaların nizamnaməsinə müvafiq olaraq kütləvi kitabxanalar yuxarı sinif şagridlərinə xidmət etməyə borcludur. Xüsusilə kənd yerlərində kənd kütləvi kitabxanalarının oxucularının yarıdan çoxunun məktəbli uşaqlar olduğunu nəzərə alsaq, Mədəniyyət və Turizm Nazirliyinin kütləvi kitabxana şəbəkəsinin uşaqlara kitabxana-informasiya xidməti sahəsində böyük mədəni-maarif fəaliyyəti danılmazdır. Kütləvi kitabxanalarda bir qayda olaraq, uşaqlara xidmət üçün xüsusi uşaq şöbələri yaradılır. Uşaq şöbələri heç bir uşaq kitabxanası olmayan kəndlər üçün xüsusi əhəmiyyətə malikdir. Məhz bu şöbələr böyüməkdə olan nəslin kitabla xidmətin əsas bazalarıdır.

XX əsrin 70-ci illərində respublikamızda ərazi prinsipi üzrə fəaliyyət göstərən müstəqil uşaq kitabxanaları rayon mərkəzi kitabxanalarının filiallarına çevrilməyə başlandı. Bu 1974-cü ildə Sov.İKP MK-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" qərarından sonra həyata keçirilməyə başlandı. Çox mühüm dövlət əhəmiyyəti kəsb edən bu iş qısa bir müddətdə həyata keçirildi və respublikamızda 3174 filialı olan 69 mərkəzləşdirilmiş kitabxana sistemi (MKS) yaradıldı. Mərkəzləşdirməyə qədər respublikamızda 100-ə yaxın müstəqil uşaq kitabxanası var idi. Mərkəzləşdirilmənin əsasnaməsinə müvafiq uşaq kitabxanalarında mərkəzi kitabxanaların filiallarına çevrildi. Mərkəzi kitabxanaların filialına çevrilən uşaq kitabxanaları statusuna heç bir xələl gəlmədi. Onların binası, fondu ştat vahidi saxlandı, ancaq inzibati dəyişiklik baş verdi. Bu mərkəzləşmə prossesi kitabxanaların oxuculara xidməti işinin keyfiyyətinə heç bir zərər gətirmədi. Uşaq kitabxanalarının ənənələri qorunub saxlanıldı. Müstəqil uşaq kitabxanaları, rayon mərkəzi kitabxanalarının daha ixtisaslı peşəkar kollektivinin simasında metodik mərkəz əldə etdi.





Həmçinin mərkəzləşmiş kitabxana sistemləri öz imkanlarından istifadə edərkən filiala çevrilmiş uşaq kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, kitab fondunun daha keyfiyyətli formalaşması, kadr potensialının yaxşılaşdırılması, oxuculara kitabxana-informasiya xidmətinin yeni elmi metodiki əsaslarda qurulması sahəsində mühüm işlər görməyə başladı. Uşaq kitabxanaları ölkəmizdə əhaliyə xidmət göstərən müəssisələr içərisində öz məqsəd və vəzifələrinə, cəmiyyətdəki işinin mahiyyətinə böyüməkdə olan nəslin tərbiyə və təhsilində uşaqların şəxsiyyət kimi formalaşmasında onların sosiallaşmasında mühüm rol oynayırlar.

Müstəqil uşaq kitabxanalarının digər kitabxanalara nisbətən qarşılarında duran ən mühüm vəzifə uşaqlara həssaslıq və səbrlə yanaşmaq, mütaliə vərdişi aşılamaq, onların mütaliəsinin məsləhətçisi olmaq,mütaliələrinə rəhbərlik etmək, istiqamətləndirmək, mütaliə mədəniyyəti tərbiyə etmək kimi çox yaradıcı vəzifə durur. Bu mühüm vəzifəni yerinə yetirmək uşaq kitabxanaçılarından yüksək mədəni, intellektual səviyyə, pedaqoji, psixoloji ünsiyyət məharəti tələb edir.

Müasir informasiya cəmiyyəti şəraitində ölkəmizdə gedən təhsil islahatları tədris prossesinə tamamilə yeni məzmunlu innovasiya xarakterli fənlərin, xüsusilə informatika və informasiya texnologiyasına aid fənlərin daxil edilməsi, təhsil prossesində yeni keyfiyyət dəyişikliklərinin baş verməsi təhsilimizin dünya təhsil sisteminə inteqrasiya edilməsi məktəb kitabxanalarının qaşısında da tamamilə yeni vəzifələr qoyur. Bu vəzifələrə uşaq kitabxana fondlarının ardıcıl, mükəmməl kompleksləşməsindən başlamış, kitabxana informasiya xidmətinin təşkili ilə yeni elmi əsaslar üzərində qurulmasına qədər komplektləşdirilməsinin həyata keçirilməsini, kitabxananın yerləşdiyi ərazidə olan məktəblərlə yaradıcı əlaqələrin yaradılmasını,

qabaqcıl məktəb müəllimlərinin təcrübəsindən, metodiki və pedaqoji köməyindən istifadə etməsini tələb edir. Bu tədbirlər uşaq kitabxanalarına pedaqoji aləmlə əlaqə saxlamaq imkanı verməklə, kitabxana işini bilavasitə tədris prosesi ilə, ayrı-ayrı fənlərin öyrədilməsi qrafiki ilə bağlayır. Kitabxanalar müəllimlərin köməyindən bəhrələnərək kitabxanaların şagirdlərlə apardığı sinifdən kənar işləri planlaşdırmaq, məktəblərin tədris planlarına müvafiq ədəbiyyat təbliğ etmək və kütləvi işlər aparmaq işinə kömək edir.

Uşaq kitabxanaları apardıqları rəngbərəng kütləvi işlərə daha çox oxucu cəlb etməklə, onları kitabxana mühiti ilə və cəmiyyətdə baş verən ictimai-siyasi proseslərlə tanış edir və şagirdlərdə ictimai şüurun formalaşmasına, dövrün tələblərinə cavab verə biləcək biliklərlə zənginləşməsinə şərait yaradır.

Beləliklə, respublikamızda uşaq kitabxanalarının müasir informasiya cəmiyyətində böyük rolu və əhəmiyyəti nəzərə alınaraq uşaqlara kitabxana-informasiya xidməti dövlət proqramının əsas tərkib hissəsi kimi inkişaf etdirilir, onların fəaliyyət və xidmət sahəsi genişləndirilir. Aşağıdakı rəqəmlər dediklərimizi təsdiq edir. 2010-cu ildə respublikamızda 75 mərkəzləşdirilmiş kitabxana sistemi (MKS) fəaliyyət göstərmişdir ki, bunlardan 64-ü kənd rayonlarında, 11-isə şəhərdə yerləşirdi. Hər bir MKS-də bir qayda olaraq ayrıca binaya, zəngin kitab fondu, peşəkar kadrları olan uşaq filialları fəaliyyət göstərir. Bunlarla yanaşı olaraq Respublika Mədəniyyət və Turizm nazirliyinin 4500-dən artıq kütləvi kitabxanalarının uşaq şöbələrində uşaqlara xidmət göstərir. Kənd yerlərinə gəldikdə isə kəndlərdə yeganə mədəniyyət mərkəzi olan kənd kitabxanası kənddə uşaqlara və gənclərə kitabxana və informasiya xidmətinin təşkili sahəsində xüsusi mövqe qazanmışlar. Kənd kitabxanalarının oxucularının təxminən yarıdan çoxu uşaqlar olması bu dediklərimizə parlaq sübutdur.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin uşaqlara kitabxana informasiya xidmətinin təşkilində F.Köçərli adına Respublika Uşaq kitabxanasının və A.Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq kitabxanasının fəaliyyəti də xüsusi təqdirəlayiqdir.





1965-ci ildən respublikamızda fəaliyyət göstərən F.Köçərli adına Respublika Uşaq kitabxanası Bakı şəhərində uşaqlara xidmət işinin təşkilində yeni mərhələnin başlanğıcı oldu. Kitabxana oxuculara kitabxana informasiya xidmətinin yeni forma və metodlarının meydana çıxarılmasına, uşaqlara kitabxana xidməti işinin kordinasiya edilməsinə, birləşdirilməsinə, uşaq kitabxanalarına metodik kömək edilməsinə, bu işin təkmilləşdirilməsinə böyük töhfələr vermişdir. Uzun illərdən bəri uşaqlara kitabxana xidməti göstərən respublika uşaq kitabxanası böyük nailiyyətlər əldə etmiş, dövlətimizin qayğısı nəticəsində 2011-ci ildə yeni daha abad, oxuculara xidmət işini təşkil etmək üçün daha böyük imkanlara malik yeni binaya köçürülmüş, müasir informasiya cəmiyyətinin tələbatına müvafiq kitabxana informasiya texnologiyası ilə, yeni kitabxana avadanlığı ilə təchiz edilmiş, kitabxana işi informasiyalaşdırmağa başlamışdır. Kitabxanada oxucuların istifadəsi üçün nağıl otaqları, incəsənət otağı, böyük və kiçik oxucu zalları, elektron resurslar bölməsi, multimedia, internet resurs mərkəzləri yaradılıb.

Kitabxananın "biləyən" multimedia zalında kiçik yaşlı uşaqlar və ibtidai sinif müəllimlərinin istifadəsi, internetə qoşulması üçün şərait yaradılmışdır. Kitabxanada fəaliyyət göstərən nağıl otağında danışan nağıl kitablarına qulaq asmaq, nağıl qəhrəmanları ilə canlı ünsiyyət yaratmağın mümkünlüyü uşaqların böyük marağına səbəb olmaqla, onlarda bədii yaradıcılığa həvəsi artırır.

Çox sevindirici haldır ki, kitabxana 2006-cı ildən başlayaraq "Göy qurşağı" adlı jurnal buraxmağa başlamışdır. Kitabxana bu jurnal vasitəsilə həm yeni kitabları təbliğ edir, həm də uşaqlarla kitabxanada keçirilən müxtəlif tədbirlərdə və kütləvi işlərdə iştirak etməyə həvəsləndirir.

Kitabxanada 8 şöbə, 4 bölmə, 2 oxu zalı oxuculara xidmət edir. Kitabxananın son dövr fəaliyyətində baş verən önəmli işlərdən biri də

Bakı şəhərinin müxtəlif rayonlarında uşaqlara xidmət üçün 3 filialın açılmasıdır.

Kitabxana həmçinin respublikada fəaliyyət göstərən uşaq kitabxanalarının metodiki təminat mərkəzidir. Metodiki mərkəz kimi kitabxanaın apardığı elmi metodiki işlər, uşaqlara kitabxana xidmətinin müasir tələblər səviyyəsinə yüksəltməkdə olduqca böyük əhəmiyyət kəsb edir.

Kitabxanaın müstəqillik illərində əldə etmiş olduğu son göstəricilər də respublikamızda uşaqlara kitabxana informasiya xidməti sahəsində aparılan uğurlu işi bir daha təsdiq edir.

Hazırda F. Köçərli adına Uşaq Kitabxanasının fondunda 250 min kitab vardır. Kitabxana 20 minə yaxın oxucuya xidmət etmiş, il ərzində oxuculara 400 mindən artıq kitab vermişdir.[1]

Uşaqlara kitabxana-informasiya xidmətinin təşkilində və uşaq kitabxanalarına metodiki təminat işində 1965-ci ildən fəaliyyət göstərən A.Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanası oxuculara kitabxana–informasiya xidmətinin təşkilində mühüm işlər görür. Müstəqillik illərində kitabxananın maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxana-informasiya texnologiyası ilə təmin edilmiş, kitab fondu əhəmiyyətli dərəcədə zənginləşdirilmiş, oxuculara xidmət işinin və elmi-metodiki təminat işinin keyfiyyəti yüksəlmişdir.

2010-cu ildə kitabxananın fondu 180 min nüsxəyə çatdırılmış, 5 mindən artıq oxucuya xidmət etmişdir. Bir ildə kitabxanaya 800 mindən artıq oxucu gəlişi olmuş, oxuculara 183 min nüsxədən artıq kitab verilmişdir.[2]

Göstərilən rəqəmlər kitabxanada oxuculara xidmət sahəsində həyata keçirilən böyük uğurlardan xəbər verir.

---

[1] *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında rəqəmlər və faktlar. B., 2007. s.26-29.*

[2] *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında rəqəmlər və faktlar. B., 2007. s.369-396.*





Respublikamızın müstəqilliyi şəraitində kütləvi kitabxanalar Respublikamızda dövlət siyasətinin, milli ideologiyanın, ulu öndər Heydər Əliyev tərəfindən əsaslandırılmış Azərbaycançılıq ideologiyasının həyata keçirilməsində yaxından iştirak etməklə, çox mühüm dövlət əhəmiyyətli vəzifələri yerinə yetirirlər.

Bu vəzifələr içərisində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalq kütlələrinin ümumi mədəni və intellektual səviyyəsinin yüksəldilməsi, insanların informasiya təminatının intensiv ödənilməsi, iqtisadiyyatın inkişafına kömək göstərilməsi mühüm yer tutur.

Kütləvi kitabxana kontingentinin bilavasitə geniş xalq kütləlləri, yaşlı əhali, gənclər və uşaqlar olduğundan onların tərbiyəsi və sosiallaşdırılması kitabxanaların ən proritet vəzifələri kimi qarşıda durur. Kütləvi kitabxanalar şəxsiyyətin formalaşmasına, hərtərəfli inkişafına kömək etmək məqsədi ilə mənəvi tərbiyənin bütün sahələrinə dair ədəbiyyat təbliğini ön plana çəkməli, yaşlı əhalinin intellektual səviyyəsinin yüksəldilməsinə, peşələrinin təkmilləşdirilməsinə cəmiyyətin inkişaf prosesi ilə əlaqədar insanların sosiallaşdırılmasına, çalışmalıdır. Bu məqsədlə şəxsi təhsilin və fasiləsiz təhsilin əsas bazası kimi bütün oxucu qruplarının və regionda yaşayan bütün vətəndaşların, sorğu və tələbatını ödəməyi ön plana çəkməli, fasiləsiz təhsilə, əhalinin sosiallaşmasına kömək etmək üçün geniş təbliğat-təşviqat, informasiya və siyasi, kütləvi işlər aparmalıdır.

Bütün tədbirlər kompleks şəkildə biri-biri ilə əlaqədar, bir-birini tamamlamaq ardıcıllığı ilə həyata keçirilməlidir ki, insanların hərtərəfli ahəngdar inkişafına kömək etsin.

Hazırda respublikamızda universal kütləvi kitabxanalar inzibati tabeçilik baxımından iki şəbəkəyə bölünür:

1. Dövlət kitabxana şəbəkəsi;
2. Ayr-ayrı nazirliklərin, idarə və müəssisələrin, təşkilatların, cəmiyyətlərin kitabxana şəbəkələri.

3. Dövlət kitabxana şəbəkələri bilavasitə dövlət tərəfindən maliyyələşdirilir və ona Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi rəhbərlik edir. Dövlət kitabxana şəbəkəsinə aşağıdakı kitabxanalar daxildir:

4. Mərkəzləşmiş kitabxana sistemləri və onların filalları;
5. Mərkəzi rayon kitabxanaları;
6. Kənd kitabxanaları;
7. Rayon Uşaq kitabxanaları;
8. Şəhər kitabxanaları;
9. Mərkəzi şəhər kitabxanaları;
10. Şəhər Uşaq kitabxanaları.
11. Ayrı-ayrı nazirliklərin idarə və müəssisələrin, təşkilatların, cəmiyyətlərin və s. universal kütləvi kitabxana şəbəkələrinə:
12. Təhsil Nazirliyinin ümumtəhsil məktəbləri kitabxana şəbəkəsi, məktəb kitabxanaları;
13. Həmkarlar ittifaqı kitabxana şəbəkəsi və s.daxildir.

Universal kütləvi kitabxanalar şəbəkəsi öz məqsəd və vəzifələrinə görə şəxsiyyətin formalaşması proseslərində yaxından iştirak etməli öz oxucu kontingentinin tərkibini, onların maraq və sorğusunu nəzərə almaqla, kitabxana-informasiya xidmətini təşkil etməli, onun məzmununa və istiqamətinə uyğun fəaliyyət göstərməlidir. Ölkəmizdə kütləvi kitabxanaların prioritet vəzifələrindən biri əhalinin tərbiyəsində və sosiallaşdırılmasında yaxından iştirak etməkdir.

Belə bir məsələni xatırlamaq yerinə düşərdi ki, keçmiş sovetlər birliyində sosiologiya elminin inkişafına diqqət yetirilmirdi. Sosioloji tədqiqatların aparılmasına, sosioloq kadrların hazırlanmasına qadağa qoyulmuşdu. Bəzi hallarda cəmiyyətdə gedən proseslərin öyrənilməsi, ümumiləşdirmələr aparılması, təkpartiyalı sistemin tələblərinə uyğun gəlmədiyindən konfliklərin yaranması qaçılmaz olurdu. Ona görə də hakim ideologiya cəmiyyətin sosiallaşma prosesini diqqətdən kənarda qoymağa, əksər hallarda isə ona mane olmağa çalışırdı. İdeoloji müəssisələri, o cümlədən kitabxanaları əhalinin kommunist





tərbiyəsində dayaq məntəqəsi hesab edən hakim ideologiya kitabxanalarda aparılan tərbiyə işlərinə partiyalı xarakter verməyə çalışırdı. Bu səbəbdən də kitabxanalar xalqın istək və arzularına, tələbat və sorğularının həyata keçirilməsində böyük çətinliklərlə qarşılaşırdı. Kitabxanalar öz fəaliyyətini bilavasitə kommunist tərbiyəsinin təbliğinə yönəldirdi. Əhalinin sosiallaşma prosesi isə tam diqqətdən kənarda qalmışdı.

### 3.9.4 İnformasiyalaşdırılmış cəmiyyət və kitabxanalar

*Kitabxanalar informasiya cəmiyyətinin ürəyidir.*

**(YUNESKO-nun bəyanatından)**

Bəşəriyyət tarixinə nəzər salarkən belə bir qanunauyğunluq aşkar olunur ki, hər bir əsr özünəməxsus inkişaf prosesi ilə, böyük elmi və mədəni əhəmiyyətə malik hadisələrlə xarakterizə olunur. Məsələn, dünya alimləri keçən əsrin ikinci yarısından başlayaraq XX əsri "atom əsri", "elmi-texniki tərəqqi əsri", "informasiya partlayışı əsri" adlandırmağa başladılar. XX əsr tarixə elmi-texniki inqilab əsri, ağılın təntənəsi əsri kimi daxil oldu. XXI əsr isə "informasiya əsri" hesab olunur. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətlə keçidlə əlaqədar idi. Alimlər belə bir fikri formalaşdırarkən cəmiyyətdə gedən proseslərin dərin tədqiqinə və onun qanunauyğunluqlarına əsaslanmışdılar. İnformasiya cəmiyyəti bəşəriyyətin inkişafında yeni dövrün - informasiya erasının başlanğıcı, müasir dövr sivilizasiyanın yeni inkişaf mərhələsinin əsas əlamətlərindən biridir.

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiya-

nın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan, müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını qoruyub saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürməklə informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxana sistemləri mühüm vəzifə daşıyır. Ona görə də, müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır ki, bunları bir-birindən ayrılıqda düşünmək hər iki sahənin ümumi inkişafına mane ola bilər.

Bu məqsədlə biz kitabxanaşünaslıqla informasiyanın qarşılıqlı əlaqələri baxımından informasiyalaşdırılmış cəmiyyət haqqında bəzi mülahizələr söyləməyi lazım bilirik.

İnformasiya - insanın öz hiss üzvləri vasitəsilə təbiətdən və cəmiyyətdən, eləcə də mütaliə prosesi zamanı aldığı məlumatlardır. İnsanlar informasiyanı yaratmaq, ötürmək, saxlamaq, istehsal və təkrar istehsal etmək imkanlarına malikdir.

İnformasiya latınca "informatio", yəni "izahetmə, şərhetmə" mənasında meydana gəlsə də, öz ilkin mənasını çoxdan dəyişmiş, olduqca mürəkkəb, öyrənilməsinə və sistemləşdirilməsinə böyük ehtiyac duyulan bir prosesə çevrilmişdir.

Müasir dövrümüzdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının artımı, köhnəlməsi və səpələnməsi hədsiz dərəcədə çoxalmış, bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən, daha mürəkkəb xarakter daşımağa başlamışdır. Məhz buna görədir ki, bu mühüm prosesi öyrənmək, araşdırmaq üçün yeni elm sahəsinin meydana çıxması zərurəti yaranmışdır. Beləliklə, əsasən XX əsrin elmi kimi formalaşan informatika elmi yaranmışdır.





İnformatika - hesablama texnikasının köməyi ilə informasiyanın qəbulu, istehsal edilməsi, arxivləşdirilib saxlanılması və istifadə üsulları ilə məşğul olan ictimai elmdir. Doğrudur, informatika mütəxəssisləri informasiyanı texniki elm hesab edirlər, amma əslində elmi məlumatın alınması, işlənməsi və verilməsi öz məzmunu və istiqaməti baxımından cəmiyyətdə baş verən obyektiv proses olduğundan, informasiya ictimai elmlər sırasına daxildir.

Belə bir fikri qeyd etmək yerinə düşərdi ki, informatika elmi ilk dəfə XX əsrin ikinci yarısından başlayaraq ABŞ-ın ali kitabxanaçılıq məktəblərində, kolleclərində meydana gəlmiş, elmi tədris fənni kimi öyrənilməyə başlanılmışdır.

Əsasən XX əsrin ikinci yarısında bir elm kimi formalaşan, cəmiyyətin iqtisadi və sosial həyatında böyük rol oynayan və ciddi dəyişikliklər edən informatika ona qohum olan bir sıra elmlərin, ilk növbədə isə kitabxanaşünaslığın bir humanitar elm kimi yeni metodlar, ideyalar, nəzəriyyələrlə zənginləşməsi, yeni texnologiyalar, texniki vasitələrlə təmin edilməsi üçün şərait və imkanlar yaratmış, kitabxanaşünaslıq və informatika qarşılıqlı şəkildə inkişaf etməyə, təkmilləşməyə başlamışdır.

Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyildir.

Müstəqillik şəraitində dövlətimiz və xalqımız, alimlərimiz, ziyalılarımız, bütün qəbildən olan mütəxəssislərimiz qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətini informasiyalaşdırmaqdır.

Cəmiyyətdə informasiyalaşdırma prosesi nə qədər tez, nə qədər sürətlə getsə, dövlətimiz və xalqımız dünya dövlətləri və xalqları içərisində bir o qədər geniş inkişaf edər, qabaqcıl dünya sivilizasiyalarına qovuşar.

İnformasiyalaşdırma - cəmiyyət üzvlərinin, dövlət idarə orqanlarının, yerli özünüidarə orqanlarının, cəmiyyətin bütün sosial strukturlarının, ictimai təşkilatların informasiya ehtiyaclarını formalaşdırmaq və ondan istifadə etmək əsasında informasiya tələbatını ödəmək üçün optimal şərait yaradan, həmçinin bu sahədə vətəndaşların hüququnu həyata keçirən, təşkil edən sosial-iqtisadi və elmi-texniki prosesdir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "İnformasiyalaşdırma - informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir."[1]

İnformasiyalaşdırılmış cəmiyyət - işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması ilə məşğul olan cəmiyyətdir.

«İnformasiyalaşdırılmış cəmiyyət» anlayışı ilk dəfə kifayət qədər aydın şəkildə XX əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərində işlənilib. Bu termin Tokio Texnologiya İnstitutunun professoru Y.Xayaşinin adı ilə bağlıdır. İnformasiyalaşmış cəmiyyətin konturlarına aşağıdakı təşkilatların Yaponiya hökumətinə təqdim etdiyi hesabatlarda rast gəlinir:

1. İqtisadi Planlaşdırma Agentliyi (EPA: Economic Planning Agency) – "Yaponiya informasiyalaşdırılmış cəmiyyəti: mövzular və yanaşmalar»;

2. Kompüterlərdən İstifadəni Tədqiqat İnstitutu (JACUDI: Japon Computer Usage Development Institute) – "İnformasiyalaşdırılmış cəmiyyətin planı";

[1] Xələfov A. Heydər Əliyev və kitabxana işi.B., 2006, s. 288-289





3. Sənayenin Strukturu üzrə Şura (ISC: Industrial Structure Council) – "Yaponiya cəmiyyətinin informasiyalaşdırılmasına yardım siyasətinin konturları".

İnformasiyalaşdırılmış cəmiyyətin özünəməxsus xüsusiyyətləri vardır:

**İnformasiyalaşdırılmış cəmiyyət – yeni tipli cəmiyyətdir.** Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına (xüsusilə informasiya texnologiyalarına) görə fərqlənir. Bu cəmiyyət yeni qlobal sosial inqilabın nəticəsi olub, informasiya partlayışından doğan, informasiya və kommunikasiya texnologiyalarının birləşməsi nəticəsində formalaşan yeni tipli cəmiyyətdir. Bu cəmiyyətin yeniliyi əsasən informasiya texnologiyası, elektron texniki vasitələrlə informasiyanın toplanması, saxlanması, ötürülməsi və yeni informasiya istehsalı ilə şərtlənir. Bu cəmiyyətdə azad cəmiyyətlərə məxsus demokratikləşmə prinsipləri, vətəndaşların informasiya almaq hüquqlarının təminatı, hər bir insan, hər bir təşkilat üçün informasiyanın ümumaçıqlığı mühüm əhəmiyyət kəsb edir. İnformasiyanın ümumaçıqlığının təmin edilməsi öz növbəsində informasiya texnologiyasının əsaslı inkişafını və onun sürətlə informasiya xidməti prosesinə tətbiq edilməsini tələb edir. İnformasiya cəmiyyətində informasiyanın ümumaçıqlığının təmin edilməsi, informasiyanın «hamı üçün» olması, informasiyanın, xüsusilə onun keyfiyyət sahə-si olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması üçün işçi qüvvəsinin əksər hissəsinin ciddi iş aparmasını tələb edir.

**İnformasiyalaşdırılmış cəmiyyət – bilik cəmiyyətidir.** Bu cəmiyyət hər bir insanın, hər bir cəmiyyətin bilik almasını təmin edir, onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək və təcrübə qazanmaq üçün şərait yaradır. Bu cəmiyyət müasir dünyada baş verən yeniləşmə və dəyişikliklərin baza komponentlərindən biri olduğundan cəmiyyətdə biliyin daha da sistemləşdirilməsinə, biliyin bütün sahələrdə yayılmasına xidmət etməlidir. Alimlər iqtisadi inkişaf nöqteyi nəzərindən müasir cəmiyyəti üç mərhələyə ayırırlar: sənaye cəmiyyəti, post sənaye cəmiyyəti, informasiya cəmiyyəti.

Dünya ölkələrinin böyük əksəriyyəti sənaye cəmiyyəti mərhələsindədir. Dünyanın yüksək inkişaf etmiş kapitalist ölkələri isə post sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid mərhələsindədir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə gedən inkişaf prosesi respublikamızı inkişaf etmiş ölkələr sırasına çıxarmaqla, onun böyük sürətlə sənaye cəmiyyətindən post sənaye və informasiya cəmiyyətinə keçməsi üçün zəmin yaradır.

Ölkəmizin prezidenti İlham Əliyevin cəmiyyətin informasiyalaşdırılmasına yüksək qiymət verməsi, Azərbaycanda informasiya texnologiyasının geniş sürətlə tətbiqi, respublikamızın informasiya texnologiyası istehsal edən bir ölkəyə çevrilməsi haqqında göstərişləri, ölkəmizdə informasiya cəmiyyətinin qurulmasına və bilik cəmiyyətinə keçilməsinə böyük təkan verir. Prezident «informasiya kommunikasiya texnologiyasına» həsr edilmiş elmi konfransdakı çıxışında ölkədə biliyin yüksəldilməsini cəmiyyətin inkişafının mühüm amili kimi qiymətləndirməsi dediklərimizi bir daha təsdiq edir. Prezident İlham Əliyev deyir: «Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyil, yaxud daha hansısa başqa iqtisadi nailiyyətlər deyil, məhz bilik, məhz savad, yeni texnologiyalardır-bunlar ölkəyə uğur gətirir, inkişaf, müasirlik gətirir.»[1]

Beləliklə, informasiya cəmiyyətində istehsalatın əsas məhsulu bilikdir. Məhz buna görədir ki, bu cəmiyyətdə informasiya, bilik, informasiya istehsalı və informasiya xidməti aparıcı yer tutur və informasiya müəssisələri sürətlə inkişaf edir. İnformasiya istehsalatın inkişafında hakim mövqe tutur.

YUNESKO-nun sənədlərində göstərilir ki, biliklər cəmiyyətinin inkişafını təmin edən xüsusiyyətlər: məxsusi rəngarənglik və spesifik qabiliyyətlərdir.[2] Hər bir cəmiyyətin üstünlüyü biliklərin əldə edilməsində onun özünəməxsusluğudur. Hər bir cəmiyyət və onun

[1] *Azərbaycan qəzeti, 2006, 4 oktyabr*
[2] *Kitabxanalar biliklər cəmiyyətində. B., 2006, 474 s.*





üzvləri əldə edilmiş biliklərin qədrini-qiymətini bilməli, bilikləri yaradan qabil və yaradıcı insanları qorumalıdır.

Bilik ictimai nemətdir. Hər bir ziyalı, hər bir vətəndaş bu nemətdən bəhrələnməli, onu daha da zənginləşdirməli, qorumalı, gələcək nəsillərə ötürməyi bacarmalıdır.

- İnformasiyalaşdırılmış cəmiyyət - qlobal cəmiyyətdir. Dünyada böyük qloballaşma prosesi gedir. Bu proses hər şeydən əvvəl özünü informasiya sahəsində göstərir. Qlobal cəmiyyətdə informasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var. Bu da cəmiyyətə və insanlara bəşəri sərvətlərdən bəhrələnmək imkanı verməklə, mədəniyyətlərin bir-birinə yaxınlaşmasının qarşılıqlı təsir dairəsini genişləndirir, eyni zamanda hər bir cəmiyyətə başqa cəmiyyətlərdən faydalanmaqla, yeniləşmək və təkmilləşmək imkanı verir. Qloballaşma dünya ölkələri arasında inteqrasiya və beynəlxalq əlaqələr sisteminin intensivləşməsi nəticəsi kimi meydana çıxan bir prosesdir. Bu proses əvvəllər öz iqtisadi-sosial inkişafında geridə qalmış ölkələrin nisbətən qısa tarixi dövr ərzində daha uğurla irəliləməsinə əlverişli şərait yaratdığından, qloballaşma prosesinin müdafiəçiləri onu bəşəriyyətin minillikləri əhatə edən tarixi təkamül yolunun təbii, zəruri yekunu kimi qiymətləndirirlər.

- Bu baxımdan dünya miqyasında qloballaşma prosesi mahiyyət etibarilə yeni bir hadisə sayılmalıdır. Müxtəlif formada və həcmdə olsa da bu proses davam etmiş, cəmiyyətlər tədricən yaxınlaşmağa, iqtisadiyyatın, mədəniyyətin, ticarətin və s. mühüm sahələrində inteqrasiya etməyə meyilli olmuşdur. Bu meyl zaman keçdikcə qloballaşma prosesinin intensivləşməsinə və böyük beynəlxalq miqyas almasına gətirib çıxarmışdır. Məhz buna görədir ki, Birləşmiş Millətlər Təşkilatının millətlərin minillik bəyannaməsində göstərilir: «Biz inanırıq ki, bu gün qarşımızda duran əsas vəzifə qloballaşmanın bütün dünya insanlarının həyatında müsbət bir qüvvəyə çevrilməsini təmin etməkdən ibarətdir».[1]

[1] *«Azərbaycan» jurnalı.-2005.-№8.- s. 139.*

Həmçinin informasiya cəmiyyətinin bəzi fərqləndirici və xüsusi əhəmiyyət kəsb edən cəhətlərini də qeyd etmək yerinə düşərdi:

- informasiya cəmiyyətinin hər bir üzvünün, hər bir oxucunun və istifadəçinin informasiya almaq imkanının olması;

- cəmiyyət özünün hər bir üzvünü informasiya texnologiyası ilə təmin edə bilməsi;

- cəmiyyətin konkret zamandan, məkandan və şəraitdən asılı olmayaraq öz tələbatları və oxucuları üçün informasiya istehsal etməyə qadir olması imkanı.[1]

Yuxarıda göstərdiyimiz fərqləndirici cəhətlər informasiya cəmiyyətinin ölkənin iqtisadi, siyasi və humanitar inkişafı və tərəqqisi üçün, insanların şəxsiyyət kimi formalaşması və sosiallaşması üçün daha böyük imkanlar açmasına əyani sübutdur.

Aydındır ki, hər bir inkişaf etmiş (və ya inkişaf etməkdə olan) ölkə informasiyalaşdırılmış cəmiyyətə özünün siyasi, sosial-iqtisadi və mədəni faktorlarına əsaslanaraq qədəm qoyur. Məhz buna görə də informasiyalaşdırılmış cəmiyyətin formalaşması üçün əlverişli şərtlərin yaradılması yeni cəmiyyətə keçən ölkənin (şəhərin) informasiya mühitinin baza komponentlərinin sürətli və prioritet inkişafını tələb edir.

Onlardan birincisi texniki-texnoloji proseslərin inkişafıdır. Bura daxildir: informasiyanın yaranması, qorunması, yayılması və əhalinin geniş təbəqələrinin (informasiya və telekommunikasiya şəbəkələrinin, sistemlərinin, müxtəlif təyinatlı informasiyaların emalı mərkəzlərinin və s.) ondan istifadəsini təmin edən informasiya-kommunikasiya infrastrukturunun inkişafı; milli informasiya ehtiyatları sisteminin və onlardan istifadə texnologiyalarının (arxivlər, muzeylər və kitabxana fondları) təkmilləşdirilməsi və inkişafı; informasiyanın toplanması, qorunması, ötürülməsi və çatdırılmasını təmin edən hesablama və telekommunikasiya tex-

[1] *Azərbaycan kitabxanaları: modernləşmə yolları axtarışında. B., 2003, s.*





nologiyalarının təkmilləşdirilməsi və inkişafı, onun bütövlüyü, səmərəliliyi və məxfiliyi, kütləvi informasiya vasitələrinin texniki baza və texnologiyalarının təkmilləşdirilməsi və inkişafı (elektron və çap nəşrləri, mətbuat üçün kompüter texnikası və s.)

İkincisi komponent informasiya və kommunikasiya xidmətləri sənayesinin və onun infrastrukturunun formalaş-dırılmasıdır. Bura aşağıdakılar daxildir: informasiyalaşdırılmış cəmiyyətə inteqrasiya proseslərinin iqtisadi potensialının gücləndirilməsi və inkişafı, informasiya məhsulları və xidmətlərinin dəstəklənməsi; informasiya texnologiyaları, məhsulları və xidmətləri bazarının iqtisadi tənzimlənməsi üçün tədbirlər; əhalinin inkişaf etmiş informasiya tələbatının və informasiya mədəniyyətinin formalaşdırılması, informasiya məhsulları və xidmətlərinə alıcılıq qabiliyyəti tələbatının stimullaşdırılması, sosial əhəmiyyətli proqramlar üçün informasiya və telekommunikasiya texnologiyalarının, məhsul və xidmətlərinin istehsalçıları ilə istehlakçılarının prioritet himayəsi; kütləvi ev kompüterləşməsinin inkişafı, informasiya və telekommunikasiya sistemlərində işləmək üçün yeni nəsil kadrların kütləvi hazırlanması sisteminin dəstəklənməsi.[1]

Üçüncüsü komponent iqtisadi, sosial-mədəni, hüquqi və təşkilati şərtlərin formalaşmasıdır. Bura isə bunlar daxildir: ümumi informasiyalaşdırma siyasətinin işlənib hazırlanmasını zəruri edən inteqrasiya problemlərinin həlli; informasiya qanunvericilik sisteminin və onun reallaşması mexanizminin təkmilləşməsi; kütləvi informasiyanın yayılması sisteminin inkişafı və informasiyalaşdırılmış cəmiyyətə keçid üçün əlverişli ictimai-siyasi mühitin formalaşdırılması; informasiyanın ictimai təhlükəsizliyinin təmin olunması və s.

Görkəmli rus alimi A.İ.Rakitov informasiyalaşdırılmış cəmiyyətin aşağıdakı təxmini xarakteristikasını vermişdir:

- hər bir insan, hər bir təşkilat üçün informasiyanın umumaçıq olması;

[1] *Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. 2004, № 3, s. 316-327*

- informasiyanın ümumaçıqlığının real təminatı. İlk növbədə texniki informasiyanın, informasiya texnologiyasının müasir səviyyəyə uyğun şəkildə təşkili;

- informasiyanın istehsalı. Cəmiyyətin bütün sahələrində, müxtəlif istiqamətlər üzrə həyat fəaliyyətini təmin etmək və inkişaf etdirmək üçün lazımi miqdarda informasiya istehsal etmək. Bu işin həyata keçirilməsi elmi əsaslara söykənməli, kompüter texnologiyasından geniş istifadə edilməlidir.[1]

İdarəetmənin, informasiya istehsalının və kitabxana-informasiya xidmətinin bütün sahələrində yeni informasiya texnologiyalarından istifadə edilməli, bütün kitabxana-informasiya xidməti prosesi kompüterləşdirilməlidir.

İnformasiyalaşdırılmış cəmiyyətin əsas göstəricilərindən biri də işləyən əhalinin 50 faizindən çoxunun informasiya xidmətindən istifadə edə bilməsi, müasir informasiya texnologiyasından baş çıxarmasıdır. Məhz buna görədir ki, müasir dövrdə informasiyalaşdırma və mediatirasiya (informasiyam sürətlə vermək və qəbul etmək üçün tətbiq edilən inteqral sxemlər) prosesi qlobal xarakter almağa başlamışdır.

Belə bir məsələyə şübhə etməmək olar ki, informasiyanın yüksək inkişaf etdiyi XXI əsr informasiyalaşdırmanı cəmiyyət həyatının bütün sahələrinə tətbiq etməklə, elmi-texniki tərəqqinin böyük vüsət almasında əhəmiyyətli yer tutacaq, iqtisadiyyatın, elm və mədəniyyətin tərəqqisində xüsusi mərhələ təşkil edəcəkdir.

Məhz bu mərhələdə insanların kompüter biliyinə yiyələnməsi və kompüterlə işləmək bacarığı mühüm amillərdən biri kimi ortaya çıxır. Cəmiyyətdə kompüterləşdirmə və informasiyalaşdırma mədəniyyətinin təbliği mühüm əhəmiyyət kəsb edir.

Bütün bunlar cəmiyyətin hər bir üzvünün qarşısında informasiya texnologiyasına yiyələnmək və bu texnologiyalardan istifadə

---

[1] *Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2004, № 3, s. 316*





etmək vərdişlərinin olmasını tələb edir. Bu isə informasiyalaşdırılmış cəmiyyətə keçmək üçün cəmiyyət üzvlərinin aşağıdakı imkanlara malik olmasını zəruri edir:

- əhalinin savadlılıq və təhsil səviyyəsinin yüksək olması;

- bütün ailələrdə qlobal informasiya şəbəkəsi olan İnternetə qoşulmuş fərdi (şəxsi) kompüterlərin olması;

- informasiya şəbəkələrində fəaliyyətin yeni forması və növünün meydana çıxması;

- şəbəkədə iş və ticarət, şəbəkədə istirahət, şəbəkədə əyləncə və yaradıcılıq, şəbəkədə tərbiyə və təhsil, şəbəkədə tibb və s.;

- cəmiyyətin hər bir üzvünün yaşadığı yerdən asılı olmayaraq ölkədə və xaricdə mövcud olan bütün informasiya mənbələrindən, müəssisələrdən, mərkəzlərdən istifadə etmək imkanının olması;

- dünya İnternet sisteminə qoşulmaqla ən yeni informasiyanı əldə edə bilməsi imkanlarının olması;

- kütləvi informasiya vasitələrinin fəaliyyətinə, informasiya mənbələrinin açılmasına diqqət yetirilməsi, onlarla informasiya orqanları arasında əlaqələrin genişlənməsinə, inteqrasiyasının təmin edilməsinə diqqət yetirilməsi;

- milli layihələrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində geniş təcrübə olması;

- ölkədə iqtisadi fəaliyyət və investisiyaların qoyuluşu üçün əlverişli şəraitin mövcud olması və s.

Göründüyü kimi, cəmiyyətin informasiyalaşdırılması üçün zəruri olan tələblər bu işin kor-koranə şəkildə deyil, vahid mərkəz - dövlət tərəfindən həyata keçirilməsini tələb edir. Belə ki, dövlət cəmiyyətin informasiyalaşdırılması prosesinə keçidin təmin olunmasında aparıcı rol oynayır.

Ümumiyyətlə, ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşdırılması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası, siyasi amillərə malik olan mürəkkəb prosesdir.

Onun müvəffəqiyyətli həyata keçirilməsinə cəlb olunan siyasi, inzibati, maliyyə, insan, texniki və s. resurslardan səmərəli istifadə olunmasını, prioritetlərinin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini təmin edir. Dövlət informasiyalaşdırılmış cəmiyyətə keçid üçün "katalizator" rolunu oynayır, onun reallaşması üçün maliyyə sərf edir və hüquqi bazasını yaradır.

Yeni eranın - XXI əsrin əvvəllərindən cəmiyyət industrial cəmiyyətdən informasiya cəmiyyətinə doğru inkişaf etməyə istiqamətləndi. Elm məhsuldar qüvvəyə çevrilməyə, elmi-texniki inqilab nəticəsində yeni, ən müasir istehsal sahələri formalaşmağa başladı.

Bütün bunlar informasiya daşıyıcılarının, ilk növbədə kitabın cəmiyyətdə rol və əhəmiyyətini artırmaqla kitabın nəşri və yayılması sahəsində ciddi nöqsanların olduğunu aşkara çıxardı, yeni ideya və istiqamətlərin meydana gəlməsini, mövcud şəraiti öyrənib ümumiləşdirmələr aparılmasını qarşıya qoydu.

İnformasiya cəmiyyətində sürətlə yeni biliklər, yeni istiqamətlər yarandığı kimi, köhnə biliklər və bu bilikləri əks etdirən kitablar sürətlə köhnəlməyə məruz qalırdı. Məhz bu biliklərin köhnəlməsi və yeniləşmə prosesi kitabxanaları dinamik olmağa, köhnələn kitablardan xilas olmağa, yeni bilikləri əks etdirən kitabları əldə etməyə istiqamətləndirirdi. Fikrimizi əsaslandırmaq üçün beynəlxalq təşkilatlar tərəfindən aparılmış sosioloji tədqiqatlara diqqət yetirək. Ədəbiyyat sosiologiyası üzrə beynəlxalq kollekviumda 1964-cü ildə aparılmış tədqiqatlara görə, oxucular keçən ildəki ədəbiyyatın 80%-ni, onillikdəki ədəbiyyatın 99%-ni unudurlar. Müəyyən müddətdən sonra 1000 kitabdan 10-u yaşayır və yalnız onlardan birinin ömrü əbədi olur. Akademik A.Mirzəcanzadə bu prosesi "biliyin mənəvi köhnəlməsi" kimi dəyərləndirirdi. Kitabxanalar və oxucular üçün maraqlı olan və kitabxanaların gələcək fəaliyyətini stimullaşdırmaq üçün böyük maraq doğuran bəzi maraqlı məlumatları diqqətdən keçirək.





Beynəlxalq təşkilatların sosioloji hesablamalarına görə, bəşəriyyət şifahi nitqdən yazılı nitqə 500 milyon ilə, əl yazmasından çap dəzgahına 1000 ilə, çap dəzgahından televizora isə 500 ilə keçmişdir. 1550-ci ildən 1950-ci ilə kimi, yəni 400 illik müddətdə dünyada 30 milyon adda kitab nəşr olunmuşdur. Dünyada baş verən elmi-texniki tərəqqi kitab nəşri sahəsində möcüzələr yaratdı. 30 milyon kitab nəşr etməyə artıq 4 əsr yox, əvvəlcə 1950-1975-ci illərdə 25 il, sonra isə 1975-1985-ci illərdə 10 il lazım oldu. Hal-hazırda isə elmi informasiyanın həcmi hər 5 ildə 2 dəfədən çox artır.[1]

Yuxarıda göstərdiyimiz möcüzəli rəqəmlər kitabın toplanmasında, qorunub saxlanmasında gələcək nəsillərə çatdırılmasında tarixi missiyasını yerinə yetirən kitabxanalar üçün qloballaşan dünyada baş verən inqilabi proseslərdə böyük əhəmiyyət kəsb edir. Kitabxanalar bu prosesdə yaxından iştirak etmək üçün öz işini yeni elmi əsaslar, informasiya cəmiyyətinin qarşıda qoyduğu tamamilə yeni tələblərə uyğun qurmalı, cəmiyyətin sürətli inkişaf tempi ilə ayaqlaşmalıdırlar.

Cəmiyyətin informasiyalaşdırılması prosesini yüksək səviyyədə təşkil etmək üçün bu işi ilk olaraq kitabxanalardan başlamaq lazımdır. Daha doğrusu, informasiyalaşdırılmış cəmiyyətin mahiyyəti və xüsusiyyətləri ilə ötəri tanışlıq belə bir qənaətə gəlməyə imkan verir ki, bu cəmiyyət informasiyanın ən mühüm daşıyıcısı olan kitab və kitabxanalarsız keçinə bilməz. Kitabxana informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından biri, informasiya müəssisələrinin ən mühüm vasitəsidir. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyət üçün əsas müəssisə olduğu kimi müasir kitabxanalar da informasiya texnologiyaları olmadan keçinə bilməz. Müasir kitabxanaların yaşaması, fəaliyyət göstərməsi, cəmiyyətdə kitabxanalara xas olan mühüm sosial funksiyaları yerinə yetirməsi, cəmiyyətin tərəqqi və inkişafının əsas vasitələrindən birinə çevrilməsi üçün onun özünün bütövlükdə informasiyalaşdırılması zəruridir. İnformasiyalaşdırılmış

[1] *Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixoloji problemlər. I B., 2008, s. 16-17.*

cəmiyyətə keçid prosesində kitabxanaların əsas vəzifəsi öz nəzəri və təcrübi səviyyəsinin yüksəldilməsinin daim qayğısına qalmalı, müasir cəmiyyətin, kitabxana oxucularının ən böyük ehtiyac hiss etdiyi informasiya istehsalını genişləndirməlidir.

İnformasiya əsri olan XX əsr müstəqil Azərbaycan Respublikası qarşısında çox mühüm, təxirəsalınmaz vəzifələr qoymuşdur. Bu vəzifələr hər şeydən əvvəl, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafının sürətlə, intensiv yüksəldilməsini, müdafiəsinin gücləndirilməsini, həmçinin Azərbaycançılıq fəlsəfi konsepsiyasının, milli ideologiyanın təbliğini tələb edir.

İnformasiya cəmiyyətinin qarşıda qoyduğu bu vəzifənin həyata keçirilməsində, bütün xalqımızla, bütün peşə sahibləri ilə yanaşı respublikamızın kitabxanaları və informasiya mütəxəssisləri də yaxından iştirak etməli, ölkədə cəmiyyətimizin, xalqımızın informasiyaya artan tələbatını ödəməkdə onların köməkçisi olmalıdır.

Cəmiyyətin inkişafının mühüm amili olan bilik ictimai nemətdir. Elmsiz, biliksiz cəmiyyət tərəqqi və inkişafdan məhrumdur. İctimai nemət olan biliklərin kitabxanalarda toplanması, kitabxanalar vasitəsi ilə xalqa çatdırılması kitabxanaların ən qiymətli xəzinə olmasını bir daha təsdiq edir.

Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanasız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olnunan müəssisəyə çevrilmişdir.

Keçmiş ABŞ prezidenti Corc Buşun belə bir fikri yerinə düşür: "Qüvvətli texnika ilə təchiz edilmiş Amerika kitabxanaları ABŞ-ın iqtisadiyyatında və demokratiyada dünya liderliyinin əsasıdır".[1]

---

[1] *Azərbaycan kitabxanaları: modernləşmə yolları axtarışında. B., 2003, s. 4*





Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olnuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyildir.

Kitab ilk növbədə milli sərvətdir. Milli sərvət olan kitablar onu yaradan xalqın milli sərvəti olmaqla yanaşı ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm bütün dünyaya məxsusdur. Mütəfəkkirlərin yaratmış olduğu elm, mədəniyyət tez bir zaman içərisində bütün bəşəriyyətin malına çevrilir. Bütün elmi nailliyyətləri əks etdirən kitablar ölməzdir. Dünyanın böyük şəxsiyyətlərinin, filosoflarının, alimlərin, yazıçı və şairlərinin yaratdığı sənət inciləri bilik mənbəyi olan kitablar böyük mütəfəkkirlərin ruhudur. Ruh isə ölməzdir. Min illər bundan əvvəl dünyanın dahi şəxsiyyətlərinin ölməz əsərləri bu gün də insanlara, onların elminə, təhsil və tərbiyəsinə, mədəni inkişafına xidmət edir. Kitabı dünya mədəniyyətinə bəxş edən insanların milli mənsubiyyətindən asılı olmayaraq, kitablar dünyanın bütün millətlərinə, bəşəriyyətə xidmət edir. Deməli, hər şey insanlara qalır. Kitablar da insanlara qalır və insanlığa xidmət edir.

İnformasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələr və texnoloji tərəqqi nəticəsində, ümumiyyətlə, kitabxana işi quruculuğunda, həmçinin fondların formalaşması prosesində ciddi islahatların baş verdiyi meydana çıxır. Bu islahatların aparılması qaçılmazdır. Çünki yeni zaman, yeni cəmiyyət özü ilə birlikdə yeni texnologiya, texnoloji tərəqqi, ümumiyyətlə, yeni inkişaf gətirir. Əgər kitabxanalar informasiya cəmiyyətinin qarşıda qoyduğu yeni islahatlarla ayaqlaşa bilməsə, öz sosial funksiyalarını yerinə yetirməkdə çətinlik çəkər, sosial institut kimi öz fəaliyyətini dayandıra bilər.

Doğrudur, hələ də cəmiyyətdə bu islahatların normal şəraitdə, dialektik inkişaf baxımından aparılmasına mane olan sağ və sol qüvvələr (kitabxanaçılar və informatiklər) vardır. Bu qüvvələr içərisində mən sağlar

adlandırdığım mühafizəkar kitabxanaçılar ancaq ənənəvi kitabxanaçılıqdan bərk-bərk yapışaraq cəmiyyətin informasiya tələbatının ödənilməsi şəraitində baş verən yenilikləri görmürlər, aparılması zəruri olan islahatlara qarşı çıxmağa çalışırlar, elektron kitabxanaçılıqdan yan keçməyə üstünlük verirlər. Bu isə yeniliyə qarşı çıxmaq, inkişafı görməməkdir. İkinci qrup sollar isə informatiklərdir. Bunlar isə ultra yeniciliklər, keçmiş təcrübəni qiymətləndirə bilməyən, yeni informasiya texnologiyasına aludə olan insanlardır. Onlar açıq-açığına ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitabxananın struktur quruluşunu dəyişməyə çalışır, kitabxananın bütün iş prosesini elektronlaşdırmağı təklif edirlər. Sola nüfuz edən belə mütəxəssislər də mən deyərdim ki, sağa meyl göstərənlərdən də təhlükəlidirlər. Onlar dərk etməlidirlər ki, 5 min illik tarixi təcrübəsi olan bəşəriyyətin yaddaşı olan kitabxanaların fəaliyyətinə son qoymaq ideyası heç də müasir cəmiyyət üzvlərinin böyük əksəriyyəti tərəfindən müsbət qarşılanmır.

XX əsrin ikinci yarısından geniş fəaliyyət sahəsi kimi inkişaf edib təkmilləşən informatika elmi də ənənəvi kitabxanaçılığın cəmiyyətin gələcək inkişafı üçün səmərəsizliyi haqqında elə əsaslı bir ideya irəli sürə bilmədi. Qloballaşan dünyada bu problemin həllinə ənənəvi kitabxanaçılıqla informasiyanın nailiyyətlərinin inteqrasiyası kimi baxılmağa daha çox səslər ucalmağa başladı. Bizcə, belə dünya baxışı daha səmərəli, müasir dünyanın inkişaf strategiyasına daha müqabil baxış ola bilər. Dünyanın inkişafı tarixinə nəzər saldıqda belə bir xüsusiyyət daha çox nəzəri cəlb edir ki, tarixən yaranmış, uzun əsrlər boyu fəaliyyət göstərən, bəşəriyyətin inkişafına böyük töhfələr verən dəyərləri məhv edib onun yerində hələ sınaqdan keçməyən mədəniyyət yaratmaq o qədər də asan deyildir. Qurulanı yıxmaqdansa, onu təkmilləşdirmək həm maddi, həm də mənəvi cəhətdən daha sərfəli ola bilər. Bu baxımdan son zamanlar informasiya cəmiyyəti şəraitində ənənəvi kitabxanaçılığa qarşı dünyada gedən proses daha dözümlüdür. Hiss edilmədən ənənəvi kitabçılığa, kitabxanaçılığa və ümumiyyətlə, kitaba münasibət müsbət mənada daha pozitiv xarak-





ter daşımağa başlayıb. Dünyanın böyük ölkələrində son dövrlərdə ənənəvi kitabxanaçılıqla elektron kitabxanaçılığın inteqrasiyasına, ənənəvi kitabxanaçılığın elektron vasitələrdən daha geniş və səmərəli istifadə edilməsinə diqqət yetirmək ön plana çəkilmişdir.

YUNESKO-nun informasiya cəmiyyətində kitabxanaların yeri haqqında bəyanatında "Kitabxana informasiya cəmiyyətinin ürəyidir"[1] fikrinin irəli sürülməsi bu dediklərimizə sübut deyildirmi?

Son zamanlar həm respublikamızda, həm də bütün dünyada kitabxana-informasiya xidmətinə, elə ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş elmi konfranslarda, seminarlarda, simpoziumlarda demək olar ki, bu problemin müzakirəsi gündəlikdən çıxıb, əsas məsələ kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri gündəmə gəlmişdir.[2] Kitabxana işinin bütün strukturunda yeniliklər baş verməyə, islahatlar aparmağa başlandı. İlk növbədə kitabxanaların avtomatlaşdırılması, kitabxana işi fəaliyyətinin kompüterləşdirilməsi, kitabxana işinin kompleksləşdirilməsindən başlamış, kitabların və digər sənədlərin, elektron vasitələrinin kitabxana qaydası ilə işlənməsi, kitabxana-uçot və hesabat işlərinin həmçinin kitabxana işinin canı olan oxuculara, tələbatçılara, hüquqi və fiziki şəxslərə kitabxana-informasiya xidmətinin kompüterləşməsi prosesi geniş meydan almağa, yeni iş üsulu və formaları, metodiki təminat sistemi meydana gəlməyə başladı.

Kitabxana fondlarında elektron nəşrlər, şəbəkə texnologiyası, elektron sənədlər əhəmiyyətli dərəcədə artmaqla, ənənəvi kitabxana fondlarını məzmunca zənginləşdirməklə kitabxana-informasiya infrastrukturunun inkişafını təmin etməyə başladı. Kitabxana fondlarında fiziki cəhətdən ona məxsus olmayan sənədlər axını başladı. İnternet

---

[1] *Бабасов С.А. Библиотека в контексте цивилизации и культуры. Библиотековедение. 2010 № 1стр.26*

[2] *Шрайберг. Я.Л. Библиотеки, электронная информация и меняющееся общества в информационном веке. Судак, Москва 2006, стр.9*

vasitəsi ilə elektron resursları ilə işləyən oxucu bunların haradan əldə edilməsini bilmir və heç maraqlanmır. Bütün bunlar gələcək kitabxana texnologiyasının innovasiyası kimi formalaşır.

Kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, sturuktur qruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Bütün bunlar bir daha təsdiq edir ki, ənənəvi kitabxanaçılıqdan imtina etmədən, yeniliyin, keçmiş ənənələrlə inteqrasiyasını yaratmaq, yeni kitabxana-informasiya texnologiyasını kitabxana işinə tətbiq etmək daha böyük iqtisadi səmərə verməklə bəşəriyyətin əsrlərlə topladığı kitabxanaçılıq təcrübəsini və ənənələrini qoruyub saxlayır. Amerika filosofu Djorji Santayaka hələ XX əsrin əvvəllərində ənənə məsələlərindən danışarkən demişdir: "Tərəqqinin əsasında baş verən dəyişiliklərdən daha çox ənənə durur. Kim ki, keçmişi yadda saxlamağa qadir deyil, onu təkrar etmək məcburiyyətindədir".[1]

İnformasiyalaşdırılmış cəmiyyət şəraitində bəşəriyyət əlinin və əqlinin fantastik əsəri olan İnternetin kitabxana işinə tətbiqi, kitabxanaların İnternet şəbəkəsinə qoşulması, onların həyatında yeni eranın başlanğıcı oldu. İnternet vasitəsilə bütün coğrafi sərhədlər yox olur, ölkələrin qanunları aradan çıxır, geosiyasi sərhədlərdə əhəmiyyətini itirir, bütün cəmiyyət üzvlərinə, bütün insanlara xidmət edən vahid informasiya məkanı meydana çıxır. Bu məkan hamı üçün açıqdır, bu məkandan istifadə etməkdə hamı bərabərdir.

İnkişaf etmiş ölkələr informasiya cəmiyyətinə, onun əldə etmiş olduğu imkanlara yüksək inkişaf etmiş cəmiyyətin əsas atributları kimi baxır, onu iqtisadi-mədəni inkişafın açarı kimi qəbul edir, XXI əsrin gələcəyini bu mühüm problemin həllində görür.

---

[1] *Шрайберг. Я.Л. Библиотеки, электронная информация меняющееся общества в информационном веке Судак, Москва 2006, стр.11*





Belə bir cəmiyyətin yaranması bütün vətəndaşların işidir. Bu cəmiyyət haqqında, onun mahiyyəti, əhəmiyyət və vəzifələri haqqında müntəzəm və ardıcıl olaraq cəmiyyət üzvlərinin bütün təbəqələri arasında məqsədyönlü, ardıcıl təbliğat və izahetmə işi aparılmalı, geniş tədbirlər həyata keçirilməlidir. Cəmiyyətin bütün təbəqələrini əhatə edən işlərin aparılması onların bu cəmiyyət haqqında dialoqa cəlb edilməsi, bu prosesin kütləvi xarakter alması üçün şərait yarada bilər. Nəticədə informasiyaı qəbul edib onu ötürməyi, ondan istifadə edib bəhrələnməyi, öz gündəlik fəaliyyətinə, yaşayış tərzinə, məişətinə tətbiq edən, ondan bəhrələnən insanlar qrupu formalaşır ki, bu da informasiyalaşmış cəmiyyətin bünövrəsini qoya bilər. Bu, insanların və cəmiyyətin çoxdan gözlədiyi bir dövrdür.

Müasir şəraitdə başlıca vəzifələrdən birini informasiya texnologiyası, onun inkişafı tutur. Elmi-texniki tərəqqinin inkişafı ilə ayaqlaşan informasiya texnologiyası olmadan, bütövlükdə informasiya işini avtomatlaşdırmadan, kompüterləşdirmədən, yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmadan, hər cür informasiyanın mərkəzi və saxlayıcısı olan kitabxanaları kompüterləşdirmədən informasiyalaşdırılmış cəmiyyətdən danışmaq olmaz.

Yeri gəlmişkən, Azərbaycanda informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanalar və onların kompüterləşdirilməsinin vəziyyəti ilə tanış olaq. Qeyd edək ki, informasiyalaşdırılmış cəmiyyətə keçidin kifayət qədər mürəkkəb və hərtərəfli proses olmasına baxmayaraq, Azərbaycanın mövcud şəraitində artıq bu prosesə keçid başlanıb. Daha doğrusu, xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da son onillikdə informasiyalaşdırılmış cəmiyyətin yaradıl-masına böyük diqqət yetirilir.

İnformasiyalaşdırılmış cəmiyyətin xarakterik cəhəti onun yalnız kitabxana, informasiya işçilərinin peşəkar mühitində deyil, həmçinin ictimai-siyasi xadimlər və dövlət rəhbərləri səviyyəsində olmasındadır. İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində müasir kitabxanalarımız informasiyanın toplanması, qorunması və yayılmasının

üsul və vasitələrini təkmilləşdirməklə yanaşı, modernləşmə də informasiyanın axtarışı və emalı vasitələrinə cəlb olunmalıdır. Şübhəsiz, İnternetə çıxışı olan kitabxanalar öz informasiya mənbələrinin sayının artması və istifadəçilərinin tələbatını ödəmək üçün böyük imkanlar əldə edir. Bununla yanaşı, ölkəmizdə kitabxanalar qarşısında elektron vasitələrdən istifadə ilə informasiya xidmətlərini (İnternet mərkəzlər, kütləvi informasiyanın elektron vasitələri) özündə birləşdirən xüsusi bölmələrin yaradılması problemi durur. Bu gün Azərbaycan kitabxanalarında yeni texnologiyaları tətbiq etmədən informasiyalaşdırılmış cəmiyyətə keçiddən danışmaq olmaz.

Ölkəmizdə aparılan uğurlu islahatların təməl daşını qoyan və onu uğurla davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev cəmiyyətin informasiya təminatında kitabxanaların işinə yüksək qiymət verərək deyir: "Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyaların tətbiqini zəruri edir".[1] Bu zərurət bəşər sivilizasiyasının inkişafı gedişinə güclü təsir göstərən informasiya sahəsində baş verən texnoloji inqilabdan doğur.

Kitabxanalarda yeni informasiya texnologiyalarının tətbiqi kitabxanaların qarşısında çox böyük perspektivlər açmaqla onların işində prinsipcə tamamilə yeni problemləri həyata keçirmək vəzifəsi qoymuşdur. Kitabxanalarda yeni informasiya texnologiyalarının tətbiqi kitabxanalarda aparılan ənənəvi iş prosesinə müdaxilə etmədən, kitabxana işinin təşkilinin əsas prinsiplərinin yenidən nəzərdən keçirilməsinə, kitabxana işinin inkişaf paradiqmasının dəyişməsinə şərait yaratmışdır. Zamanın tələbi kimi formalaşan bu müddəalar kitabxanadaxili iş prosesini və əhaliyə xidmət formalarını dəyişməli, onu daha perspektivli, daha faydalı forma və üsullarla əvəz etməlidir.

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. B., 2009, s. 124.*





Bütün dünyada kitabxana işi sahəsində baş verən bu proseslər, aparılan islahatlar qlobal xarakter daşıdığından, Azərbaycan kitabxanaları da tədricən bu prosesə qoşulmaqdadır. Respublikamızda son dövrlərdə baş verən böyük iqtisadi tərəqqi cəmiyyət həyatının bütün sahələrinə öz müsbət təsirini göstərdiyi kimi, respublikamızın kitabxana həyatından da yan keçməmişdir.

Bu gün Azərbaycan cəmiyyətində kitabxana işi prioritet istiqamətlərdən biri kimi qiymətləndirilməklə sosial rolu xeyli yüksəlmişdir. Kitabxanalarımızın ənənəvi maarifçilik, ideologiya, təbliğat xarakterli funksiyalarına indi milli və beynəlxalq informasiya şəbəkələrinə və məlumat banklarına müraciət etmək imkanı verən informasiya mərkəzlərinə xas olan funksiyalar da əlavə edilməkdədir. Bu mühüm vəzifələrin həyata keçirilməsində internetə qoşulan, internet şəbəkəsinə çıxışı olan, kompyuterləşən kitabxanalar daha böyük nəticələr əldə edirlər.

İnformasiya cəmiyyətində baş verən proseslər kitabxana işini xeyli mürəkkəbləşdirmiş, kitaxbanaların qarşısına tamamilə yeni vəzifələr çıxmış, onlar əvvəllər cəmiyyətdə mövcud olan, indi fəaliyyətini dayandırmış bir sıra mədəni-maarif və təbliğat müəssisələrinin işini də öz üzərinə götürməli, yaranmış boşluqları doldurmalıdırlar. Ancaq təəssüf ki, ənənəvi iş üsulu ilə işləməyə üstünlük verən bəzi kitab-xanalarımız kitabxanalar qarşısında duran vəzifələrin kəmiyyətcə çoxalmasını dərk etmirlər. Bu isə kitabxanalara müasir sosial funksiyaları tam yerinə yetirməyə imkan vermir. Kitabxanalarımız cəmiyyətdə baş verən yeni prosesləri, yeni vəzifə borclarını dərindən öyrənməli və bu vəzifələrin zəruriliyini hakimiyyət strukturları və müxtəlif cəmiyyətlər qarşısında qaldırmağı bacarmalıdırlar.

Kitaxbanalarımız hələ də maliyyə resurslarını əldə etməyin, oxuculara xidmət işini təşkil edərkən əlavə vəsaitlər əldə etməyin qaydalarını və formalarını müəyyənləşdirməyiblər. Müasir informasiya cəmiyyəti şəraitində kitabxana-oxucu və kitabxanaçı münasibətləri də müasir təfəkkür tərzi, yeniləşmiş dünya baxışı kontekstində öz həllini

gözləyir. Son zamanlar aparılan sosioloji tədqiqatlar göstərir ki, bütün dünyada olduğu kimi, respublikamızda da oxucuların sayı xeyli azalmışdır. Bunun əsas səbəbi insanlar arasında mütaliə marağının azalmasıdır. Kitabxanalar isə bu marağın azalmasının qarşısında öz gücsüzlüklərini göstərməkdədirlər. Bu isə hər şeydən əvvəl yeni, müasir tipli kitabxanaların təşkilini, yeni iş, forma və üsullarının tətbiqini tələb edir.

Respublikamızda informasiya cəmiyyətinin kitabxanaların qarşısında qoyduğu vəzifələrin həllində və kitabxana işində köklü islahatlar aparılmasında Azərbaycan Respublikası Prezidentinin 2008-ci il oktyabr tarixli 3072 saylı sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kitabxana işinin daha da inkişafı və təkmilləşdirilməsi sahəsində yeni mərhələnin başlanğıcı oldu. Bu proqram respublikamızda kitabxana işinə dair qəbul edilmiş ən əhəmiyətli dövlət sənədidir.

Hərtərəfli işlənmiş bu sənəddə müasir dünya kitabxanaçılığının son nailiyyətlərindən bəhrələnərək, respublikamızın şəraitinə, milli ənənələrimizə, milli mentalitetimizə əsaslanan gələcəyin kitabxanasının Azərbaycan modeli yaradılmışdır. Aşağıdakı bölmələrdən - Mövcud vəziyyət; Dövlət proqramının məqsəd və vəzifələri; Dövlət proqramının icrasının əsas istiqamətləri; Dövlət proqramının maliyyə mənbələri; Gözlənilən nəticələr və Dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planı bölmələrindən ibarət olan bu proqram demək olar ki, kitabxana işinin gələcək inkişafı dərin elmi araşdırmalardan, tədqiq və təhlildən keçəcək, elmi ümumiləşdirmələr nəticəsində proqramlaşdırılmış mühüm dövlət sənədidir.

Proqramda demək olar ki, informasiya cəmiyyəti şəraitində Azərbaycan kitabxanalarının vəzifələri, gələcək inkişaf istiqamətləri, informasiya cəmiyyətinin tələblərinə uyğun modelləşdirilməsi, dünya kitabxanalarının təcrübəsindən yaradıcılıqla bəhrələnməsi, qloballaşmanın tələblərinə müvafiq beynəlxalq əlaqələrinin genişləndirilməsi problemləri öz əksini tapmışdır.





Proqramın mühüm üstünlüklərindən biri kitabxana işinin respublikada gedən böyük inkişafla, regionlarda aparılan quruculuq işləri ilə əlaqələndirilməsidir. Proqramda kitabxana işinin elmi əsaslarla inkişaf etdirilməsi üçün kitabxanaşünaslığa dair elmi tədqiqatların və sosioloji araşdırmaların aparılmasına önəmli yer verilməsi də təqdirəlayiqdir.

Sənədin ən çox diqqəti cəlb edən, proqram yerinə yetirilərkən gözlənilən nəticələr bölməsi hər bir kitabxana və kitabxanaçı üçün olduqca böyük praktiki əhəmiyyət kəsb edir. Bölmədə əldə edilə biləcək nəticələr məntiqi, elmi ardıcıllıqla, kitabxanaların inkişaf perspektivləri, cəmiyyətdə tutduqları mövqe və rol yuksək peşəkarlıqla şərh edilmişdir. Bölmədə irəli sürülən elmi müddəaları dərk etmək, onu ardıcıllıqla öz praktiki fəaliyyətinə tətbiq etmək hər bir kitabxana üçün gələcəyə açılan qapıdır. Bu qapıya maneəsiz daxil olmağın əhəmiyyətini nəzərə alaraq bölmənin əsas mətnini kitaba daxil etməyi lazım bildik.

Proqramda deyilir:

- «Azərbaycan Respublikasında fəaliyyət göstərən kitabxanaların fondlarının müasir informasiya daşıyıcıları ilə tam komplektləşdirmə mexanizminin yaradılması və bu işin davamlı şəkildə inkişaf etdirilməsi;

- xüsusi ilə dəyərli, nadir əhəmiyyətli kitab və sənədlərin surətlərindən respublika sığorta fondunun və Azərbaycan kitabının toxunulmaz fondunun təşkkil edilməsi;

- Respublikanın milli-mədəni irsinin qorunması, elektron informasiya daşıyıcıların köçürülməsi və nəsildən-nəsilə çatdırılması, qiymətli və nadir nəşrlərin dövlət reyestrinin hazırlanması;

- kitabxana fondlarında saxlanılan müxtəlif qrafikada nəşr olunmuş qiymətli əsərlərin əlifbalarının konvertasiya olunaraq oxucuların istifadəsinə verilməsi, azərbaycanşünaslığa aid fondların zənginləşdirilməsi;

- fövqəladə hallara hazırlığın yaxşılaşdırılması;

- dünya informasiya sistemində Azərbaycan kitabxana resurslarının təbliği və beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi;

- əhalinin bütün təbəqələrinə kitabxana xidmətinin dairəsinin genişləndirilməsi, səmərəliliyinin artırılması, informasiyasızlığın və rəqəmsal uçurumun aradan qaldırılması;

- mövcud ştat vahidləri çərçivəsində respublika kitabxana informasiya şəbəkəsinin təkmilləşdirilməsi, kitabxanaların birləşdirilməsi və yenidən təşkili prosesinin həyata keçirilməsi, qənaət edilmiş vəsait hesabına əhaliyə səyyar xidmətin göstərilməsi;

- kitabxana sisteminin maliyyələşdirilməsinin təkmilləşdirilməsi məqsədilə bu sahəyə ayrılan vəsaitin yeni iqtisadi münasibətlərə uyğun rasionallaşdırılması, subyektiv amillərin aradan qaldırılması, təminat normativinin maliyyələşdirmə prinsipi ilə müəyyən edilməsi, büdcədənkənar gəlirlərin artırılması;

- Respublikada fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi və kitabxanaların müasir informasiya texnologiyaları ilə təmin edilməsi».[1]

Proqramın "Gözlənilən nəticələr" bölməsinin dərindən öyrənilməsi yaxın gələcəkdə kitabxana işinin proqnozlaşdırılması və müəyyən ardıcıllıqla görüləcək işlərin planlaşdırılması üçün kitabxana ictimaiyyətinə əsaslı bilgilər verir. Kitabxanalar öz işlərinin nəticələrini qabaqcadan görmək imkanı əldə etməklə, cəmiyyətdə gedən inkişaf prosesinə qoşulmaq, böyük əhəmiyyət kəsb edən bu prosesin iştirakçısı olmaq şəraitini yaradır.

Qanunda öz əksini tapmış bu böyük elmi-praktiki əhəmiyyətə malik müddəalar ənənəvi kitabxana işini rədd etmədən onu daha da təkmilləşdirən, yeni forma və metodlarla tamamlayan, müasir dövrün tələblərinə uyğun modernləşdirən, yeni mahiyyət kəsb edən kitabxana-informasiya mühiti formalaşmasını təmin edir.

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. B., 2009, s. 134-135.*





Beləliklə, müasir informasiya cəmiyyəti şəraitində kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi cəmiyyətin inkişafında baş verən proseslərdə yaxından iştirak edən sosial institut imicini qoruyub saxlamaqla daha da irəliyə getmiş, ölkənin intellektual səviyyəsinin yüksəlməsinə xidmət edən bir mərkəzə çevrilmişdir.

Kitabxanalar həmçinin yeni mərhələdə də əsas sosial vəzifəni - bəşəriyyətin mənəvi yaddaşını, millətin sosial yaddaşını toplayıb saxlayan, onu nəsildən-nəsilə ötürən, milli-mədəni dəyərləri, azərbaycançılıq fəlsəfi konsepsiyasını təbliğ edən, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəyən, beləliklə də, cəmiyyət üzvlərinin maddi və mənəvi həyatının yüksəldilməsinə hər vasitə ilə kömək edən sivilizasiyanın hərəkətverici qüvvəsi kimi qalmaqdadır. Həmçinin yeni dövr kitabxanalarının qarşısında kitabxana-informasiya texnologiyasını kitabxana işi proseslərinin bütün sahələrinə tətbiq etməklə, oxucularda informasiya mədəniyyətini tərbiyə etmək kimi çox mühüm vəzifə qoymuşdur.

Yuxarıda göstərdiklərimiz bir daha təsdiq edir ki, müasir informasiya cəmiyyəti şəraitində kitabxanaların informasiyalaşdırılması zamanın tələbidir. Bu tələbi dərk etmək və yerinə yetirmək hər bir kitabxananın və kitabxanaçının vəzifə borcudur. Sevindirici haldır ki, son zamanlar respublikamızda bu mühüm məsələyə dair aparılan sosioloji tədqiqatlar ölkə kitabxanalarının bu problemi düzgün qiymətləndirməsini aşkara çıxarmışdır.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində Azərbaycan kitabxanalarının avtomatlaşdırılması vəziyyətini öyrənmək məqsədilə Dövlət İdarəçilik Akademiyasının Elmi Kitabxanası və Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun dəstəyi ilə "Kitabxanalar - mədəni inteqrasiya ideyalarının daşıyıcılarıdır" layihəsi çərçivəsində respublika kitabxanaları üçün böyük əhəmiyyət kəsb edən sosioloji tədqiqat aparmışdır. Bu tədqiqatlar nəticəsində kifayət qədər maraqlı faktlar ortaya çıxmışdır.

Belə ki, sosioloji sorğu materiallarına əsasən, respondentlərin böyük hissəsi hesab edir ki, kitabxanaların fəaliyyətinin prioritet istiqaməti ilk növbədə onların avtomatlaşdırılması olmalıdır. Burada maraqlı fakt ondan ibarətdir ki, bu istiqamətdə bölgələrdə aparılan sorğunun faiz göstəricisi Bakıya nisbətən daha yüksəkdir. Məsələn, Bakıda və respublikanın digər şəhərlərində bu göstərici 53,2 və 60 faiz olduğu halda, bölgələrdə bu rəqəm 61,1 faizdir. Bu kontekstdə rəyi soruşulanların 57.9 faizi yeni informasiya texnologiyalarının tətbiqini kitabxana fəaliyyətinin əsas istiqamətlərindən sayır. Kitabxanaların fəaliyyətinin strukturuna yeni informasiya texnologiyalarının tətbiqini respublika tabeçiliyində olan şəhərlərdə respondentlərin 90.6 faizi, kənd rayonlarında 74 faizi, Bakıda 64.2 faizi dəstəkləyir.[1]

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, dünyada bütün dəyişikliklər və yeniləşmələrlə xarakterizə olunan müasir informasiya cəmiyyəti şəraitində kitabxanalar əhaliyə kitabxana - informasiya xidməti təşkil edərkən ancaq ənənəvi xidmət üsulları ilə kifayətlənə bilməz. Kitabxanalar cəmiyyətin tələbatına müvafiq informasiya texnologiyasına yiyələnməli, informasiyanın son nəaliyyətlərindən, elmi-təcrübi nəticələrdən istifadə edərək avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərindən - proqramlarından istifadə etməklə kitabxana işini kompleks halda kompüterləşdirməlidir. Əlbəttə, kitabxana işinin kompüterləşdirilməsi olduqca mürəkkəb bir proses olduğundan onu dərhal həyata keçirmək çox çətindir.

Məhz buna görə də, kitabxanaların qarşısında duran bu çətinlikləri müvəffəqiyyətlə dəf etmək, daxili imkanlardan istifadə edərək, bu mühüm dövlət əhəmiyyətli bir işi həll etmək üçün daxili imkanlardan istifadə edərək təcili tədbirlər görmək zərurəti qarşıya çıxır. Bu məqsədlə kitabxanaların rəhbərliyi ən optimal variant seçib dünya birliyində, qonşu dövlətlərdə tətbiq edilən avtomatlaşdırılmış kitabxana informasiya sistemlərindən istifadə etməlidirlər. Bu

[1] *Azərbaycan kitabxanaları: modernləşmə yolları axtarışında. B., 2003, s. 29*





sistemlər seçilib tətbiq edilərkən kitabxanaların tipləri, növləri və oxucu kontingenti nəzərə alınmalı, kitabxanalar qruplaşdırılmalıdır. Kitabxanalar qruplaşdırılarkən, onların maliyyə imkanları, həmçinin kadr potensialı da nəzərə alınmalıdır.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində yaxından iştirak edən bir neçə kitabxananın kompüterləşdirilməsi vəziyyəti haqqında qısaca məlumat verək. **Bakı Dövlət Universitetinin Mərkəzi Elmi Kitabxanası** respublikamızın kitabxanaları içərisində kompüterləşmə problemini həyata keçirməyə çalışan ilk kitabxanalardan biri olmuşdur. Bu mühüm işdə professor A.A.Xələfovun təşəbbüsü və rəhbərliyi altında 2000-ci ildə Kitabxanaşünaslıq kafedrasının nəzdində təşkil edilən «Kitabxanaların kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasının çox böyük rolu olmuşdur. Laboratoriyada Qafqazda ilk dəfə olaraq vahid virtual Azərbaycan elektron kitabxana şəbəkəsinin yaradılmasının elmi istiqamətləri üzərində işlənilməyə başlanmış və «Kitabxana-1.0» Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) yaradılmışdır. Daha sonra «Kitabxana-1.0» AKİS-nin təkmilləşdirilmiş «Kitabxana-2.0» versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirirdi. Bu AKİS-lər 90-cı illərdə qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmirdi.

Buna görə də 2003-cü ildən etibarən BDU-nun elektron kataloqunun yaradılmasında keçmiş MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan «MARC-Sql-1,5», daha sonra isə «İRBİS-64» proqramını tətbiq etməyə başladılar. Bu proqramlar kitabxananın elektron kataloqunun yaradılmasını, kitabxana fondunun komplektləşdirilməsini və uçotunu, abonoment, axtarış-məlumat xidmətini avtomatlaşdırır, İnternet şəbəkəsi vasitəsilə oxucuların uzaq

məsafədən on-line ədəbiyyat axtarışı və sifarişini təmin edir. AKİS biblioqrafik məlumat bazasının UNIMARC və RUSMARC formatlarında hazırlanmasını təmin edir ki, bu da Elmi Kitabxanaya biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə və bunun əsasında əlavə maliyyə mənbələrinin əldə olunmasına imkan verir. Onu da qeyd edək ki, laboratoriyanın əməkdaşları tərəfindən UNIMARC formatı Azərbaycan dilinə tərcümə olunmuş və onun tətbiqinə kömək məqsədilə nümunələr hazırlanmışdır. Laboratoriya yarandığı vaxtdan Elmi Kitabxananın elektron kataloqunun yaradılması üzərində işlər aparmış və bütün bunlar müsbət nəticələnmişdir.

Hal-hazırda elektron kataloqun məlumat bazasının yaradılmasında laboratoriyanın əməkdaşları ilə bərabər, kitabxananın işçiləri də məşğul olurlar.

Artıq Elmi Kitabxananın «Nadir kitablar fondu»ndan 15920 adda kitab, «Dissertasiyalar və avtoreferat» fondundan 3290 adda dissertasiya rus dilində, 580 adda Azərbaycan dilində, «Xarici ədəbiyyat və dövri mətbuat» şöbəsində isə bütün elm sahələr üzrə müxtəlif xarici dillərdə (ingilis, alman, fransız və Qərbi Avropa dillərində) 1942 jurnal (son illərin nəşrləri), texniki elm sahələrinə aid rus dilində 15930 jurnal, humanitar elmlərə dair 12361 jurnal, Azərbaycan dilində 976 jurnal elektron kataloqa daxil edilmiş və oxucuların istifadəsinə verilmişdir.

Həmçinin laboratoriyanın işçiləri kitabxananın rus dilində sistemli kataloqunda kimya elminə aid olan 11037 adda kitabı elektron kataloqa daxil etmişdir. Hazırda biologiyaya aid kitablar elektron kataloqa daxil edilməkdədir. Kitabxananın fondunda Azərbaycan dilində olan bütün kitablar, həmçinin nadir xarici ədəbiyyat və dövri mətbuat fondu bütünlüklə elektron kataloqa daxil edilmişdir. Azərbaycan dilli dövri mətbuat fondu və rus dilində təbiət və texniki ədəbiyyat fondunun biblioqrafik məlumat, informasiya-sorğu bazası yaradılaraq elektron kataloqa əlavə edilmişdir.





BDU-nun Mərkəzi Elmi Kitabxanasının elektron kataloqu və elektron kitabxanası İnternetdə, BDU-nun rəsmi www.bsu.edu.az saytında yerləşdirilməsi sayəsində oxucular kitabxananın fondunda sənəd axtarışını evdən, iş yerindən və hətta başqa şəhərdən həyata keçirə bilərlər.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində **AMEA-nın Mərkəzi Elmi Kitabxanası** da yaxından iştirak edir. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) 2002-ci ildə «Kitabxana proseslərinin avtomatlaşdırılması» şöbəsi fəaliyyətə başlamışdır. Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılması və kompüterləşdirilməsini qarşısına məqsəd qoyan bu şöbə qısa zaman kəsiyində ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompüterləşdirilməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitlə uyğun qurmağa müvəffəq olmuşdur. İlk əvvəl şöbə kitabxana-informasiya işi sahəsində avtomatlaşdırılmış kitab-xana-informasiya sisteminin tətbiqini həyata keçirir, kitabxanada iş proseslərinin avtomatlaşdırılmasını Rusiya istehsalı olan «İRBİS-64» avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəsilə reallaşdırır.

Kitabxananın elektron kataloqunun yaradılması ənənəvi kartoçka kataloqunun maşınla oxunan formaya keçirilməsi əsasında həyata keçirilir. «Azərbaycan dilində elmi ədəbiyyatın elektron kataloqlarının yaradılması» işi üzrə Azərbaycan dilində cari ədəbiyyatın biblioqrafik təsviri və elektron kataloqa daxil edilməsi mərhələsi başlanmışdır ki, bunun nəticəsində də elektron kataloqa 5400 adda yeni kitabın biblioqrafik yazısı daxil edilmişdir. MEK-in elektron kataloquna hələlik yalnız cari və qismən retrospektiv ədəbiyyat daxil edilir. Kitablar bir qayda olaraq yazıldıqları dildə elektron kataloqda öz əksini tapır. Daha dəqiqi, MEK-in elektron kataloqundakı təsvirlər yeddi: Azərbaycan, rus, ingilis, fransız, fars, ərəb və türk dillərindədir. Proqram təminatı UTF-8 kodlaşmasını dəstəklədiyi üçün burada fars və ərəb şriftləri ilə bərabər, heroqliflər, Çin və yapon dillərində də təsvirlər mümkündür.

Elektron kataloqa daxil edilən təsvirdə müəllif, sərlövhə, müəllif işarəsi, nəşr ili, səhifə, illüstrasiya, həcm, cild və s. məlumatlar əks olunur. Daxil olan hər bir ədəbiyyat «Kataloqlaşdırıcı» AİY-nin bloklarındakı bazalar uyğun bölünür. «Azərbaycanda neft» elektron göstəricisinin məlumat bazası yaradılmışdır və orada Azərbaycanda neft sənayesinin tarixini, müasir vəziyyətini və perspektivlərini əhatə edən müxtəlif dillərdə 1500 adda sənədin elektron kataloqu yaradılmışdır. Bunlardan 120-nin isə tam mətni hazırlanaraq elektron kitabxanaya daxil edilmişdir. Həmçinin «Azərbaycan Milli Elmlər Akademiyasının alimləri. Humanitar və ictimai elmlər» adlı elektron biblioqrafik göstərici Azərbaycan, rus və ingilis dillərində hazırlanmışdır.

Ümumiyyətlə, Mərkəzi Elmi Kitabxananın elektron kataloqundan www.csl-az.com internet ünvanına daxil olub sistemdə qeydiyyatdan keçərək istifadə edilir. Qeydiyyatdan keçməmiş istifadəçi elektron kataloqdan istifadə edə bilməz.

"Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsi tərəfindən Azərbaycanda ilk dəfə olaraq «Kitabxana axtarış portalı» (İndiki adı «Kitabxana informasiya portalı») hazırlanıb. Portal özündə «kitabxana ilə bağlı bütün informasiyaları əks etdirir. 2004-cü ilin ikinci yarısında avtomatlaşdırma şöbəsinin əməkdaşları Şərqdə ilk dəfə olaraq İnternet saytlarının biblioqrafik göstəricisi olan «Veblioqrafiya» hazırlayıblar. Sözügedən veblioqrafiya 10 cilddə nəzərdə tutulan nəşrin birincisidir. Bu veblioqrafiyada dünya kitabxanalarının saytlarının ünvanları əks olunmuşdur. Gələcəkdə dünyanın ədəbiyyat, tarix, hüquq və s. saytlarının da veblioqrafiyasının yaradılması nəzərdə tutulmuşdur. Veblioqrafiyanın bir neçə nüsxəsi ölkəmizin hüdudlarından kənarda belə (Çexiya Respublikası, Litva, Gürcüstan və s.) xüsusi maraqla qarşılanmışdır.

İnformasiyalaşdırılmış cəmiyyətə keçid şəraitində **M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının** iş təcrübəsi böyük maraq doğurur. Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan VTLS-VIRTUA sistemi üzrə həyata keçirilən kitabxana proseslərinin avtomatlaşdırılması, oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanılmasına şərait yaradan və onların təkrar istifadəsinə imkan verən avtomatlaşdırılmış sistem tətbiq olunur.

2000-ci ildə Milli Kitabxana ABŞ səfirliyinin, SOROS və Avrasiya fondlarının maliyyə dəstəyi ilə ABŞ-ın VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VIRTUA proqramını layihə çərçivəsində əldə etmişdir. Üç illik hazırlıq işləri aparıldıqdan, beynəlxalq treninqlər keçirildikdən və lazımi mütəxəssislərin hazırlanması prosesi başa çatdıqdan sonra 2003-cü ildə elektron kataloqun tərtibi işlərinə başlanılmışdır. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir.

2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir. Lakin bütün bunlar külli miqdarda vəsait tələb etdiyindən, işlər müvəqqəti olaraq dayandırılmışdır. Xeyli hazırlıq və təcrübi işlər aparıldıqdan sonra 2006-cı ilin mayında Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur.

Milli kitabxanada elektron kataloqun yaradılması işi ilə «Elektron resursların yaradılması» şöbəsi məşğul olur. Elektron kataloqun məlumat bazasına ədəbiyyat 3 mənbədən daxil olur: 1) kitabxanaya daxil olan yeni ədəbiyyat; 2) arxiv şöbəsinə toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat; 3) kitab verilişi məntəqəsində oxucular tərəfindən qaytarılan və daha çox tələb olunan ədəbiyyat.

Elektron resursların yaradılması şöbəsi tərəfindən artıq 32986 adda Azərbaycan və rus dilində olan cari ədəbiyyatın biblioqrafik yazısı yaradılaraq elektron kataloqun məlumat bazasına daxil edilib. Ümumiyyətlə, bu günə kimi 94757 biblioqrafik yazı, 267142 nüsxə ədəbiyyat elektron kataloqa daxil edilmişdir. Artıq 300-ə yaxın kitabın tam mətnini, 8 dövri mətbuat nömrəsini elektron kitabxanaya yerləşdirmişdir.

Milli Kitabxananın elektron kataloqundan istifadə etmək üçün www.anl.az saytına daxil olaraq kitabxananın şöbələrinin adları əks olunan siyahıdan «elektron kataloq» sətrinin üzərində düyməni sıxaraq elektron kataloqa daxil olmaq olar. Elektron kataloqdan bir neçə axtarış növü üzrə - 1) sadə axtarış; 2) kombinasiya edilmiş axtarış; 3) başlıqların açar sözü üzrə axtarış; 4) xarici məlumat bazalarından axtarış aparmaq olar.

Respublikamızın kitabxanalarında oxuculara xidməti yeni forma və üsullarının axtarışı, müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanasında** aparılan işlər daha diqqətə layiqdir. İctimaiyyət arasında Prezident Kitabxanası kimi tanınan bu mədəniyyət ocagında ölkəmizdə ilk dəfə fundamental elektron kitabxana yaradılmış, avtomatlaşdırılmış kitabxana proqramı və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir.

Müstəqillik illərində bütün sahələrdə oldugu kimi, Azərbaycan Respublikasının mədəni həyatında da bir çox mühüm hadisələr baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası (Prezident Kitabxanası) və Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası (Parlament Kitabxanası) yaradıldı. Hər iki kitabxana Azərbaycanın dövlət müstəqilliyinin hədiyyəsidir. Müstəqil dövlətlərin atributları sırasında prezident kitabxanaları və parlament kitabxanaları mühüm yer tutur. Belə kitabxanalar öz statusu etibarilə dövlət kitabxanaları hesab olunurlar.

Kitabxana 2003-cü ildə Bakı şəhərinin iki zəngin kitabxanasının – Mərkəzi Şəhər Kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti Işlər Idarəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında təşkil edildi.

Hazırda kitabxananın binası müasir Şərq memarlıgı üslubunda və tikinti texnologiyasının son nailiyyətləri əsasında yüksək zövqlə





təmir edilmiş, dünya standartlarına cavab verən kitabxana binası halına gətirilmişdir. Kitabxana ancaq Prezident Aparatının işçiləri üçün deyil, bütün oxucuların üzünə açıldı ki, bu da respublikamızda müstəqillik dövründə kitabxana işinin demokratik əsaslar üzərində qurulmasına bariz sübutdur.

Burada incəsənət ədəbiyyatı, böyük oxu, xüsusi, elektron resurslar, neft və elmi-kütləvi ədəbiyyat, nadir kitablar salonları və müxtəlif mədəni-kütləvi tədbirlər, mühazirələr, elmi seminarlar, dəyirmi masalar, görüşlər, mətbuat konfransları, sərgilər, disputlar, təqdimatlar keçirmək üçün 100 nəfərlik konfrans salonu yaradılmışdır. Iki kitabxananın kitab fondunun birləşdirilməsi nəticəsində kitabxananın olduqca zəngin və nadir fondu var.

Kitabxana oxucuların arzu və sorgularını nəzərə alaraq geniş dövri mətbuat fondu yaratmaga nail olmuşdur. Azərbaycanda nəşr edilən dövri mətbuatla yanaşı, xarici dövri mətbuatın da alınması fondun əhəmiyyətini artırmışdır. Hazırda bu fondda 200 addan artıq qəzet və jurnal komplekti toplanır. Kitabxana qarşısında Azərbaycan Respublikası Prezidenti Icra Aparatının və digər mərkəzi icra orqanlarının, həmçinin iqtisadiyyatın, mədəniyyətin müxtəlif sahələrində çalışan görkəmli alimlər, mütəxəssislər, yaradıcı ziyalılar üçün kitabxana-biblioqrafiya və informasiya bazası yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana işini kompüterləşdirmək kimi çox mühüm bir vəzifə qoyulmuşdur. Kitabxana, həmçinin Azərbaycan dövlətçiliyinin, milli ideologiyanın, azərbaycançılıgın təbligat mərkəzi kimi ümummilli lider Heydər Əliyev irsinin toplanıb saxlanmasında və təbligində mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev 2003-cü ilin dekabrında Cenevrədə informasiya cəmiyyəti problemlərinə həsr edilmiş ümumdünya sammitindəki çıxışında ölkəmizdə informasiya texnologiyalarının inkişafını dövlətimizin prioritet vəzifələrindən biri elan etmişdir. Məhz buna görədir ki, dövlət kitabxanası kimi fəaliyyətə

başlayan Prezident Kitabxanası öz işini müasir dünya standartlarına cavab verə biləcək səviyyədə qurmaq üçün avtomatlaşdırılmanı ön plana çəkmiş, avtomatlaşdırılmış sistem tətbiq etmişdir. Kitabxana bu məqsədlə geniş araşdırmalar aparmış, dünya kitabxanalarında tətbiq edilmiş sistemləri öyrənmiş, respublikamızın şəraitinə, xüsusilə kitabxananın öz şəraitinə və profilinə uygun olan sistem seçmişdir.

Kitabxana öz daxili imkanlarını, avtomatlaşdırılmış sistem tətbiqinin səmərəliliyini nəzərə alaraq 2004-cü ilin may ayında MDB məkanında geniş yayılmış IRBIS-64 sistemini tətbiq etmişdir. Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasında yaradılmış bu sistem hazırda Rusiyanın və bir sıra xarici ölkələrin 1000-dən çox kitabxanasında müvəffəqiyyətlə tətbiq edilməkdədir. Kitabxanalarda tətbiqi və istifadə baxımından olduqca sadə olan bu sistem bütün beynəlxalq standartlara cavab verir. Sistem həmçinin beynəlxalq biblioqrafik standartlara və formatlara uygunlaşdırılmışdır. Bu sistemin qəbul edilməsi kitabxananın kompleks kompüterləşdirilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına şərait yaratmışdır. Prezident Kitabxanası respublikamızda IRBIS sistemini ilk dəfə tətbiq edən kitabxana oldugundan, hazırda bu sahədə böyük təcrübə toplamışdır. Prezident Kitabxanasının mütəxəssisləri bu sistemi sonradan tətbiq edən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının, eləcə də Mədəniyyət Nazirliyi sisteminə daxil olan şəhər və rayon mərkəzi kitabxanalarının əməkdaşlarına proqram tətbiqi işində hərtərəfli yardım edirlər. Hazırda mədəniyyət və təhsil nazirlikləri də öz kitabxana şəbəkələrində IRBIS sisteminin müxtəlif variantlarını tətbiq etməyə başlamışlar. Respublikamızda bu sistemin geniş surətdə tətbiqi ölkəmizdə kitabxana işinin əlaqələndirilməsi üçün geniş perspektivlər aça bilər.

Hazırda bu sistem vasitəsi ilə kitabxananın aldıgı yeni ədəbiyyat elektron kataloqa daxil edilir, dövri mətbuat materiallarının biblioqrafik təsvirinin elektron kartotekası yaradılır, bütün kitabxana prosesləri avtomatlaşdırılır. Elektron kataloqdan, biblioqrafik nəşrlərin elektron





kartotekasından və məlumat bülletenlərindən kitabxananın "Web" səhifəsi vasitəsi ilə də istifadə etmək olar. Xüsusi oxucu qruplarına elektron poçt vasitəsilə də kitabxana-informasiya xidməti göstərilir. Prezident Kitabxanası bu proqram vasitəsilə respublikada ilk dəfə oxucuya məsafədən xidmət etməyə başlamışdır.

Kitabxanada "Elektron resurslar oxu salonu" yaradılmışdır. 15 oxucu yeri və Internetə daimi çıxışı olan bu salonun xidmətindən oxucular hərtərəfli faydalana bilərlər. Qısa müddətdə əməkdaşlarımızın hazırladıgı 11 adda tammətnli elektron nəşr (resurs), 7 adda elektron-biblioqrafik nəşr, 4 prioritet mövzu üzrə elektron-məlumat bülletenləri, müxtəlif mövzularda elektron kitablar bu salonda oxucuların istifadəsinə verilmişdir.

İstifadəçilərin böyük maragına səbəb olan və müxtəlif yönlü axtarışa xidmət edən tammətnli elektron nəşrlər (resurslar) barədə oxuculara daha ətraflı məlumat vermək istəyirəm. İlk dəfə olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən prezidentliyi dövründə bütün nitqlərinin, məruzələrinin, çıxışlarının, müsahibələrinin mətnlərinin elektron variantı hazırlanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2003-cü ilin oktyabr ayından etibarən bütün nitqlərinin, məruzələrinin, çıxışlarının və müsahibələrinin də tammətnli elektron nəşri hazırlanmışdır. "Sabitlik və dinamik inkişaf ili" adlanan tammətnli elektron nəşrdə Prezident İlham Əliyevin birillik fəaliyyətinin xronikası (oktyabr 2003 – oktyabr 2004) öz əksini tapmışdır. "Əsrin müqaviləsi — 10 il", "İlham Əliyev və Azərbaycanın neft diplomatiyası" adlanan tammətnli nəşrlər də ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən Azərbaycanın neft strategiyasına, indiyədək imzalanmış neft müqavilələrinə, Azərbaycan neftinin dünya bazarlarına nəqli ilə baglı keçirilən rəsmi görüşlərə, təntənəli mərasimlərə, Dövlət Neft Fonduna dair materiallar toplanmışdır. "Xoş məramlı səfir" adlanan tammətnli nəşrdə isə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoş

məramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinə dair materiallar verilmişdir.

Xalqımızın başına gətirilən faciələrin xronikası "Əsrin faciəsi – Xocalı soyqırımı" və "Dağlıq Qarabağ münaqişəsi" tammətnli nəşrlərdə tam dolgunluğu ilə əhatə olunmuşdur. "Azərbaycan diasporu" adlanan digər tammətnli nəşrdə diasporumuzun yaranma tarixçəsinə, Dünya azərbaycanlılarının forumlarına, Həmrəylik Gününə, diaspor təşkilatlarına dair rəsmi materiallar və məqalələr öz əksini tapmışdır. Yerli özünüidarə orqanı olan bələdiyyələrə dair materiallar "Bələdiyyə hakimiyyəti" adlanan tammətnli elektron nəşrdə cəmləşmişdir.

Kitabxanada həmçinin elektron biblioqrafik - informasiya göstəriciləri tərtib edilir. Belə göstəricilərdən "Azərbaycan Respublikasının Prezidenti: gündəlik fəaliyyətin xronikası" (rüblük), "Azərbaycanı dünyaya tanıdan lider", "İlham Əliyev. Azərbaycanın neft diplomatiyası", "Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları" (rüblük), "Azərbaycan Respublikasının qanunları" (rüblük), "Yeni kitablar"(rüblük) biblioqrafik nəşrləri göstərmək olar. Yuxarıda göstərilən göstəricilər və kitabxananın tərtib etdiyi digər nəşrlərlə Internet vasitəsilə də tanış olmaq mümkündür.

Kitabxana-informasiya xidmətini daha da təkmilləşdirmək məqsədi ilə azərbaycanşünaslıq, yeni kitabxana-informasiya texnologiyasının tətbiqi və biblioqrafik-analitik nəşrlərlə iş üzrə qruplar yaradılmış və ən təcrübəli, xidmət prosesini yaxşı bilən mütəxəssislər cəlb edilmişdir. Bu qrupların qarşısına ənənəvi kitabxana xidməti ilə yanaşı, yeni kitabxana-informasiya texnologiyalarını və metodlarını tətbiq etmək vəzifəsi də qoyulmuşdur.

Müstəqillik əldə etdikdən sonra dövlətçilik tariximizin, azərbaycanşünaslığın öyrənilməsinə, xüsusi ilə onun iqtisadi, sosioloji və politoloji aspektlərinin dərindən tədqiq edilib öyrənilməsinə böyük tələbat yaranmışdır. Oxucular Azərbaycan tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, elmin müxtəlif sahələrinə dair əsərlərə və müstəqillik





dövründə yeni təfəkkür tərzi, milli ideologiya baxımından yazılmış əsərlərin öyrənilməsinə böyük maraq göstərirlər.

Bu baxımdan Prezident Kitabxanasında "Prezident, dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası" şöbəsinin təşkili təqdirə layiqdir. Bu şöbədə Azərbaycanın tarixini, iqtisadiyyatını, siyasətini, mədəniyyətini yaxşı bilən yüksək ixtisaslı mütəxəssislərin toplanması azərbaycanşünaslığın mühüm bir sahə kimi öyrənilməsinə, təblig edilməsinə, oxuculara çatdırılmasına, oxucu sorğularının ödənilməsinə olduqca böyük təsir edəcək.

Artıq kitabxanada görülmüş işləri xarici mütəxəssislər də yüksək qiymətləndirirlər. ABŞ-dan gəlmiş kitabxana idarəetməsi və treninq üzrə nüfuzlu mütəxəssis doktor Kennet Oberembtin kitabxananın "Xatirə kitabı"na "Prezident Kitabxanası mənim Azərbaycanda gördüyüm ən yaddaqalan kitabxanadır. O, gözəldir, yaxşı təşkil olunmuşdur və düzgün idarə olunur" sözlərini yazmışdır.

Bütün bunlar bir daha təsdiq edir ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanalar yaxından iştirak edir və bu prosesin həyata keçməsini sürətləndirir.

### 3.9.5. İnformasiya cəmiyyəti və kitabxanaçı peşəsi

Bəşər tarixinin inkişaf prosesində insanın əmək fəaliyyətinin müxtəlif növləri içərisində peşə fəaliyyəti (məşğuliyyəti) xüsusi yer tutur. Xüsusi hazırlıq və iş təcrübəsi nəticəsində nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnmiş insanın əmək fəaliyyətinin xüsusi növü olan peşə, cəmiyyətin tərəqqi və inkişafında olduqca böyük rol oynamış, cəmiyyətin təkamül yolu ilə inkişafının təməl daşı olmuşdur.

Peşə fəaliyyəti həmçinin insanın maddi-rifahı və yaşayış üçün əsas amildir. Hər şeydən əvvəl peşə nədir? Onu necə seçmək olar? Peşənin insanın həyatında və cəmiyyətdə əhəmiyyət və vəzifələrini müəyyənləşdirmək üçün peşə anlayışının mahiyyətini müəyyənləşdirmək zəruridir.

Son zamanlar elmi ədəbiyyatda "Professiya" və "Peşə" məfhumu işləndiyindən hər iki məfhumun izahına diqqət yetirək:

"Professiya" latın sözüdür. Hərfi mənası "açıq çıxış" deməkdir. Qədim Romada insanlar hansı sənətlə məşğul olmalarını bildirmək üçün açıq çıxışlar edirdilər. Müasir cəmiyyətdə professiya xüsusi hazırlıq keçmək, təhsil almaq və uzunmüddətli təcrübə əldə etmək mənasını daşıyır.

Professiya insanın hər hansı bir əmək növü sahəsində epizodik yox, müntəzəm məşğul olmasını, əmək fəaliyyəti göstərdiyi sahənin mahir bilicisi, aparıcı mütəxəssisi olmasını təmin edir. Professiya cəmiyyət üçün olduqca zəruri olan insanın fiziki və mənəvi inkişafına təsir göstərir, onun inkişafı və kamilləşməsi üçün şərait yaradır.

Azərbaycan dilində işlənilən "Peşə" (peşə-fars sözü olub, sənəd mənasını ifadə edir) sözü də professiya sözünün məzmunu və mahiyyəti ilə bir-birini tamamlayır. Peşə insan cəmiyyətinin bütün mərhələlərində, cəmiyyət üzvlərinin əsas məşğuliyyət sahəsi kimi cəmiyyətlə birlikdə inkişaf etmiş, təkmilləşmiş, yeni-yeni peşələr meydana gəlmiş, köhnələr öz yerini daha kamil, daha təkmilləşmiş peşələrə vermişdir.

Yeni peşələr öz arxasınca yeni texniki vasitələr, yeni texnologiyalar gətirmişdir. Yeni texniki vasitələr və texnologiya da öz növbəsində yeni peşələrin daha məhsuldar, daha kamil, daha dolğun olması üçün şərait yaratmışdır.

Bəşəriyyətin inkişaf tarixində insanlara xidmət etmiş, onların yaşamasının əsas vasitəsi olmuş, cəmiyyətin normal inkişafını təmin etmiş, minlərlə peşələr mövcud olmuşdur. Peşəni təsnif edən beynəlxalq standartda 9 mindən çox peşənin olması müəyyənləşdirilmişdir.

Ancaq bu rəqəm dəyişməz qalmır. Cəmiyyətin inkişafı və tərəqqisi sahəsində dinamik olaraq peşələr təkmilləşir, yeni-yeni peşələr yaranır. Cəmiyyətin inkişafında mühüm rol oynayan belə peşələrdən biri də kitabxanaçı peşəsi olmuşdur.





Kitabxanaçı peşəsi də cəmiyyətin formalaşmasının erkən dövründə yaranmış, bəşəri fikrin inkişafına şərəflə xidmət etmiş, ən qədim peşələrdən biridir.

Dünyada ilk kitabxanaların vətəni qədim Şərq olmuşdur. Erkən qədim dünya mədəniyyətinə dair son tədqiqatlar təsdiq etmişdir ki, ilk kitabxanalar b.e.ə. III minillikdə dünya sivilizasiyasının beşiyi olan Şumerdə yaranmışdır. Şumer şəhərlərində yaranan ilk kitabxanalar bilik evi adlanırdı.

Bilik evlərində kitabələri ( lövhəcikləri) toplayıb saxlayan, onların katoloqunu və biblioqrafiyasını yaradan, onları oxucuların istifadəsinə verən kitabxanaçılar çalışırdı. İlk kitabxanaçılar kitabxana fondlarını zənginləşdirmək üçün kitablar (lövhəciklər) hazırlamaq, üzünü köçürüb artırmaqla da məşğul olurdular. Beləliklə, dünyada tarix elminə məlum olan ən qədim ölkə olan Şumerlər ilk qədim peşə olan kitabxanaçı peşəsinin də vətəni olmuşdur.

Məhz qədim dünyanın ilk peşəkar kitabxanaçıları olan Şumer kitabxanaçıları, kitabxana fondlarını yaradan, onu qoruyub saxlayan, oxucuların istifadəsinə verən, kitabxana kataloqları və biblioqrafik vəsaitlər hazırlayan ilk kitabxanaçılar olmuşlar.

Şumerdən sonra qədim dünyada ən böyük kitabxanalar qədim Assuriya dövlətində yaranmışdır. Assuriyanın Mərkəzi Nineva şəhərində yerləşən Car Aşşur Banipalın "Öyüd, nəsihət və məsləhət evi" adlanan Saray kitabxanasında 100 min kitab saxlanırdı. Kitabxananın qorunub saxlanması və inkişafı üçün əlindən gələni edən, ölkədə elmin, təhsilin, mədəniyyətin inkişafına xüsusi qayğı göstərən Car Aşşur Banipalın kitabxanada işləmək üçün ölkənin ən böyük alimlərini toplamış və kitabxananın idarə olunmasını onlara tapşırmışdır.

Zaman keçdikcə kitabxana işini idarə edən insanlar içərisindən peşəkar kitabxanaçılar yetişməyə başlamışdır.

Qədim kitabxanalarda kitabxana işinin inkişafında, kitabxanaçılıq ənənələrinin yaradılmasında, kitabxanaçı peşəsinin formalaşma-

sında kitabxanada işləyən öz dövrünün görkəmli alimlərinin olduqca böyük təsiri olmuşdur.

Məhz ilk peşəkar kitabxanaçılar belə görkəmli alimlər mühitində formalaşır, elmli, təhsilli, öz peşəsinə dərindən yiyələnən insanlar kimi yetişirdilər. Kitabxanada tərtib olunan mükəmməl kataloqların, bu və ya digər elm sahələri üzrə biblioqrafik siyahıların kataloqlarda və siyahılarda kitab təsviri qaydalarının ilk elementar formalarının yaradılması dediklərimizi bir daha təsdiq edir.

Kitabxanaçı peşəsinin formlaşmasında qədim yunanıstan cəmiyyəti də xüsusi mərhələ təşkil edir. Yunanıstanda ilk kitabxanalar artıq b.e.ə. VI əsrdə meydana gələməyə başlamışdı. Onlar Afinada Yunanıstan hökmdarları Polikart və Psistratın çarlığı dövründə yaranmışdır. Yunan kitabxanaları öz qurluşu, fondun təşkili, kitabxana işinin forma və üsulları cəhətdən qədim kitabxanalardan xeyli fərqlənirdi. Antik yunan cəmiyyətin elmə, mədəniyyətə, kitaba, mütaliəyə əmələ gələn böyük tələbatı kitabxanalar qarşısında yeni vəzifələr qoymuşdu.

Antik Yunanıstan kitabxanaları cəmiyyətin elmə, təhsilə, mədəniyyətə artan tələbatını ödəmək üçün, kitabı toplayıb saxlayan bir müəssisədən cəmiyyət üzvlərinin informasiya və mənəvi tələbatını ödəyən bir müəssisə kimi fəaliyyət göstərməyə başlamışdır.

Məhz antiq yunan cəmiyyətində baş verən bu proses bəşər elminə və mədəniyyətinə böyük töhfələr verən, qədim dünyanın elm və mədəniyyət məbədgahı olan, müasir elmi kitabxanaların əcdadı kimi böyük şöhrət qazanan İsgəndəriyyə kitabxanasının yaranmasına səbəb oldu.

İsgəndəriyyə kitabxanası b.e.ə. III əsrin əvvəllərində yarandı.

Tarixi qaynaqlardan məlumdur ki, İsgəndəriyyə kitabxanası yaranan gündən Misir hökmdarları qədim dünyanın bu böyük kitabxanasının inkişafı üçün əllərindən gələni etmiş, kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək və kitabxananın fondunu dünyanın ən nadir kitabları ilə zənginləşdirmək üçün istənilən qədər vəsaitdən istifadə etmişlər.





Məhz buna görədir ki, artıq b.e.ə. I əsrdə kitabxananın fondunda 700 min kitab toplanmışdı. Antik Yunanıstanda yaranmış ənənəyə görə kitabxanalara görkəmli alimlər rəhbərlik edirdi. Müxtəlif vaxtlarda İsgəndəriyyə kitabxanasına filosoflar–Eristofen, Aristofen, Virantey, Apollon, Eydoqraf, Aristorx, Zenodad, Efes, Kallimax və başqaları başçılıq etmişlər.

Ancaq İsgəndəriyyə kitabxanasına başçılıq edən alimlər içərisində görkəmli alim, peşəkar kitabxanaçı-biblioqraf Kallimaxın xüsusi rolu olmuşdur. Kallimax b.e.ə. 310-340-cı illərdə yaşamışdır. O, öz dövrünün böyük alimi, istedadlı şairi kimi məşhur olmuş, özündən sonra 800-dən artıq elmi və bədii əsər qoyub getmişdir.

Gənc vaxtı İsgəndəriyyəyə gedən Kallimax İsgəndəriyyə kitabxanasında işləməyə başlayır. Tezliklə kitabxana işinin mahir bilicisi kimi nüfuz qazanan Kallimax kitabxananın aparıcı işçisi kimi məşhurlaşır. B.e.ə. 260-cı ildə Kallimax İsgəndəriyyə kitabxanasının birinci baş kitabxanaçısı vəzifəsinə təyin edilir. O, fasiləsiz olaraq 20 il bu vəzifədə işləmişdir.

Kallimaxı bütün dünyada görkəmli alim, peşəkar kitabxanaçı-biblioqraf kimi məşhurlaşdıran ən muhüm əsəri olan "Bütün bilik sahələrində məşhur olanların yazdığı 120 kitabın cədvəli" bəşər elminə, ədəbiyyatına, mədəniyyətinə qiymətli töhfə oldu. Bu qiymətli əsər zəmanəmizə qədər gəlib çatmasa da Kallimaxdan təxminən 5 əsr sonra yaşayan Afini Navratın "Bir yerdə işləyən alimlər" əsərində Kallimax və onun əsəri haqqında geniş məlumat verilmişdir.

Bu əsərdən məlum olur ki, Kallimaxın cədvəli yüzilliklər boyu ilk kitabxana kataloqu, qədim dünya kitablarının biblioqrafiyası kimi bəşər elm və mədəniyyətinə xidmət etmiş, kitabxanaşünaslıq və biblioqrafiyanın təməl daşı olmuşdur. Kallimaxın əsərində kitab, onun təsviri, fondda yerləşdirilməsi, biblioqrafiya, biblioqrafik təsvir haqqında öz dövrünə görə olduqca maraqlı yazılar vardır. Kallimax kitab haqqında məlumatı ön plana çəkir, əgər kitabın müəllifi məlum deyilsə, onu axtarıb tapmağa çalışırdı. Bu iş mümkün olmadıqda kitabın sərlövhəsi üzrə təsvirə üstünlük verilirdi.

Dünyada kitabın bu cür təsvir edilməsi ənənəsi XVI yüzilliyə qədər davam etmişdir. Kallimaxın cədvəli qədim dünyanın tarixi məlum olan ilk biblioqrafik əsər kimi olduqca böyük əhəmiyyət kəsb edir. Kallimax yunan ədəbiyyatını sistemləşdirirək onu daxildə növ və janrlara ayırmış, əsərləri məzmunlarına görə qiymətləndirməyə səy göstərmişdir. Çox haqlı olaraq bir çox alimlər bu cədvəli təkcə İsgəndəriyyə kitabxanasının deyil, qədim Yunanıstanın böyük kitabxanalarının toplusu kimi qiymətləndirirlər.

Beləliklə, Kallimaxın uzun illər kitabxanadakı adi kitabxanaçıdan qədim dünyanın ən böyük nəhəngi olan İsgəndəriyyə kitabxanasını idarə edən, kitabxananın elmi həyatına, daxili strukturuna, oxuculara xidmət işinin yeni elmi əsaslar üzərində qurulmasına, böyük yeniliklər gətirən, yeni forma və üsulların, metodikaların yaranmasında böyük rol oynayan, bir peşəkar kitabxanaçı şəxsiyyətinin formalaşmasının şahidi oluruq.

Biz Kallimaxın simasında peşəkar kitabxanaçının bütün elm sahələrindən başı çıxan görkəmli alim, kitabxana işinin daxili strukturunu, kitabxana oxucu münasibətlərini dərindən dərk edən, onu inkişaf etdirməyi bacaran, oxucu ilə kitab arasında, elmlə biliklər arasında əlaqələndirici olan, peşəkar kitabxanaçı şəxsiyyəti, yüksək professional amilləri görürük. Bu amillər hər şeydən əvvəl peşəkar kitabxanaçının elmləri dərindən bilən, elmi biliklərin mənbəyi olan kitabları tədqiq etməyi bacaran, oxucu ilə kitab arasında əlaqələndirici olan, ünsiyyət və kommunikasiya vasitəsi kimi insanlarla əlaqə yaradan, yüksək mədəniyyətə, intellektual səviyyəyə, pedoqoji takta malik olan bir şəxsiyyət olması kimi yüksək keyfiyyətləri görürük.

Qədim dünyanın görkəmli peşəkar kitabxanaçısı Kallimaxın fəaliyyəti, şəxsi keyfiyyətləri gələcək kitabxana peşəsinin yaranmasına, peşəkar kitabxanaçıların yetişməsinə bir örnək oldu.

Kallimaxın yaratmış olduğu peşəkar kitabxana məktəbi qədim Yunanıstanda sonrakı dövrlərdə də müvəffəqiyyətlə davam etmiş, peşəkar kitabxanaçı bir sənət, peşənin ən qədim növlərindən biri kimi





formalaşmışdır. Qədim Yunanıstan ilk elmi kitabxanaçılıq fikirlərinin vətəni olduğu kimi peşəkar kitabxanaların da vətəni olmuşdur. Belə ki, tarixçi Dioder Misirdə fiv məbədini təsvir edərkən göstərmişdir ki, Nilin sahilində yerləşən Karnakada qazıntı işləri aparılan zaman iki nəfər kitabxanaçının ata və oğul Miamunların qəbri aşkar edilmişdir.

Bu kitabxanaçılar b.e.ə. 1200-cü ildə hökmdar Ramzesin kitabxanasında xidmət etmişlər. Deməli, 3200 il əvvəl Misirdə peşəkar kitabxanaçı sənəti mövcud olmuşdur. Doğrudur, hələ 5 min il əvvəl Şumerlərdə ilk kitabxanalr yaranarkən bu kitabxanları yaradıb, onu idarə edən müxtəlif peşə sahibləri – alimlər, müəllimlər, mirzələrlə yanaşı kitabxanaçılar da olmuşdur. Beləliklə, tarixi qaynaqlara əsaslanaraq demək olar ki, kitabxanaçı peşəsi dünyanın ən qədim peşələrindən biridir. Onun 5 min yaşı vardır.

Yunanıstandan sonra Romada, Şərqdə, Avropada, Asiyada o cümlədən, Azərbaycanda qədim dünyanın kitabxanaçılıq ənənələri davam etdirildi və bu ənənələr dünya xalqlarının mədəniyyətlərarası əlaqələri baxımından daha da inkişaf etdi və təkmilləşdi.

Dünya kitabxanaçılığında baş verən bu ənənələr Azərbaycanda da qədim dövrlərdən başlayaraq böyük inkişaf və tərəqqi yolu tapdı.

Azərbaycanda kitabçılıq və kitabxana işi sahəsində həmişə böyük alimlər, görkəmli ziyalılar fəaliyyət göstərmişlər. Eramızdan əvvəl I minillikdə Azərbaycanın kitab və kitabxana mədəniyyəti zərdüştliyin dünya qavramları ilə xarakterizə olunur. Məlumdur ki, zərdüşt "Avestanı" təsis etdikdən sonra, onun saxlanması, surətini çıxarmaq və təbliğ etmək məqsədləri ilə xüsusi yer ayırmış, oranın fəaliyyətinə şəxsən rəhbərlik etmişdir.

Kitabxana və kitabxanaçılıq ənənələri İslam mədəniyyəti dövründə də qorunub saxlamış, daha da dərin mahiyyət daşımağı və daha kütləvi olması ilə fərqlənmişdir. İslam dünya görüşündə mühüm əhəmiyyəti olan Quranın ilk və kamil nüsxəsinin formalaşdırılması, onun mühafizəsi və təbliği ilə əlaqədar olan hadisələr göstərir ki, kitabxananın sosial funksiyalarının həyata keçirilməsi və bu işi həyata

keçirən mütəxəssislərin cəmiyyətdə mühüm yeri və rolu olmuşdur. Məsələn, Xətib Təbrizi Nizamiyyə mədrəsəsində yüksək təhsil alaraq alim olmuş və kariyerasının mühüm bir məqamında Nizamiyyə mədrəsəsi kitabxanasının müdiri təyin olunmuşdu. Biruni Hindistana səfəri zamanı hind elminin və etnoqrafiyasının zəngin biblioqrafiayasını hazırlamış, görkəmli şərq alimi Zəkəriyyə Razinin irsinin biblioqrafik göstəricisini tərtib etmiş, həm özünü, həm də tədqiqat obyektini tarixdə ədəbiləşdirmişdir.

Azərbaycanda Elxanilərin hakimiyyəti dövründə də kitabxanalar əhəmiyyətli, kitabxanaçı nüfuzlu fəaliyyət sahəsi hesab olunmuşdu. Nəsrəddin Tüsinin Marağada təsis etdiyi rəsədxana kitabxanasına şəxsən rəhbərlik etməsi buna sübutdur. Elxanilərdən sonra Ağqoyunlu və Qaraqoyunlu saraylarında kitabxana müdirinin şah fərmanilə vəzifəyə təyin olunması praktikası başlanır. Azərbaycanda kitabçılıq və kitabxana işi sahəsində Şirvanşahlar sarayında, XII əsrdə Gəncədə yaranmış kitabxanada dövrün ən görkəmli alimləri ilə yanaşı peşəkar kitabxanaçılar da işləyirdilər.

Şərqin böyük saray və dövlət kitabxanalarında olduğu kimi Azərbaycan kitabxanalarında işləyən peşəkar kitabxanaçılar da öz dövrlərinin mədəniyyət və təhsillə məşğul olan görkəmli ziyalıları idi. Belə peşəkar kitabxanaçılar kitabxanaların elm, təhsil, mədəniyyət mərkəzi kimi formalaşmasında mühüm rol oynamışlar. Xüsusi ilə Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanda kitabxana işinin inkişafına xüsusi diqqət yetirilirdi.

Şah İsmayıl 1522-ci ildə Saray kitabxanasına Kəmaləddin Behzadın müdir təyin olunması ilə əlaqədar verdiyi fərmanın mətni bu vəzifənin nə qədər əhəmiyyətli və mühüm olmasını göstərir. 1484-cü ildə Sultan Hüseyn Mirzə Baysunqurun fərmanı ilə Herat kitabxanasına müdir təyin olunmuş görkəmli sənətkar Kəmaləddin Behzad 1522-ci ildə Təbriz Saray kitabxanasında böyük bir sənətkar qrupunun rəhbəri təyin edilir. Kəmaləddin Behzadın bacısı oğlu və şagirdi olmuş, xəttatlıq və miniatür sənətkarlığında şöhrət tapmış Müzəffər





Əli də saray kitabxanasına başçılıq etmişdir. Nüfuzlu elm və sənət adamlarının şah fərmanı ilə kitabxanaya müdir təyin olunması ənənəsi uzun müddət davam etdirilmişdir. 1567-ci ildə Məlik Məhəmməd Herovi, 1575-ci ildə Mövlanə Həsən Müzəhhib şah Təhmasibin fərmanı ilə saray kitabxanasına müdir təyin edilirlər. 1593-cü ilə qədər Sadiq bəy Əfşar, ondan sonra isə Rza Abbasi Təbrizi şah Abbasın fərmanı ilə saray kitabxanasının müdiri təyin olunur. Adları çəkilən bu şəxslər dövrün tanınmış alim və sənətkarları olmuşlar.

Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın görkəmli kitabxanaçı mütəxəssisləri kimi Kəmaləddin Behzadla yanaşı Sadiq bəy Əfşar və İsgəndər bəy Münşini qeyd etmək lazımdır. Bu iki şəxsin kitabxana fəaliyyəti ilə yanaşı ciddi elmi fəaliyyəti olmuş, onların elmi irsi müasir dövrümüzə qədər qorunub saxlanılmışdır.

Kitabxanaya müdir təyin olunması ilə əlaqədar şah fərmanı hüquqi normativ sənəd statusunda tərtib olunurdu. Kitabxananın funksiyası vəzifələri bu fərmanda ifadə olunurdu. Kitabxanaların strukturunda, komplektləşmə, kitab fondlarının formalaşdırılması, təsnifi, kitabxana kataloqlarının tərtibi, oxuculara xidmət işinin təşkili bölmələri fəaliyyət göstərirdi.

Bütün islahatlar məhz uzun müddət kitabxanalarda işləyən insanlar – peşəkar kitabxanaçılar tərəfindən aparılırdı. Beləliklə də kitabxana işində baş verən bu proseslər cəmiyyətdə kitabxanaçı peşəsinin formalaşması üçün şərait yaratmışdı. Azərbaycanda kitabxana işinin beşiyi başında duran, kitabxanaçı peşəsini formalaşdıran, onu qədim və şərəfli peşələrdən birinə çevirən bir çox görkəmli peşəkar kitabxanaçıların adı tarixi mənbələrdə qorunub saxlanılmış, onlara mövlanə, mirzə və digər nüfuzlu adlarla xitab edilmişdir.

Orta əsr təzkirələrində dövrün alim, şair və ziyalıların təqdimatı zamanı şəxslərin kitaba, xəttatlığa və mütaliəyə münasibəti bir kateqoriya olaraq ifadə olunur. Bu xüsusiyyətlər şəxsin sosial statusunu müəyyənləşdirirdi. Beləliklə, Azərbaycan cəmiyyətində kitabdar (kitabxanaçı) adlanan bir fəaliyyət sahəsi mühüm sosial status əldə

etmiş, dövrün əsas peşəkarlarından biri kimi şöhrətlənmişdi. Bu statusun hüquqi tərəfi hökmdarın fərmanı ilə müəyyənləşdirilirdisə, bu vəzi-fəni tutan şəxsi elmi, sənətkarlığı, cəmiyyətdəki nüfuzun uzun illərin gərgin əməyi hesabına formalaşırdı.

Kitabxanaçılar erkən mədəniyyətin ilk müəllimləri və alimləri oldular. İlk dəfə yazılı abidələrin üzünü köçürərək kitabxanalarda təlim işi başlanmış, yazıb oxumağı öyrəndikdən sonra insanlara ilk ictimai mütaliənin təşkilatçısı kitabxanalar olmuşlar. Beləliklə, kitabxanalar ilk məktəblər, kitabxanaçılar ilk müəllim fəaliyyəti göstərən insanlar oldu.

Orta əsrlərdə böyük inkişaf tapan kitabxanaçı peşəsi XIX-XX əsrlərdə və informasiya cəmiyyəti dövründə yeni keyfiyyətlər kəsb etməklə, maarifçiliyin yayılması sahəsində xüsusilə kitabın təbliği, insanlara kitabxana-informasiya xidmətinin təşkili sahəsində yeni keyfiyyətlər əldə etdi, kitabxana-informasiya xidmətinin əsas bazasına çevrildi.

Dünyanın görkəmli kitabxanaşünasları cəmiyyətdə kitabxanaların rol və əhəmiyyətinin artmasında, kitabxanaların cəmiyyətin mədəni həyatının ayrılmaz tərkib hissəsinə çevrilməsində, insanların kitabxana-informasiya tələbatının ödənilməsində, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəlməsində peşəkar kitabxanaçıların böyük rola malik olmasını mühüm amil hesab etmişlər.

Beynəlxalq aləmdə kitabxanaşünaslığın inkişafı sahəsində xüsusi xidmətləri olan kitabxanaşünas alimlər kitabxanaçı peşəsi, bu peşənin insanların tərbiyə, təhsil və mədəni inkişafında rolu haqqında, kitabxanaşünaslıq sənətinin şərəfi, şöhrəti haqqında olduqca qiymətli fikirlər söyləmiş, kitabxanaçı peşəsi qarşısında peşəkar kitabxana-şünaslar qarşısında elmi-praktiki əsaslara söykənən çox dəyərli vəzifələr qoymuşlar. Belə müdrik kəlamlardan bir neçəsini nəzərdən keçirək.

Görkəmli rus kitabxanaşünası L.B.Xavkina obrazlı şəkildə kitabxanaçını "kitabxananın ürəyi", onun bütün üzvi əlaqələrini hərəkətə gətirən canlı qüvvə adlandırır.





Kitabxanaların canlı orqanizm kimi qiymətləndirdiyi müasir zəmanəmizdə doğrudan da kitabxanaçı cəmiyyətdə tutduğu mövqe, həyata keçirdiyi vəzifələr, insanlara göstərdiyi xeyirxahlıq baxımından kitabxananın döyünən ürəyidir. Bu ürək nə qədər sağlam, möhkəm olsa, ahəngdar döyünsə, orqanizm o qədər müvəffəqiyyətlə fəaliyyət göstərər, kitabxana işinin məzmununda böyük uğurlar baş verər.

Görkəmli Hindistan kitabxanaşünası və sənədşünası Ş.R.Ranqanatan kitabxananı "inkişaf edən orqanizm" adlandırırdı. O göstərirdi ki, inkişaf edən orqanizmdə hüceyrələr dəyişdiyi, yeniləşdiyi kimi kitabxanaların strukturunda davamlı dəyişiliklər inkişaf edən orqanizmin (kitabxananın) ayrı-ayrı elementlərini bir-birindən təcrid edilmiş şəkildə yox, kitabxananın təbiətinə uyğun sistem şəklində fəaliyyət göstərən elementlərin qarşılıqlı dialektik əlaqəsi prosesində inkişaf edir. Kitabxananın əsas elementləri olan kitabın (sənədin), oxucunun, kitabxanaçının və maddi-texniki bazanın bir-biri ilə əlaqəsinin yaradılması bilavasitə kitabxanaçıdan, onun yaradıcı, əlaqələndirici fəaliyyətindən asılı olduğundan canlı orqanizm olan kitabxanaların idarə olunması kitabxanaçısız qeyri-mümkündür.

Bu elementlərin əlaqələndirilməsi kitabxanaçı peşəsinin daim təkmilləşməsini, kitabxananın əsas sərvəti olan kitabla fasiləsiz olaraq komplektləşdirilməsini, qorunub saxlanmasını və oxucuların informasiya tələbatının ödənilməsi sahəsində fəaliyyətinin genişləndirilməsini tələb edir. Deməli, kitabxana işinin "canı" olan kitabxanaçısız bu əlaqələri yaratmaq qeyri-mümkündür.

Məhz kitabxananın əsas elementlərindən biri olan kitabxanaçı kitabxana işinin fundamentidir. Bütüb kitabxana prosesləri bu fundament, peşəkar kitabxanaçı fundamenti üzərində qurulur.

Ş.R.Ranqanatanın dünya kitabxanaçılığının inkişafına ciddi təsir göstərən, kitabxanaşünaslığı yeni elmi kəşflərlə zənginləşdirən "Kitabxana işinin beş qanunu" nəzəriyyəsində kitabxanaçı qarşısında olduqca mühüm vəzifələr qoyur.

Qanunda deyilir: 1) Kitablar oxuculara xidmət edir; 2) Hər bir kitabı - öz oxucusuna; 3) Hər bir oxucuya – öz kitabını; 4) Oxucunun vaxtını qoru; 5) Kitabxana – inkişaf edən orqanizmdir.

Ş.R.Ranqanatanın kitabxana işi haqqında beş qanunu bir daha sübut edir ki, kitabxanaçıların əsas vəzifəsi oxucuların istifadəsi üçün qorunub saxlanan kitabları onların istifadəsinə verməkdir. Bunun üçün isə hər şeydən əvvəl kitabxanaçı kitabın cilddindən yox, məzmunundan xəbərdar olmalıdır. Kitabxanaçı təkcə kitabları yox, həmçinin öz oxucusu haqqında məlumatlı olmalı, onun maraq və tələbatını öyrənməlidir. Kitab və oxucu haqqında tam məlumatı olan kitabxanaçı hər bir kitabı öz oxucusuna, hər bir oxucuya öz kitabını çatdıra bilər.

Kitabxanaçının ən böyük keyfiyyətlərindən biri də oxucunun vaxtına qənaət etmək, ona tez və vaxtında kitabxana-informasiya xidməti göstərməyi bacarmaqdır. Oxucuya tez və vaxta qənaət etməklə xidmət etmək kitabxanaçıdan kitabxana fondunu, kitabxana resurslarını dərindən bilməyi, həmçinin kitabxananın məlumat-axtarış sistemlərini, kitabxana kataloqlarını, o cümlədən, elektron vasitələri, kitabxana-informasiya texnologiyasını dərindən bilməyi tələb edir. Bütün bunlar isə kitabxanalarda peşəkar kitabxanaçı ordusu yaratmaq ideyasını bir daha təsdiq edir.

Bütün dövrlərdə olduğu kimi XX yüzilliyin axırı və XXI yüzilliyin əvvəllərində də peşəkar kitabxanaçı, onun şəxsiyyəti həmişə dünyanın görkəmli kitabxanaşünaslarının diqqət mərkəzində olmuşdur. Bu baxımdan XX əsr də dünya kitabxanaşünaslığında özünəməxsus yeri olan və kitabxanaşünaslıq elmini öz qiymətli əsərləri ilə zənginləşdirən, görkəmli Amerikan kitabxanaşünas alimi D.X Şiranın böyük xidmətlərini unutmaq olmaz. Kitabı bilmək, oxucunu tanımaq, kitabxana fondu haqqında geniş məlumatı olmaq, həmçinin özünü, oxucunun yerinə qoymaq, onun sorğu və tələbatını dərindən başa düşmək bacarığını kitabxanaçı peşəsinin əsas meyarı hesab edən D.X Şira yazır: "Yaxşı kitabxanaçı hansı xaraterik xüsusiyyətlərə malikdir? Mən belə hesab edirəm ki, yaxşı kitabxanaçının üç mühüm əlaməti vardır: o, mükəmməl biliyə və düşüncəyə malik olmalı, ona aid olan materialı kamil bilməlidir. Bu bilikləri başqalarına elə üsullarla aşılamalıdır ki, onlar üçün mənalı və qiymətli olsun. Nəhayət, üçüncüsü yumor hissidir". D.X.Şira tərəfindən irəli sürülən birinci əlamət kitabxanaçıdan əsaslı elm sahələrini öyrənməyi, geniş elmi dünyagörüşü, intellektual səviyyəyə malik olmağı, hər bir materialı başa düşüb anlamaq bacarığını tələb edir.

Kitabxanaşünaslıq kommunikasiyanın elə sahəsidir ki, onun vasitəsi ilə mədəniyyət qorunub saxlanılır. Kommunikasiya o zaman informasiya daşıyıcılarını insanlara vermək vasitəsinə çevrilir ki, o, bəşəri sərvətlərin keçiricisi rolunda çıxış etsin. Bu işdə kitabxanaçının rolu böyükdür. O, ən fəal və yaradıcı şəxs kimi kitabxananın digər elementləri arasında əsas qarşılıqlı əlaqələr yaratmağa, bu əlaqələrin sosial məzmununu həyata keçirməyə xidmət edir. Kitabxanaçı elə əsaslı keyfiyyətlərə malik olmalıdır ki, kitabxananın başqa elementləri ilə mürəkkəb, qarşılıqlı şəkildə, onların köməyi sayəsində oxucu ilə dinamik, canlı əlaqələr yaratsın və beləliklə də kitabxananın fasiləsiz fəaliyyət göstərməsini təmin etsin.

Beləliklə, kitabxanaçı əsl kommunikator olmaq istəyirsə, hər şeydən əvvəl müəyyən bir elm sahəsini dərindən bilməli, sözün əsl mənasında alim olmalıdır. Kitabxanaçının əsas keyfiyyətlərindən biri bildiklərini, öyrəndiklərini daha konkret desək, kitabxanada saxlanılan bəşəri sərvətləri oxuculara verə bilmək məharətinə malik olmasıdır. Bu, hər şeydən əvvəl kitabxana işini, onun elmi cəhətlərini, forma və üsullarını dərindən bilməyi, kitabxanaçılıöın incəliklərinə yiyələnməyi, insanlarla ünsiyyət saxlamaq və bu ünsiyyətdən onların xeyrinə istifadə etmək qabiliyyətini tələb edir. Kitabxanaçılıq sənətinin əsasını təşkil edən bu mühüm və mürəkkəb prosesin həyata keçrilməsində kitabxanaçı informator, mədəni-maarif işçisi, təhsil və tərbiyə sahəsinin mütəxəssisi, müəllim kimi oxucunun hərtərəfli yüksəlməsi və inkişafı qayğısına qalır.

Beləliklə, oxuculara xidmət etmək üçün kitabxanaçıdan xüsusi peşəkarlıq tələb olunur. Peşəkar kitabxanaçı sənətini dərindən bilməli və sevməli, sənətinə hörmət etməli, başqa sənətlər içərisində onun yerini müəyyənləşdirməyi, öz sənətini digər sənətlərin oxşar cəhətləri ilə əlaqələndirməyi bacarmalıdır. Kitabxanaçı hər şeydən əvvəl ziyalıdır, şəxsiyyətdir. Şəxsiyyətinə hörmət etməyi bacaran hər bir kitabxanaçı əsl sənətkar olmağa çalışmalı və sənətini uca tutmalıdır.

Professionalizm və peşəkarlıq kompleks anlayışdır. Bu məfhum özündə xüsusi hazırlığı, həm də ümumi elmi və intellektual səviyyəni birləşdirir. Kitabxanaçılıq ümumbəşəri sənətlər içərisində özünəməxsus xüsusiyyətləri olan bir sənətdir. Bu sənətlərin formalaşmasında kitabxanaşünaslığın ümumi elmi əsasları, pedaqogika və psixiologiyanın ümumi müddəaları yaxından iştirak edir. Bu sənət bilavasitə insanın təhsili, tərbiyəsi, formalaşıb yetişməsi, sənətə yiyələnməsi ilə əlaqədar olduğundan humanitar xarakter daşıyır. Bu sənət insanları böyük məhəbbət ruhunda formalaşdırır. Kitabxanaçı hər bir insanın şəxsiyyətini, ləyaqətini qiymətləndirməyi bacarmalıdır. Çünki hər bir insan kitabxanada ən arzu edilən qonaqdır. Kitabxananın ən xeyirxah keyfiyyətlərindən biri ardıcıl olaraq həmişə insanlarla ünsiyyət saxlamasıdır. Ünsiyyət insan həyatının və fəaliyyətinin əsas formalarından biridir. Bunsuz insanların bir-birilə əlaqəsi, həmçinin birgə əmək fəaliyyəti prosesi baş tutmaz. Kitabxanaçı isə ünsiyyətin təşkilatçısıdır. Məhz buna görədir ki, son zamanlar dünya kitabxanaşünaslığında bu problemin tədqiqi, öyrənilməsi, ümumi nəticələr çıxarılması nəzəriyyəçilərin və praktiklərin diqqətini çəkməkdədir. Müasir kitabxanaçının bu problemi dərindən dərk etməsinə böyük ehtiyac duyulmaqdadır.

Belə bir tezis diqqəti cəlb edir ki, əgər kitabxanaçı və oxucu əldə etdiyi bilikləri başqalarına verməkdən məhrumdursa, belə biliklər cəmiyyətə az xeyir verər. Beləliklə, yaxşı kitabxanaçı həm kitabları, həm də insanları öyrənən, öz işini yaxşı bilən sənətkar olmalıdır. İşi elə qurmaq lazımdır ki, kitabxanaya gələn oxucu oradan təəssüf hissi ilə, narazı halda çıxmasın, özünə lazım olan ədəbiyyatı və yaxud məlumatı ala bilsin. Hər bir kitabxanaçı oxucunu qəbul edərkən özünü onun yerinə qoymalı, onun tələbat və təkliflərini ödəməyə çalışmalı, elmi məsləhətlərini, xoş sözünü, gülərüzlüyünü ondan əsirgəməməlidir.





Yaxşı kitabxanaçının üçüncü əlaməti yumor hissidir. Bəzi mütəxəssislər belə hesab edirlər ki, yumor hissi yaxşı kitabxanaçının ən mühüm, həlledici əlamətidir. Bu, belə deyildir. Yumor hissi də digər əlamətlər kimi mühüm komponentlərə malikdir, hər iki əlamətlə əlaqədardır, onları tamamlayır. Hər üç əlaməti özündə birləşdirən kitabxanaçı böyük qüvvəyə çevrilir və hərtərəfli imkanlara malik olan bir şəxsiyyət, bir sənətkar kimi formalaşır.

Yumor hissi nədir?

Yumor hissi perspektiv hissdir, gələcəyə baxışdır, gələcəyi anlamaqdır, gələcəyi görmək perspektivini müəyyənləşdirmək bacarığıdır. Bu hiss problemin daha mühüm, yaxud az və ya çox dərəcədə əhəmiyyətə malik olmasını müəyyənləşdirməkdir. Bu qarşılıqlı əlaqələri dərk etmək, məsələləri başa düşmək qabiliyyətidir.

Yumor hissi, xüsusilə qabarıq şəkildə duyulan insanlar daha mehriban, xoşxasiyyət, xeyirxah, başqalarının işinə ürəkdən can yandıran, başqa sözlə xeyrə-şərə daha çox yarayan olurlar. Yumor hissi kitabxanaçı ilə oxucunun ünsiyyəti prosesində mühüm rol oynayır və müsbət nəticələrin əldə edilməsinə əhəmiyyətli kömək göstərir.

Rus kitabxanaşünaslığında kitabxanaçının əsas əlamətlərindən biri kimi yumor hissi əvəzinə emosiya məfhumu işlənir. Emosiya başqa fərdin emosional vəziyyətinin siqnalına cavab vermək qabiliyyəti, başqasının mənəvi aləminə daxil olmaq və onu öz emosional təcrübəsinə keçirmək qabiliyyəti kimi izah edilir. İnsanın emosionallığı bir çox hallarda bioloji əsasa malik olan dərin psixi-fizioloji xarakteristika ilə müəyyən edilir. Emosiyanın əsas funksiyalarından biri bizi əhatə edən mühitdən baş çıxarmaqdır.

D.X.Şira yaxşı kitabxanaçının üç mühüm əhəmiyyətini belə yekunlaşdırır: "Bəşəriyyətin təcrübəsi və biliyi olan sənədləri mükəmməl

bilmək, bu bilikləri başqalarına vermək qabiliyyəti və yumor hissi, bax, bu üç sutun üzərində kitabxana sosial institut kimi qərar tutur". D.X.Şiranın yazılarında kitabxanaçı alim və mütəffəkir kimi nəzərdən keçirilir ki, bu da müasir Amerika cəmiyyətində kitabxanaçının tutduğu yüksək mövqe ilə bağlıdır.

Kitabxanaçı peşəsi həmçinin kitabxanaçılarda bir sıra idrakı keyfiyyətlərin formalaşmasını da zəruri edir. Belə keyfiyyətlərdən bəzilərinə diqqət yetirək.

Bilavasitə insanla işləyən kitabxanaçı öz oxucularına qarşı diqqətli olmaq üçün diqqət keyfiyyətinə malik olmalı, daimi bu keyfiyyəti təkmilləşdirməlidir. Kitabxanaçıya daim hörmətlə yanaşan, onu özünün məsləhətçisi kimi qəbul edən oxucu kitabxanaçıdan özünə qarşı böyük diqqət yetirilməsini gözləyir. Kitabxanaçı hər bir oxucuya diqqətli olmalı, onun kitabxanaya üzv qəbul edilərkən, fərdi söhbət əsasında onun şəxsiyyətini, maraq dairəsini, peşəsini öyrənməli və xidmət prosesində oxucunun əsas fərdi xüsusiyyətlərini nəzərə almalıdır.

Deməli, oxucuya diqqət kitabxanaçının peşə fəaliyyətinin təməl daşını təşkil edir və oxucu – kitabxanaçı münasibətlərinin formalaşmasına ciddi şərait yaradır.

Kitabxanaçı peşəsinə xas olan əsas keyfiyyətlərdən biri də ünsiyyətdir. İnsan cəmiyyətinin formalaşmasının mühüm amili olan ünsiyyət kitabxana mühitinin yaranmasında, kitabxanaçı – oxucu münasibətlərinin daha səmərəli təşkilində aparıcı rol oynayır. Oxucuya xidmət işinin səmərəli təşkili, oxucu ilə qarşılıqlı və davamlı ünsiyyətin aparılmasından çox asılıdır. Ünsiyyət hər iki subyektin (oxucu və kitabxanaçı) bir-birini başa düşməsinə, anlamasına gətirib çıxarır ki, bu da xidmət prosesinə ciddi təsir göstərir.

Oxucu ilə aparılan ünsiyyət sadə, anlaşılan dildə, məntiqi ardıcıllıqla, oxucunun sorğusunun dərk edilməsi, onun səviyyəsindən asılı olaraq istiqamətləndirilməsi ruhunda aparılmalı, daha operativ xarakter daşımalı, kitab tövsiyəsi ilə nəticələnməlidir. Kitabxanaçı





çalışmalıdır ki, oxucu ilə söhbətdə mücərrədlikdən, ümumi sözlərdən qaçsın, oxucunun diqqətini daha çox praktiki xarakterli kitab və dövrü mətbuat materiallarına yönəldə bilsin. Kitabxanaçı ilə oxucuların ünsiyyəti fərdi və kollektiv şəkildə aparıla bilər. Fərdi ünsiyyət kollektiv ünsiyyətə nisbətən daha geniş, daha ətraflı, daha çoxcəhətli xarakter daşıya bilər. Ancaq kollektiv ünsiyyətin təşkili daha mürəkkəb, daha çoxsahəli olduğundan kitabxanaçı ünsiyyətdə olacağı oxucular qrupuna, onların intellekt səviyyəsinin, maraq dairələrinin yaxınlığına, peşəkarlığına müvafiq təşkil etməyə, oxucu ilə kitabxanaçı, oxucu ilə oxucu arasında ünsiyyətin baş tutmasına çalışmalıdır.

Beləliklə, ünsiyyət peşəkar kitabxanaçının əsas keyfiyyətlərindən biri kimi kitabla oxucu arasında, oxucu ilə kitabxanaçı arasında mühüm əlaqə vasitəsi, oxucuya xidmətin müvəffəqiyyətli təşkilinin rəhnidir.

Kitabxanaçı peşəsinin əsas əlamətlərindən biri də kitabxanaçının iradi keyfiyyətidir. İradə keyfiyyəti hər şeydən əvvəl kitabxanaçının öz peşəsinə dərindən bağlılığının, inamının, sevgi və hörmətin təzahürüdür. Peşəyə inam və dərindən bağlılıq kitabxanaçıda iradə keyfiyyəti, öz peşəsinə məhəbbət hissi aşılamaqla, peşəsinin cəmiyyət üçün, insanlar üçün böyük əhəmiyyət kəsb etdiyini dərk etməyə, öz peşəkarlıq fəaliyyətini artırmağa, vətəndaş kimi formalaşmasına kömək edir. İradi keyfiyyət həmçinin kitabxanaçıdan daim öz üzərində işləməyi, peşə hazırlığını artırmağı, həyatla, zamanla ayaqlaşmağı, kitab repertuarından baş çıxarmağı tələb edir.

Peşəkar kitabxanaçı daimi olaraq oxucularla ünsiyyətdə olduqlarından, kitabxananın apardığı kütləvi tədbirlərdə bilavasitə oxucular qarşısında çıxış etdiklərindən, onlar nitq mədəniyyətinə yiyələnməli, aydın, səlis, başa düşülən, rəvan nitqə malik olmalı, öz düşündürücü və cəzbedici nitqi ilə fərqlənməlidirlər. Nitq mədəniyyətinə yiyələnməyin ən mühüm amillərindən biri mütaliədir. Daim mütaliə edən, xüsusilə bədii ədəbiyyat oxuyan kitabxanaçı rəvan danışıq qabiliyyəti əldə etməklə nitq mədəniyyətinə yiyələnir. Kitabxanala-

nın təcrübəsi göstərir ki, gözəl nitq mədəniyyətinə malik olan kitabxanaçılar həmişə oxucular tərəfindən çox rəğbətlə qarşılanır, böyük hörmət və ehtiramla qəbul edilir. Məhz ona görə də, öz peşəkarlıq səviyyəsinin daim yüksəlməsinin qeydinə qalan kitabxanaçı, öz oxucularının sevimli kitabxanaçısı olmaq üçün öz nitq mədəniyyətinin yüksəldilməsinə çalışmalı, özü ən yaxşı mütaliəçi olmalıdır.

Peşəkar kitabxanaçının əsas keyfiyyətləri haqqında dediklərimiz bir daha təsdiq edir ki, peşəkar kitabxanaçı elmli, təhsilli, intellektual səviyyəli, yüksək mədəniyyətli, elmi bilikləri yayan, şəxsiyyətin formalaşmasında və sosiallaşmasında yaxından iştirak edə bilən peşəkar bir mütəxəssis olmalıdır. Bütün bu yüksək göstəricilər isə peşəkar kitabxanaçının təfəkkür keyfiyyətinə malik olmasını tələb edir.

Təfəkkür keyfiyyəti kitabxanaçıdan elmlərin əsasına yiyələnməyi, oxuduğunu dərk etməyi, oxucuların mütaliəsinə rəhbərlik etməyi, elmi, kütləvi bədii əsərləri təbliğ etməyi bacarmalıdır. Müasir zamanın qarşıda qoyduğu vəzifələrə müvafiq, əhaliyə kitabxana – informasiya xidmətini təşkil etmək və beləliklə də, öz fəaliyyətini, vəzifə borcunu yerinə yetirməyə istiqamətləndirməlidir.

Müasir informasiya cəmiyyəti kitabxanaçı peşəsi qarşısında tamamilə yeni və daha mürəkkəb vəzifələr qoymuşdur. Bu vəzifələr klassik kitabxanaçılıqla yeni elektron kitabxanaçılığın sintezi kimi xarakterizə olunur. Öz forma və məzmunu ilə tamamilə yeni olan bu mərhələ elektron kitabxanaşünaslıq və kitabxana – informasiya texnologiyasının formalaşması ilə sıx bağlıdır. Öz forma və məzmunu ilə innovasiya xarakterli bu mərhələ biliklər cəmiyyətinin əsas istiqamətinə yönəlməklə kitabxanaçılıq peşəsinin elmi – metodiki aspektini də müəyyənləşdirir.

Bu mərhələnin əsas vəzifəsi kitabxanaların kitabxana – informasiya texnologiyası ilə təmin edilməsi, mənimsənilməsi və bu texnologiyadan oxuculara xidmət prosesində istifadə edilməsidir.

Məhz müasir informasiya cəmiyyəti şəraitində formalaşan kitabxana işinin yeniləşdirilməsi mərhələsində kitabxanaçı





peşəsi öz mahiyyəti və məzmununu daha da genişləndirərək mobil bir peşəyə çevrilir. Bu günün kitabxanaçısı ənənəvi kitabxanaçılığı yeniləşdirməklə müasir kitabxana – informasiya texnologiyasını və kitabxana işinin informasiyalaşdırılmasını dərindən bilən, intellektual səviyyəli peşəkar kitabxanaçıya çevrilməlidir.

Peşəkar kitabxanaçı kitabxana və informasiya materiallarının emal edilməsində, informasiya materiallarının istehsalında və təkrar istehsalında fəaliyyət sahəsini genişləndirməli, istehsal olunan informasiya materiallarının qorunub saxlanmasını, oxuculara çatdırılmasının səmərəliliyinin artırılmasını təmin etməlidir. Bütün bunlar isə kitabxanaçıdan dərin nəzəri bilik, öz peşəsinə ciddi münasibət və dərin sevgi, kitabxana işinin qarşısında duran vəzifələri başa düşmək, qiymətləndirməyi bacarmaq, bir neçə dil bilmək, yüksək intellektual səviyyəyə malik olmaq kimi vəzifələri yerinə yetirmək bacarığına malik olmağı tələb edir.

Həmçinin kitabxanaçı kitabxanaşünaslıq elminin nəzəri əsaslarına yiyələnməli, elmi – nəzəri və sosioloji tədqiqatlar aparmağı bacarmalı, kitabxana işini zamanla, cəmiyyətin inkişaf prosesi ilə əlaqələndirməyi, oxuculara xidmət işinin forma və üsullarını dərindən bilməklə onu təkmilləşdirməyi bacarmalıdır. Kitabxanaçı kitabxana işinin pedaqoji və psixoloji aspektini öyrənməyə, nəzəri məsələləri təcrübə ilə əlaqələndirməyə can atmalı, yüksək mədəniyyətə, böyük insani keyfiyyətlərə, insanlarla ünsiyyət bacarığına diqqət yetirməlidir.

Kitabxanaçı peşəsinin əsas əlamətlərindən biri də kitabxanaçının kitabxananın məqsəd və vəzifələrini dərk etmək, kitabxana işinin ayrı – ayrı elementlərini birləşdir-məyi, onların birlikdə işləməsini tənzimləməyi bacarması, kitabxanada aparılan iş proseslərini zamanın, dövrün və xidmət etdiyi regionun tələbatına uyğunlaşdırmalıdır.

Kitabxanaçı olduqca nadir, xalqın xidmətində duran, onun sorğu və tələbatına xidmət edən, hər bir oxucunun yaxın köməkçisi kimi onun mənəvi aləmini zənginləşdirən, elmin, texnikanın, informasiyanın son nailiyyətlərini vaxtında, davamlı onlara çatdıran, sadə

humanist bir peşədir, gələcəyə baxan, gələcəyin formalaşmasında iştirak edən, həmişə dinamik inkişafda olan, öz peşə xidmətini xalqın maddi və mənəvi inkişafına yönəldən bir sənətdir.

Uzun illərdən bəri geniş xalq kütlələri arasında maarifi yayan peşəkar kitabxanaçılar, müasir dövrdə alim kimi, mütəfəkkir kimi fəaliyyət göstərməli, yeni dövr, informasiya cəmiyyəti dövrünün yüksək ixtisaslı oxucularına xidmət etməyi bacarmalıdır.

Yaxşı kitabxanaçı öz dərin biliyi, yüksək mədəniyyəti, intellektual səviyyəsi, insanlarla ünsiyyət qurmaq bacarığı, oxuculara dərin məhəbbəti, sadəliyi, təvazökarlığı, pedaqoji ustalığı ilə fərqlənməlidir. Məhz insanlığa, bəşəri ideyalara, xalqların işıqlı gələcəyinə yönələn bu fəlsəfi dünya baxışı kitabxanaçı sənətinin səmərəli toxumu, elmi əsasıdır.

Doğma Vətənimizə, müstəqil respublikamıza, əziz və möhtərəm xalqımıza, elmimizə, təhsilimizə, mədəniyyətimizə xidmət ruhunda köklənən kitabxanaçı sənəti böyük vətənpərvərlik nümunəsi kimi işıqlı gələcəyimizin xidmətindədir. Milli mədəniyyətimizin təzahür forması kimi cəmiyyət həyatının tərkib hissəsinə çevrilmiş kitabxanalar milli ideologiyamıza, Azərbaycançılıq fəlsəfi konsepsiyasına, onun təbliğinə xidmət etməli, qloballaşan yeni dünyada doğma Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin təmsilçisi kimi fəaliyyət göstərməlidir.

Göstərdiyimiz bütün bu böyük işlər kitabxanaçı peşəsinin müasir tələbata uyğun təkmilləşməsini, yeni peşəkarlıq səviyyəsi ilə fərqlənən kadrların hazırlanmasını tələb edir.

Hazırkı dövrdə dünyanın bütün ölkələrində ixtisaslı sənətkar kitabxanaçı kadrlar hazırlayan geniş ali və orta ixtisas məktəbləri şəbəkəsi fəaliyyət göstərir. Bütün dövlətlərdə kitabxanaçı kadrlar əsasən universitetlərdə, Rusiyada isə Mədəniyyət Universitetlərində hazırlanır. Kitabxanaçılıq təhsili gündən–günə təkmilləşir, onun məzmununda yeni keyfiyyətlər meydana çıxır, tədris planında müsbət dəyişikliklər baş verir.





Kitabxana işinə və informasiya işinə texniki vasitələr geniş daxil olduqca, kitabxana işinin kompüterləşdirilməsi daha geniş vüsət aldıqca klassik kadr hazırlığı prosesində radikal dəyişikliklər baş verir. Kitabxanaçılıq tədris planlarına humanitar və sosial fənlərlə yanaşı olaraq, ali riyaziyyat, hesablama texnikası, proqramlaşdırma, kompüterləşdirmə və s. texniki fənlər də daxil edilmişdir. Elm və texnikanın sürətli inkişafı, cəmiyyətin idarə edilməsində informasiyanın geniş vüsət alması, informasiyalaşdırılmış cəmiyyətin formalaşması prosesi tədris planlarında bu cür əsaslı və köklü dəyişikliklərin aparılmasını ön plana çəkir.

Müasir kitabxanaçı klassik kitabxanaçılıqda olan ətaləti, maneələri qırmağı bacarmalı, cəmiyyətin inkişaf sürəti ilə ayaqlaşmalı, yeni – yeni elmi fənlərə, xüsusilə, elmi əsaslı biliklərə yiyələnməli, hesablama texnikası və kompüterlərlə işləməyi öyrənməlidir.

İndiki şəraitdə kitabxanaçı kadrlar hazırlanmasının əsasında iki mühüm və köklü prinsip qoyulmalıdır:

1) Professional bilik və bacarıqların vahid özül əsasında formalaşmasını nəzərdə tutan kitabxanaçı peşəsinin bütövlüyü prinsipi;

2) Kitabxanaçılıq peşəsinin diferensiyası prinsipi. Bunun əsasında isə kitabxanaçıların ixtisaslaşması durmalıdır.

Müasir dövrdə kitabxanaçı kadrlar dünya təhsil sisteminin təcrübəsinə əsaslanmaqla, kitabxana və informasiya işinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla hazırlanır. Dünyanın müxtəlif ölkələrində kitabxanaçı kadrlar hazırlayan ali məktəblərin tədris planlarında ciddi fərqlərin və müxtəlifliyin olmasına baxmayaraq, bu planların əksəriyyətində xeyli oxşarlıqlar və uyğunluqlar diqqəti cəlb edir. Xüsusilə, ixtisas fənləri bloku bir – birinə çox yaxındır. Buna misal olaraq 1947-48-ci tədris ilində yaradılan Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin tədris planını göstərə bilərik. Hələ SSRİ dövründə öz elmi – texniki bazası, kadr tərkibi və elmi – metodik potensialı ilə ittifaqın kitabxanaçılıq təhsili sistemində aparıcı yerlərdən birini tutan kitabxanaçılıq fakültəsinin tədris planı

öz universallığı, müasirliyi və sabitliyi etibarı ilə dünya standartlarına uyğun gəlirdi.

70-ci illərdə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən Vilnüs Universiteti üçün "Kitabxanaşünaslıq və biblioqrafiya" ixtisası üzrə beşillik tədris planı təsdiq edilmişdi. Həmin dövrdə nazirlik bu plandan istifadə etmək üçün Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə icazə vermişdi. SSRİ-də ilk dəfə olaraq kitabxanaçılıq fakültəsinin tədris planına ali riyaziyyat, hesablama maşınları və proqramlaşdırma, kitabxana işinin avtomatlaşdırılması və mexanikləşdirilməsi və s. kimi əsaslı texniki fənlər salınmışdı. Bu, kitabxana təhsili sahəsində yenilik idi. Həmin plan ölkə miqyasında müəyyən anlaşılmazlıqlara səbəb olsa da, tez bir zamanda kitabxana standartlarına yaxınlaşması onun gələcək perspektivləri üçün böyük imkanlar açdı. Rusiyanın və digər respublikaların mədəniyyət universitetlərinin tədris planlarında da riyazi və texniki fənlər özünə geniş yer tutmağa başladı.

Hazırda Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsi bu planın təkmilləşdirilmiş, yenidən tərtib və təsdiq edilmiş variantı əsasında işləyir. Doğrudur, respublikamızda yeni Təhsil Qanunu ilə əlaqədar təhsil sistemində əsaslı islahatlar aparılır. İndi ali təhsil üç mərhələdə həyata keçirilir:

1-ci mərhələdə bakalavrlar, 2-ci mərhələdə magistrlər, 3-cü mərhələdə doktorlar hazırlanması nəzərdə tutulmuşdur. Bakalavrlar hazırlanmasına 1993-1994-cü dərs ilindən başlanılmış, 1996-1997-ci dərs ilində birinci buraxılış olmuşdur.

Magistrlər hazırlanmasına isə 1997-1998-ci dərs ilində başlanılmışdır. Hər iki mərhələnin tədris planları tərtib olunmuş, Azərbaycan respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bakalavr hazırlığı tədris planında mühüm elmlərin, ümumixtisas fənlərinin öyrənilməsinə, magistr hazırlığı planında isə ixtisaslaşmalara daha geniş yer ayrılmışdır. Bakalavr hazırlığı planında kitabxanaçıların müasir nəzəri və təcrübi hazırlığının əsası kimi elmi fənlərin 4 blo-





kunun tədrisi nəzərdə tutulmuşdur: 1) İctimai və humanitar fənlər; 2) Ümumi elmi fənlər; 3) Ümumi kitabxanaçılıq fənləri; 4) Xüsusi fənlər.

Bu fənlərin plan üzrə ardıcıl tədrisi, gələcək kitabxanaçıların dünya görüşünü formalaşdırmaqla yanaşı, elmi, mədəni, intellektual səviyyəli şəxsiyyət kimi, bütün ədəbiyyatdan baş çıxaran, onu oxucuya çatdırmağın forma və üsullarına dərindən yiyələnən sənətkar, mütəxəssis kimi yetişməsini təmin edir. Bəzən belə fikir söyləyənlər tapılır ki, kitabxanaçılıq ixtisası üzrə tədris planında çox predmetlilik vardır. Lakin başa düşmək lazımdır ki, çox predmetlilik olduqca zəruridir və bu, kitabxanaçılıq ixtisasının təbiətindən doğur.

Belə ki, heç bir ixtisasçıya, sənətkara kitabxanaçıya olduğu qədər müxtəlif peşə sahibləri, alimlər, mütəxəssislər və yaradıcı şəxslər müraciət etmir. Əlbəttə, bu cür müxtəlif peşəli, müxtəlif maraqlı, oxucuların rəngarəng suallarına ancaq bütün elm sahələrindən müəyyən dərəcədə baş çıxaran, kitabxanaçılıq sənətinin və informasiyanın elmi – nəzəri və təcrübi əsaslarına yiyələnən mütəxəssis – peşəkar kitabxanaçı cavab verə bilər. Göründüyü kimi, daha çox predmeti öyrənmək bu yerdə kitabxanaçının köməyinə gəlir.

Kitabxanaçılıq sənətinin əsası cəmiyyətin başlıca sistemlərindən biri olan kitabxana işinin, mədəniyyətin mürəkkəb fenomeni kimi sosial fəlsəfənin, mədəniyyətşünaslığın və elmşünaslığın dərk edilməsi prosesində qoyulur. Kitabxanaçılıq fakültəsində ümumi elmi fənlərin də kitabxanaşünaslıqla üzvi əlaqədə keçilməsi elmi – tədqiqat və təcrübi imkanları daha da genişləndirir.

Kitabxanaçının ixtisas fənlərindən başqa, humanitar və ümumi elmi fənləri də öyrənməsinə geniş yer verilməsi olduqca zəruridir. Bu elmlər sisteminə ilk növbədə fəlsəfə, dünya və ölkə mədəniyyətinin nəzəriyyəsi və tarixi, politologiya, iqtisadiyyat, sosial psixologiya, vətən tarixi və s. fənləri daxil etmək gərəklidir.

Kitabxanaçılıq sənəti humanitar istiqamətdə olsa da, bu ixtisasın məzmunu riyazi və texniki elm sahələri tədrisinin təşkilini də tələb

edir. Belə ki, müasir kitabxanalar texniki vasitələr olmadan fəaliyyət göstərə bilməz. Odur ki, hazırda kompüterləşdirmə kitabxana işinin əsas və həlledici elementlərindən birinə çevrilmişdir.

Son zamanlar kitabxanaçılıq fakültəsinin adı dəyişdirilərək kitabxanaçılıq - informasiya fakültəsi adlandırıldı. Fakültənin adının dəyişməsi fakültədə tədris prosesinin məzmununa ciddi təsir göstərdi. Tədris planında informasiya xidmətinə dair yeni fənlər: kitabxanaların kompüterləşməsinin əsasları, elektron kitabxana, elektron kataloq, kitabxana – informasiya texnologiyası, kitabxana proseslərinin informasiyalaşdırılması, kitabxanaçılıq informatikası, kitabxana işinin proqramlaşdırılması və s. fənlər tədris edilməyə başlandı. Zamanın tələbi olan bütün bu fənlər kitabxanaçı peşəsinin məzmununda, kitabxana – informasiya xidmətinin təşkilində yeni istiqamətlərin, forma və üsulların meydana gəlməsinə səbəb oldu. Kitabxanaçı peşəsi daha da mürəkkəbləşdi, informasiya cəmiyyətinin əsas peşələrindən birinə çevrildi. Cəmiyyətin informasiyalaşdırılmasında rolu və vəzifələri daha intensiv xarakter almağa başladı.

Beləliklə, qısa da olsa kitabxanaçılıq təhsilinin vəziyyəti və s. ilə tanış olduq, doğma kitabxanaçılıq fakültəsindəki durumla müqayisə imkanı qazandıq. Bir daha bizdə belə bir inam hissi yarandı ki, hazırda BDU-nun kitabxanaçılıq – informasiya fakültəsində tədris işinin təşkili dünya standartına uyğundur və o, bundan sonra da öz inkişafından qalmayacaq.

### 3.9.6 İnformasiya texnologiyaları və kitabxanalar

Dünya mədəniyyətinin ən qiymətli incilərindən hesab edilən kitabxanalar cəmiyyətin yaratmış olduğu mədəni qurumlar arasında ən qədimlərindən biri olmaqla, bəşəriyyətin mədəni sərvətlərini toplayan, mühafizə edən, saxlayan, ictimai istifadə üçün nəsildən-nəsilə çatdıran, cəmiyyətin tərəqqi və inkişafında yaxından iştirak edən, cəmiyyət üzvlərinin mədəni və intellektual səviyyəsinin





yüksəldilməsinə kömək edən, gənc nəslin təhsil və tərbiyəsində yaxından iştirak edən, öz ətrafında böyük oxucu dairəsi toplayıb onlara informasiya və kitabxana xidməti göstərən, oxucuların tələbatını ödəməklə mütaliə prosesinə kömək edən sosial institutlardır.

Bütün dövrlərdə kitabxanalar bütün elmi kəşfləri, intellektual nailiyyətləri, cəmiyyətin yaratdığı bütün dünyəvi sərvətləri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə çatdıran mühüm mədəniyyət mərkəzi, elmi bilikləri yayan institut kimi səciyyələndirilmişdir, kitabxana fondları mədəniyyətin, təhsilin, biliyin qızıl fondları kimi qiymətləndirilmiş, onların əsas daşıyıcıları hesab edilmişdir.

Kitabxanlar fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi sosial mühitdən asılı olaraq formalaşmış və inkişaf etmiş, tarixi inkişaf prosesində mədəniyyətin, təhsilin, elmi-texniki tərəqqinin və dolayısıyla öz hamisi olan cəmiyyətin inkişafına xidmət etmiş, onun informasiya tələbatını ödəmiş, informasiyanın mühafizəsini təmin etmişdir.

Son 50 ildə informasiya-telekommunikasiya texnolo-giyaları cəmiyyətin o cümlədən də kitabxanaların inkişafına böyük təsir göstərir. Bu təsirdən dogan inkişafın iki mərhələsini qeyd etmək lazımdır:

1. Yeni kitabxana-informasiya texnologiyalarının yaradılması və kitabxanada texnoloji proseslərin kompüterləşdirilməsi;

2. İnternet texnologiyasının tətbiqilə müasir oxuculara coğrafi uzaqlıqdan asılı olmayaraq, sutkanın 24 saatı müddətində on-line xidmət göstərən informasiya müəssisələrinə çevrilməsi mərhələsi.

Kitabxanların inkişafının birinci mərhələsi keçən əsrin 70-90 illərini əhatə edir. Keçən əsrin 70-ci illərində fərdi kompüterlərin istehsalı, kompüter şəbəkələrin meydana gəlməsi informasiya-telekommunikasiya texnologiyasının cəmiyyətin bütün sferalarında geniş tətbiqini təmin etdi və bundan doğan informasiya axını, yeni informasiyaya artan tələbat kitabxana fəaliyyətinin cəmiyyətin inkişaf tempinə cavab verməməsini aşkar etdi və müasir kitabxa-

na texnologiyalarının yaradılmasını və tətbiqini, kitabxanaların modernləşdirilməsini sosial sifariş kimi irəli sürdü.

Bu sosial sifariş nəticəsində MARC-maşınla oxunan formatlar yaradıldı, onun əsasında elektron kataloqun yaradılması texnologiyası işləndi, Avtomatlaşmış Kitabxana İnformasiya Sistemləri yaradıldı və kitabxanaların kompüterləşməsinə start verildi. Kompüterləşdirmə bütövlükdə kitabxana fəaliyyətində dönüş yaradaraq, oxuculara xidmətin keyfiyyət və kəmiyyət səviyyəsini artırmağı təmin etməklə, kitabxanaların cəmiyyətdə azalan nüfuzunu bərpa etdi.

Kitabxanların kömpüterləşdirilməsi ağır, yorucu və əlaqəli kitabxanaçı əməyinin avtomatlaşdırılmasını, elektron kataloqun yaradılmasını, vaxta, maddi və insan ehtiyatlarına qənaəti, müxtəlif əlamətlərinə görə ədəbiyyatın çoxaspektli axtarışını, operativ və az xərclə ən yeni informasiya mübadiləsini, oxuculara yüksək elektron xidməti, oxucu sorğusunun uzaq məsafədən yerinə yetirilməsini, informasiyanın köhnəlməsi ilə əlaqədar olaraq kitabxana fondunun operativ yeniləşməsini, oxucu tələbatına uyğun komplektləşdirilməsini, kitabxana biblioqrafiya fəaliyyətinin təhlilini və proqnozlaşdırılmasını, maliyyə fəaliyyətinin tənzimlənməsini təmin etdi.

Kompüterləşmə nəticəsində ilk növbədə oxucuların ədəbiyyatı əldə etmək üçün sərf etdikləri vaxtı minimuma endirmək mümkün oldu. Belə ki, "klassik" kitabxanalarda, oxucu ədəbiyyatı sifariş vermək üçün kataloq qarşısında xeyli vaxt sərf etməlidir. Kataloq kitab fondunun cari vəziyyətini 100% dəqiqliklə əks etdirmədiyindən oxucunun sifariş verdiyi ədəbiyyatı əldə etmək ehtimalı o qədər də böyük olmurdu. Kataloq ədəbiyyatın hərəkətini əks etdirmədiyindən, sifariş olunan ədəbiyyatın cari anda sərbəst nüsxəsi kitabxanada olmadıqda sərf olunan vaxtın hədər olduğu aşkar olurdu. Kitabxananın elektron kataloqu isə oxuculara tələb olunan ədəbiyyatın qısa müddətdə kitabxanada olması haqqında dəqiq məlumat əldə etməsini təmin etdi.

Elektron kataloq ədəbiyyat fondu haqqında ənənəvi kataloqlardan daha dolğun biblioqrafik məlumata malik olduğundan, oxucuya





çox elementli və çox səviyyəli axtarış imkanları təklif etdi. Bunun nəticəsində ədəbiyyatın oxucuya çatmaq ehtimalı xeyli artdı. Digər tərəfdən, oxucu elektron kataloq vasitəsilə uzaq məsafədən ədəbiyyat axtarıb, sifariş verə bildi. Telekommunikasiya vasitələri qeyri-məhdud sayda oxucuya, eyni vaxtda elektron kataloqda biblioqrafik təsvirin bütün əsas elementləri və avtoritet yazılar üzrə axtarış aparmaq, kitabxanada olan ədəbiyyatı sifariş etmək imkanı yaratdı.

Kitabxanaların kompüterləşdirilməsi ədəbiyyat fondunun real uçotunu, ədəbiyyatın «hərəkətini izləməyi», oxucularda olan ədəbiyyat, əlində ədəbiyyat olan oxucular haqqında daim yeniləşən operativ informasiyanın əldə olunmasını, kitab verilişi haqqında statistik məlumatın alınmasını (xüsusilə, borclular, borc verilən ədəbiyyat və verilişin sayı statistik sorğu haqqında) təmin etdi.

Kitabxanaların kompüterləşdirilməsi bu gün də muasir kitabxanaların yaradılması üçün əsas şərtlərdən biri hesab olunur. O, yüksək ixtisaslı kitabxanaçıların və kompüter texnologiyası mütəxəssislərinin birgə əməyini tələb edən, müvafiq texniki-proqram təminatı əsasında həyata keçirilən mürəkkəb bir texnoloji prosesdir. Kompüterləşdirmə kompleks şəkildə və informasiyanın, kompüter-telekommunikasiya avadanlıqlarının və proqram məhsullarının tez "köhnəlməsi" səbəbindən sürətlə aparılmalıdır.

Bunun üçün müvafiq maddi və insan resursları cəlb edilməlidir. Kompüterləşdirməyə başlamazdan əvvəl kitabxanada geniş maarifləndirmə işi aparılmalı, kompüterləşmənin zəruriliyi əsaslandırılmalı, kitabxanaçılar arasında müşahidə olunan psixoloji baryer (işçilərin ixtisarı, lazımsız olması və s.) aradan götürülməlidir. Kompüterləşdirmə ilə bağlı kitabxanada struktur islahatlarının aparılması zəruridir. Bunu kitbxananın insan və maddi potensialından səmərəli istifadə, kompüterləşdirməyə daha çox resursların cəlb edilməsi, kitabxana informasiya-kompüter şəbəkəsinə xidmət zərurəti diktə edir.

Qeyd edək ki, kitabxananın kompüterləşməsi zamanı inzibati-amiranə idarəetmə üsulu yolverilməzdir. Kompüterləşdirmə kitab-

xanada müasir idarəetmə üsullarının tətbiqini, işçilər üçün müvafiq iş şəraitinin təşkilini, stimullaşdırmanı, düzgün menecment və marketinq siyasətinin həyata keçirilməsini tələb edir. Kompüterləşməyə cəlb olunan bütün əməkdaşlar kompüterləşdirmənin əhəmiyyətini və məsuliyyətini dərk etməlidir. Kitabxananın kompüterləşdirilməsi kollektiv əmək tələb etdiyindən və informasiyanın dəqiqliyinin zəruri olduğundan işçilər arasında sağlam və qarşılıqlı hörmətə əsaslanan münasibətlər formalaşmalıdır. Bu tələbata cavab verməyən işçilər işdən, xüsusilə də informasiya təminatı işindən uzaqlaşdırılmalıdır. Hər bir şəxsin konkret vəzifələri müəyyən edilməli və bu vəzifələrin konkret vaxtda yerinə yetirilməsi təmin olunmalıdır. Bu işə xüsusi nəzarət olmalı, bu və ya digər səbəbdən vəzifələr yerinə yetirilmədikdə həmin vəzifələr başqalarına həvalə olunmalıdır (müvəqqəti və uzun müddətli). Buna görə işçilərin «daha geniş» ixtisaslaşmaya sahib olmasına xüsusi fikir verilməlidir.

Kitabanaların kompüterləşdirilməsi işinə kitabxanada İnternet kompüter şəbəkəsinin qurulmasından başlanılmalıdır. İnternet şəbəkəsi müasir kompüter parkı, perferiya qurğuları, video müşahidə, telekommunikasiya avadanlıqları əsasında qurulmalı və yüksək informasiya ötürmə sürətinə, fasiləsiz qidalandırma qurğularına, maqnit və lent informasiya toplayıcılarına[1] malik olmalıdır. O, kitabxana daxilində şəbəkə ehtiyatlarından[2] birgə istifadəni və kompüterlər arasında operativ informasiya mübadiləsini təmin etməlidir. Bundan sonra kitabxananın profilini, inkişaf perspektivlərini nəzərə alaraq müvafiq Avtomatlaşlmış Kitabxana-İnformasiya Sistemləri alınmalı və şəbəkədə tətbiq olunmalıdır. AKİS-lər beynəlxalq maşınla oxunan biblioqrafik,

---

[1] *Böyük elektron sənəd informasiyasına malik kitabxanalar¬da etibarlı informasiya arxivini yaratmaq üçün lent və disk informasiya toplayıcılarından istifadə olunmalıdır. Bu qurğular insan iştirakı olmadan müəyyən vaxt qrafiki əsasında informasiyanın ehtiyat arxivini yaradır.*

[2] *Şəbəkə ehtiyatları dedikdə informasiya ehtiyatı, proqram və əlavə¬lər, periferiya qurğuları nəzərdə tutulur.*





texniki-sistem standartlarını və (USMARC, UNIMARC, ISO və s.), UNICODE şriftlərinin və Z 39.50 protokolunu dəstəkləməli, informasiyanın bütün növləri ilə işləyə bilmək, praktiki olaraq qeyri-məhdud sayda məlumat bazaları ilə işləmək, qeyri-məhdud həcmli informasiyanı operativ idarə etmək və qeyri-məhdud sayda istifadəçiyə xidmət göstərmək xüsusiyyətinə və sadə işçi interfeysinə malik, asan adaptasiya və modernizasiya oluna bilən olmalı, informasiyanın bütövlüyünü təmin etməli, qəzalara və viruslara qarşı davamlı, yüksək informasiya təhlükəsizliynə malik olmalıdır.

Onlar kitabxananın əsas texnoloji proseslərinin kompüterləşdirilməsini təmin edən müvafiq Avtomatlaşmış İşçi Yerlərinə malik olmalı, Avtoritet faylların, predmet göstəricilərinin yaradılmasını və ondan istifadəni, standart kitabxana sənədlərinin yaradılmasını təmin etməlidir.

Kitabxanalar inkişafının ikinci mərhələsinə keçən əsrin 90-cı illərin ortasından başlayaraq qədəm qoymuşlar. İnkişafın bu mərhələsi informasiyalaşmış vətəndaş cəmiyyəti quruculuğunun sosial sifarişindən doğmuş və bu gün də davam etməkdədir.

İnformasiyalaşmış vətəndaş cəmiyyətində informasiya və kommunikasiya texnologiyalarının zehni və elmi potensialın, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının, sosial-iqtisadi problemlərin həllinin, yoxsulluğun aradan qaldırılmasının əsas göstəricisinə çevrilməsi, elm və texnologiyanın əhəmiyyətinin getdikcə artması, intellektin rolunun yüksəlməsi, insanların sosial, peşə və qeyri-peşə biliklərinin bir-biri ilə qarşılıqlı təsiri insanın, cəmiyyətin, mühitin, elmin, şüurun, mədəniyyətin, həyat şəraitinin, konsepsiyaların, baxışların, düşüncələrin genişlənməsinə səbəb olur. Bir çox dəyərlər, ənənəvi anlayışlar dəyişikliyə məruz qalır, yeni qlobal iqtisadi strukturlar yaranır, müasir informasiya və kommunikasiya vasitələri meydana gəlir. Təbii ki, qeyd edilən bütün bu dəyişikliklərin baş verdiyi bir şəraitdə vətəndaşların artan elm və texnoloji ehtiyaclarını ənənəvi məzmun və formalarla təmin etmək mümkün deyil.

Bu amil kitabxanaların və kitabxana fəaliyyətinin cəmiyyətin sosial sifarişinə uyğun dinamik olaraq modernləşməsini tələb edir.

Müasir dövrdə cəmiyyətin ən mühüm sosial institutlarından biri olan kitabxanalar, öz potensialı vasitəsilə informasiya sənayesinin inkişaf prosesinə birmənalı şəkildə təsir və inteqrasiya etmək, informasiya məhsulunun çeşidini genişləndirmək, məzmununu zənginləşdirmək, ənənəvi məlumat məhsulları ilə bərabər müasir telekommunikasiya vasitələrindən bəhrələnərək müasir məzmunlu məlumatları əldə etmək, qorumaq və ötürmək kimi vəzifələrlə üzləşirlər. Kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut olduğundan, informasiyalaşmış vətəndaş cəmiyyəti quruculuğunda onlardan qlobal informasiya mühitinin yaradılmasında, informasiyanın əmtəəyə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin təkmilləşməsində, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artması istiqamətində öz fəaliyyətlərinin yenidən qurulması tələb olunur. Müasir dövrdə bu vəzifələrin yerinə yetirilməsi İnternet texnologiyasının tətbiqilə həyata keçirilməkdədir.

Bəşər sivilizasiyasının nitq və yazı mədəniyyətindən sonra ən böyük nailiyyəti hesab edilən İnternet texnologiyası dünyanın müxtəlif nöqtələrində yerləşən milyonlarla kompüterləri və kompüter şəbəkələrini özündə birləşdirən ümumdünya kompüter-informasiya şəbəkəsinin yaradılmasını, dövlət sərhədləri bilməyən, coğrafi uzaqlıqdan asılı olmayaraq operativ və etibarlı informasiya mübadiləsini təmin edən, böyük sürətlə yeniləşən virtual informasiya məkanının yaradılmasını, rahat və əlverişli ünsiyyəti təmin edir. Bu gün İnternet insan fəaliyyətinin əsas tərkib hissəsi olan və bəşəriyyətin mövcudluğunu təmin edən informasiya prosesinin[1] ən vacib və zəruri vasitəsidir.





İnternet kitabxanlardan sonra ən böyük informasiya ehtiyatına malik olub, korporativ yolla toplanan bu ehtiyatı rahat və əlverişli vasitələrlə cinsindən, yaşından, sosial statusundan, etnik mənşəyindən asılı olmayaraq cəmiyyətin hər bir üzvü üçün əlyetərliyini təmin edir. İnternet bəşər tarixində analoqu olmayan, heç bir vasitə ilə müqayisəyə gəlməyən, inkişafının, təsirlərinin, perspektivlərinin, təhlükələrinin dəqiq proqnozlaşdırılması mümkün olmayan bir fenomendir. O, heç bir siyasi, dini, milli məhddiyyətlər tanımayaraq, ölkələrin coğrafi sərhədlərini aşaraq öz informasiya xidmətlərini istifadəçilərə bilavasitə yaşadıqları və işlədikləri yerlərdə təqdim edərək, cəmiyyət üzvlərinin mənəvi aləminə, təfəkkür tərzinə, əxlaqına, psixologiyasına daha çox nüfuz etmək imkanına malikdir. O, açıqlıq və əlyetərlilik, mərkəzləşdirmə, operativlik, rahatlıq, qiymətləndirmə imkanı və s. kimi xüsusiyyətlərə malikdir.

Bu gün İnternet coğrafi sərhədlərin, dövlətlər arası siyasi münasibətlərin fövqündə korparasiyaya və demokratik prinsiplərə əsaslanan, sürətlə inkişaf edən vahid informasiya mühitini formalaşdırır. İnternet bir-birilə əlaqəli lokal, regional və milli kompüter şəbəkələrinin ümümdünya şəbəkəsi olmaqla bütün dünya üzrə paylanmış informasiya ehtiyatlarının, etibarlı mühafizəsini, rahat və çoxaspektli axtarışını və operativ mübadiləsini təmin edir, kitabxana, arxiv və muzeylərin, elm, ədəbiyyat və incəsənət əsərlərinin potensialından tam, operativ istifadə etməyə imkan verir. Evdən çıxmadan elektron «magistrallar» vasitəsilə işləməyə, əmək fəaliyyəti ilə məşğul olmağa şərait yaradır, ən yeni kitabları oxumağa, jurnal və qəzetlərin ən son materialları ilə tanış olmağa imkan yaradır.

---

[1] *İnformasiya prosesi informasiyanın toplanmasını, işlənməsini, mühafizəsini, axtarışını, mübadiləsini təmin edən prosesdir. İnformasiya obyektiv verilənlərlə subyektiv metodların qarşılıqlı təsiri nəticəsində yaranaraq, məhz informasiya prosesi zamanı mövcud olur. Bu səbəbdən informasiya prosesi insan fəaliyyətinin əsas tərkib hissəsi olub, bəşəriyyətin mövcudluğunu təmin edir.*

Bu baxımdan İnternet informasiya ehtiyatlarını insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin öyrənilməsi və tətbiqi üçün şərait yaradır, elmi-texniki tərəqqiyə, elmi nəzəriy-yələrin, kəşflərin istehsalata tətbiqi prosesinə kömək göstərir, elmlə istehsalat, tədqiqlə tətbiq arasında vasitə kimi çıxış edir. İnternet elm, ədəbiyyat, incəsənət, kitabxana və təhsil kimi tərbiyə prosesinə, bəşəri əxlaqi biliklərə yiyələnmə prosesinə, cəmiyyətin inkişafına yardımçı ola biləcək intellektual səviyyəli insan yetişdirilməsi prosesinə xidmət göstərir.

Yuxarıda sadalanan xüsusiyyətlərindən bir daha aydın olur ki, İnternet və kitabxanlar eyni bir missiyanı – cəmiyyətin informasiya tələbatını ödəmək funksiyasını yerinə yetirirlər. Bu səbəbdən ilk vaxtlar bir sıra "mütəxəssislər" elektron nəşrlərin, İnternetin WWW xidmətinin yradılması ilə tədricən kitabxanların cəmiyyət üçün öz əhəmiyyətini itirəcəyini və tədricən ləğv olunaraq tarixə qovuşacağını proqnozlaşdırırdılar. Lakin tarix onların proqnozlarını dogrultmadı. İnternet və kitabxanalar arasında "rəqabət" hər iki informasiya mənbəyinin qarşılıqlı olaraq faydalanmasına və inkişaf etməsinə səbəb oldu. Kitabxanalar İnternet texnologiyasının tətbiqi nəticəsində sutkanın 24 saaatı müddətində, uzaq məsafədən dünyanın hansı nöqtəsindən asılı olmayaraq oxuculara xidmət göstərməyə başladılar, onların oxucu dairəsi genişləndi, cəmiyyətdə imici və nüfuzu artdı, kitabxanalar beynəlxalq informasiya məkanının bir həlqəsinə çevrildi.

İnformasiya bolluğu şəraitində kitabxanalar İnternet texnologiyasını tətbiq etməklə elmi-texniki tədqiqatlarını yeni informasiyalarla əsas təminatçısı funksiyasını yerinə yetiRomayakdə davam edirlər.

Kitabxanalar öz informasiya ehtiyatları ilə yanaşı İnternet vasitəsilə dünyanın müxtəlif regionlarında əldə edilən elmi-texniki nəticələri, elmi jurnalları, elektron nəşrləri oxucuların istifadəsinə verir, abunə və lisenziya əsasında öz oxucuları üçün bu gün İnternetdə fəaliyyət göstərən elektron elmi kitabxanalar şəbəkəsi, elmi və patent





məlumatlar bazaları, elektron nəşriyyatlar və kitab evləri, elmi informasiya mərkəzlərinə əlyetərliyi təmin edirlər.

Bu gün ənənəvi informasiya daşıyıcılarında olan və kitabxanalarda toplanmış mədəni sərvətlər rəqəmsal formaya çevrilərək İnternet texnologiyası vasitəsilə on-line olaraq istifadəçilərin istifadəsinə verilir. Bunun nəticəsində bəşəriyyətin qədim dövrlərindən bu günə kimi saxlanılmış mədəni sərvətlərin etibarlı mühafizəsi və məhdudiyyətsiz istifadəsi təmin olunur.

İnternetin coğrafi sərhədlər tanımadığını nəzərə alsaq, əvvəllər məhdud sayda insanların istifadə edə bildiyi qədim əlyazmalar, nadir kitablar, incəsənət əsərləri, musiqi əsərləri tarixi-arxeloji nümunələr sutkanın 24 saat müddətində on milyonlarla istifadəçilərin, o cümlədən tədqiqatçıların ixtiyarına verilmiş olur. Bununla da mədəni sərvətlərin öyrənilməsi və elmə hələ naməlum olan bir sıra "sirrlərin" açılması üçün real imkan yaradır.

İnternet yeni mədəni tələbatın və xidmət formalarının yardılmasını təmin etmişdir. Bunlardan biri elektron kitabxanlardır.

Elektron kitabxanalar oxuculara informasiya xidmətinin kompüterləşməsinin nəticəsi olub, bəzi şəxslərin təsəvvür etdiyi kimi ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür. Elektron kitabxana peşəkar əsasda yaradılan və mövzu baxımından istiqamətlənmiş, məsafədən asılı olmayaraq oxucuya (istifadəciyə) ixtisaslaşdırılmış yardımla xidmət etmək iqtidarında olan lokal və ya qlobal şəbəkədəki elektron resurslara giriş sistemidir.[1]

Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxucu-

[1] *Prezident kitabxanası muasir mədəniyyət və informasiya mərkəzidir. "Respublika" qazeti . 2006, 2 dekabr. № 270. s. 3-4.*

lara göstərildiyi halda, elektron kitabxanalar sutkanın iyirmi dörd saatı müddətində fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir.

Elektron kitabxanalar rahat və sərfəli bir xidmət növüdür. Bu xidmətin təşkili kitabxanalara qısa müddətə və az xərc sərf etməklə böyük informasiya ehtiyatlarının oxucuların istifadəsinə verilməsini və oxucu tələbatının operativ yerinə yetirilməsini təmin edir.

Elektron kitabxanalarının informasiya ehtiyatını daha etibarlı mühafizə etmək mümkündür. Elektron kitabxanalar çox məhdud yer - yalnız kompüterin diskində yer tutur. Elektron kitabxanalar çoxnüsxəli kitabların alınmasına olan ehtiyacı aradan qaldırır, kitabların bərpasına və mühafizəsinə sərf olunan xərcləri minimuma endirir, böyük kitabxana sahəsindən imtina etməyi təmin edir.

Elektron kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış, rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən, əsasən maşınla oxunan biblioqrafik yazılardan, tammətnli elektron sənədlərdən, musiqi notlarından, sxem, çertyoj, və kartoqrafik, qrafiki materiallardan audio və video fayllardan ibarət informasiya ehtiyatlarına malik olur.

Son illər elektron kitabxanalar informasiya ehtiyatlarını daha çox multimedialı sənədlər əsasında komplektləşdirməyə üstünlük verirlər. Multimedia sənədləri özündə informasiyanın bütün tiplərinin: mətn, qrafika, audio, animasiya və video informasiyaların inteqrasiyasını təmin edir. Multimedia sənədləri informasiyanı oxucuya daha dolğun çatdırır və uzun müddət onunla tanış olan şəxsin yaddaşında qalır.

Elektron kitabxana yaratmaq böyük məsuliyyət tələb edir. Bu işdə tələskənliyə və primitivliyə yol verilməməlidir. Çunki gec-tez elektron kitabxana oz informasiya resursu ilə İnternetə qoşulur və bu informasiyanın dolğunluğu və ya səthiliyindən asılı olaraq həmin kitabxana haqqında, onun yarandığı yer, olkə, xalq haqqında fikir formalaşır. Bir neçə sənədin elektron variantını hazırlamaq və ya hər hansı nəşriyyatdan bir neçə kitabın elektron variantını əldə etmək, ya da hazır elektron resursla-





ra - RFFİ, EBSCO, East View və s. abunə olunmaq hələ elektron kitabxana yaratmaq deyil. Bu gunun elektron kitabxanası öz mukəmməl elektron kataloquna və axtarış vasitələrinə, ölkə üçün prioritet olan sahələr üzrə yaradılmış zəngin elektron resurslara malik olmalıdır.[1]

Elektron kitabxana yaratmaq üçün əsas vasitə kitabxanada **Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sisteminin (AKİS)** tətbiq edilməsidir. Rahat və sadə işçi interfeysinə malik olan AKİS sənədlərin təsnifləşdirilməsini, elektron biblioqrafik-informasiya, tammətnli və multimeda məlumat bazasının yaradılmasını, istifadəçinin informasiya tələbatını əks etdirən sorğunun ifadə edilməsi və onun informasiya bazasına ötürülərək sorğunun nəticəsinin istifadəçiyə məsafədən asılı olmayaraq və operativ çatdırılmasını təmin edir.

Elektron kitabxanalar müasir Web texnologiyası əsasında fəaliyyət göstərir. Web texnologiya lokal və uzaqda yerləşmiş informasiya ehtiyatlarının inteqrasiyasını təmin edir. Axtarış və naviqasiya vasitələri onun mühüm elementidir. Məhz onların sayəsində oxucular kitabxananın informasiya ehtiyatlarından istifadə edir.

Kitabxanalarda İnternet texnologiyasının tətbiqi Korporativ Kitabxana-İnformasiya Şəbəkələrinin yaradılmasını təmin edir. Korporativ Kitabxana-İnformasiya Şəbəkəsi kataloqlaşdırma və elektron kataloq yaradılması işində paylanmış və birgə kataloqlaşdırma tətbiq etməklə ədəbiyyatın çoxqat təkrar kataloqlaşdırmasının qarşısını alır, əmək sərfini minumuma endirir, kataloqlaşdırma əməyindən, maliyyə vəsaitlərindən səmərəli istifadəni təmin edir. Belə ki, biblioqrafik yazı bir dəfə, ədəbiyyatın biblioqrafik yazısını ilk dəfə yaradan kitabxana, nəşriyyat və kitab-ticarəti müəssisələri (məs. kitab palatası və s.) tərəfindən hazırlanır. Digər kitabxanalar hazır yazıları idxal edir və tələb olduqda yeni əlavələr etməklə öz elektron kataloquna əlavə edir. Başqa sözlə hər bir kitabxananın və şəbəkənin yekun elektron kata-

[1] *Prezident kitabxanası müasir mədəniyyət və informasiya mərkəzidir. Respublika" qəzeti .- 2006, 2 dekabr. № 270. s. 3-4.*

loqu kitabxanaların qarşılıqlı yardımı əsasında yaradılır. Bu isə hər bir kitabxana üçün iqtisadi çəhətdən çox sərfəlidir. Məsələn, OCLC Kitabxana Kompüter-İnformasiya Şəbəkəsinin elektron kataloqu 63 ölkənin 20 mindən artıq kitabxanası tərəfindən yaradılıb və eramızdan əvvəl IX əsrdən başlayaraq bəşər sivilizasiyasının yaratdığı 35 milyon ədəbiyyat haqqında biblioqrafik informasiya daşıyır.

Korporativ kitabxana-informasiya şəbəkəsi istifadəçilərə On-line olaraq, şəbəkənin ehtiyatlarından və şəbəkənin digər kitabxana informasiya mərkəzləri ilə əlaqəsi olduqda isə digər kitabxana informasiya sistemlərinin informasiya ehtiyatlarından istifadə etməni təmin edir. Bu halda oxucunun informasiya tələbatının ödənilməsi ehtimalı kəskin surətdə artır. Digər tərəfdən xarici ölkələrin kitabxana informasiya mərkəzlərinin elektron kataloqlarından istifadə dünyada elmi nəzəriyyələri, elmi yenilikləri izləməyə imkan verir, tədris və elmi axtarışlar üçün çox əhəmiyyətlidir.

Korporativ-Kitabxana İnformasiya Şəbəkəsi «paylanmış» şəkildə, ərazi cəhətdən uzaq məsafədə yerləşən ayrı-ayrı kitabxana komputer-informasiya şəbəkələrinin şəbəkəsidir. Şəbəkələr arasında əlaqə müvafiq texniki-proqram və İnternet vasitəsilə təmin edilir. Şəbəkə daxilində və digər sistemlərlə qarşılıqlı informasiya əlaqəsi Z39.50, Http, ftp protokolları vasitəsilə həyata keçirilir. Qeyd olunan protokollardan istifadə şəbəkə daxilində informasiya şəffaflığını və müxtəlif aparat-proqram təminatına malik, müxtəlif uzaqlıqda yerləşən kitabxana-informasiya sistemləri arasında yüksəkeffektli informasiya mübadiləsini təmin edir.

Korporativ-Kitabxana İnformasiya Şəbəkəsinin informasiya təminatı əsasən, şəbəkənin iştirakçısı olan kitabxanaların lokal kitabxana informasiya mərkəzlərində, qismən isə ərazi şəbəkə mərkəzlərində korporativ şəkildə hazırlanır.[1]

[1] *Baza informasiya mərkəzində və Ərazi şəbəkə mərkəzlərində əsasən birgə istifadə üçün normativ sənədlər, leksoqrafik, linqvistik rubrika və s. məlumat bazaları hazırlanır.*





Daxil olan ədəbiyyatın kataloqlaşdırılması Web texnologiyanın tətbiqilə yaradılan Korporativ Avtomatlaşmış Kitabxana İnformasiya Sistemi vasitəsilə həyata keçirilir. Avtomatlaşmış İşçi Yeri ədəbiyyatın hazır biblioqrafik yazılarının maşınla oxunan formatda (USMARC, RUSMARC, UNIMARC və s.) nəşriyyat və kitab ticarəti təşkilatlarından alınmasını, yazıların surətinin iştirakçı və digər kitabxanalardan idxal olunmasını və kitabxananın daxili tələbatına uyğun informasiyaların: inventar nömrə, rəf şifrəsi, nüsxələrinin sayı və s. əlavə edilməsini təmin edir. Bu zaman ehtiyac olarsa avtomatik olaraq biblioqrafik yazıların bir formatdan digərinə avtomatik konvertəsi baş verir. Kataloqlaşdırılan ədəbiyyatın hazır biblioqrafik yazısı olmadıqda müəyyən edilmiş qaydalarla biblioqrafik yazı hazırlanır. Ədəbiyyatın biblioqrafik yazısının keyfiyyəti yoxlandıqdan sonra o, ümumi istifadə üçün şəbəkənin elektron kataloquna daxil edilir.

Biblioqrafik yazının keyfiyyəti yoxlandıqda məntiqi - normativ və leksoqrafik nəzarət yerinə yetirilir. Belə ki,

- Yazının kommunikativ formatın biblioqrafik təsvir qaydalarına tam uyğunluğu yoxlanılır,
- Yazının tamlığı-korporativ kataloqlaşdırma üçün müəyyən edilmiş bütün sahələrin informasiya ilə doldurulması yoxlanılır,
- Təkrar olunan yazılar aşkar edilir və redaktəsi təklif olunur,
- Leksik səhvlərə malik yazılar aşkar edilir və orfoqrafik lüğət bazası əsasında düzgün yazılmış variantlar təklif edilir.

Həmçinin yazının keyfiyyəti yoxlandıqda o, linqvistik və terminoloji nəzarətdən keçir. Bu zaman əsasən ədəbiyyatın axtarış terminləri, təsnifat indeksləri, predmet rubrika indeksləri, dövlət, təşkilat, nəşriyyat, dövrü mətbuat adları yoxlanılır. Linqvistik və terminoloji nəzarət müvafiq lüğət bazası əsasında yerinə yetirilir. Bu zaman terminlərin transletasiyası, axtarış terminlərinin, predmet rubrika adlarının bir dildən digərinə avtomatik tərcüməsini təmin edilir.

İnternet kitabxanalarda elektron sənəd göndərişinin tətbiqini təmin edir. Bu xidmət növü kağız üzərində maddiləşmiş informasiya-

ların elektron obrazının sifarişçiyə - kitabxanalara və oxuculara çatdırılmasını təmin edir. Onun vasitəsilə kitabxanalar operativ tammətnli informasiya mübadiləsi edir, oxucular isə öz informasiya tələbatını uzaq məsafədən ödəyə bilirlər.

Elektron sənəd göndərişi ödənişli xidmət növüdür və kitabxanaya əlavə maliyyə vəsaitlərinin daxil olmasını təmin edir. Ödənişin miqdarı bazar münasibətləri ilə tənzimlənir və sifarişin xarakterindən, göndəriş növündən asılıdır. Məsələn, ABŞ-ın Konqres kitabxanasında 50 səhifə üçün 20 sent tələb olunur. Qeyd edək ki, bu xidmətin ödənişli olması kitabxana fondunun daha yeni və aktual informasiya ehtiyatları ilə komplektləşdirilməsi üçün stimul yaradır.

Elektron sənəd göndərişi xidməti kitabxanalarda elektron xidmətin ilk forması olmaqla, müasir dövrdə ən yeni informasiya xidməti olan elektron kitabxanaların yaradılması üçün baza rolu oynamışdır.

Kitabxanalarda elektron sənəd göndərişi ilk dəfə Kaliforniya Universitetinin kitabxanasında, Avropada isə İsveçin Höteburq şəhərində yerləşən Çelmers Texniki Universitetində, daha sonra, 1982-ci ildə Britaniya Milli Kitabxanasında faksla həyata keçirilmişdir.

Elektron sənəd göndərişi sürətli təkamül yolu keçərək, bu gün demək olar ki, bütün ölkələrdə uzaq məsafədən informasiya mübadiləsi vasitəsi kimi istifadə olunur və müasir kitabxanalarda tətbiq edilən əsas və sərfəli xidmət növüdür. Elektron sənəd göndərişi böyük texniki təminat tələb etmir. Bu xidməti kitabxanalarda təşkil etmək üçün İnternetə qoşulmuş kompüter, faks-modem, telefon rabitəsi, skaner, printerin olması kifayətdir.

Elektron sənəd göndərişi xidməti ardıcıl yerinə yetirilən oxucu sorğusunun qəbulu, sənədin axtarışı və sifarişi, ödənişin həyata keçirilməsi, sənədin elektron obrazının hazırlanması, sifarişin göndərilməsi texnoloji proseslər sistemindən ibarətdir. Oxucu sorğusunun qəbulu kitabxananın Web saytı və elektron poçt xidməti vasitəsilə yerinə yetrilir.





Sənədin axtarışı vasitəsilə Ariyel proqramı vasitəsilə digər Ariel stansiyaları və ya İnternetin axatarış sitemləri vasitəsilə digər kitabxanalrın elektron kataloqları vasitəsilə həyata keçrilir. Ödəmə bank hesabı vasitəsilə və «elektron pul» formasında Visa və Master kartları vasitəsilə həyata keçirilir.

Sənədin elektron formasının hazırlanması minimum 300 dpi keyfiyyətlə skanerləşdirilmə vasitəsilə həyata keçirilir. Sənəd sifarişçiyə Ariel proqramı, elektron poçt, FTP xidməti vasitəsilə göndərmək və ya ümumi istifadə üçün Web serverdə yerləşdirməklə çatdırılır. Elektron sənəd göndərilişi maksimum 24-48 saat müddətində həyata keçrilir.

İnternet kitabxanalar, informasiya müəsissələri, dövlət və ictimai təşkilatlar arasında əlaqələrin qurulmasında mühüm vasitədir. İnternetin müvafiq xidmət növləri vasitəsilə xidməti yazışmalar, elmi diskusiyalar, təcrübə mübadiləsi, Web konfransalar keçirilir, birgə layihələr üzərində iş aparılır. Kitabxanalar İnternet vasitəsilə virtual sərgilər təşkil edir, o oxucuların ümumi tərbiyəsi, elmi dünyagörüşünün formalaşması və hərtərəfli inkişaf etməsi məqsədi ilə digər tədbirlər həyata keçirirlər.

İnternet kitabxnalara düzgün marketinq, finfazinq xidmətlərinin təşkili üçün əvəzsiz imkanlar yaradır. Kitabxanalarda yerinə yetrilən regional, beynəlxalq əhəmiyyətli layihələrin yerinə yetrilməsi üçün partnyorların axtarılması, donorların cəlb edilməsi İnternet vasitəsilə reallaşdırılır.

İnternet operativ kütləvi informasiya vasitəsi olaraq cəmiyyəti kitabxanada baş verən və nəzərdə tutulan tədbirlər haqqında məlumatlandırır, kitabxana yenilikləri və nailiyyətlərilə tanış edir.

Qeyd edək ki, dünyanın əksər ölkələrində cəmiyyətə göstərilən kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir və bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir.

Dünyanın inkişaf etmiş ölkələrində kitabxanalara həm də vətəndaşların informasiyaya azad müyəssərlik hüququnun reallaşdırıldığı bir məkan kimi də xüsusi önəm verilir. Belə bir yanaşma tərzi dünyanın BMT, YUNESKO və İFLA kimi ən nüfuzlu qurumlarının siyasətində və sənədlərində öz əksini tapmışdır.

Azərbaycanda da kitabxana siyasəti dövlətin həm iqtisadi, həm təhsil, həm mədəniyyət, həm də informasiya siyasətinin üst-üstə düşdüyü sahədir. Müasir dövrdə Azərbaycan kitabxnaları sosialist quruculuğu dövründə formalaşan ideoloji buxovlardan azad edilmiş, kitabxana fəaliyyəti demokratikləşmə, milliləşmə və azərbaycanlaşma prinsipləri əsasında yenidən formalaşmışdır. Hazırda dövlətin qayğısı ilə kitabxanalarda müasir informasiya texnologiyaların tətbiqilə onların dünya informasiya məkanına inteqrasiyası istiqamətində işlər görülməkdədir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. Azərbaycan kitabı (Biblioqrafiya) 3 clddə, I cild. Bakı, 1963.

2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild.- Bakı, 1994. 64 s.

3. Allahverdiyev B. Ümumi kitab tarixi.- Bakı, 2003, 283 s.

4. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi.- Bakı, 1998, 72 s.

5. Əli Polad. Üç min illin hikməti.- Bakı, 2007 334 s.

6. Əlizadə Ə.Ə, Əlizadə H.Ə. Əsrin meqametləri psixoloji problemlər. I. c.- Bakı, 2008, 480 s.

7. Fəlsəfə.- Bakı, 1997, 340 s.

8. Kolenkova Z.T. və b. Ümumi sosiologiya.- Bakı, 2007. 230 s.

9. Hegel. Hüquq fəlsəfəsi.- Bakı, 2007. 228 s.

10. Xələfov Ə.M., Şagirdlərin mütaliəsinə rəhbərlik.- Bakı, 1961, 51 s.

11. Xələfov Ə. Mütaliə mədəniyyəti haqqında.- Bakı, 1965, 29 s.

12. Xələfov A.A.. Azərbaycanda ali kitabxanaşılıq təhsili.- Bakı, 1998, 124 s.

13. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə.- Bakı, 2001, 398 s.

14. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. II hissə.- Bakı, 2003, 314 s.

15. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktorinası uğurla davam edir.- Bakı, 2009, 186 s.

16. İnsan və cəmiyyət.- Bakı, 1994 s. 5

17. İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007 417 s.

18. Kitabxanalar biliklər cəmiyyətində. Библиотеки в обществе знаний.- Bakı, 2006, 516 s.

19. Kramer S. Tarix şümerdən başlanır.- Bakı, 2009, s. 14.

20. Rüstəmov F.A. Şərqdə pedaqoqika tarixi.-Bakı, 2002. s.12.

21. Rzayev S. Kitabxana xidməti.- Bakı, 2009, 337 s.

22. Şükürov A.Kulturologiya.- B., 1998 . s. 7.

23. Zəngibasarlı M.M, İsmixanova T.Ə, Mirzəyev B.M. Azərbaycan Respublikası Elmi Pedaqoji Kitabxanası.- Bakı, 1997, 90 s.

**Rus dilində**

24. Библиотеки в обслуживание: теория и методика. М., 1996, 200 с.

25. Библиотечное дело: терминологичеслий словарь. М., 1986, 223 с.

26. Бобылева Н.Б. Библиотековедение: Социокультурный подход.-М., 2002, 312 с.

27. Владимиров Л. И. Всеобщая история книги. М., 1988. 311. с.

28. Володин В.Ф. Всемирная история библиотек. Санкт-Петербург, 2004, 432 с.

29. Детская библиотека: практическое пособие для детской библиотеки. М., 1958, 225 с.

30. Шира Джесс Х. Введение в библиотеко ведение. М., 1983, 256 с.

31. Душа Дела. М., 1987, 318 с.

32. Дворкина М.Я. Информационное обслуживание: Соцкултурный подход. М., 2001, 111 с.

33. Фонотов Г. Библиотеки-общество-Россия. М., 2002, 192 с.

34. Кунце Х. Избранное. М., 1993, 310 с.

35. Кизмин Е.И. Библиотечная Россия на рубеже тысячилетия. М., 1999, 223 с.

36. Горбачевский Б. Люди, книги и библиотеки. М., 1963, 198 с.

37. Гениева Е. Библотека как центр межкультурной коммуникации. М., 2008, 207 с.

38. Осибов Т. ид. р. Социология. М., 1995.145 с.

39. Справочник библиотекаря. М., 1985, 301 с.

40. Шамирин Е.И. Словарь книговедческих терминов М., 1958, 339 с.

41. Шрайберг Я.Л. Библитеки, электронная информация и меняющееся общество в информационном веке. Москва, 2006, 36 с.

## MÜNDƏRİCAT


Ön söz.....7

**I fəsil. Cəmiyyət kitabxanaların hamısıdır.....11**

1.1. Cəmiyyət anlayışı.....11

1.2. Cəmiyyət və mədəniyyət.....21

1.3. Kitab və mədəniyyət.....29

1.3.1. Kitab və kitabxana mədəniyyətin qoşa qanadıdır.....31

**II fəsil. Dünya kitabxanalarının Şumerdən zəmanəmizə qədər keçdiyi inkişaf yolu.....61**

2.1. Kitabxanaların meydana gəlməsi və təşəkkülü. Qədim Şərq ilk kitabxanaların vətənidir.....61

2.2. Şumerlər ilk kitabxanaların beşiyidir.....63

2.3. Qədim dünyanın ən böyük kitabxanası: Assuriya çarı Aşşurbanipalın saray kitabxanası.....74

2.4. Antik Yunanıstanda kitabxanaların meydana gəlməsi.....80

2.5. İsgəndəriyyə kitabxanası.....83

2.6. Perqam kitabxanası.....89

2.7. Qədim Roma kitabxanası.....92

2.8. Orta əsrlərdə kitabxana işi.....95

2.9. Şərq ölkələrində kitabxana işi.....97

2.10. Orta əsrlərdə Qərb ölkələrində kitabxana işi.....104

2.11. İntibah dövründə kitabxanalar.....109

2.12. Reformasiya dövründə kitabxana işi.....111

2.13. Maarifçilik dövründə kitabxana işi.....114

2.14. XIX əsrdə kitabxana işi.....118

2.15. Milli kitabxanalar.....122

2.15.1 Britaniya Muzeyi Kitabxanası.....123

2.15.2. Fransa Milli Kitabxanası.....125

2.15.3. İspaniya Milli Kitabxanası.....126

2.15.4. Rusya Milli Kitabxanası.....127

2.15.5. Amerka Birləşmiş Ştatları Konqres Kitabxanası.....128

2.16. Ümumi kitabxanalar.....131

**III fəsil. Kitabxana sosial institutdur.....134**

3.1. Sosial institut anlayışı.....136

3.2. Kitabxana və kommunikasiya.....149

3.3. Kitabxana fondu ümumbəşəri sərvətin məcmusudur.....160

3.4. Kitabxana və şəxsiyyət.....172

3.5. Şəxsiyyət anlayışı.....174

3.6. Sosiallaşma anlayışı.....180

3.7. Oxucu analayışı.....183

3.8. Mütaliə anlayışı.....187

3.9. Kitabxana və uşaq dünyası.....196

3.9.1. Uşaq bağçaları kitabxanaları.....200

3.9.2. Məktəb kitabxanaları.....207

3.9.3. Azərbaycan Respublikası Mədəniyyət və Turizim Nazirliyinin kitabxana şəbəkəsi.....219

3.9.4. İnformasiyalaşdırlmış cəmiyyət və kitabxanalar.....227

3.9.5. İnformasiya cəmiyyəti və kitabxanaçı peşəsi.....263

3.9.6. İnformasiya texnologiyaları və kitabxanalar.....386

Ədəbiyyat siyahısı.....346

Mündəricat.....349

Yığılmağa verilmişdir: 10.11.2011
Çapa imzalanmışdır: 30.11.2011
Format 64 x 92, 1/16
Həcmi 20 çap vərəqi
Sifariş: 2588
Tiraj: 500

**Universal Trading - 95 MMC**